***SƏDNİK PAŞA PİRSULTANLI,***
filologiya elmləri doktoru, professor,
Azərbaycan Yazıçılar Birliyinin üzvü

# AŞIQ ŞƏMŞİRİN POETİK ALƏMİNƏ SƏYAHƏT

*AMEA Folklor İnstitutunun Elmi Şurasının 02 iyul 2008-ci il iclasının qərarı ilə çap olunur (protokol № 5)*

***Bakı. "Orxan" nəşriyyatı***

*ELMİ REDAKTOR: SEYFƏDDİN RZASOY*
AMEA Folklor İnstitutu
Mifologiya şöbəsinin müdiri,
filologiya elmləri namizədi

# *Sədnik Paşa Pirsultanlı (Paşayev)*

# *Aşıq Şəmşirin poetik aləminə səyahət*

***"Aşıq Şəmşirin poetik aləminə səyahət" elmi monoqrafiyası girişdən, dörd bölümdən və sonuçdan ibarətdir. Əsərdə Aşıq Şəmşirin XVI əsrdə ulu babası Miskin Abdaldan başlayan aşıq-şairlik nəsil səcərəsi XX əsrdə sənətin fövqünə yüksəlir. Şah İsmayıl Xətai ilə Miskin Abdalın XVI əsrdə yazılı poeziyanı və aşıq poeziyasını bir məcrada birləşdirdikləri kimi Miskin Abdalın varisi Aşıq Şəmşir də XX əsrdə böyük şairimiz Səməd Vurğunla görüşüb, deyişib iki poeziyanı təkrarən bir-birinə qovuşduraraq öz tarixi missiyasını yerinə yetirmişdir. Bütün bunlar elmi monoqrafiyada öz əksini tapmışdır.***



# AŞIQ ŞƏMŞİR

## *SƏNƏTKAR SÖZÜ – ALİM GÖZÜ:*

### *AŞIQ ŞƏMŞİR VƏ SƏDNİK PAŞA PİRSULTANLI*

O, artıq elmin əfsanəsidir...

Dünyaya sözün bağrından qopub gəldi...

İlahi sözün maddi sublimasiyası kimi yaradılmış varlıq aləmində onun taleyinə bədii sözün aşiqi və alimi olmaq düşdü...

Öncə bədii söz onun varlığını sehrləyən, iradəsini əlindən alan sonsuz gözəllik və estetik zövq mənbəyi idi...

Ancaq sözlə ünsiyyətin bu psixoestetik səviyyəsi tez bir zamanda yeni bir məna səviyyəsi kəsb etdi...

Özünü dərk etdikcə sözü dərk etməyə başladı...

Sözün təkcə bir zövq, estetik həzz mənbəyi olmaqdan daha üstün hadisə olduğunu idrak edəndə onun varlığı şahidi olduğu mənzərədən sarsıldı...

Bu, ilahi heyrət məqamı idi...

Elə bir məqam idi ki, burada insanın nitqi özünün funksionallığını itirir, danışa bilmir: nitqi lal olurdu...

Bu məqamda danışmaq Azərbaycan bədii düşüncə məkanının bütün tarixi boyunca yalnız bircə şəxsə qismət olub...

O şəxs Mövlana Füzuli idi...

Onun da ilahi istedadının gücü yalnız bir nidaya çatmışdı: «Heyrət, ey büt...»

Lakin o, Füzuli deyildi və ona görə də «Heyrət, ey gözəllik...» deyə bilməmişdi...

Lakin yaxşı ki, deyə bilməmiş: heyrət içində qalmışdı...

Desəydi, muradına çatıb sözün aşiqi olacaq, alimi olmayacaqdı...

Ancaq deyə bilməmiş və bu ilahi yanğı onu çağdaş Azərbaycan intellektual düşüncəsinin öz taleyini buta almış aliminə – Sədnik Paşa Pirsultanlıya çevirmişdir...

O, elmin həm aşiqi, həm də alimidir: bədii söz onun üçün həm eşq, həm də elmdir...

Bütün ömrü boyu nə bu eşqdən, nə də elmdən doydu: əbədi bir yanğı içərisində qaldı...

İki əsri (XX və XXI yüzilliklər) və iki epoxanı (II və III minilliklər) biri-birinə qovuşduran aşiqlik və alimlik yolçuluğu onun cismini heydən və taqətdən salsa da, qəlbini və intellektini yora bilmədi...

Bu da bir heyrətamiz gerçəkdir ki, Azərbaycan humanitar-filoloji düşüncəsinin Sədnik Paşa Pirsultanlı adlanan aşiqlik və alimlik həqiqətinin ocağı bu gün daha güclü

yanmaqda, od-alovu daha gur şölələnməkdədir...

Filologiya elmləri doktoru, professor, yarım əsrdən çox peşəkar elmi fəaliyyəti dövründə saysız-hesabsız əsərlər yazmış, folklorşünaslıq fəaliyyətinin şöhrəti çoxdan Azərbaycanın sərhədlərini aşaraq Orta Asiya, Avropa və Amerikaya qədər yayılmış Sədnik Paşa Pirsultanlı Azərbaycan və ümumtürk folklorunun saysız-hesabsız mövzularına baş vurmuş, folklor yaddaşını bədii söz yaradıcılığı və sənət hadisəsi kimi, demək olar ki, bütün tematik istiqamətlərdə təhlil etmişdir.

Bütün ömrü boyu intensiv və ardıcıl elmi fəaliyyətlə məşğul olan alimin iş tempi heç vaxt zəifləməmiş, əksinə, daha da güclənmişdir. Son illərdə dalbadal çap etdirdiyi monoqrafiyalar bu artan fəaliyyət dinamikasının bariz ifadəsi olmaqla bərabər, humanitar-filoloji düşüncəmizi intellektual baxımdan zənginləşdirən görkəmli elm hadisələridir.

Prof. S.P.Pirsultanlının alim ömrünün tədqiqi bu gün bizə onun fəaliyyətində son dövrlərdə tamamilə yeni bir mərhələnin başlanmasını təsbit etməyə imkan verir. Bu, folklorşünaslıqda Sədnik Paşa Pirsultanlı postulatlarının meydana çıxma mərhələsidir. Həmin mərhələ uzun onilliklərin – bir alim

ömründə reallaşmış epoxanın fundamental elmi həqiqətlərini – nəzəri-intellektual nəticələrini özündə ehtiva edir.

O, Azərbaycan humanitar-filoloji düşüncəsinin elə nümayəndələrindəndir ki, öz elmi axtarışlarında intellektinin bütün imkanlarını əks etdirməklə onu qane edəcək yəqinliyə – elmi həqiqətə çatmaq üçün bütün ömrünü sərf etməkdən bir an belə usanmamışdır. O, beləcə Azərbaycan aşıq şeirini, saz-söz nəhənglərini, folklorumuzun zəngin janrlarını, möhtəşəm söz abidələrini bütün ömrü boyu araşdırmışdır. İstisnasız olaraq hər dəfə yeni söz demişdir: folklorla aramsız canlı elmi-praktiki ünsiyyət onun əldə etdiyi elmi-nəzəri nəticələri də aramsız inkişaf etdirmiş və bu da öz növbəsində prof. S.P.Pirsultanlının Azərbaycan humanitar-filoloji düşüncəsinə fasiləsiz olaraq daxil etdiyi elmi tezisləri dinamik hadisəyə çevirmişdir.

Dinamizm – elmi həqiqətləri, nəzəri postulatları daim yeni müstəvilərdə intellektual aprobasiyadan keçirib, onları fasiləsiz olaraq zənginləşdirmək Azərbaycan elminin Sədnik Paşa Pirsultanlı adlanan həqiqətinin məhz ona xas olan elmi araşdırma üslubudur. Bu üslub onun intellektinə alimlik yolunun lap başlanğıcından xas olmuş və bütün elmi fəaliyyəti boyunca dəyişməmişdir. Alimin «Aşıq Şəmşirin

poetik aləminə səyahət» adlanan şərti son monoqrafiyası da eyni kristal üslubun daha bir intellektual təzahür səviyyəsidir.

O, Aşıq Şəmşiri bütün ömrü boyu araşdırıb. Həmişə yeni söz deyib. Ancaq həmişə də olduğu kimi, öz «yeni sözünün» intellektual aurasında – psixoloji ovqatında çox az qala bilib: fitrətində olan axtarıcılıq potensiyası ona həmişə olduğu kimi sakitləşməyə, dincəlməyə – əldə etdiyi nəticələrlə, çatdığı elmi məqamlarla yetərlənməyə imkan verməyib. Çünki o, bədii sözün alimi olmaqdan çox-çox qabaq aşiqidir. Şəmşir sözü ilə bir ömür çərçivəsində heç vaxt qırılmayan bədii-estetik ünsiyyət onu sənətkarın söz yaddaşının arxitektonik strukturunun daha dərin semantik qatlarına endirib. Bu da öz növbəsində alimin intellektini daim yenidən yerindən oynadıb.

Mən prof. S.P.Pirsultanlının tədqiqatçısı kimi, onun Aşıq Şəmşir haqqında hər hansı əsərinin məhz «yekun söz» olacağına, bir növ, inanmıram. Bu mənada alimin kitabın əvvəlindəki «Ya Allah, ya Məhəmməd, ya Əli, – deyib, işə başladım. Hər kəsin sevəcəyi «Aşıq Şəmşirin poetik aləminə səyahət» əsərini tamamladım. Sentyabrın 4-də nöqtə qoydum. Əsərin hamının xoşuna gələcəyinə və könlünə güzgü tutacağına qabaqcadan əminəm» «bəya-

natını» da müvəqqəti hesab edirəm. Şəmşir sözünün mənəvi-estetik dadından doymayan Sədnik Paşanın bir müddət sonra Aşıq Şəmşir haqqında tamamilə yeni məzmunlu növbəti əsərlə çıxış edəcəyinə tam əminəm.

O, Azərbaycan xalq poeziyasını bütün epoxal əzəməti ilə öz bədii-intellektual düşüncəsindən keçirmiş alimdir. Bu poeziyanı bütün zaman və məkan strukturu boyunca qarış-qarış, səhifə-səhifə, söz-söz araşdırıb. Sözlə, az qala, bir əsrə bərabər bədii və intellektual ünsiyyət onun bədii zövqü və intellektual düşüncəsini cilalayıb. İndi artıq hər hansı bir sənətkar və onun sözü S.P.Pirsultanlı üçün heç bir halda məhdud məhəlli hadisə deyil. Onun baxış müstəvisi bütün hallarda epoxaldır. O, hər bir bədii hadisəni poetik fikrin təkamül tarixi müstəvisində götürərək dəyərləndirir. Bu mənada, Aşıq Şəmşir yaradıcılığına – Azərbaycan poetik düşüncəsinin Aşıq Şəmşir adlı hadisəsinə verdiyi qiymət də ilk növbədə epoxallığı ilə əlamətdardır.

Prof. S.P.Pirsultanlı yazır: «XX əsr Azərbaycan aşıq poeziyasının ən tanınmış və məşhur simalarından biri Aşıq Şəmşirdi. Əgər XVI əsrdə Dirili Qurbani, XVII əsrdə Tufarqanlı Abbas, XVII-XVIII əsrlərdə Xəstə Qasım, XVIII əsrdə Abdalgülablı Valeh, XIX əsrdə Aşıq

Ələsgər aşıq poeziyasına öncüllük edib sənətin zirvəsində dayanırdılarsa, XX əsrdə Aşıq Şəmşir bu məqama çatmışdır. XX əsrdə çox böyük aşıq-şairlər yetişmişdir. Lakin onlardan heç biri Şəmşir zirvəsinə yüksələ bilməmişdir. Aşıq Şəmşir XX əsrin saz-söz haqqında yazılmış kitabların qızıl səhifəsinə öz adını yazmış və üzərinə öz möhürünü vurmuşdur».

Bəlkə də, kiminsə Aşıq Şəmşir haqqındakı bu sayaq sözlərini pafoslu yanaş-manın, coşğun hisslərlə süslənmiş məhəbbətli yanaşmanın ifadəsi hesab etmək olardı. Ancaq bu, heç bir halda Sədnik Paşanın fikirlərinə aid ola bilməz. Çünki o, Azərbaycan-türk şeirinin bütün tarixini öz düşüncəsindən keçirmiş və onu intellektual yaddaşında yaşadan alimdir. Bu yaddaş eyni zamanda təhlil-dəyərləndirmə modeli – intellektual müqayisə-qiymətləndirmə meyarıdır. Həmin meyar Sədnik Paşanın intellektində yarım əsrlik fasiləsiz elmi düşüncənin nəticəsi olaraq meydana gəlmişdir. Bu cəhətdən Şəmşir poeziyası – milli poeziya tarixinin Şəmşir faktı alim üçün ilk növbədə tarixi-epoxal kontekstdə dəyərləndirilə bilən fikir konseptidir.

Prof. S.P.Pirsultanlı tədqiqatçılığında bir cəhət bütün hallarda aydın müşahidə olunur. O, hər hansı bir bədii hadisəni dəyərləndirərkən ilk növbədə onun mənsub olduğu zəmini – həmin

hadisəni araya-ərsəyə gətirən, təşəkkülü və inkişafını şərtləndirən konteksti tapmağa çalışmış və belə hesab etmişdir ki, belə bir kontekstsiz hər hansı saz-söz sənətkarının, o cümlədən Aşıq Şəmşirin simasında gerçəkləşmiş sənət və yaradıcılıq hadisəsini obyektiv şəkildə qiymətləndirmək mümkün deyildir. Ona görə də alimin «Aşıq Şəmşir hansı zəminə, hansı yaradıcı qaynaqlara söykənərək, ondan güc alıb bu ucalığa yüksələ bilmişdir?» sualına, sadəcə olaraq, bədii-üslubi ritorika, elmi təhkiyə süsləməsi kimi baxmaq olmaz. Onun fiziki boy-buxunu baxımından bu qıpçaraq sualı və həmin sualın «Bunu bir cümlə ilə, iki cümlə ilə ifadə etmək olmaz» cümləsində ifadələnmiş topçaraq cavabı, əslində, prof. S.P.Pirsultanlının bütün yaradıcılığının əsasında duran tədqiqatçılıq metodologiyasının, daha dəqiq desək, bu metodologiyanın reallaşma mexanizminin sxemidir. Həmin metodoloji modelə görə, hər bir sənətkar öz fiziki-cismani varlığından başlayıb mənəvi-poetik irsində qurtarmaqla müəyyən kontekstin təzahür – reallaşma faktıdır. Bu kontekst isə sənətkarı cismən və mənən təşkil edən mühitdir.

Alim yazır: «Hər kəs öz mühitinin oğludur. Aşıq Şəmşir yurdumuzun ən gözəl rayonunda, Kəlbəcər dağlarının dilbər guşəsi olan Dəmirçidam kəndində dünyaya göz açmış,

sonra atası aşıq-şair Qurban təbiətin ən səfalı guşəsi olan Ağdaban kəndinə köçmüşdür. Nəsil bu yerdə, Çayqovuşanda əbədi binələnmişdir. Şəmşir gözünü açıb Dəlidağı, Məndili, Qoşqarı, Qonuru, Lülparı, neçə-neçə belə möhtəşəm dağları görmüşdür. Şəmşirin həyatını, ədəbi irsini, həyat fəlsəfəsini aydınlaşdırmaq üçün onun dərs aldığı amilləri bircə-bircə göz önünə gətirmək lazımdır. Onun ilk bəhrələndiyi qaynaq yaradıcılıq qaynağı, nəsil şəcərəsidir. Hər şeydən əvvəl, Aşıq Şəmşir dövrünün azman sənətkarı, hər zaman Aşıq Ələsgərlə bir olan, yanaşı duran atası Ağdabanlı Qurbandan dərs almışdır. O, hələ beşikdə ikən Ağdabanlı Qurbanın sazının, sözünün səsi ilə yatıb oyanmışdır. O, şeir dilini ulu babası, atası Qurbanın və özünün kövrək misralarla dünyaya gətirdiyi dağlar şeirləri ilə açmışdır».

Prof. S.P.Pirsultanlının bütün elmi fikirlərini vahid üslubi xətt – dəqiqliyi və dərinliyi ilə səciyyələnən sadəlik birləşdirir. Bu fikri də eləcə. Bu sadəlik ilk öncə oxucuda Sədnik Paşanın elmi üslubu barədə yanlış təsəvvür də yarada bilir. Ancaq bizim alim haqqındakı tədqiqatlarımızda onun elmi yaradıcılığına münasibətdə dönə-dönə istifadə olunan və aktuallığı hər dəfə təsdiq olunan bir üsul vardır: S.P.Pirsultanlının zahirən çox sadə görünən

fikirlərini struktur təhlil müstəvisinə gətirməklə onların alt məna qatlarını üzə çıxarmaq. Alimin Aşıq Şəmşirin mühiti haqqında yuxarıdakı fikri də eyni təhlil üsuluna möhtacdır. Məhz belə bir təhlil nəticəsində aşağıdakı tezislər hasil olur. Beləliklə, S.P.Pirsultanlıya görə:

– Bir yaradıcı şəxs olaraq Aşıq Şəmşir və onun reallaşdırdığı yaradıcılıq faktı bütün strukturu özünəməxsusluğu ilə sənətkarın mənsub olduğu mühitə xas hadisədir və bu ədəbi fakturanın obyektiv şəkildə öyrənilməsinin başlıca metodoloji bazasını aşığın yaradıcılığının həmin mühit kontekstində tədqiqi təşkil edir.

– Aşıq Şəmşir yaradıcılığının fiziki-mənəvi əsaslarında əsrarəngiz təbii gözəlliyə malik Kəlbəcər durur.

– Azərbaycan aşıq şeirinin XX əsrdəki zirvəsini təşkil edən Şəmşir fakturası eyni zamanda genetik-mənəvi və poetik ənənə hadisəsidir. Buraya Misgin Abdaldan başlanan nəsil və sənət şəcərəsi aiddir.

Prof. S.P.Pirsultanlı Aşıq Şəmşir haqqında çox yazıb. Sevə-sevə, dərin zövq ala-ala yazıb. Ancaq yazmaqdan heç vaxt doymayıb. Sənətkar haqqında monoqrafiyasını «Aşıq Şəmşirin poetik aləminə səyahət» adlandırıb.

Qeyd edim ki, Sədnik Paşa Azərbaycan folklorşünaslığı və bütövlükdə filologiyasında

özünün ciddi elmi monoqrafiyasını «səyahət təəssüratları» adlandıran və hesab edən ilk müəllifdir. Buna başqaları milli mentalitetdən irəli gəlməklə, bəlkə də, cəsarət etməzdi. Ən azı, Azərbaycan ədəbiyyatında «səyahətnamə» janrı olsa da, ədəbiyyatşünaslığında belə bir janrın olmamasını əsas götürərdilər. Lakin Sədnik Paşa buna gedib və bütün hallarda olduğu kimi, ilk baxışda görünməyən, lakin alt qatda duran dərin məntiqə əsaslanıb.

Yenə də eyni üsula əsaslanıb, əsərin adını təhlil etdiyimiz zaman aşağıdakı qənaətlər hasil olur:

– Sədnik Paşaya görə, Aşıq Şəmşirin poeziyası sonu bilinməyən ənginliklərə malik poetik dünya – üfüqləri görünməyən şeiriyyət aləmi, azman bədiyyat okeanıdır.

– Hər oxucu bu poetik aləmin fövqünə qalxa bilməz: bu nəhəng bədiyyat dünyasında azmamaq üçün peşəkar yolçu, bu şeiriyyət ümmanında batmamaq üçün mahir üzgüçü olmaq lazımdır.

– Şəmşir dünyasına girib dərinliklərə getmək istəyənlər bələdçisiz azmağa məhkumdur.

– Yolların və illərin yorğunu, uzun yollar yolçusu Sədniuk Paşa, az qala, bir əsrlik ömrünü özünün mənəvi-intellektual arzularına qurban

vermiş və təkcə Şəmşir poeziyasının deyil, ümümən Azərbaycan-türk şeiriyyət okeanını üzüb keçərək, onun poetik məkan hüdudlarını fəth etmişdir.

– «Aşıq Şəmşirin poetik aləminə səyahət» monoqrafiyası, bu mənada, iki əsrin və iki minilliyin hüdudlarını haqlayan elm yolçuluğunun «səfər təəssüratlarını» özündə əks etdirməklə oxucuları səfərə çıxmağa, böyük elm yolunun yolçuluğuna başlamağa, heç bir çətinlikdən qorxmamağa çağırır. Çünki indi bütün səfərkeşlərin əlində «Aşıq Şəmşirin poetik aləminə səyahət» adlı «yol xəritəsi» var.

Prof. S.P.Pirsultanlının «yol xəritəsi» dörd fəsildən ibarətdir:

«I bölüm – «Aşıq Şəmşir və dağlar» adlanır. Bu fəsildə aşıq-şairin qoynunda doğulduğu, pərvəriş tapdığı və boya-başa çatdığı dağlar haqqında, çiçəkli-bəzəkli dağların təsvirinə-boyasına, naxışına, aşıq-şairin qəlb çırpıntılarına, vüqarlı dağlardan həzz almasına öz münasibətimizi bildirəcəyik».

Göründüyü kimi, birinci fəslin problemini, struktur təhlil müstəvisində yanaşsaq, «sənətkar və təbiət», «Şəmşir və dağlar», «insan və toponomik reallıq», «şair və təbiətin estetikası» paradiqmasında reallaşmış poetik fakturanın tədqiqi təşkil edir.

Müəllif yazır: «II bölüm – «Aşıq Şəmşir və Səməd Vurğun» adlanır ki, onların tarixi deyişməsi ilə yazılı və şifahi poeziyamızda yeni era başlanır. Daha doğrusu, iki böyük sənətkarın timsalında yazılı və şifahi ədəbiyyat biri-biri ilə görüşür, qovuşur və bir məcrada birləşir. Fəslin daxilində onların elmi araşdırmaları, yeni şeir örnəkləri ilə müqayisəli, dəyərli mülahizələr üzə çıxacaqdır».

Göründüyü kimi, bu fəslin təhlil modelini Aşıq Şəmşir və Səməd Vurğun poeziyasının nümunəsində vahid milli poetik düşüncənin şifahi və yazılı kodlarının münasibətləri – kodlaşma mexanizmi təşkil edir.

Sədnik Paşanın proqramlaşdırmasında: «III bölüm – «Aşıq Şəmşirin sələfləri və xələfləri» adlanır. Bu fəsildə sələflərindən hansını yüksək qiymətləndirdiyi, onun yaradıcılığına xələflərinin heyran qaldığı, ondan bəhrələndiyi şeir nümunələri ilə müqayisəli şəkildə tədqiq olunacaqdır. Cümlənin ikinci komponenti olan xələflərinin onun yaradıcılığının vurğunu olan, həmçinin Aşıq Şəmşirə öz məhəbbətlərini bildirən şeirlərindən nadir nümunələr seçiləcək və tədqiqata cəlb olunacaqdır».

Buradan məlum olur ki, bu fəsildə Şəmşirin yaradıcılıq fakturası diaxron təhlil

müstəvisinə gətirilmiş, ona Azərbaycan xalq poeziyasının tarixi-diaxron strukturunun bir epoxal həlqəsi kimi yanaşılmışdır.

Tədqiqatçı yazır: «IV bölüm – «Aşıq Şəmşirin poetik aləminə səyahət» adlanır. Bu fəsil yuxarıdakı fəsillərin yekunu və zirvəsi olacaq. Ona görə ki, burada Aşıq Şəmşirin bütün şeirləri, yüksək poetik dəyərə malik şeir bəndləri, misraları, hətta ayrı-ayrı ifadələri belə tədqiqatda özünə geniş yer alacaq. Bu fəsildə Aşıq Şəmşirin poetik aləmini tam mənası ilə üzə çıxaracaq və Aşıq Şəmşirin nə qədər böyük, azman sənətkar olduğunu, öz şeirlərinin timsalında açıb göstərəcəyik».

Beləliklə, sonuncu fəsil obyektə «şair sözü – alim gözü» müstəvisində baxışı reallaşdırır. Ancaq bu, ümumi bir baxış müstəvisi olmaqdan daha çox, üzərinə fərdi möhür basılmış spesifik yaradıcılıq hadisəsidir. Burada təkcə Şəmşir sözünün mənası üzə çıxarılmayıb: sənətkar Şəmşirin «sözündə» reallaşan yaradıcılıq alim Sədnik Paşanın «sözündə» reallaşan yaradıcılıqda yenidən mənalandırılıb. Şairin poetik duyum tərzi alimin duyum tərzinə kodlaşdırılıb.

Və «Nəticədə» Azərbaycan intellektual düşüncəsinə yarım əsrdən çox müddətdə cilalanmış yeni baxış modeli təqdim olunub:

«Nəticədə isə fəsillərin məntiqi nəticələri əsasında üzə çıxan fikirlərin, bədii duyğuların mənzərəsi veriləcək. O zaman Aşıq Şəmşirin sələflərinin ədəbi irsindən nə dərəcədə bəhrələndiyini və mənəvi cəhətdən nə qədər zənginləşdiyini, özünün nələr yazıb-yaratdığını, özünün yaradıcılığına nə dərəcədə təsir etdiyini, faydalandığını bu elmi monoqrafiya vasitəsilə öyrənə biləcəklər. O zaman biləcəklər ki, Aşıq Şəmşirin poetik aləminə səyahət etmək nə deməkdir».

Birinci fəslin «Aşıq Şəmşir və dağlar» adlandırılması müəllifin təhlil üslubu, fərdi yaradıcılıq manerası, tədqiqatçılıq modeli baxımından qətiyyən təsadüfi deyildir. «Sənətkar və dağ» baxış konteksti təkcə bu monoqrafiyada yox, eləcə də alimin başqa əsərlərində də ardıcıl şəkildə reallaşdırılmış təhlil modelidir. Professorun yaradıcılığının tədqiqatçısı kimi, bu təhlil modeli ilə hər dəfə üzləşdikcə, onun bir baxış konteksti kimi mütləqləşdirilməsi bizi bu barədə düşünməyə, səbəblərini aramağa və anlamağa sövq etmişdir.

Azərbaycan folklorşünaslıq elminin Sədnik Paşa Pirsultanlı adlı faktının intellektual özünəməxsusluğu ilə sıx bağlıdır. Bizim

Sədnik Paşa intellektualizminə həsr olunmuş bütün əvvəlki yazılarımızda bir həqiqət dönə-dönə təsdiq olunaraq vurğulanmışdır: prof. S.P.Pirsultanlı Azərbaycan xalq yaradıcılığının, etnik-mədəni düşüncəsinin folklor kodunun poetikasını kitablardan öyrənməmiş, canlı folklorla canı və ruhu ilə ünsiyyət prosesində zərrə-zərrə, qətrə-qətrə nəşət etdirmişdir.

Fikrimizcə, məsələnin bütün mahiyyəti məhz bunda – «Sədnik Paşanın folkloru zahiri qatı səviyyəsində yox, bütün tarixi strukturu, onu içəridən təşkil edən arxisemləri səviyyəsində duya bilməsində»dir...

İndi cəsarətlə demək olar ki, alimin Aşıq Şəmşir şeiriyyəti haqqında aşağıda verəcəyimiz fikirləri onun xalq poeziyasını, o cümlədən Şəmşir şeirini ilahi-kosmoqonik semantika səviyyəsində duyub anlamasından irəli gəlmişdir.

Prof. S.P.Pirsultanlı yazır: «Aşıq Şəmşirin doğulduğu yer Kiçik Qafqaz sıra dağlarının elə füsunkar guşəsidir ki, o yerdə qüdrətdən elə bir məbəd, elə bir saray yapılmışdır ki, onun tağ daşları qayalardan, dayaq sütunları dağlardan, üstündəki qoşa minarələri zirvəsi buluda dəyən dağlardan düzəldilmişdir. Çin Səddi insan əli ilə düzəldilmişdir, lakin

buradakı keçidlər, bəndlər, saraylar Tanrı tərəfindən yapılmışdır. Bu müqəddəs məbəd, saray Aşıq Şəmşirin uluları üçün də, özü üçün də şeir-sənət məbədi olmuş, onları ilhamlandırmış, yazıb-yaratmağa çağırmışdır. Zümzüməli bulaqlar, min bir rəngli əlvan çiçəklər Şəmşirin ulularının və özünün şeirlərinin naxışı olmuş, onların şeirlərini bədii cəhətdən gücləndirmiş, əlvanlığını təmin etmişdir. Şəmşirin ulu babasının, atasının və özünün şeir çəməninə min bir bulaqdan dirilik suyu sızmış və onların şeir çəmənlərini laləzarlığa çevirmişdir. Aran elləri həmişə arzulamışlar ki, yaylaq dövrü tez gəlib çatsın, onlar Taxta yaylağına gəlib, alaçıq qursunlar, Dəlidağa, Keyti-Meyti dağlarına, dumanların arasından boy verən, başı buluda dəyən Murovdağa baxa-baxa, «Ceyranbulağın» suyundan içə-içə Aşıq Şəmşirin sazının zümzüməsini eşitsinlər, sözündə min bir çiçəyin ətrini, səsində sonalı göllərin laylasını duysunlar... Aşıq Şəmşir şeiriyyətinin çox hissəsi dağlara düşür. Dağlar Aşıq Şəmşir poeziyasının əzəli mövzusudur. Bütün ömrü boyu öz sevincini də, kədərini də heç kəsə yox, dağlara deyib. Özünün dediyi kimi, dağlar həmişə ata kimi, ana kimi onun nazını çəkib, onunla həmsöhbət olub, Şəmşir də ürəkaçıqlığı ilə dərdini dağlara, bulaqlara,

dumana, çənə deyib, çiçəklərdən, güllərdən əlvan rənglər alıb şeirlərinə gətirib. Azərbaycanın bu füsunkar təbiəti həmişə onları ilhamlandırıb, xəyalını, düşüncəsini zənginləşdirib. Bulaqlar göz-göz axıb, nəhrlənib çaylara dönüb, çaylar, göllər yaranıb, elə göllər ki, onu əhatə edən dağlara güzgü tutub».

Monoqrafiyanın «Aşıq Şəmşir və Səməd Vurğun» adlanan ikinci fəslində, sadəcə olaraq, bu iki sənətkarın şəxsi, ədəbi münasibətlərindən bəhs olunmamışdır. Bu barədə çox yazılıb. Və Sədnik Paşanın özü də burada oxuculara məlum olmayan çoxsaylı faktlardan söhbət açıb. Ancaq bu fəsil öz əsas məzmunu etibarilə Aşıq Şəmşirlə Səməd Vurğunun münasibətlərinin hələ tədqiqatçıların heç biri tərəfindən toxunulmamış məsələsinə – Azərbaycan milli poetik düşüncəsinin Aşıq Şəmşir və Səməd Vurğunun simasında təmsil olunan şifahi və yazılı kodlarının münasibətlər dialektikasına həsr olunmuşdur.

Alim fəslin əvvəlində öncə çox maraqlı bir detala toxunmuş və oxucuların diqqətini həmin detalın mənasına yönəltmişdir: «Səməd Vurğun nə üçün Aşıq Şəmşiri öz yanına Bakıya çağırıb görüşməmişdir? Əksinə, özü Kəlbəcər dağlarına Şəmşirin görüşünə getmişdir. Aşıq Şəmşirin böyüklüyü, sənətinin sirli-sehirli aləmi məhz bu anda üzə çıxacaqdır».

S.P.Pirsultanlı sübut edir ki, S.Vurğun XX əsr Azərbaycan poeziyasının, başqa sözlə, yazılı ədəbiyyatın görkəmli nümayəndəsi kimi, bir vaxtlar qucağından pərvazlandığı, ruhu-mayası onda tutulduğu xalq poeziyasına – aşıq şeirinə bütün varlığı ilə bağlı olmuşdur. Ana yurd insanı hər an özünə çəkdiyi kimi, S.Vurğunun da içərisində saz-söz sənətinə münasibətdə dərin bir həsrət, sönməz yanğı olmuşdur. Alim yazır: «Səməd Vurğunun qəzəllərini, mahnıya bənzər qoşmalarını, gəraylılarını xanəndələr, aşıqlar oxuyurdular. Lakin bunlar Səməd Vurğunun mənəvi dünyasını təmin etmirdi, bu onu qənaətləndirmirdi. Səməd Vurğun aşıq yaradıcılığına, aşıq sənətinə möhkəm tellərlə bağlanmaq üçün yollar axtarırdı».

Aşıq Şəmşir yüksək poetik zövqə malik olan S.Vurğunun geniş mədəni ictimaiyyət üçün «kəşfi» olduğu kimi, eyni zamanda onun canlı xalq yaradıcılığı ilə ünsiyyətə olan ehtiyacının, təşnəsinin ödəndiyi, qidalandığı coşğun bulaq idi. Prof. S.P.Pirsultanlı məsələnin bu tərəfini aşkarlayaraq yazır: «S.Vurğun məhz xalq sənətkarları arasında Qurbani kimi, Miskin Abdal kimi azman bir sənətkar axtarırdı. Elə bir sənətkar ki, onunla yanaşı durmaq qabiliyyətinə malik olsun, sözünün qabağına söz deyə bilsin. S.Vurğun el məclislərində olurdu, hər yerdə məşhur aşıqların yaradıcılığına, ifaçılığına

xüsusi maraq göstərirdi. S.Vurğun Şikəstə Şirinə, Bozalqanlı Hüseynə və digər saz-söz sərraflarına şeirlə məktublar yazdı, onları yerindən tərpətdi. Lakin onların əks-sədasını duymadı və cavabını ala bilmədi. S.Vurğun öz düşüncəsində nəyi isə, kimi isə axtarırdı, lakin tapa bilmirdi. Aşıq Şəmşirin bir qoşmasını dinləməklə sanki Səməd axtardığını tapdı. Bir dənizin suyunun içməli olub-olmadığını yoxlamaq üçün insan o dənizi kamına çəkməz. İnsan bir damla su ilə də o dəniz suyunun hansı dəyərlərə malik olduğunu kəşf edə bilər».

Bir daha qeyd etmək istəyirik ki, prof. S.P.Pirsultanlı bu iki nəhəng sənətkarın simasında həm də heç kəsin toxunmadığı bir məsələni – yazılı və şifahi ədəbiyyat kodlarının münasibətlər strukturunu təhlil müstəvisinə gətirmişdir. Alim Aşıq Şəmşirlə S.Vurğunun görüşünü bədii düşüncə tariximiz üçün çox böyük hadisə kimi təhlil edərək yazır: «Hər şeydən əvvəl bu görüş Aşıq Şəmşiri vətənimizin paytaxtına, elm-sənət aləminə yaxşı tanıtdı. Deyişmə zamanı söylənilən şeirlər Aşıq Şəmşirin və Səməd Vurğunun kəşf olunmamış çox qiymətli yaradıcılıq xüsusiyyətlərini üzə çıxardı və respublikamızın elm və sənət aləminə göstərdi. Axı bu nöqteyi-nəzərdən yanaşsaq, Aşıq Şəmşirlə böyük şairimiz Səməd Vurğunun

bu tarixi görüşü hər iki sənətkara, yazılı və şifahi poeziyamıza nələr bəxş etmişdir».

İkinci fəsildə çox geniş təhlillər, müqayisələr aparan alim «şəmşirşünaslıqda» tamamilə yeni olan bir konsept irəli sürmüşdür: «Aşıq Şəmşir yaradıcılığına bütövlükdə nəzər saldıqda göz önündə iki Şəmşir durur: Bunlardan biri köhnə aşıq poeziyası ənənələri ilə düzüb qoşan Şəmşir, o biri isə Vurğun lirikası ruhunda yazıb-yaradan Şəmşir. Aşıq Şəmşir xalq şairimiz Səməd Vurğunla görüşəndən sonra, bir şair kimi, bir söz ustası kimi xeyli irəliləmişdir».

Monoqrafiyanın «Aşıq Şəmşirin sələfləri və xələfləri» adlanan üçüncü fəsli özünün nəzəri-konseptual ovqatı ilə xüsusi seçilir. Burada ədəbi və zaman epoxaları qarşılaşdırılmış, zamanla ədəbiyyatın aktual üzvlənmə anlarının tipoloji və genetik xüsusiyyətləri öyrənilmiş və Aşıq Şəmşiri XX yüzillikdə Azərbaycan bədii düşüncəsinin bağrından üzvləndirən zaman, şərait və mühit tədqiq olunmuşdur. Bu da öz növbəsində oxucuya aşıq sənəti və yaradıcılığının ona Şəmşir adı ilə məlum olan reallığına tamamilə yeni müstəvidə – fəlsəfi-konseptual kontekstdə baxmağa imkan vermişdir.

Prof. S.P.Pirsultanlı yazır: «Sələfləri dedikdə Aşıq Şəmşirdən əvvəl yazıb yaradan Dirili Qurbani, Miskin Abdal, Aşıq Lələ və Sarı

Aşıq, Qaracaoğlan, Tikmədaşlı Xəstə Qasım, Abdalgülablı Valeh, Aşıq Ələsgər və atası Ağdabanlı Qurban nəzərdə tutulur. Aşıq Şəmşirin şeir çəməninə bunların yaradıcılıq qaynaqlarından damlalar sızmışdır. Aşıq Şəmşir bunların hamısının yaradıcılığından necə bəhrələnmişdir? Bunların həyat və yaradıcılıqlarının hansı cəhəti Şəmşirin ruhu ilə, yaradıcılıq konsepsiyası ilə uyğun gəlmişdir? Biz burada konsepsiya məfhumunu elə-belə işlətmirik. Çox aşığın fəlsəfi dünyagörüşünü işləmək və müəyyənləşdirmək mümkün deyildir. Çünki onların dünyagörüşlərinin ardıcıl, sistemli konsepsiyası yoxdur. Aşıq Şəmşirin fəlsəfi konsepsiyası vardır. Ta ulu babası Miskin Abdaldan, atası Ağdabanlı Qurbandan üzü bəri nəsil şəcərəsinin bədii təfəkkürü bir sistem halında formalaşa-formalaşa gəlmiş və öz ənənələri ilə fəlsəfi konsepsiyasını müəyyənləşdirmişdir».

Əsərin «Aşıq Şəmşirin poetik aləminə səyahət» adlanan dördüncü fəslində sənətkar (Aşıq Şəmşir) sözünə tamamilə yeni gözlə – təkcə şeiriyyətin yox, eləcə də bədiyyatın məhz Sədnik Paşaya məxsus olan yeni təhlil modeli müstəvisində yanaşılmışdır.

Alim bu fəsildə öz oxucularına və daha kimlərəsə öncə çox sadə bir dildə xəbərdarlıq etmişdir: «Aşıq Şəmşirin poetik aləminə daxil

olmaq, poetik aləminə səyahət etmək o qədər də asan məsələ deyildir».

S.P.Pirsultanlıya görə Aşıq Şəmşir şeirinin təhlilinə girişmək həvəskar işi deyildir. O, bu yola çıxan tədqiqatçının obrazını belə modelləşdirmişdir: «Aşıq Şəmşir müəzzəm-işıqlı və gözəl yaradıcılıq yolu keçmişdir. Aşıq Şəmşirin poetik arealı, poetik aləmi o qədər zəngindir ki, oraya daxil olmaq və səyahət etmək üçün aşıq yaradıcılığının sirrini, sehrini, bu yaradıcılığın köklərini, tarixən yazılı ədəbiyyatla əlaqəsini dərindən bilmək lazımdır».

Şəmşirin potensial tədqiqatçısının belə bir bilik və hazırlığa ona görə ehtiyacı vardır ki, «Aşıq Şəmşir sələflərinin, müasirlərinin və xələflərinin hər birinin yaradıcılığını qiymətləndirən mahir bir el sənətkarıdır. Aşıq Şəmşir yaradıcılığına hər hansı aşıq yaradıcılığının araşdırılması mövqeyindən girişmək olmaz. Onun sənət aləmi, poetik aləmi o qədər zəngindir ki, başqa yaradıcı aşıqlara yanaşmaq üsulu ilə yanaşıb söz demək mümkün deyildir. Hətta onların poetik yaradıcılığını qiymətləndirərkən deyilən sözü də təkrar etmək olmaz. Adətən, bundan əvvəl tədqiq olunan aşıq yaradıcılığında belə bir cümlə təkrar olunur: Bu sənətkar özünə qədər mövcud olan aşıq şeirinin forma və şəkillərindən tamamilə fərqli şəkildə istifadə

etmişdir. (Ancaq – S.R.) Aşıq Şəmşir şeirinin forma və şəkillərindən danışarkən onun əhatə etdiyi rəngarəng mövzuları, onun təsvir çalarlarını, poetik biçimlənməni, hər sözə, hər fikrə uyğun söz işlədilməsini, başqalarından fərqlənən deyim tərzini, daha bir çox şeir zinətlərini, söz axarını, misralardakı fikir tutumunu gözdən yayındırmaq olmaz».

Bu, artıq «şəmşirşünaslıqda» və ümumən, milli filoloji təhlildə yeni standartların başlanması haqqında xəbərdarlıqdır və Azərbaycan filoloji-humanitar fikrinin prof. S.P.Pirsultanlı adlı həqiqətinin bu «xəbərdarlığından» sonra onun monoqrafiyanın dördüncü fəslində etdiklərini, ortaya qoyduqlarını təhlil etmək fikrindən biz də vaz keçirik. Ən azı, əziz oxucunun Sədnik Paşanın «Şəmşir dünyasına səyahətnaməsindən» alacağı bədii həzz və zövqə, bunlara olan əlahəzrət oxucu haqqına (hüququna) mane olmamaq naminə...

***SEYFƏDDİN RZASOY***

***AMEA Folklor İnstitutu***
***Mifologiya şöbəsinin müdiri,***
***filologiya elmləri namizədi***





# *GİRİŞ*

XX əsr Azərbaycan aşıq poeziyasının ən tanınmış və məşhur simalarından biri Aşıq Şəmşirdi. Əgər XVI əsrdə Dirili Qurbani, XVII əsrdə Tufarqanlı Abbas, XVII-XVIII əsrlərdə Xəstə Qasım, XVIII əsrdə Abdalgülablı Valeh, XIX əsrdə Aşıq Ələsgər aşıq poeziyasına öncüllük edib sənətin zirvəsində dayanırdılarsa, XX əsrdə Aşıq Şəmşir bu məqama çatmışdır. XX əsrdə çox böyük aşıq-şairlər yetişmişdir. Lakin onlardan heç biri Şəmşir zirvəsinə yüksələ bilməmişdir. Aşıq Şəmşir XX əsrin saz-söz haqqında yazılmış kitablarının qızıl səhifəsinə öz adını yazmış və üzərinə öz möhürünü vurmuşdur.

Aşıq Şəmşir hansı zəminə, hansı yaradıcı qaynaqlara söykənərək, ondan güc alıb bu ucalığa yüksələ bilmişdir? Bunu bir cümlə ilə, iki cümlə ilə ifadə etmək olmaz. Hər kəs öz mühitinin oğludur. Aşıq Şəmşir yurdumuzun ən ucqar rayonunda, Kəlbəcər dağlarının dilbər güşəsi olan Dəmirçidam kəndində dünyaya göz açmış, sonra atası aşıq-şair Qurban təbiətin ən səfalı güşəsi olan Ağdaban kəndinə köçmüşdür. Nəsil bu yerdə, Çayqovuşanda əbədi binələnmişdir. Şəmşir gözünü açıb Dəlidağı, Məndili, Qoşqarı, Qonuru, Lülparı, neçə-neçə belə möh-

təşəm dağları görmüşdür. Şəmşirin həyatını, ədəbi irsini, həyat fəlsəfəsini aydınlaşdırmaq üçün onun dərs aldığı amilləri bircə-bircə göz önünə gətirmək lazımdır. Onun ilk bəhrələndiyi qaynaq, yaradıcılıq qaynağı, nəsil səcərəsidir. Hər şeydən əvvəl, Aşıq Şəmşir dövrünün azman sənətkarı, hər zaman Aşıq Ələsgərlə bir olan, yanaşı duran atası Ağdabanlı Qurbandan dərs almışdır. O, hələ beşikdə ikən Ağdabanlı Qurbanın sazının, sözünün səsi ilə yatıb oyanmışdır. O, şeir dilini ulu babası, atası Qurbanın və özünün kövrək misralarla dünyaya gətirdiyi dağlar şeirləri ilə açmışdır.

Aşıq Şəmşirin aşıq-şairlik səcərəsi uzun əsrlərdən qaynaqlanıb gəlir. Onun ulu babası Miskin Abdal Şah İsmayıl Xətainin yaxın dostu, Çaldıran müharibəsində çiyin-çiyinə döyüşə getdiyi silahdaşı olmuşdur. 1515-ci ildə Şah İsmayıl Xətai Miskin Abdala öz möhürü ilə təsdiqlənmiş Şəhadətnamə vermişdir.

Xətai öz dəsti-xətti ilə yazırdı ki, bu şair (yəni Miskin Abdal) öz ağlı və kamalı ilə şahlığa layiqdir.

İstər Aşıq Şəmşir, istər ulu babası Miskin Abdal, istərsə də atası Ağdabanlı Qurban öz poeziyalarında dağları sevə-sevə tərənnüm etmişlər, onları vətənin vüqarı kimi yüksək qiymətləndirmişlər.



*Şah İsmayıl Xətainin 1515-ci ildə Aşıq Şəmşirin ulu babası Miskin Abdala verdiyi şəhadətnamənin foto-surəti*

Miskin Abdalın "Dağlar" şeiri aşıq poeziyasında ilkin örnəkdir:

*Məğribdən məşriqə səf çəkib durub,*
*Qüdrətdən çəkilmiş baş-başa dağlar.*
*İtaət boynuna salmış həmayıl,*
*Misli pəsəd, xotkar, xan, paşa dağlar.*

Miskin Abdalın aşıq poeziyasına gətirdiyi bu şeir insanları dağların böyüklüyünə, əzəmətinə məftun edir, hər kəs öz dağları ilə öyünür, fəxr edir.

Miskin Abdalın təsvir etdiyi "tamaşa dağlar" hər kəsdən əvvəl Aşıq Ələsgər və Ağdabanlı Qurban yaradıcılığına böyük təsir göstərmişdir. Onlar bundan ilhamlanaraq çox sayda dağlar şeiri yazmışlar. Ağdabanlı Qurban deyir:

*Əzəl xilqətimiz torpaqdan, sudan,*
*Sən bizə atasan, anasan, dağlar.*

Bu beytdə Qurbanın dağlara olan məhəbbəti ilə yanaşı, həyata baxışı da aydınlaşır. O, insanın yoxdan xəlq olunması fikrinin əleyhinədir. "Loğman nəfəsli" dağlar Qurban üçün tükənməz bir yaradıcılıq mənbəyi olmuşdur. O, bu mövzuda bir çox gəraylı və qoşma yazıb

yaratmışdır. “Dağların” adlı qoşmasında şair gözəlliklərə qərq olmuş təbiətin, silsilə dağların xoş çağları ilə yanaşı, qəmini, kədərini də vəsf edir:

*Murov, Kəpəz, Keyti, Dəlidağ, Qoşqar,*
*Zər-ziba geyinir gələndə bahar.*
*Səyyadı yorulmuş edəndə şikar,*
*Bəzən ayrı salır, yolu dağların.*

*Fərhad sinəsinə vurub düsəri,*
*Qəlbi yaralıdı o vaxtdan bəri,*
*Qurban vəsf eyləyib yazdı dəftəri,*
*Nəvəlik borcudur ulu dağların.*

Burada “nəvəlik borcudur ulu dağların” misrasının izaha ehtiyacı vardır. Qurban el şairi Miskin Abdalı özünə baba sayırdı. Bu kəlmə ilə onu demək istəyir ki, babalıq borcunu yerinə yetirərək “Dağlar” qoşmasını ilk dəfə Miskin Abdal, bundan sonra atalıq borcu olaraq Müsəmma Miskin, oğulluq borcu olaraq Aşıq Ələsgər, nəvəlik borcu olaraq mən yazıram.

Budur, Aşıq Şəmşirin dağlar dərsi. İlk dəfə ulu babası Miskin Abdaldan, Aşıq Ələsgərdən, atası Ağdabanlı Qurbandan aldığı dağlar dərsi. Dağların başına yağmurlar, leysanlar ara vermədən yağdıqdan sonra döşündən bulaqlar

göz verir. Şair də belədir. Şəmşirin də başından şeir yağmuru, şeir leysanı yağdıqdan sonra onun sinəsindən şeir, sənət bulağı göz vermişdir. Aşıq Şəmşir sələflərindən bir addım da irəli gedərək, dağlar haqqında daha məzmunlu, daha gərəkli, daha yaddaqalan silsilə şeirlər yazmışdır. Şəmşiri bütün varlığı ilə özünə cəlb edən dağların ünvanı da bəllidir. Bu onun gözünü açıb gördüyü, ata-ana kimi məhəbbət bəslədiyi, görünən, bilinən, sayılan-seçilən dağlardır. Bu müdrik dağlar zaman-zaman Şəmşirin qəlbini fərəhlə doldurmuş və onu hər zaman ilhama gətirmişdir. Onun dağları mücərrəd deyil, göz önündə görünən dağlardı:

*Qartal düşüncəli, şair xəyallı,*
*Tərlan yuva salan dağlar oğluyam.*
*Anam İstisudu, atam Dəlidağ,*
*Murov, Lülpar, Qonur, Qoşqar oğluyam.*



Dağların ana və ya ata olması əsas şərt deyil, əsas məsələ odur ki, bu dağlar Aşıq Şəmşiri lalənin, nərgizin yorğan-döşəyində böyütmüş, ona atalıq-analıq qayğısı göstərmişdir. Dağların bu mənzərəsini Şəmşir kimi kim dilə gətirə bilər?! Bu təşbehləri, bu bənzətmələri kim beynində arayıb-axtarar, tapar, sonra da onu ipə-sapa düzərək bir lövhə yaradar?! Elə bir lövhə ki, Şəmşirdən sonra gələn yaradıcı sənətkarlar üçün bunlar bir örnək, şeirləri üçün hər biri bir çeşni olacaqdır.

*Lalədi, nərgizdi evim-eşiyim,*
*Köynəyim – sıx meşə, qoymaz üşüyüm.*
*Qərənfildi, qızıl güldü beşiyim,*
*Buz bulaqlı, göy yaylaqlar oğluyam.*

Üçüncü bənddə özünün varlığı, bədəni hesab etdiyi, min bir çiçəkli Ərgünəş, Gülüstan, Çilgəz, Şahdağı, Çalbayır və Kəpəz onun oylağı olmaqdan ziyada vətənin ünvanıdır, uca dağlarıdır. Bunların əzəmətini Aşıq Şəmşir kimi vətənini, xalqını sevən bir oğul bu şəkildə canlandıra bilər, sevə bilər, sevdirə bilər, bir lövhə kimi, min bir çiçəkli mənzərə kimi göz önünə gətirə bilər.

*Bədənim Ərgünəş, Gülüstan, Çilgəz,*
*Vüqarım Şah dağı - əl çata bilməz,*
*Məkanım Çalbayır, oylağım Kəpəz,*
*Min çiçəkli bir laləzar oğluyam.*

Aşıq Şəmşirin sələflərindən və xələflərindən bəlli oldu ki, Şəmşir yaradıcılığının ilkin qaynağı, başlanğıcı müdrik dağlar və bu dağlar haqqında ulularının XVI əsrdən bəri çağlayıb gələn şeirləri olmuşdur. Şəmşirin bu sahədə təkamülü, inkişafı onun yaradıcılığını və poeziyasını sənətin fövqünə qaldıra bilmişdir.

Miskin Abdalın "Dağlar" qoşmasını, "Dürüstə məni" təcnisini və başqa şair-aşığın həyatı ilə bağlı bir sıra məlumatları Aşıq Şəmşirdən yazmışıq.

Aşıq Şəmşirdən yazıya aldığımız Miskin Abdalın "Dağlar" şeirini olduğu kimi veririk:

*Məğribdən məşriqə səf çəkib durub,*
*Qüdrətdən çəkilmiş baş-başa dağlar.*
*İtaət boynuna salmış həmayıl ,*
*Misli-pəsəd, xotkar, xan, paşa dağlar.*

*Baxıb hökmü yek dal, dü pey, dükafa,*
*Gah kükrəyib, gah gəlirsən insafa,*
*Dey peykarə çəkib bəyaz məlafa,*
*Fərvərdin geydirir qumaşa dağlar.*

*Ağ çeşmən sərindən car eylər seli,*
*Yaşıl tirmə qurşar adaca beli,*
*Zabitə kölgəsi, Dağıstan yeli,*
*Sədrin səfasıdır həmişə dağlar.*

*Bəd illərdən satın aldın pis günü,*
*Çağırıb dumanı, tökdün çiskini,*
*Gözü yaşlı qoydun Cida Miskini,*
*Eylə gülə-gülə tamaşa, dağlar.*

Məlumdur ki, Dirili Qurbani və Miskin Abdal eyni dərəcədə Şah İsmayıl sarayına yaxın olmuşdur, hər ikisi Çaldıran müharibəsində iştirak etmişdir. Onların şeirləri arasında az da olsa bənzərlik diqqətimizi cəlb edir. Miskin Abdal yazır:

*Gedər ikən üç gözələ tuş oldum,*
*Ovçu könül mayıl oldu birinə.*
*Bir gözəldə üç nişanə gərəkdi,*
*Biri camal, biri kamal, biri nə?*

Miskin Abdalın şeirində hər dəfə üç şey soruşulur. Qurbani qoşmasında isə dörd şey soruşulur. Qurbani üç bəndlik qoşmasını belə tamamlayır:

*Qurbani sözünü eylədi tamam,*
*Sizə də xoş gəlsin bu şirin kəlam,*
*Səkkiz şey insana verilib təam,*
*Ağıl, kamal, mərifət, huş, dördü nə?*

Hər hansı sənətkarın ədəbi irsini müəyyən dərəcədə toplamadan onun haqqında tam elmi qənaətə gəlmək çətin olur.

Miskin Abdalın şeirlərini İran Azərbaycanından gəlmiş Aşıq Həsəndən toplamışıq. O, çox bilikli, sinəsi dolu sənətkar olduğu üçün onu Dədə Yediyar adı ilə çağırırdılar. Onun yazdırdığı bədii cəhətdən kamil olan Miskin Abdalın bir qoşmasını bütövlükdə nümunə vermək istəyirik. Qoşma "A yaz ayları" adlanır.

*Zimistan qəhridir maldan ötəri,*
*Həsrət çəkər gələ, a yaz ayları.*
*Yay, payız dolandı dağlar ağardı,*
*Yenə də yetişdi ayaz ayları.*

*Səndə olar dağ, dərələr, göy çəmən,*
*Boy verər qərənfil, nərgiz, yasəmən,*
*Gəzərəm həvəslə alsam əsa mən,*
*Könül coşa gələr, a yaz ayları.*

*Miskin Abdal, ömür keçdi heyinən,*
*Bu mətləbi Qocadağa deyinən,*
*Öləndə məzarım gül-çiçəyinən,*
*Bəzərlər üstümü, a yaz ayları.*

Miskin Abdalın həyat və yaradıcılığı möcüzələrlə doludur. Bir dəfə Miskin Abdal səhər-səhər bir zərurət üzündən Şah İsmayılın yanına getməli olur. O, keşik çəkən qoşunu yarıb içərisindən keçir. Bağda namaz qılan Şah İsmayıl Xətainin bərabərində dayanır. Şah İsmayıl namazı qurtardıqdan sonra ehtiyat etdiyi adamdan soruşur:

- Sən kimsən?

- Mən sizin atanız Şeyx Heydərin dostu Məmməd Cəfərin oğluyam. Mən Miskinəm. Şah İsmayıl sevincək ayağa qalxır, onun əlini sıxır. Dedin bildim ki, dostumuzun oğlusan. Bəs qapıda keşikçilər var, qoşun var, onları necə keçdin. Yoxsa, onlar yatmışdı?

Miskin Abdal bildirir ki, hamısı oyaq idi. Lakin mən öz möcüzələrimin qanadında saraya daxil oldum və bağa gəldim.

Miskin Abdal fikrini şeir dili ilə bu şəkildə söyləyir:

*Səhərdən bu bağın keştinə vardım,*
*Bu bağın bağbanı ayaq üstədi.*

*Könül pərvaz eylər yarı görməyə,*
*Yatmayıb seyraqub ayaq üstədi.*

*Haqqa salam verdim, aldı salamı,*
*Yarəb, bu gözəllik səndə qalamı?*
*Yazılıb alnına haqqın kəlamı,*
*O qələm tutanlar ayaq üstədi.*

*Miskin Abdal deyər: ismim ərəbdir,*
*Eşqin piyaləsi dolu şərabdır,*
*Şahım, nə yatıbsan, dünya xarabdır,*
*Haqq özü yatmayıb, ayaq üstədi.*

Güney Azərbaycanın Ərdəbil şəhərində məşhur Şeyx Səfiyəddin məbədi-muzeyi mövcuddur. Şah İsmayıl Xətai həmin məqbərədə uyuyur. Atası Şeyx Heydərin qəbri Azərbaycandakı Qusar rayonunun Xəzrə kəndində idi. Şah İsmayıl Xətai hakimiyyətə gəldikdən sonra atasının da məzarını həmin məqbərəyə köçürtdürmüşdür. Həmin məqbərədə böyük arxiv və kitabxana vardır. Miskin Abdalın ədəbi irsi də buradadır. Mən bu məlumatı alman mənbələrindən almışam. Yəqin ki, uzun müddətli məzuniyyət alıb Miskin Abdalın ədəbi irsi ilə tanış ola biləcəm.

Şəmşir poeziyasının ikinci qaynağı atası Ağdabanlı Qurbanın öz yaradıcılığı, klassik

ədəbiyyatla və poeziya ilə onu erkən tanış etməsidir.

Azərbaycan və fars dillərini mükəmməl bilən, eləcə də Şərq klassiklərinin şeirlərini, Nizamini, Füzulini, Firdovsini, Sədini, Hafizi və Vaqifi mütaliə edən Qurban, dövrünün sənətkarları arasında böyük nüfuz sahibi idi. Xüsusilə Aşıq Ələsgər onun savadına, bilik və bacarığına yüksək qiymət verirdi. Bir-birlərinə yaxın olan bu el sənətkarları tez-tez görüşürdülər. Görüş məclisləri çox zaman Ağdaban kəndindəki Təkarmudun dibindən çıxan bulağın üstündə olurdu. Sonralar bu "Qurban bulağı"[1] məclisi kimi formalaşdı.

Aşıq Ələsgər, Ağdabanlı Qurban, Aşıq Bəsti və Usta Abdulla bu məclisin ilk iştirakçıları olmuşdur.

Bundan əlavə, Ağdabanlı Qurbanın arxivində Nizaminin, Füzulinin, Caminin, Sədinin, Hafizin, Vaqifin əsərləri ilə yanaşı, Hindistan xalqının bəşəriyyətə bəxş etdiyi nadir sənət incisi olan "Kəlilə və Dimnə" əsəri var idi. Mən bunları 1961-ci ildən 1966-cı ilədək Aşıq Şəmşirin evində öz gözlərimlə görmüşəm. Ağdabanlı Qurbanın və Şəmşirin poeziyasında

---

[1] "Qurban bulağı" haqqında ilk məlumat 1966-ci ildə Ağdabanlı Qurbanın qardaşı Əmrah Məmmədalı oğlundan alınmışdır.

“Kəlilə və Dimnə”, “1001 gecə”, Sədinin “Gülüstan” və “Büstan”, Firdovsinin “Şahnamə”, Əbdürrəhman Caminin “Yusif və Züleyxa” və başqa əsərlərin dərin izləri vardır. Axı Ağdabanlı Qurban Göyçədə Miskin Abdal məktəbində oxumuş, Molla Hüseyndən mükəmməl dərs almışdır. Ümumiyyətlə, Aşıq Şəmşirin ulu babası Miskin Abdal, atası Ağdabanlı Qurban və özü həmişə yazılı və şifahi ədəbiyyata bağlı olmuş, hər iki qaynaqdan bəhrələnmişlər.

Ağdabanlı Qurban yaradıcılığının, poeziyasının sehrini-sirrini dərindən bilmək üçün onun əsərlərinin ilk qaynaqlarını öyrənmək lazımdır. Birincisi, öyrəndik ki, onu əhatə edən dağlar, dağları təsvir edən şeirlər, onun fikir dünyasının formalaşmasında mühüm rol oynamışdır. İkincisi, atası Ağdabanlı Qurbanın vasitəsi ilə yazılı ədəbiyyatla tanış olmuş və ondan təsirlənmişdir. Onun yaradıcılığının üçüncü qaynağı xalq yaradıcılığıdır. Atalar sözlərindən başlamış, bayatılar, nağıllar, dastanlar, xalq mahnıları - bütün bunların məcmusu onun ömür boyu zaman-zaman oxunan, təkrarlanan sənət və folklor dərsliyi olmuşdur. Aşıq Şəmşir “Qurbani”, “Abbas və Gülgəz”, “Xəstə Qasımın Dağıstan səfəri” dastanları haqqında yüksək məlumata malik idi. Heç bir aşıq Aşıq Şəmşir qədər Aşıq Lələnin “Yaxşı-Yaman” dastanını, Sarı Aşığın “Aşıq və

Yaxşı" dastanını bilə bilməzdi. Aşıq Lələnin və Sarı Aşığın bayatılarından bizə elə örnəklər vermişdir ki, onu başqa sənətkarlardan eşitmək qeyri-mümkündür.

*Aşıq, qaz binə bağlar,*
*Meylin Qazbinə bağlar.*
*Gözüm yaşı göl olar,*
*Ördək, qaz binə bağlar.*

Göz yaşından əmələ gələn göldə ördəyin, qazın binə bağlaması, üzüşməsi lövhəsini məhz Sarı Aşıq yarada bilərdi. Xalq bayatılarından, onun qaynar çeşməsindən bəhrələnən Aşıq Şəmşir Sarı Aşığın bayatıları ilə yanaşı dura biləcək bayatılar yaratmışdır.

*Sonam, göldə üz bəri,*
*Çalxan əlli, yüz bəri.*
*Ay tutular, Gün batar,*
*Yar tutmasa üz bəri.*[1]

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 480

Sarı Aşıq əvəzsiz bayatı-bağlamalar yaratmışdır.

*Mən aşıq, göy dana var,*
*Göy yemiş, göy dana var.*
*Ayaqları yerdədi,*
*Bədəni göy dana var.*

Burada, adamı düşündürən göy dana sözünün təkrarı ilə yaranan cinaslar arasında gizlənmiş fikirdir. Lakin bayatı-bağlamanı diqqətlə oxuduqda hər şey aydın seçilir. Birinci misrada Aşıq təsdiq edir ki, göy dana var, ikinci misrada göy dananın göy ot yediyi və ya taxıl zəmisində otladığı, üçüncüdə dananın ayaq üstə, yəni ayaqları yerdə olduğu, dördüncüdə isə dananın tamam bədəni göy olduğu aydınlaşır.

Aşıq Şəmşir bayatı yaradıcısı Lələnin və Sarı Aşığın sənət yolunu deyil, həmçinin özündən əvvəl söz düzüb qoşmuş və yazıb-yaratmış bir çox sənətkarların, o cümlədən Dirili Qurbaninin, Tufarqanlı Abbasın, Xəstə Qasımın yaradıcılq yolunu daim izləmiş, onlardan özünəməxsus bir şəkildə bəhrələnmişdir. Ona görə də Şəmşir yaradıcılığını tam araşdırmaq, onun mənəvi aləminə dərindən bələd olmaq üçün ayrı-ayrı fəsillərdə onun poetikasını incələyə-

incələyə üzə çıxarmağa və kəşf etməyə çalışacağıq.

I bölüm - "Aşıq Şəmşir və dağlar" adlanır. Bu fəsildə qoynunda doğulduğu, pərvəriş tapdığı və boya-başa çatdığı dağlar haqqında, çiçəkli-bəzəkli dağların təsvirinə-boyasına, naxışına, aşıq-şairin qəlb çırpıntılarına, vüqarlı dağlardan həzz almasına öz münasibətimizi bildirəcəyik.

II bölüm – "Aşıq Şəmşir və Səməd Vurğun" adlanır ki, onların tarixi deyişməsi ilə yazılı və şifahi poeziyamızda yeni era başlanır. Daha doğrusu, iki böyük sənətkarın timsalında yazılı və şifahi ədəbiyyat bir-biri ilə görüşür, qovuşur və bir məcrada birləşir. Fəslin daxilində onların elmi araşdırmaları, yeni şeir örnəkləri ilə müqayisəli, dəyərli mülahizələr üzə çıxacaqdır.

III bölüm – "Aşıq Şəmşirin sələfləri və xələfləri" adlanır. Bu fəsildə sələflərindən hansını yüksək qiymətləndirdiyi, onun yaradıcılığına xələflərinin heyran qaldığı, ondan bəhrələndiyi, şeir nümunələri ilə müqayisəli şəkildə tədqiq olunacaqdır. Cümlənin ikinci komponenti olan xələflərinin onun yaradıcılığının vurğunu olan, həmçinin Aşıq Şəmşirə öz məhəbbətlərini bildirən şeirlərindən nadir nümunələr seçiləcək və tədqiqata cəlb olunacaqdır.

IV bölüm - "Aşıq Şəmşirin poetik aləminə səyahət" adlanır. Bu fəsil yuxarıdakı fəsillərin

yekunu və zirvəsi olacaq. Ona görə ki, burada Aşıq Şəmşirin bütün şeirləri, yüksək poetik də-yərə malik şeir bəndləri, misraları, hətta ayrı-ayrı ifadələri belə tədqiqatda özünə geniş yer alacaq. Bu fəsildə Aşıq Şəmşirin poetik aləmini tam mənası ilə üzə çıxaracaq və Aşıq Şəmşirin nə qədər böyük, azman sənətkar olduğunu, öz şeirlərinin timsalında açıb göstərəcəyik.

Nəticədə isə fəsillərin məntiqi nəticələri əsasında üzə çıxan fikirlərin, bədii duyğuların mənzərəsi veriləcək. O zaman Aşıq Şəmşirin sələflərinin ədəbi irsindən nə dərəcədə bəhrə-ləndiyini və mənəvi cəhətdən nə qədər zəngin-ləşdiyini, özünün nələr yazıb-yaratdığını, özünün yaradıcılığına nə dərəcədə təsir etdiyini, fayda-landığını bu elmi monoqrafiya vasitəsilə öyrənə biləcəklər. O zaman biləcəklər ki, Aşıq Şəmşirin poetik aləminə səyahət etmək nə deməkdir.

# *I BÖLÜM*

## *Aşıq Şəmşir və dağlar*

Aşıq Şəmşirin doğulduğu yer Kiçik Qafqaz sıra dağlarının elə füsunkar güşəsidir ki, o yerdə qüdrətdən elə bir məbəd, elə bir saray yapılmışdır ki, onun tağ daşları qayalardan, dayaq sütunları dağlardan, üstündəki qoşa minarələri zirvəsi buluda dəyən dağlardan düzəldilmişdir. Çin Səddi insan əli ilə düzəldilmişdir, lakin buradakı keçidlər, bəndlər, saraylar Tanrı tərəfindən yapılmışdır. Bu müqəddəs məbəd, saray Aşıq Şəmşirin uluları üçün də, özü üçün də şeir-sənət məbədi olmuş, onları ilhamlandırmış, yazıb-yaratmağa çağırmışdır. Zümzüməli bulaqlar, min bir rəngli əlvan çiçəklər Şəmşirin ulularının və özünün şeirlərinin naxışı olmuş, onların şeirlərini bədii cəhətdən gücləndirmiş, əlvanlığını təmin etmişdir. Şəmşirin ulu babasının, atasının və özünün şeir çəməninə min bir bulaqdan dirilik suyu sızmış və onların şeir çəmənlərini laləzarlığa çevirmişdir.

Aran elləri həmişə arzulamışlar ki, yaylaq dövrü tez gəlib çatsın, onlar Taxta yaylağına

gəlib, alaçıq qursunlar. Dəlidağa, Keyti-Meyti dağlarına, dumanların arasından boy verən, başı buluda dəyən Murovdağa baxa-baxa "Ceyranbulağın" suyundan içə-içə Aşıq Şəmşirin sazının zümzüməsini eşitsinlər.

Sözündə min bir çiçəyin ətri, səsində sonalı göllərin laylasını eşitsinlər. Aşıq Şəmşir şeiriyyətinin çox hissəsi dağların payına düşür. Dağlar Aşıq Şəmşir poeziyasının əzəli mövzusudur. Bütün ömrü boyu öz sevincini də, kədərini də heç kəsə yox, dağlara deyib. Özünün dediyi kimi dağlar həmişə ata kimi, ana kimi onun nazını çəkib, onunla həmsöhbət olub. Şəmşir də ürəkaçıqlığı ilə dərdini dağlara, bulaqlara, dumana, çənə deyib, çiçəklərdən, güllərdən əlvan rənglər alıb şeirlərinə gətirib. Azərbaycanın bu füsunkar təbiəti həmişə onu ilhamlandırıb, xəyalını, düşüncəsini zənginləşdirib. Bulaqlar göz-göz axıb, nəhrlənib çaylara dönüb, çaylar göllər yaradıb, elə göllər ki, onu əhatə edən dağlara güzgü tutub. Tərtər kimi çaylar dənizlərin ana qoynuna tələsir, Tərtər də Xəzərə qovuşmağa çalışır. Aşıq Şəmşir iftixarla deyir:

"O Kürün, Arazın Tərtəriyəm mən".

Doğrudan da Araz da, Kür də Xəzərə tökülür, Tərtər də əvvəlcə Kürə qovuşur və Xəzərin qoynunda Arazla da qovuşur.

Gül də, çiçək də, min bir bulaq da, bulud da, seyrangah da, yaylaq da dağlara bağlıdı. Hələ insan üçün həyat mənbəyi, insanın yaşamı olan dağ havasını, onun zövqü-səfasını demirəm. Vətənin ecazkar gözəllikləri dağlara bağlıdır.

Aşıq Şəmşir bütün bunları etiraf edir və fəxrlə deyir. "Şəmşirəm, hər sözüm dağa bənzəyir"[1]

Aşıq Şəmşir dağ, gül-çiçək, göl və digər toponimik adları öz şeirlərinə gətirir ki, onların da tədqiqat üçün böyük əhəmiyyəti vardır. Hər bir toponomik adın altında tarix yatır. Onlar etnoqrafiya ilə, dilçiliklə çox bağlıdır. Əlbəttə, bu toponimlərin açarı etimologiyanın əlindədir. Çox zaman bu toponimlər elmi araşdırmalara qədər xalq etimologiyasının köməyi ilə izah olunur.

"Ana yurd" adlı qoşma tamamilə toponimlərdən ibarətdir. Burada Daşbulağın, Pilovdağın, Qazaxlar düzünün, Çolpanın, Pirbulağın, Qanlı yurdun, Ələm ağacının, Göyçəqumun və digər yerlərin adı çəkilir ki, burada hər bir toponim tarixə şahidlik edir. Xalqın öz yaddaşında əsrlərdən bəri saxladığını və yaşatdığını görürük. Nümunə:

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 69

*Qarmaq itirənin gülü, nərgizi,*
*Behbudallar yalı, Qazaxlar düzü,*
*Pirbulaq, Qanlı yurd, görəydim sizi,*
*Bir çıxaydım o Çolpana, ana yurd.*

*Açar qanadını Qabaq qılıncı,*
*Gürnəş daşı, gözəllərin qıyqacı,*
*Ağdaş, Şəfi biçən, Ələm ağacı,*
*Vəsfin gəlməz həddə, sana, ana yurd.*

*Çiyələkli olur Qoçunun beli,*
*Ondan ayrılmamış gözəllər əli,*
*Aran sünbülünü səhərin yeli,*
*Tel kimi darayır yana, ana yurd.*

Şeirdə biçimlənmiş bir poetik misraya diqqət yetirin: "Aran sünbülünü səhərin yeli, Tel kimi darayır yana, ana yurd".

Yurdumuzda mən iki səslənən qayanın şahidiyəm. Qazax bölgəsinin İncə dərəsində Küyküy dağı var. Dağın içərisində elə bil ki, od dəyirmanı işləyir. İsmayıllı rayonunda məşhur bir Fit dağı var. Elə bil insanı arxasınca çağırır. Sən demə elə bir qaya da Kəlbəcərdə var imiş. Biz bunu Aşıq Şəmşirin məşhur bir qoşmasından öyrənirik.

*Çay çəpəri, Göycə qum, Səslənən qaya,*
*Dirənibdi sütun kimi göy çaya,*

*Olur bir ağ maya, çatanda yaya,*
*Gah bürünür boz dumana ana yurd.*[1]

Bundan sonra gənc tədqiqatçılar Şəmşir poetikası, Şəmşir yaradıcılığında toponomik isimlər, xalqın adət-ənənəsindən, milli əlamətlərindən bəhs edən etnoqrafik əsərlər yazacaqlar. Şəmşir yaradıcılığının tədqiqi ilə məşğul olmaq istəyənlər xalq etimologiyasını dərindən mənimsədikdən, öyrəndikdən sonra bu işə girişməlidirlər. Bilmək lazımdır ki, Aşıq Şəmşir yaradıcılığı çoxşaxəli bir yaradıcılıqdır. O, öyrənilməyə layiqdir.

Aşıq Şəmşirin özünəməxsus mövzu seçmək, onu məcazi şəkildə təsvirə gətirmək və şirin deyim tərzi vardır. Aşıq Şəmşir dağlara, onun gözəlliklərinə elə həssaslıqla yanaşır ki, elə bil onun qarşısındakı bir dağ deyil, sanki dağlar gözəlidi. İlhamla, çoşğu ilə yazılıb-yaradılan, düzülüb-qoşulan Şəmşir poeziyasının məziyyətləri elə bundadır. "Dağlar" şeirinin ilk bəndində deyilir.

*Süsənli-sünbüllü, al-əlvan rəngli,*
*Çiyələkli, yaşıl meşə ətəkli,*

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 74-75

*Nərgiz kəlağaylı, lalə gərdəkli,*
*Al bəzəkli, təzə gəlindi  dağlar.*[1]

Aşıq Şəmşirin ulu babası Azərbaycan aşıq poeziyasında ilkin olan "Dağlar" şeirini Dağıstanın Miskincə dağlarında yazmışdır. Şeirin üçüncü bəndi belədir.

*Ağ çeşmən sərindən car eylər seli,*
*Yaşıl tirmə qurşar adaca beli,*
*Zabitə kölgəsi, Dağıstan yeli,*
*Sədrin səfasıdır həmişə dağlar.*[2]

Dəmirçidam kəndinin yaşlı adamları indi də onu Qurbanın qoyduğu adla – Bala Dağıstan adlandırırlar.

Nəsil-nəcabətinin doğma Şəmşir elindən ayrı düşməsi, ulu babası Miskin Abdalın taleyi və s. bəzən Qurbanın kədərinə səbəb olur. Bu hiss özünü daha qabarıq büruzə verir.

*Ayrı düşən mahalınan, elinən,*
*Həsrət qalan aylarınan, ilinən,*

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 106

[2] S.Paşayev. "Ağdabanlı Qurban və müasirləri" (namizədlik dissertasiyası), 1969.  səh 64.

*Qəm-vərəmdən bağrı şan-şan dəlinən,*
*Bala Dağıstanlı Qurban mənəm mən.*

Aşıq Şəmşirin ulu babası Miskin Abdaldan, Şah İsmayıl Xətaidən başlayan nəsil səcərəsinin poetik əlaqəsi 500 ildən bəri, yəni bu günə qədər davam etmişdir. İstər Miskin Abdal, istər Ağdabanlı Qurban, istərsə də Aşıq Şəmşir nəsil səcərəsinin nişanəsini bildirmək üçün bir obraz seçmişlər, bir nişangah seçmişlər. XVI əsrdə Miskin Abdal Dağıstanda vəzir olmuş, ilk dağlar şeirini Dağıstanda yazmışdır. Kəlbəcərdəki Dəmirçidam dağların başında yerləşdiyi üçün Dağıstana oxşayır. Bir zamanlar ulu babasını hafizəsində əbədiləşdirmək üçün Dəmirçidamı Bala Dağıstan adlandırmış, özü də Bala Dağıstan adlı silsilə şeirlər yazmışdır. Bu qırılmaz əlaqəni və yaradıcılıq ənənəsini yaşatmaq, gələcək nəsillərə yadigar qoymaq üçün Aşıq Şəmşir "Mənim kimi" qoşmasında babası, atası üçün müqəddəs olan bir mövzuya qayıtmışdır.

*Əsir Dağıstanın yeli Qoşqara,*
*Yolum çox düşübdü, bəli, Qoşqara,*
*Kəpəzə, Murova, dəli Qoşqara,*
*Salar şagirdlərim iz mənim kimi.*

*Şəmşir bu dövrandan olmadı küskün,*
*Ustadım Qurbandı – babası Miskin,*
*Qolum qüvvətlidi, qılıncım kəskin,*
*Siz də olun tiği-tiz mənim kimi.*[1]

Şəmşir atasının ulu babası Miskin Abdalın, özünün atasının arxasınca getdiyini, hər biri bu yaradıcılıqları bütövləşdirməyə çalışdıqları kimi, gələcəkdə də bu saf yaradıcılıq yolunun davam etdiriləcəyinə ümid edək.

Şəmşir sərrast bir bəndin son misrasını belə dilə gətirir: "Salar şagirdlərim iz mənim kimi".

Dağlara həsr etdiyi şeirlərinin xüsusi yeri var.

*Duman çöküb dağa-daşa,*
*Buludlar su səpir başa.*
*Qucaqlaşa-qucaqlaşa,*
*Sel axıdır düzə dağlar.*

*Xəbər aldım: o ha yandı,*
*Başı qarlı, ağ dumandı?*
*Dedilər: o Dağıstandı,*
*Niqab çəkib üzə dağlar.*

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 108

Aşıq Şəmşir bir qayda olaraq övlad kimi dərdini dağlara deyir, umduğunu ondan umur, həm də hər zaman dağlardan şəfa gözləyir. Dağların mehinin onu sağaldacağına böyük ümid bəsləyir. “Bir səhər mehi” qoşmasında deyir:

*Meylim aran gəzir, ara dağları,*
*Unutmaram, getsəm hara, dağları.*
*Bu gözəl Qafqazın sıra dağları,*
*Şəmşirə bir şəfa göndərər mehi.*[1]

Dağlarla iç-içə yaşayan Şəmşir nərgizli, bənövşəli dağlara hər zaman vurğundur. Onları sevə-sevə tərənnüm etməkdən doymur. “Beh mənə” qoşmasında onun şeirlərinin əlvan naxışlarını poeziya butalarının rəngarəng çalarlarını görürük.

*Bu gün çəmənzara qonaq gəlmişəm,*
*Nərgiz verdi yarpağında şeh mənə.*
*Yelpik çaldı dan yerinin qanadı,*
*Sərin-sərin əsdi səhər meh mənə.*

*Öpdüm yasəməni, sevdim lalanı,*
*Göy meşəli, gül bulaqlı talanı,*

---

[1] Aşıq Şəmşir. “O Kürün, Arazın Tərtəriyəm mən”. Bakı 2004. səh 98

*Dedim arılarım sizdən bal alı,*
*Gülümsünüb süsən dedi: bəh, mənə.*[1]

Dağlar təkcə çiçəklərlə bəzənməsi, sərin havası ilə deyil, həm də insanın daddığı nemətlərin çoxluğu ilə bağlıdır. “Dedim arılarım sizdən bal alı, Gülümsünüb süsən dedi: bəh, mənə”.

Dağları tərənnüm etməkdə Aşıq Şəmşir ona görə yorulmur, usanmır ki, hər dəfə dağların bir gözəlliyi, bir baxışı onu duyğulandırır, yeni söz deməyə coşdurur.

*Qımışanda ilk baharın dodağı,*
*Behiştə döndərir aranı, dağı,*
*Şeh tutanda bənövşəni, yarpağı,*
*Qərənfil, nərgiz də çiçəkləmişdi.*

“Görəydim” qoşmasında dağların gözəlliyi ilə yanaşı, onun insan həyatında nə kimi qüdrətə, qüvvəyə malik olduğunu arzulayır, “bir də görəydim” deməklə, başqalarını da dağların yarı-yaraşığını görməyə çağırır.

*Çıxaydım Turşsudan Quş yuvasına,*
*Baxaydım Buzluğun tamaşasına,*

---

[1] Aşıq Şəmşir. “O Kürün, Arazın Tərtəriyəm mən”. Bakı 2004. səh 69

*Könlüm yetişərmi təmənnasına?..*
*Təmiz havasını bir də görəydim.* [1]

Aşıq Şəmşirdə müşahidə qabiliyyəti çox güclüdür. “Baxaydım Buzluğun tamaşasına” adi söz deyil. Kəlbəcərdəki, Aşıq Şəmşirin yaşadığı Ağdaban kəndində iki buzxana – Ağbuzluq və nəhəng Buzluqdağı, Gədəbəydəki Daryurdun üstündəki dağda buzxana var. Bu buzxanaların çox ecazkar xüsusiyyətləri var. Bu buzxanalar qışda təndir kimi isti olur. Çöldə qoyun-quzu otaranlar o buzxanalarda isinirlər. Lakin möcüzədir ki, yayda bu buzxanalarda salxım-salxım buz olur. Buzun soyuğundan içəri girmək mümkün olmur. Yayda Gədəbəy ətrafı kəndlərə buradan soyuducu kimi buz aparırlar. Belə bir buzxananın Kəpəzin zirvəsində olması da adamı təəccübləndirir.

Adətən qoşa qafiyədə fikri bədii şəkildə vermək olduqca çətindi. Aşıq Şəmşirin dağlara vurğunluğundan yaranan bu bəndinə diqqət yetirək.

*Gör necə qəşənglik, tapıb gözəllik,*
*O bizim obalı, bizim mahallı.*

---

[1] Aşıq Şəmşir. “O Kürün, Arazın Tərtəriyəm mən”. Bakı 2004. səh 104

*Qayalarda kəklik, dağda çiçəklik,*
*Yanaqları  xallı, dodağı  ballı.*[1]

Ümumiyyətlə, Aşıq Şəmşir dağları təsvir və tərənnüm etməkdən qətiyyən doymur.

"Çilgəz" adlı qoşmasında o dağın özü ilə bərabər onun çiçəklərini, yaylaların "göy fərşini", zambağın "əldə piyalə" gəzdirdiyini, "qayaların" xəyala daldığını daxilində elə süzgəcdən keçirir, elə saflaşdırır, bu üsulla da öz gördüyü gözəlliyi bizim də gözümüz önündə obrazlı şəkildə canlandıra bilir. Biz xəyalən görsək də, görməsək də Çilgəz dağından ayrıla bilmirik.

*Mən səni görəndə dağıldı dərdim,*
*Sonalar gölündə üzəndə, Çilgəz.*
*Qıy çəkər laçınlar, səslənər dağlar,*
*Səkib kəkliklərin süzəndə, Çilgəz.*

*Qarışıb bənövşə qərənfillərə,*
*Yaylaq göy fərşini açıb ellərə,*
*Göz doymur baxmaqdan şux gözəllərə,*
*Can alır  qəmzəsi gəzəndə,  Çilgəz.*

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 110

*Nərgizin boynuna qol salıb lala,*
*Zanbaqlar gəzdirir əldə piyalə,*
*Vüqarlı qayalar dalmış xəyala,*
*Yamacda, dərədə, düzəndə, Çilgəz.*[1]

Aşıq Şəmşir öz yaradıcı qətiyyəti ilə dağlara nə üçün müraciət etdiyini bizə yox, dağlara deyir:

*Adın bir şeirimdə olmasa sənin,*
*Olarmı sözümün marağı, dağlar?!*[2]

Aşıq Şəmşirə elə gəlir ki, kim unudur unutsun! Ömrünü dağlara bağlamış babasını və atasını yaşatdığı kimi dağlar zaman-zaman onu da yaşadacaqdır. Dağlara baxdıqca eşqi, vüqarı güclənən, qüvvətlənən Aşıq Şəmşir "Kəpəzin" şeirində böyük ümid və iftixarla deyir:

*Baxanda Murova, Çilgəzə sarı,*
*Şəmşirin çoxalır eşqi, vüqarı,*

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 121

[2] Yenə orada. səh 124.

*Qoy qalsın sözlərim yadigar, barı,*
*Yazılsın köksünə yazı Kəpəzin!*[1]

Aşıq Şəmşir təkcə Kəlbəcər dağlarını deyil, Azərbaycanın hər güşəsində, hər bölgəsində olan dağları tanıyır, seyr edir. Onların gözəlliklərini, gözəlliklərinin yeni çalarlarını duya-duya şeirinə gətirir. Qarabağın əzəmətli dağlarından biri olan Ərgünəş çoxlarının üzüyünün brilyant qaşı kimi tərənnüm olunmuşdur. Şəmşir Ərgünəş dağının seyrinə dalır, duyğulanır və yazır:

*Ucalıqdan tapıb qüdrət nicatı,*
*Axıdır köksündən abi-həyatı,*
*Lalədən, nərgizdən olur çarğatı,*
*Dumana bürünür başın, Ərgünəş.*[2]

Aşıq Şəmşir dağları gördükcə görmək istəyir. Yüz dəfə gördüyü dağları bir də görmək istəyir. Elə bil ki, ana balanı, bala ananı gözdən qoymayan kimi Şəmşirdə də dağlara belə dəlicəsinə bağlılıq vardır.

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 231.
[2] Yenə orada. səh 127.

*Haray bizim başı dumanlı dağlar!*
*Bax, ay gözüm, yaxşı tanı, görünsün.*
*Kəndimizin Sarı yalı, Buzluğu,*
*Şiş Qayanın Bəzirganı görünsün.*[1]

Aşıq Şəmşir təbiətin seyrinə çıxanda çəmənlərin gülü-çiçəyi sərgilənirdi, dağların sərin mehi ilə birlikdə onların ətri, rayihəsi onun burnuna dəyirdi, könlünü oxşayırdı, duyğulandırırdı. Bax beləcə bənzəri olmayan şeirlər yaranırdı, sanki bunlar gəraylı, qoşma deyildi, bunların hər biri şehli-şehli səpilib gül-çiçək dəstələyirdi.

Şəmşir təkcə dağlara vurğun bir şair deyildi, o bəstəkar idi, müğənni idi, aşıq idi, dağlara baxanda "Cəngi" çalıb oxuyurdu, dağ başında buludlar qeyzə gəlirdi, bulaqları, çayları görəndə ana laylası çalırdı, sonalar göllərdə çalxalanırdı.

Aşıq Şəmşir dağların sirrinə, sehrinə, tərcümeyi-halına, tarixi keçmişinə, gözəllik nişanələrinə elə dərindən bələddir ki, baxanda hər şey ona aydın görünür. Doqquz bəndlik "Gəl" rədifli şeirində "Qarabağ gözəli" deyə müraciət etdiyi gözəli vəsf etmir, ona bir obraz kimi müraciət edərək, dağların nadir gözəl-

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004 səh 128

liklərini göz önünə gətirir. Aşıq Şəmşirin mövzu seçimi də, təsvir üsulu da, deyim tərzi də qeyri-adidir. "Gəl" şeirinin hər bəndində dağların bir məziyyəti üzə çıxır, insanı heyrətə gətirir, dağların füsünkar təbiəti onu özünə cəlb edir, insan dağların zövqü-səfasından doymaq bilmir.

"Gəl" şeirinin ilk bəndi belə başlayır:

*Qarabağ gözəli, bizim dağlara,*
*Zimistanın gözü yumuşanda gəl.*
*Buzlu bulaqların buzu sınanda,*
*Nərgizin dodağı qımışanda gəl.*

Zimistanın gözü nə zaman yumuşur, bulaqların buzu nə zaman sınır, nərgizin dodağı nə zaman qımışır? Əlbəttə, yaz, Novruz bayramı gələndə, təbiət qış yuxusundan oyananda, hər fəslin öz vaxtı olduğunu qeyd etməklə, qarağatın, çiyələyin olduğu vaxtda, bənövşə və qərənfilin şehə bələnib, lalənin yarpağının titrəşdiyi zamanda dağlara gəlməyi məsləhət görür.

Şeirin üçüncü bəndində dağlarda daha hansı gözəlliklərin boy verdiklərini bir-bir sayır və onların məcmuu əsasında bədii bir lövhə yaradır.

*Çayların üstündə çığrışanda qaz,*
*Göllərdə sonalar çimişəndə gəl.*

Ümumiyyətlə, Aşıq Şəmşir dağları vəsf etməkdən doymur, hər dəfə də, onun bir neçə gözəlliyini birdən tərənnüm edir. Yaz özü ilə bizlərə nələr gətirdiyini özünəməxsus bir şəkildə bizə çatdırır:

*Buludlar karvanı dağdan aşanda,*
*Sellər köpüklənib qucaqlaşanda,*
*Quzular mələşib sızıldaşanda,*
*Körpəcə əmliklər əmişəndə gəl.*

Dağların heç bir gözəlliyi Aşıq Şəmşirdən gizli qala bilmir. O, uşaq vaxtından dağları bir "Ana kitabı" kimi sətir-sətir, səhifə-səhifə oxumuşdur.

Dağlar onun daxili, mənəvi və poetik aləmindədir. Şəmşirin poetik düşüncəsi, dərin müşahidəsi onu başqalarından fərqləndirir. Onun daxili aləmi çox zəngindir.

O, bunları çox sayda kitablar oxumaq, müşahidələr aparmaq, ustadların yolunu dərindən izləmək, onlardan öyrənmək sayəsində qazanmışdır. Bu aşağıdakı bəndi Şəmşirdən başqa kim yarada bilərdi?

*Dan yeri səslənib, dağ uyuyanda,*
*Səhərin ətrini ürək duyanda,*

*Buzlu bulaqlarda əl-üz yuyanda,*
*Qızların barmağı göyüşəndə gəl.*

Müasirlərindən Aşıq Şəmşir səviyyəsinə qalxan, sənətin fövqündə dayanan sənətkar tək-tək tapılar. O, yaylaq dövrünü elə təsvir edir ki, Taxta yaylağında ulduz-ulduz sayrışan alaçıqlar gözönünə gəlir. Dağda kəkliyi görürsən, Qızılquşun onu ovladığını görürsən. Laçın quşunun öz ovunu alarkən nə qədər əziyyət çəkdiyini müşahidə edirsən:

*Dağda soyuq da var, qar da, boran da,*
*Ləzzət verir yay alaçıq quranda,*
*Qızılquş qayada kəklik vuranda,*
*Laçınlar ovuna gəmişəndə gəl.*

Aşıq Şəmşir meşələri seyr edir. Oradakı gözəlliklərə məftun olur və yazır:

*Əliklər meşədə qoyun-qoyuna,*
*Doluşub kölgədə yatışanda gəl*[1].

Aşıq Şəmşir dağları belə coşqu ilə, maraqla təsvir və tərənnüm edir. Bəs üz tutub müraciət

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 237.

etdiyi gözəlin özünü, gözəlliyini, cazibədarlığını, könlünə yatımlı olan həmin gözəli necə qələmə alır, qeyri-adi şeiri ilə, deyimi ilə, söz düzümü ilə necə razı salır?

*Atəşində qovrulaydım, yanaydım,*
*Pərvanə şamlara qalanan kimi.*
*Bələnəydim ağ sinənin tərinə,*
*Bənövşə şehlərə bələnən kimi.*

Aşıq Şəmşirin babası Miskin Abdalın, atası Ağdabanlı Qurbanın “Məğribdən-Məşriqə”, yəni gündoğandan günbatana qədər səf çəkib duran, düzümlənən, başı buludlara dəyən füsünkar dağlardan doymadıqları kimi nəsil soyunun söz-sənət varisi Şəmşir də doğma dağlardan doymamışdır. Şəmşir həyatının son anlarında da dağları qəlbindən çıxartmamış, hətta özünü də, qohum-əqrabasını da, övladlarını da dağlara tapşırmış, köçüb getsə də əmanət etdiyi dağların onun övladlarına arxa olacağını bilərəkdən üzünü dağlara tutub deyir:

*Qıymaram çəmənin, çiçəyin solsun,*
*Yağsın ağ yağışın, göllərin dolsun,*
*Mən köçüb getsəm də, qoy qismət olsun,*
*Yaylağın oğluma, qızıma, dağlar.*

Hətta Şəmşir şirindən-şirin olan dağların ayrılığı yada düşəndə kövrəlir, lakin bircə təsəlli tapır ki, onu unudulmağa qoymayacaq çox nişanələr var. Bu münasibətlə o deyir:

*Keçsə şəyirdlərim cığırlarından,*
*Baxıb köks ötürər izimə, dağlar.*

Doğrudan da, insan dünyadan köçdüyü zaman ölmür, insan o zaman ölür ki, o, unudulur, yaddan çıxır. Aşıq Şəmşir unudulmayan, həmişə yaşar sənətkardır.

Aşıq Şəmşir təbiətin və dünyanın təxti Süleymanı kimi, quşların dilini bilirdi. Qayalarla və dağlarla danışa bilirdi. Hər belə görüşdən sonra şövqə gəlirdi, duyğulanırdı. Dağlar haqqında, güllər, çiçəklər, bulaqlar və çaylar haqqında yeni, bakirə, orijinal gəraylılar, qoşmalar dünyaya gəlirdi. Əfsanəli qayalar və dağlar Kəlbəcərdədir. İnsanı dərin düşüncələrə qərq edən Keyti-Meyti dağlarının yaddaşında ədəbi bir macəra yaşayırdı. Ovçu Pirimlə qardaşı Kərənənin (Kəlbinin) nağılı "Keyti" dağına bağlıdır. Şəmşir təkcə aşıq-şair deyildi, bəstəkar idi. Dağların rüzgarı, bulaqların zümzüməsi onun çaldığı havalara yeni çalarlar bəxş edirdi. Aşıq Şəmşir çalanda dinlədikcə dinləmək istəyirdin. Həm də Şəmşirin zehnində, yaddaşında

xalqımızın tarixi yaşayırdı. Məhz şairimiz Səməd Vurğun uzun müddət sinəsi dolu, şövqlü, ehtiraslı, duyğulu, qüdrətli bir sənətkar axtarırdı. Nəhayət xalq şairimiz Səməd Vurğun Aşıq Şəmşirin timsalında belə bir sənətkarı tapdı.

Biz Nizami Gəncəvinin həyat və yaradıcılığına dair məlumatlar əldə etmək üçün ən etibarlı mənbə kimi Nizaminin "Xəmsə"sinə müraciət edirik. Nizami əsərlərində olan maddi tarixlərlə qismən də olsa onun tərcümeyi-halının bəzi məqamlarını bərpa edirik.

Bu işdə Nizaminin dövrü, həyatı haqqında yazılı mənbələrlə yanaşı folklor materillarından, xüsusi ilə əfsanələr və rəvayətlərdən ağılabatan məlumatlar əldə etmək olur.[1]

Əgər Aşıq Şəmşir öz sağlığında yazıb qoyub getməsəydi belə, onun şeirlərindəki tarixlə onun həyatını, doğulduğu ili, doğulduğu coğrafi məkanı, atası və anası haqqında məlumatları şeirlərindən bilərdik. Bu, hər şeydən əvvəl Aşıq Şəmşirin savadlı olması ilə bağlıdır. Onun XVI əsrdən bəri çağlayıb gələn nəsil səcərəsi ilə, o nəslin ənənələri ilə bağlıdır. Aşığın ulu babası, XVI əsrin böyük şairi Miskin Abdalın, atası Ağdabanlı Qurbanın savadlı olmaları Şəmşir

[1] Sədnik Paşayev, "Nizami və Folklor" Bakı 1976, yenə də həmin müəllifin "Nizami və xalq əfsanələri". Bakı 1983.

üçün bir örnək olmuşdur. Sanki babamız Füzulinin "Elmsiz şeir özülsüz divara bənzər" kəlamı hamı üçün deyil, Şəmşirin ulu babası Miskin Abdala, atası Ağdabanlı Qurbana, Şəmşirin özünə və ondan sonra sənət meydanına gələn Qurban ocağının pərvanələrinə deyilmiş bir sözdür.

"Xoruzun dastanı" adlı gülməli, çox bəndli müxəmməsin bir yerində Ağdaban kəndində yerləşdiyi coğrafi məkan haqqında belə məlumat verir:

*Kəndimiz yüz dərənin, yeddi*
*dağın arasıdır.*[1]

Aşıq Şəmşir doğulduğu il haqqında öz şeirlərində maddeyi-tarix verir. Aşıq Şəmşir "Mənim" adlı dörd bəndlik qoşmasının ilk bəndində deyir.

*Min səkkiz yüz doxsan üçdə anadan,*
*Olmuşam, bu qədər yaşım var mənim.*
*Murov, Qoşqar, Kəpəz, Çilgəz, Dəlidağ,*
*Məskənim olubdu bu dağlar mənim.*[2]

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004 səh 428

[2] Yenə orada, səh 139

Aşıq Şəmşir savadı, sənəti, şeir düzüb-qoşmağı atası Qurbandan öyrəndiyini dönə-dönə şeirlərində dilə gətirir.

*Eşit bu kəlməni, süxəndən, ata,*
*Ey ağıl dəryası, ey ümman, ata,*
*Ruhuna olmuşam duaxan, ata,*
*Bu Şəmşirdi yadigarı Qurbanın.*

Atası Qurbanın dərya-dəniz, onun yanında özünün bir ada olduğunu belə dilə gətirir.

*Mən bir sızqayamsa, atam bir dərya,*
*Həmin o dəryanın adasıyam mən.*
*Onun şeiri bənzər daşqın bir çaya,*
*Payıma nə düşsə, dadasıyam mən.*[1]

Aşıq Şəmşir atasını bir sənətkar olaraq öydüyü kimi, anası Səlmini də yada salır. Qarşıdakına öyünərək deyir - "Məni Səlmi doğub, səni isə Lala". Sonra bir bənd daxilində fikrini belə tamamlayır:

*Əzəl gündən heyran oldum camala,*
*Yandım atəşinə, düşdüm nə hala...*

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004 səh 142

*Məni Səlmi doğub, səni isə Lala,*
*Çatmadı dəstinə dəsti Şəmşirin.*[1]

Aşıq Şəmşir təkcə şeir yazmaq ənənələri ilə maraqlanmırdı, onun maraq dairəsi çox geniş idi, ömrü boyu təbiətlə, onun dağları ilə maraqlandığı kimi, öz torpağına, yurduna, dağlarının əfsanəsinə, qeyri-adi hadisələrinə böyük əhəmiyyət vermişdir. Kəlbəcər dağları ilə əlaqəli əfsanələri, sərgüzəştləri Aşıq Şəmşir çox mükəmməl bilirdi. Əlli ilə yaxındır ki, biz onunla yaradıcılıq əlaqəsi saxlamışıq. Ondan öyrəndiyim maraqlı əfsanə və rəvayətlərin çoxunu kitablarıma daxil edib, nəşr etdirmişəm. "Əfsanə" kitabında "Keyti dağı", "Ovçu Pirim və qardaşı Kərənə" rəvayətini, "Eldən-obadan eşitdiklərim" kitabında, "Azərbaycan xalq söyləmələri" kitabında xalq qəhrəmanı "Haxo Nəbi" haqqında söylədiyi sərgüzəştlər çap olunmuşdur.

"Keyti dağı" əfsanəsini Aşıq Şəmşir çox qədim dövrlərlə əlaqələndirirdi. Şəmşir əmi deyirdi ki, "Keyti-Meyti dağları maral sürüləri ilə dolu olub, Keyt sözü – maral deməkdir. Keyti maralların cəmi, sürüsü deməkdir. Bu dağlarla bağlı əfsanə və rəvayətləri, macəraları, sərgüzəştləri bilici babalarımız saralmış yarpaq-

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004 səh 101

lara deyil, dağların sinəsinə çapıb yazıblar ki, yaddaşdan çıxmasın, gələcək nəsillər bunlardan xəbərdar olsunlar, həmin dağların çəmənində yerləşən Zar kənd tarix üçün bir möcüzədir. Burada yazılmış, daşlara çəkilmiş maral rəsmləri bir damı üstündə saxlayan tək dirək, bu dirək bütövlükdə elə bir daşdan qoyulmuşdur ki, baxdıqca baxmaq istəyirsən, babalarımızın ağlına, zəkasına heyran qalırsan. Qışda isti, yayda sərin olan bu dam özü çətin ağıla gələn bir şeydi. Hələ Zar kəndə yaxın olan dəliqanlı Keştək kəndində iki qəbirstanlığın olması insanı heyrətləndirir.

Biri sadə bir məzarıstandı, lakin ikincisi möcüzədir. Bu mənada ki, kimin ölümü nə ilə əlaqəli olmuşsa, bütün macəra və süjet qəbir daşlarında, sənduqələrdə həkk olunmuşdur.

"Daş nağıl" adlandırılan yanaşı qəbirlərin üzərində gənc qız və oğlan uyuyur, oğlanın birini qardaşı bilmədən yay oxu ilə vurub öldürür. Oğlanın qardaşı bu faciəni görüb özünü də öldürür. Bu zaman Keytinin nişanlısı bu mənzərini seyr edir, bu hicrana dözməyib özünü öldürür. Qızın sinəsindəki medalyonda insan şəkli var, bütün söylədiklərimiz nağıl məzarların başdaşlarında həkk olunmuşdur. Keyti-Meyti dağları onun ətəyində yerləşən Zar və Keştək yaşayış məskənidir. Ona görə də insan oğlunun

zəkası, xatirələri bu yerdədir. Aşıq Şəmşir Keyti dağı əfsanəsini danışarkən bulud kimi dolurdu, kövrəlirdi, qəmlənirdi, qüssələnirdi, az qala cümlələri qırıq-qırıq danışırdı.

Keyti-Meyti adlı iki mahir ovçu qardaş olur, hər ikisi dağlarda maral ovlayırlar. Keyti nişanlı olur, nişanlısı Ağcaqız bunları seyr edə-edə gül-çiçək dərir. Keyti ilə Meyti öz məharətlərini sınamaq üçün mərcə girirlər. Keyti Meytiyə deyir ki, kənddən duz gətir, mən də ocaq qalayım o müddətdə hərəmiz bir maral ovlayaq görək kim daha qoçaqdı.

Keyti bir maral ovlayır, dərisini soyur, onun dərisinə bürünür. Meşənin təpəsində maral dərisi də əynində onu yuxu tutur. Elə bu anda meşənin o biri tərəfindən gələn Meyti "yatmış maralı" oxla vurur, yaralı maral nalə çəkəndə bilir ki, öldürdüyü qardaşı Keytidir. Keytinin üstə yıxılaraq özünü öldürür. Dərdiyi çiçəkləri qardaşların üstə səpərək Ağcaqız da intihar edir. Elə bu zaman Ovçu Pirim gəlib buraya çıxır və o qanlı faciəni görərək deyir.

*Pirim deyir, budur yurdun,*
*Gözəl yerdə məskən qurdun.*
*Xub gözləyib dürüst vurdun,*
*Qurusun qolların sənin.*

Ovçu Pirim bütün canlıların, hətta bitkilərin, ağacların dilini bilirmiş. Səsindən tanıyırmış ki, bu qırqovuldur, bu turacdır, bu bildirçindir və hər hansı bir heyvandı. Onun qardaşı Xan Kəlbi (ikinci adı Kərənədir) bütün heyvanların səsini çıxara bilirmiş. Bir gün Xan Kəlbi qardaşı Ovçu Pirimə deyir ki, gəl birlikdə meşəyə, ova çıxaq. Ovçu Pirim bildirir ki, qardaş, oturduğun yerdə otur, qəlbimə dumanlı şeylər gəlir. Xan Kəlbi bildirir ki, olan şey deyil, mən bu gün səninlə ova getməliyəm. Xan Kəlbi qardaşından xeyli aralanıb cəngəlliyə girir və orada maral səsini çıxarır. Ovçu Pirim xeyli vaxt idi ki, meşə maralının ətinə tamarzı imiş. Tüfəngi nişanlayıb atır və qardaşı Kərənənin səsini eşidir. Gəlib görür ki, qardaşını vurub öldürüb. Ovçu Pirim burada beş bənd şer söyləyir.

*Çaxmağı çəkdim ki, od düşdü qova,*
*Çaxnaşdı buludlar, bəd oldu hava.*
*Dağılsın bu gün ki, mən çıxdım ova,*
*Keyik bilib, Xan Kəlbini öldürdüm.*

*Yaraq, səni zərgərlərə döydürdüm,*
*Əziz bilib zər-zibaya qoydurdum,*
*Bu günləri öz gözümü oydurdum,*
*Keyik bilib, Xan Kəlbini öldürdüm.*

*Yaraq, səni açılmayıb, qalasan,*
*Nə nişan götürüb, nə ov alasan,*
*Canıma yağısan, başa bəlasan,*
*Keyik bilib, Xan Kəlbini öldürdüm.*

*Yaraq, görüm sənin xəznən boş olsun,*
*Tətiyin pas tutsun, qovun yaş olsun,*
*Barmağın qurusun, əlin daş olsun,*
*Keyik bilib, Xan Kəlbini öldürdüm.*

*Ovçu Pirim, halını kim sorubdu?*
*Öz ağlım özümə tələ qurubdu,*
*Yazı tərs yazılıb, qəza vurubdu,*
*Keyik bilib, Xan Kəlbini oldürdüm.*

Keyti dağı əfsanəsi çox qədim etiqadlara bağlıdır. Burada dağ kultundan, ovçu və maral totemlərindən bəhs olunur. Bunları araşdırmalar zamanı üzə çıxarmaq olur. Keyti marallarla əlaqələndirilir. Keyti-Meyti, Ağcaqız və Ovçu Pirim folklorun ən qədim və məhşur obrazlarıdır. Bu ünlü obrazların adına başqa folklor nümunə-lərində də rast gəlirik. Xüsusilə Ovçu Pirim sehrli nağılların və rəvayətlərin ən tanınmış əsatiri obrazlarından biridir. Ovçu Pirim əsatiri obraz olsa da onun haqqında yaranan miflər get-gedə epikləşərək əfsanələrə çevrildiyi kimi Ovçu Pirim də epik qəhrəmana çevrilmişdir. Bu

yaradıcılıq prosesini və folklordakı qanunauyğunluqları nəzərə alaraq belə bir nəticəyə gəlmişəm ki, əfsanə tarix deyil, lakin əfsanə tarixsiz də deyil. O həqiqətin özünü, izini və ya hər hansı bir əlamətini özündə yaşadır.

Əsatirlə əfsanənin əlaqəsini aydınlaşdırmağın özü belə möcüzədir. Təbiəti seyr etdikdə gözünə dənizlər, göllər görünür. Gölün sahilə yaxın yerində rəngarəng ağ, göy, sarı, zanbaqlara rast gəlirsən, düşünürsən, bu zanbaqların kökü dənizin dibindədir, ya divarında? Axı, hər bir bitkinin kökü torpağa bağlıdır. Axı hər bitki üz boyasını, zəngin torpağa bağlı kökündən alır. Bax, o zanbağın gözəgörünməyən kökü əsatirdir. Gözəlliyi ilə insanı özünə cəlb edən zanbaq isə gerçəkliyə bağlı əfsanədir. Daha doğrusu, şərti olaraq onu deyə bilərik ki, zanbağın gözə görünməyən möcüzəli tərəfi əsatirdir, gözə görünən, boyalarla, rənglərlə bəzənmiş tərəfi isə əfsanədir. İkinci onun bəlkə də təsiri ilə yaranmış rəvayətdir, lakin bu rəvayət özünü dağla-daşla bağlayaraq toponimik adlar qalareyası yaratmışdır. Məsələn, Ovçu Pirimin evi deyilən böyük qaya taxçası var. Bunun özü obrazın daxili aləmini, keçmişini öyrənməyə tədqiqatçıya imkan verir.

Hər bir toponimdə, rəvayətdə tarixi şəxsiyyətlər özlərinə yer almış və orada məskun-

laşmışdır. Toponimin içərisində bu toplunun tarixi və ya bir xalqın tarixinin bir parçası yaşayır.

Aşıq Şəmşirlə 50 ilə yaxın yaradıcılıq əlaqəsi saxlamışam, lakin onun Azərbaycan folk-loru üçün çox gərəkli olan söz-söhbətindən doymamışam. O, təkcə Aşıq yaradıcılığı deyil, Azərbaycan folklorunun bütün janrlarına bələd idi. Mən deyərdim ki, o, insanı anlayan, qarşı-sındakını duyan bir psixoloq idi. Bir dastana min hekayət rəvac verib danışanda orada elə bir eşidilməmiş, gülüş doğuran lətifələr, gülməli hadisələr danışırdı ki, bütün yorğunluğun bir an içərisində yadından çıxırdı.

Aşıq Şəmşirdə eşitdiklərini yadda saxlamaq qabiliyyəti çox güclü idi. Bir gün atası azman, aşıq-şair Qurbandan şeirlər yazırdım. Yəni Qur-banın əlyazmalarının üzünü köçürürdüm. Birdən bir qəribə ifadə meydana çıxdı.

Aşıq Şəmşir Haxo Nəbidən iki maraqlı əhvalat - "Haxo və dəliqanlı" və "Nəbi neynəsin" əhvalatlarını danışdı.

"Keştək kəndində bir dəliqanlı varmış. Zor-luyam deyib yetənə yetərmiş, yetməyənə bir daş atarmış.

Atası ağıllı kişiymiş, bilir ki, bir gün oğlunun burnunu ovub havasını alacaqlar, tək-cə beləliklə qurtarsa yaxşıdır, Haxonun cənginə

keçər, boynunu bircə dəfə burub atar, ona görə də oğluna tapşırır:

- Oğul, birdən Haxoya rast gələrsən, ha.

Oğlan yenə sığışmır, özündən deyir:

- Mənim meydanımda Haxo kimdir.

Oğlan bir gün uzaqdan görür ki, Haxo qabağında yüklü ulaq dəyirmana gedir. Bu da onun dalınca düşür. Fikirləşir ki, iki qoçun başı bir qazanda qaynamaz, ya o, ya mən.

Oğlan dəyirmana çatanda görür Haxo dənini üyütməyə başlayıb.

Onun üstünə şeşələnir:

- Yığışdır dənini.

Haxo bir əlini od püskürən dəyirman daşının üstünə basıb onu saxlayır, oğlandan soruşur.

- Nə dedin, a bala?

İşi belə görən oğlan deyir:

- Heç, əmi, soruşdum ki, bizə də növbə çatacaqmı?".

"Bir gün Nəbi qardaşı Bəndalı ilə haradansa gəlirmiş. Gəlib Tutqu çayından keçərkən Bəndalını su ağzına alır, atı ilə bərabər aparır. Nəbi qardaşının atı çox istədiyini bilirmiş. Deyir görüm bu ölüm ayağında da ondan ötrü atı şirindir, ya canı? Soruşur:

- Qardaş, ikinizə birdən gücüm çatmayacaq, de görüm qabaqca səni çıxarım, yoxsa atını?

Bəndalı deyir:

- Atımı.

Nəbi onların ikisini də sahilə birlikdə çıxarır.

Aradan illər keçir. Bəndalı ölüm yatağına yıxılır.

Nəbi görür ki, qardaşını əcəl aparmaqdadır, tab gətirə bilməyib Bəndalının yanında ağlayacağını hiss edib, çölə çıxmaq, gözlərinin yaşını xəlvətdə axıtmaq istəyir. Bəndalı çağırıb onu saxlayır:

- Yanımdan getmə, Əzrail gəlib, bəlkə məni onun əlindən təkcə sən alasan.

Nəbinin gözünün yaşı sel kimi axır, gözləri ərş-gürşlə əlləşən qardaşına yana-yana baxıb ürəyində deyir:

- Qardaş, Tutqu çayı olsaydı, nə dərdim vardı, bu əcəldir, ölümə kimin gücü çatıb ki, mənimki də çata".

Bu qədər əfsanə və rəvayətləri, dastanları, lətifələri, atalar sözlərini yalnız Şəmşir kimi böyük sinədəftər, kamil bir insan öz daxili aləmində yerləşdirə bilərdi. Öz mənəvi dünyasını zənginləşdirərək sənətin fövqünə yüksələ bilərdi. Şəmşirin daxili poetik aləmi bitib tükənməyən bir xəzinədir. Şəmşirin bilmədiyi nə var idi?! Aşıq Şəmşirin timsalında özüm üçün yəqin etmişəm ki, aşıq ümumilikdə folklorun, o cümlədən xalq yaradıcılığının canlı qolu olan

aşıq sənətinin yaradıcısı, daşıyıcısı, yayıcısı və yaşadıcısıdır. Bu sahədə Aşıq Şəmşirin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir. Biz Aşıq Şəmşir poeziyasının ümumilikdə yaradıcılarından biri, ecazkar saz-söz ustası kimi onun xoşagələn, məziyyətli sədəflərindən xeyli danışdıq. Onda Aşıq Şəmşir kimdir? Onu müasirlərindən kimlə müqayisə etmək olar? Bizə görə heç kəslə. Aşıq Şəmşir elə orijinal, qeyri-adi sazın-sözün vurğunu, elə bir böyük sənətkardır ki, məncə Şəmşiri yalnız və yalnız Şəmşirin özü ilə müqayisə etmək olar. Qartal dağın zirvəsində tək dayanır, onu əhatə edən aləmin bir gücü, bir qüvvəti kimi, məğrur-məğrur ətraf aləmi seyr edir. Qartal elə zənn edir ki, onun gördüyü aləm onun baxışları altındadır, nüfuz dairəsindədir. Bax Aşıq Şəmşir ətrafdakı aləmi öz daxilinə köçürmüş, aləm içərisində aləm yaratmış, qeyri-adi bir sənətkardır. Aşıq Şəmşir də dağ zirvəsində dayanan şeir-sənət qartalıdır. Bu qartalın da özünəməxsus söz dağları, söz gölləri, söz çəmənləri var.

Dastanlarımızdan və klassik aşıqlarımızın həyatından öyrəndiyimiz vergi məsələsi Aşıq Şəmşirdə də var imiş. Aşıq Şəmşirin boğazı o dərəcədə ağrıyır ki, əlini hər şeydən üzür. Aşıqlığın tərgini qılmaq nəticəsinə gəlir. O, piyada Söyüdlü deyilən yerə gəlir və burada bir

müqəddəs ocağın yanında onu yuxu tutur, yatır. Yuxuda Aşıq Ələsgər Şəmşirə deyir:

- Oğul, keyfini pozma, hələ sənin aşıqlıq şöhrətin qabaqdadır, səsin indikindən ötə ötəcək. Adın-sanın hər yana yayılacaq. Dur, yanında bir at otlayır, onu min Ağdabana get.

Şəmşir ayılır, yanında bir at, bir də uşaq görür. Uşaq deyir:

- Şəmşir əmi, atı min kəndiniz Ağdabana get.

Şəmşir atla kəndə gəlir, həmin günün səhəri kəndə xalq təbabəti ilə məşğul olan adam gəlir. O, Şəmşiri türkəçarə ilə müalicə edir. Hansı kənddənsə xəbər gəlir ki, Aşıq Şəmşir, o at sənə çatacaq. At murazdı deyərlər. Yuxuda gördüyü Aşıq Ələsgərə öz minnətdarlıq şeirini yazır və o atı Aşıq Ələsgərin verdiyi at kimi qiymətləndirir. O münasibətlə yazır:

*Sən mənə səadət, barat vermisən,*
*Şəmşirin qəlbinə qanad vermisən!*
*Zərrin irəxtili Qırat vermisən,*
*Durur o verdiyin atım, Ələsgər.*[1]

[1] Aşıq Şəmşir. “O Kürün, Arazın Tərtəriyəm mən”. Bakı 2004 səh 91

Aşıq Ələsgərin yuxuda dedikləri Aşıq Şəmşirə xoşbəxtlik gətirir. O gündən minməyə atı olur. Sinəsi sözlə dolu Aşıq Şəmşir sazı ilə, sözü ilə dağlara səs salır. O gündən Aşıq Şəmşir hiss edir ki, bu dağlarda onu daha böyük, onu ucaldacaq, xoşbəxt gələcəyi olacaq bir hadisə gözləyir. Dağlar Aşıq Şəmşirə, Aşıq Şəmşir dağlara, bir-birinə nikbin baxır. Şəmşir üçün gələcək sabahı gözləyirlər. Sən demə o gün uzaq deyilmiş.

Aşıq Şəmşirin yuxuda Ələsgəri görməsini, ona at bağışlamasını ona görə xatırladıq ki, ulu babası Miskin Abdal kimi onun da həyatı möcüzələrlə doludur.

Vətəni, yurdu sevəndə Aşıq Şəmşir kimi sevəsən. Məhəbbətinlə rəsmini çəkəsən, sazının, sözünün qüdrəti ilə onu qəlbində heykəlləşdirəsən. Görəsən Kəlbəcəri, doğma yurdunu Şəmşir kimi kim sevə bilər. Aşıq Şəmşir on üç bəndlik "Kəlbəcər" adlı müxəmməsində yurdunun coğrafiyasını, onun dağlarını, bulaqlarını, çaylarını və göllərini, çəmən-çiçəklərini nə gözəl dilə gətirir.

*Kəlbəcərdi adın sənin, sahibi-dəftər bəyənib,*
*Səni yaradan təbiət demirəm hədər bəyənib.*
*Abi-həyat səndə imiş, gəlib İsgəndər bəyənib,*

*Torpağını, gözəlini aşıq Ələsgər bəyənib,*
*İgidlərin təriflənib dastansayağı, Kəlbəcər.*

*Sənin loğman əllərindi hər dərdə dərman yetirən,*
*Duyğulu qartal böyüdən, alıcı tərlan yetirən,*
*Kəlməsi dürr xəzinəsi kamallı Qurban yetirən,*
*Piranəyə qədir qoyan, təzə növcavan yetirən,*
*Günbəgündən pardaqlanır şeir ocağın, Kəlbəcər.*

Aşıq Şəmşir öyünür ki, ən gözəl və əzəmətli dağlar Kəlbəcərdədir.

*Bədirbəy, Murov, Qonur, Sultanheydər səninkidir,*
*Taxtadüz, Qaraarxac elə nəzər, səninkidir.*
*Teymurcan, Sarıbulaq bala bənzər, səninkidir,*
*Dastanlı Ceyran bulağı təmi-şəkər səninkidir,*
*Dərdlərə dərman olan kövsər bulağın, Kəlbəcər.*

Aşıq Şəmşir dağları vəsf etməkdən doymur. Çünki bu dağların hərəsinin bir gözəlliyi var, hərəsinin bir şöhrəti var. Bu dağlar sərvət yatağıdır.

Təbiət birinci rəssamdır, ona görə də Şəmşir deyir: "Rəssam əli zivər vurub, ana torpaq sinəsinə". Xınalı şiş qayalar şair aşığın qəlbini iftixar hissi ilə doldurur. O, yaratdığı lövhələrlə hamının diqqətini bu dağlara yönəltmək istəyir. Loğman təbiətli dağlar şəfa suları ilə, dərman otları və çiçəkləri ilə zəngindir. Aşıq Şəmşir

türkəçarə həkimlərin bu dağların dərman otlarından daha yaxşı istifadə etmələri üçün Dəlidağın və digər dağların dərman çiçəklərini bir-bir yada gətirir. Aşıq Şəmşir Kəlbəcərin ecazkar təbiətini, dərdə dərman olan otunu, gülünü, çiçəyini təsvir və tərənnüm etməkdən doymur.

*Ətotusu, qılınc otu, bulaq üstə lilparı var,*
*Yel gətirən, qaya çayı, piltanın müşkəmbəri var,*
*Boyxaç, nərgiz, saf qantəpər süsənlərin şeşpəri var,*
*Qərənfil, bahar gülünün, sünbülün əcəb səri var,*
*Yemlik, qulançar, sündürük, xatınbarmağın, Kəlbəcər.*[1]

Aşıq Şəmşir doğulub böyüdüyü, ərsəyə gəldiyi, bir aşıq-şair kimi şöhrət tapdığı doğma Kəlbəcərinin təbiətinə, florasına və faunasına yaxşı bələd idi. Aşıq Şəmşir deyirdi ki, vətəni tanımadan onu sevmək olmaz. O, mənə gülə-gülə qəribə bir əhvalat danışdı. "Bir gənc oğlan bir qızın qabağını kəsir və deyir:

- Səhərdən sizi gözləyirəm.

Qız soruşur:

- Nə üçün gözləyirsən?
- Çünki səni sevirəm.

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004, səh 422

- Niyə sevirsən?
- Çünki sən hamıdan gözəlsən.
- İndi ki, belə gözəllik aşiqisən bacım məndən də gözəldir. Gözlə, az vaxtda gələr.

Oğlan axşamacan gözləyir, lakin heç kəs gəlmir. Qız yenə səhər o yolla gələndə Oğlan deyir:

- Dünən axşamacan gözlədim bacın gəlmədi.

Qız cavab verib deyir ki:

- Mənim bacım, qardaşım yoxdur, təkəm. Mənim nəslimi, ata-anamı tanımırsan, kimliyimi bilmirsən. Bəlkə mənə yox, qırmızı tumanıma vurulmusan? ”.

Aşıq Şəmşir bu söhbətdən sonra ciddi görkəm alıb dedi:

- Bax, vətən də, yurd da belə bir dilbər gözəldi. Təkcə onun bahardakı gülünə, çiçəyinə vurulmaq lazım deyil. Vətəni yaxşı-yaxşı tanımaq sərt qışını da, boranını da sevmək lazımdır. Onun soyuğuna, istisinə dözmək lazımdır. Vətənin nə olduğunu dərindən duymadan onu gözü kirpik qoruyan kimi qorumaq olmaz.



**_Cavid Qurbanov,_**
**_Aşıq Şəmşirin nəvəsi_**



**_Aşıq Şəmşirin evi_**

Aşıq Şəmşirə görə elə bil dünyanın başlanğıcı Kəlbəcərdədir, onun doğulduğu Ağdaban kəndindədir. Bu hissi yaşamaq üçün Aşıq Şəmşirin bir bənd şeirini xəyala gətirmək kifayətdir. Gör torpağını, daşını sevə-sevə necə tərənnüm edir.

*Özüm Kəlbəcərli, eşqim yüz bulaq!*
*Hər səhər ətrini gətirir sazaq.*
*O yerlər gözümdən olmasın uzaq,*
*Şəmşir üçün hər nişanı görünsün!*[1]

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004, səh 231

Aşıq Şəmşirin bütün varlığı o dağlara bağlıdır. Oğlu Qəmbərə ithaf etdiyi dağlar şeirində, Şəmşir kimi o da dağların gözəlliklərini görməli və duymalıdır. Bu Şəmşirin ata arzusudur.

*Daxil olub, torpağına səcdə qıl,*
*Bəlkə məni səndən soruşdu dağlar.*
*Suyu şərbət bulaqlara salam ver,*
*Nə zaman ki, sənlə görüşdü dağlar.*

*Şəmşirin qəlbinin var bir diləyi,*
*Gəlsin ovlağına Güllər mələyi,*
*Quzeyin moruğu, döşün çiçəyi,*
*Görərsən bir-birinə qarışdı, dağlar.*[1]

Bu yerdə Aşıq Şəmşirin şəxsiyyətini, fitrətən aşıq-şair olduğunu daha dərindən duyan bilən əvvəl poetik bir dillə söyləyən Bəhmən Vətənoğlunun Aşıq Şəmşir haqqında yazdığı şeiri deməyib ötüb keçsək, Bəhmənin ruhu bizdən inciyər, bizi bağışlamaz. Bəhmən Vətənoğlu bu şeirini necə səmimi, bakirə duyğularla yoğurub ərsəyə gətirmişdir. Şeirin hər misrası məna yükü ilə doludur. Biz Bəhmən şairlik

---

[1] Aşıq Şəmşir. “O Kürün, Arazın Tərtəriyəm mən”.Bakı 2004, səh 150

qabiliyyətinə, deyim tərzinə şeiri oxuduqca heyran qalırıq.

*Anadan şair olmasan,*
*Şeir sənə sənət olmaz.*
*O Nizami sənətidir,*
*Hər yetənə qismət olmaz.*

*İnci təki düzülməsə,*
*Həqiqətdən üzülməsə,*
*Pak ürəkdən süzülməsə,*
*Söz müqəddəs nemət olmaz.*

*Al qələmi fikirləş bir,*
*Hər parlayan olarmı dür,*
*Hər aşıqdan Aşıq Şəmşir,*
*Hər şairdən Səməd olmaz.*

Şair Sücaət də Kəlbəcərin Şəmşir kimi böyük sənətkarı olduğu üçün hər yerdə öyünürdü və qürur hissi ilə keçirdiyi hissi, düşüncəni şeirə gətirirdi.

*Mən fəxr edirəm ki, Kəlbəcərliyəm,*
*Şairlər yetirən elim var mənim.*
*Xalqımın incilər xəzinəsində,*
*Aşıq Şəmşir kimi ləlim var mənim.*

Şair Vaqif Nəsibli Sücaətin ölümü münasibəti ilə yazdığı şeirində onu Aşıq Şəmşirin xələfi kimi qiymətləndirir. Şeir bəndinin ilk misrası da Şəmşirlə başlanır.

*Şəmşir çeşməsindən şərbət içərdi,*
*İnci yaradardı, inci seçərdi,*
*Nəsibli yaşasa yüzü keçərdi,*
*Onu Kəlbəcərin dərdi apardı.*

Yurdumuzda Aşıq Şəmşir poeziyasının vurğunu olmayan, onun şəxsiyyətini sevməyən, şeirlərini bilməyən, əzbərləməyən tək-tək aşıq olar. Təkcə aşıqlar deyil, bütövlükdə xalqımız Aşıq Şəmşiri sevir və onun adı gələndə böyük qürur hissi keçirir.

## *II BÖLÜM*

## *Aşıq Şəmşir və Səməd Vurğun*




Səməd Vurğun nə üçün Aşıq Şəmşiri öz yanına Bakıya çağırıb görüşməmişdir? Əksinə, özü Kəlbəcər dağlarına Şəmşirin görüşünə getmişdir. Aşıq Şəmşirin böyüklüyü, sənətinin sirli-sehirli aləmi məhz bu məqamda üzə çıxacaqdır.

Səməd Vurğunun qəzəllərini, mahnıya bənzər qoşmalarını, gəraylılarını xanəndələr, aşıqlar oxuyurdular. Lakin bunlar Səməd Vurğunun mənəvi dünyasını təmin etmirdi, bu

onu qənaətləndirmirdi. Səməd Vurğun aşıq yaradıcılığına, aşıq sənətinə möhkəm tellərlə bağlanmaq üçün yollar axtarırdı. Axı, xanəndə sözün yurdunu ifa edən zaman danışmır və ya ona yurd düzəltmir. Şah İsmayıl Xətaini xalq yaradıcılığı ilə qovuşduran, onun şeirlərini məclislərin yaraşığı edən Dirili Qurbani, Miskin Abdal, Pirsultan Abdal kimi azman sənətkarlar olmuşdur. Onlar Şah İsmayıl Xətai irsini nəinki Azərbaycanda, hətta Türkiyənin Anadolusunda, Diyarbəkirində geniş yaymışdılar. Bu gün də Mövlananın Konyasında, Anadolunun Hacı Veli Bektaşi məbədində, Səman və Cəm gecələrində Ş.İ.Xətainin ilahi şeirləri böyük coşqu ilə, məhəbbətlə oxunmaqdadır. S.Vurğun məhz xalq sənətkarları arasında Qurbani kimi, Miskin Abdal kimi azman bir sənətkar axtarırdı. Elə bir sənətkar ki, onunla yanaşı durmaq qabiliyyətinə malik olsun, sözünün qabağına söz deyə bilsin. S.Vurğun el məclislərində olurdu, hər yerdə məşhur aşıqların yaradıcılığına, ifaçılığına xüsusi maraq göstərirdi. S.Vurğun Şikəstə Şirinə, Bozalqanlı Hüseynə və digər saz-söz sərraflarına şeirlə məktublar yazdı, onları yerindən tərpətdi. Lakin onların əks-sədasını duymadı və cavabını ala bilmədi. S.Vurğun öz düşüncəsində nəyi isə, kimi isə axtarırdı, lakin tapa bilmirdi. Aşıq Şəmşirin bir qoşmasını dinləməklə sanki Səməd

axtardığını tapdı. Bir dənizin suyunun içməli olub-olmadığını yoxlamaq üçün insan o dənizi kamına çəkməz. İnsan bir damla su ilə də dəniz suyunun hansı dəyərlərə malik olduğunu kəşf edə bilər. Deyəsən, Səməd Vurğun da bir qoşmasının təsiri ilə Şəmşir şeirinin əfsununa düşmüşdür. O cazibədən çıxa bilmirdi. Səməd Vurğun Şəmşir kimi azman sənətkarın timsalında yazılı poeziya ilə aşıq poeziyasını qovuşdurmaq, bir məcrada birləşdirmək istəyirdi. O bilirdi ki, belə bir mahir el aşığı ilə görüşüb, deyişib onu tarixi bir hadisə kimi zehinlərə, şüurlara, ürəklərə həkk edə biləcəkdir. Kəlbəcərdəki görüş yığıncağında Səməd Vurğun qələm-dəftərlə, Aşıq Şəmşir öz sazı ilə meydana girdilər. Səməd Vurğun Aşıq Şəmşirin göz açıb dünyaya baxdığı dağları, bulaqları bir bənd şeiri ilə bir tabloya gətirdi, göz önündə canlandırdı. Şeir belədir:

*Aşıq Şəmşir,  Dəlidağdan keçəndə,*
*Kəklikli daşlardan xəbər al məni,*
*Ceyran bulağından qızlar içəndə,*
*Saz tutub, söz qoşub yada sal məni.*

Aşıq Şəmşirin cavab qoşmasındakı bircə misra Səməd Vurğunu həyəcana gətirdi, varlığını tərpətdi. Aşığın böyüklüyünü, azman sənətkar olduğunu hiss etdirdi.

*Qoşqarla yanaşı duran adın var.*

Qoşqar Böyük və Kiçik Qafqaz sıra dağları arasında Koroğlu kimi bir hökmdardır, yenilməz sərkərdədir. Həmişə başı qarlı, ağ pəmbə buludlu Qoşqar eyni zamanda tarixlər yaşamış hikmətli bir ağsaqqalı xatırladır. Qoşqar Azərbaycanın rəmzi olan möhtəşəm bir heykəldir. S.Vurğun da ağ saçları ilə Aşıq Şəmşir baxışında bu dağa bənzəyirdi. Hər iki sənətkarın şeiriyyətində Qoşqar da, Dəlidağ da bir obraz kimi heykəlləşmişdir. Qoşqarın ağ saçlı dağ heykəli yaradılsın, bir tərəfdə "Ceyran bulağı"nın, bir tərəfdə kəklikli daşların eskizi çəkilsin. "Otaqlı qaya"nın yanındakı sıldırım daşlardan tökülən şəlalənin ağ hörüklərinə oxşayan bir mənzərə yaradılsın və girəcəyin önündə yazılsın ki, bu sənət məbədinin memarı Səməd Vurğun və Aşıq Şəmşirdi. Aşıq Şəmşir "Qoşqarla yanaşı duran adın var" – deyərkən bir memar, heykəltaraş və rəssam kimi bu obrazlar qalareyasını yaradarkən baxışlarını rəssam firçası, sözlərini isə rənglər boyası etmişdir. Bu obrazlar S.Vurğunun və Aşıq Şəmşirin bədii təfəkkürünün məhsuludur.

Miskin Abdal "Dağlar" şerində

*Məğribdən məşriqə səff çəkib durub,*
*Qüdrətdən çəkilmiş baş-başa dağlar.*

deyirsə də, Aşıq Şəmşirin atası Ağdabanlı Qurban da:

*Sən bizə atasan, anasan dağlar*

deyir. Göründüyü kimi Aşıq Şəmşirin şairlik, aşıqlıq şəcərəsi əsrlərin, qərinələrin arxasından boy verib gəlir. Aşıq Şəmşir 500 ildən artıq yazıb-yaratmış, düzüb-qoşmuş, çalıb-çağırmış böyük bir nəslin saz-söz sənətinin varisidir. Nəslin qızıl qələmi, telli sazı, bitib-tükənməyən sözü Aşıq Şəmşirdə cəmləşmiş və onu sənətin fövqünə qaldırmışdır. Təkcə Səməd Vurğunun Aşıq Şəmşiri tanıması, onunla deyişməsi yaddaşlardan heç vaxt silinməyən tarixi hadisədir. Bəlkə də, sənət aləmində bir möcüzədir.

Kəlbəcər dağlarında Səməd Vurğun və Aşıq Şəmşir deyişmə meydanına gələndə sanki iki dağ – Dəlidağla Qoşqar min illər keçəndən sonra dil açıb öz sirlərini-sehirlərini, hikmətlərini xalqa söyləyirdilər. Hər tərəfdən, eldən-obadan insanlar axın-axın bu tarixi görüşü seyr etməyə gəlirdilər. Səməd Vurğun və Aşıq Şəmşir dizinə

qədər gül-çiçək dəstələri içərisində idi. Sanki Səməd Vurğun Qoşqarı, Aşıq Şəmşir isəDəlidağı təmsil edirdi. Bu mənzərəni seyr etdikdə iki yanaşı dağ görünürdü. Dağların ətəkləri gül-çiçəyə bürünmüşdü. Heç bir rəssam öz təxəyyülü ilə bu mənzərəni yarada bilməzdi. Bu görüş, bu xalq izdihamı, ecazkar mənzərə zamanın qəlbindən qopmuşdur. Bu şəraiti tarix və zaman özü yetişdirmişdi. Elə bu yerdə, bu məqamda qəribə bir hadisə varlığımı tərpətdi, qəlbimi riqqətə gətirdi. Türkiyənin Anadolusu xəyalımda dolandı. "Bir gün Tapdıq İmrə öz tələbələrini, o cümlədən Yunis İmrəni onun üçün dağdan çiçək dərib gətirməyə göndərir. Tapdıq İmrənin hər tələbəsi bir qucaq çiçək dərib gətirir, Yunis İmrə isə tək bir sarı çiçək dərib gətirir. Tapdıq İmrə ondan soruşur:

- Övladım, sənin məhəbətin mənə o qədər azdır ki, tək bir sarı çiçək qoparıb gətirdin?

- Ustad, yox, mən dağa çatanda torpağımızın hər güşəsində otlar, güllər, çiçəklər namaz qılırdı. Sarı çiçək dilləndi ki, Yunis İmrə təkcə mən namazdan qalmışam, məni qopar apar".

Doğrudan da, Səməd Vurğunla Aşıq Şəmşirin görüş günü Kəlbəcər dağlarında bütün otlar, güllər, çiçəklər oxuyurdu, təkcə Yunis İmrənin sarı çiçəyindən başqa.

Həmin gün quşlar da, bulaqlar da, göylər də, elimizdə, obamızda, səs-səsə verib Səməd Vurğunla Aşıq Şəmşirin qabaq-qabağa bədahətən söylədikləri sözləri oxuyurdu.

Dağlar tarixən xalq qəhrəmanları, el sənətkarları üçün bir güvənc yeri olmuşdur. Anadolunun XVII əsrdə yetişdirdiyi böyük sənətkarı Dadaloğlu nə gözəl demişdir: "Fərman padşahındı, dağlar bizimdir". Aşıq Şəmşirin ulu babası Miskin Abdaldan başlayaraq bu nəslin nümayəndələri 500 ildir ki, dağları özününkü hesab edir. Ona güvənir, dağları təsvir və tərənnüm etməkdən doymurlar. Dağlar qoynunda keçirilən o görüş ətrafında yaranan şeirlər, sözlər artıq bir dastana, ölməz abidəyə çevrilməkdədir. Bu görüşdən sonra Səməd Vurğunun və Aşıq Şəmşirin şeirlərinə nə qədər nəzirələr yazılmışdır. Elə bir məclis, elə bir el şənliyi olmaz ki, orada Səməd Vurğunla Aşıq Şəmşirin deyişməsini aşıqlar, xanəndələr oxumamış olsun. Bax, aşıq poeziyası ilə yazılı poeziyanı bir-biri ilə belə qovuşdurarlar. S.Vurğunu bu görüş zamanı deyilmiş qoşmalar, gəraylılar daha da kütləviləşdirmişdir. Heç bir məclisdə xanəndəyə və aşığa deyilmir ki, Səməd Vurğunun "Zamanın bayraqdarı" poemasından və "Ölüm kürsüsü"ndən bir parça oxuyun. Lakin hər məclisdə Aşıq Şəmşirlə deyişməsini oxudurlar. Səməd

Vurğunu yad edirlər, böyük təəssüratla o məclisdən ayrılırlar və hər dəfə də deyirlər "Səməd Vurğuna və Aşıq Şəmşirə, hər ikisinə Allah rəhmət eləsin". Bax budur, aşıq sənətinin möcüzəsi. Aşıq sənəti insanların varlığında, zehnində, ürəyində yaşayır. Bakirə duyğular oyadır. Bu duyğular insanı gah sevindirir, gah da qəmləndirir. Hər ikisi xoşdur. İnsanlar bir an içərisində bəşəri hisslərlə yaşayırlar.

Aşıq Şəmşirin öz sələflərindən fərqli olaraq dağlara münasibəti daha təbiidir. Onun sələfləri əgər dağların əzəmətini, böyüklüyünü təsvir edirdisə Aşıq Şəmşir dağları bir el ağsaqqalı kimi, zaman-zaman yaşayan ölümsüz bir ağsaqqal kimi göz önünə gətirir. Dağ obrazıyla üz-üzə dayanır, onunla söhbət edir. Öz gələcək nəslini, övladlarını doğma dağlara tapşırır və onlara həyan olmağa çalışır.

Ümumiyyətlə, Aşıq Şəmşir dağları tərənnüm etməkdən doymur. Elə bil o bununla sələflərinin vəsiyyətlərini yerinə yetirir. Dağların müqəddəsliyini unutmur.

Bir sirr içimizdə qalmasın. Aşıq Şəmşirin hansı qoşması Səməd Vurğunun varlığına hakim kəsilmişdi? Onu Kəlbəcərə getməyə vadar etmişdi? O, həmin şeirlə Aşıq Şəmşiri duya bilmişdi?

“Vədəsində” qoşması həmin dövrdə elə yayılmışdır ki, hər məclisdə aşıqlar Şəmşirin bu şeirini oxuyurdular. Şeirdə təsvir edilən hiss və həyəcanı Səməd Vurğun da yaşamışdır. Aşıq Şəmşir bir kənd gözəlini sevdiyi kimi, Səməd Vurğun da Dürrəyə aşiq olmuşdur. O da bir məqamda orta yaşlarında Dürrə ilə qarşılaşmışdır. O da Şəmşir yaşayan hissi yaşamışdır. Səməd Vurğun Aşıq Şəmşirin “Vədəsində” qoşmasının ilk bəndindən elə təsirlənmişdir ki, onda Aşıq Şəmşir poeziyasına, onun qüdrətinə, məna dərinliyinə bir könüldən min könülə vurulmuşdu. O, dəqiqələri, saatları sanamaqla Şəmşirin görüşünə tələsirdi. Aşıq Şəmşirin “Vədəsində” şeiri belə başlayır:

*Səni qarı gördüm, bağrım qan oldu,*
*Mənim saqqalımın çal vədəsində.*
*Qəlbimə dəydiyin yadındadırmı,*
*Çox dedim könlümü al vədəsində.*[1]

Səməd Vurğunla görüşdən sonra yurdumuzun hər güşəsində Aşıq Şəmşirin “Vədəsində” qoşmasına nəzirələr yazılmışdır. Hətta Azaflı Mikayıl, Həbib Əhmədov və başqaları “Vədəsində” rədifli qoşmalar yazıb və aşıqların

[1] Aşıq Şəmşir. Bakı. 1959, səh 80

ifasına buraxmışlar. Lakin nə qədər şeir yazılır-yazılsın "Vədəsində" qoşmasının ilk müəllifi Aşıq Şəmşirdi.

Biz Aşıq Şəmşir yaradıcılığının yalnız bir məqamına toxunduq. Sözlə tablolar yaradan, söz heykəltaraşı, söz rəssamı, bəstəkar Aşıq Şəmşir haqqında cild-cild kitablar yazılsa belə onun poeziyasını, onun sənət incilərini əhatə edə bilməz. Aşıq Şəmşir ondan artıq saz havası bəstələmişdir. Biz gələcəkdə hansı qoşmalarına, gəraylılarına mahnı bəstələndiyini, özünəməxsus orijinal saz havalarını radio və televiziya vasitəsi ilə tamaşaçılara və dinləyicilərə çatdıracağıq. Biz bunu ayrıca bir mövzu kimi işləyib, Aşıq Şəmşirə layiq bir yazı kimi Şəmşirsevərlərə təqdim edəcəyik.

M.Qorki Dağıstanın böyük şairi Süleyman Stalskinin bədahətən ona şeir söylədiyini görüb, onu "XX əsrin Homer"i adlandırmışdır. Aşıq Şəmşir bundan da yüksək ada layiqdir. Aşıq Şəmşir yaradıcılığının məziyyətlərini saymaqla qurtarmaz, Aşıq Şəmşir Azərbaycan aşıq yaradıclığının, aşıq sənətinin korifeyidir.

Şəmşirin o tarixi görüşdən də əvvəl elə-elata yayılmış badəhətən söylənilmiş zərri-zibərli, bərli-bəzəkli, könüllərə yatan çox saylı qoşma və gəraylıları vardı. Buna misal olaraq "Kəklik" şeirinin adını çəkə bilərik.

*Görəndə uçarsan yad ovçuları,*
*Düşərsən dağların başına, kəklik.*
*Qan ağladım səni görüb yaralı,*
*Bir bax gözlərimin yaşına, kəklik.*

*Qayalarda qumru kimi ötərsən,*
*Görüb ovçuları yerə çökərsən,*
*Səhər-səhər boz otluqda səkərsən,*
*Çıxarsan yurdumun daşına, kəklik.*[1]

Biz bu iki bəndlik şeirin köməyi, təsiri ilə duyub dərk edirik ki, Aşıq Şəmşir çox güclü obrazlı təfəkkürə malik olmuş, təbiəti seyr edəndə onun ən maraqlı, insanı sevindirən və qəmləndirən bir hadisəsi onu özünə cəlb etmişdir.

*Cavanın gülməsi qocaya xoşdu,*
*Gül, ay qızım, mən qocaya bir də gül.*

Və ya

*Düşgünə lazımdı verəsən quymaq,*
*Axşam balla qaymaq, səhər qayqanaq;*
*Şirin camalından olarmı doymaq?*
*Etdiyim bu təmannaya bir də gül!*[2]

---

[1] Aşıq Şəmşir. Bakı 1959. səh 86.
[2] Yenə orada, səh 100.

Aşıq Şəmşir "Bülbül" şeirində yaşadığı hisslərlə, duyğularla bizi qəmləndirir. Aşığın dərdinə şərik olmağa çağırır. Aşıq bülbülə, biz isə aşığa təsəlli vermək təmənnasında oluruq.

*Sən nə həzin, nə yaralı oxudun,*
*Yenə neştər vurdun canıma, bülbül!*
*Könlümün şüşəsi daşa toxundu,*
*Niyə bais oldun qanıma, bülbül?!*

*Gülün vəfasızdır, sən ondan əl çək!*
*Şəmşirə müşküldü dünyada gülmək.*
*Boynunu bükürsən sən də mənim tək,*
*Möhnətin varsa gəl yanıma, bülbül!*[1]

Bütün bunlara baxmayaraq Səməd Vurğunla görüşü ilə əlaqədar olaraq onun yaradıcılığında yeni bir era başlanmışdır.

Elə bulaq var ki, yol qırağındadır, gələn də içir, gedən də içir, amma qara sudur. Elə bulaq da var ki, uzaq-uzaq uca dağların qoynundadı, qayalardan sızıb gəlir çəmənin, çiçəyin düz arasında göz verir. Oxay, deyib içənlər feyziyab olur. Suyun lətafəti, sərinliyi günlərlə yadından çıxmır. Öz-özünə deyir: "Bu bulağın suyu dərmandır". Aşıq Şəmşiri o dövrdə yurdumuzda

---

[1] Aşıq Şəmşir. Bakı 1959. səh 50.

hələ tam və yaxşı tanınmamış o bulağa bənzətmək olardı. Hər şeydən əvvəl bu görüş Aşıq Şəmşiri vətənimizin paytaxtına, onun elm-sənət aləminə yaxşı tanıtdı. Deyişmə zamanı söylənilən şeirlər Aşıq Şəmşirin və Səməd Vurğunun kəşf olunmamış çox qiymətli yaradıcılıq xüsusiyyətlərini üzə çıxardı və respublikamızın elm və sənət aləminə göstərdi. Bu nöqteyi-nəzərdən yanaşsaq biz bilərik ki, Aşıq Şəmşirlə böyük şairimiz Səməd Vurğunun bu tarixi görüşü, hər iki sənətkara eləcə də yazılı və şifahi poeziyamıza nələr bəxş etmişdir. Bu görüşün tarixi əhəmiyyətini, onun izahını bizə çatdıracaqdır. Onda biləcəyik ki, yazılı və şifahi poeziyanın nümayəndələri nə böyük xidmət göstərib, yazılı və şifahi poeziyanı bir məcrada birləşdirməklə nə kimi tarixi missiyanı yerinə yetirmişlər. Şah İsmayıl Xətai ilə Dirili Qurbani, Şah İsmayıl Xətai ilə Miskin Abdal yaradıcılıqlarının ölməz ənənələrini yeni şəraitdə həyata keçirmişlər. XVIII əsrdə Vaqiflə Xəstə Qasım yaradıcıqları belə bir yoldan keçmişdir. Onların yaradıcılıqları hər iki qaynağı bir-birinə bağlamış və öz müsbət təsirini göstərmişdir. Birinci Aşıq Şəmşir yaradıcılığına böyük şairimiz Səməd Vurğun obrazlı yaradıcılıq ənənələrini gətirməklə yanaşı, əbədi olaraq Səməd Vurğun mövzusu gətirmişdir. Aşıq Şəmşir ömrünün sonuna

qədər də S.Vurğuna həsr olunmuş qiymətli, mənalı, məzmunlu şeirlər yazmışdır. "Xoş gəlib" adlı qoşmasında yazır:

*Elimin, günümün böyük şairi,*
*Gətirib dağlara səfa, xoş gəlib!..*
*Gözlərdik yolunu biz intizarla,*
*Eyləyib əhdinə vəfa, xoş gəlib!..*

*Minnətdarıq kamil söz ustadına,*
*Şan-şöhrət yaraşır onun adına,*
*Bizim Kəlbəcəri salıb yadına,*
*Çəkibsə bu yolda cəfa, xoş gəlib!..*

*Alqışladıq mahal ilə, el ilə,*
*Qarşıladıq çiçək ilə, gül ilə,*
*Saz ilə, söz ilə, şirin dil ilə,*
*Şəmşir deyir bu sərrafa: xoş gəlib!..*[1]

Aşıq Şəmşir aşıq yaradıcılığı ənənələrinə həmişə sadiq qalıb. O, ulu babası Miskin Abdalı, atası Ağdabanlı Qurbanı, Aşıq Ələsgəri özünə əbədi ustad saydığı kimi, üz-üzə, göz-gözə, qabaq-qabağa söz dediyi S.Vurğunu da, özünə ustad saymışdır.

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004 səh 31

*İndi güllər açır Vaqifin bağı,*
*Bir çox şairlərin ana torpağı,*
*Səmədin məskəni, şeirin ocağı,*
*Kamala yetirmiş o Qazax səni.*

Dərin dəryalardan, dənizlərdən bəhrələnən Səməd Vurğun özü dəryaya çevrilmişdir. İndi onu min bulaq arzulayır, ona qovuşmağa çalışır. Görün Aşıq Şəmşir Səməd Vurğunun fəhmini-fərasətini, qabil sənətkar olmasını dörd misra içərisində necə mənalandırır.

*Bir mahir sərrafsan, göz ustadısan,*
*Fəhmin, fərasətin öz ustadısan,*
*Qabil sənətkarsan, söz ustadısan,*
*Dəryasan, arzular min bulaq səni.*[1]

Səməd Vurğunun dağlara gəlişinə təkcə Aşıq Şəmşir sevinmir, onu tanıyan və tanımayan insanlar sevinir, təbiət də sevinir, axar sular da, hava da sevinir. Aşıq Şəmşir yazır:

*Çaylarda çalxanan sonadı, qazdı,*
*Bir yanda ney, kaman, bir yanda sazdı,*
*Cavandı, qocadı, gəlindi, qızdı,*
*Görüşünə igid oğlanlar gəlir.*

---

[1] Aşıq Şəmşir. Bakı 1959. səh 110.

*Qəlbim fərəhlənir qanad çalmağa,*
*Ellər gəlir səndən mətləb almağa,*
*Çəmənzar köksündə qonaq qalmağa,*
*Ceyran bulağına mehmanlar gəlir.*[1]

Bu tarixi görüşdən Səməd Vurğunun şeir yaradıcılığına nə dərəcədə aşıqların meyl və maraqlarının artdığını əyani şəkildə göstərmək üçün şahidi olduğum qeyri-adi bir səhnəni göz önündə canlandırmaq istəyirəm. 1961-ci il sentyabr ayının ortaları idi. İstisuda Fərrux kişinin yeməkxanasında idim. Məni yaxşı tanımayan, mənim isə çox yaxşı tanıdığım bir neçə şair burada yemək yeyirdilər. Bir az keçmiş, əlində saz cavan bir aşıq içəri daxil oldu. Bakıdan gəlmiş şairlər sazını kökləyib qurtarmış aşığa dedilər:

- Aşıq qardaş, oxu görək nə oxuyursan?

Aşıq dedi:

- İndi bu saat bulaqlar da, buludlar da, hətta ondan aşağı kəkliklər də yalnız və yalnız Aşıq Şəmşirlə Səməd Vurğunun deyişməsindən oxuyurlar.

Bir qulaq asın ustadımız Şəmşir dünya şöhrətli şairimiz qarşısında dik dayanıb, onun qartal simasını necə tərənnüm edir:

[1] Aşıq Şəmşir. Bakı 1959. səh 114 .

*Qoşqarla yanaşı duran adın var,*
*Bizim el tanıyır uca dağ səni.*
*Elimin, günümün böyük şairi,*
*Bilirik şeirdə bir mayaq səni.*

Qurban olum, a Şəmşir, gör aşıqların adını haraya qaldırdı. Bu saat radio, teveviziya hamısı aşıqlardan danışır. Heç adamlar bilmirdi ki, Səməd Vurğun bundan əvvəl nə qədər aşıq şeiri yazıb. Aşıq Nabatın uzun illərdən bəri oxunmayan "İrəvan çuxuru" üstündə oxuduğu "Danışaq", "Dilcan dərəsi", "Muğana ceyran", "Yadıma düşdü" qoşmaları, "Baş dübeyti" və "Borçalı dübeytisi" üstündə oxunan "Dağlar" gəraylıları və başqaları indi aşıqların dilindən düşmür. Bunların gecə-gündüz oxunmasına rəvac verən Aşıq Şəmşirlə Səməd Vurğunun deyişməsi oldu.

Qəmli havalar üstə həsrət dolu şeirləri isə Borçalı aşıqları gözəl ifa edirlər. S.Vurğunun ikinci "Dağlar" şeirini ("O qız dağdan tək aşanda") Aşıq Əmrah "Borçalı dübeytisi" üstündə elə gözəl ifa edir ki, bəlkə də belə çalıb - oxumaq ancaq onun özünə müyəssər ola bilər.

"Muğana ceyran"ı isə Aşıq Şakir Hacıyev gözəl ifa edir. Bu şeir "Aşıq Hüseyni" saz havasına oxunur.

Lakin bu saz havası ilk ibtidai formasında qalmamış, zaman-zaman zənginləşmiş və əsil mətnini tapana qədər təkmilləşmişdir. Borçalı aşıqları bu saz havasından məhəbbət dastanlarının əvvəlində, yəni oğlunun ata-ana ilə vidalaşdığı yerində istifadə etdikləri üçün onu "Dastanı" saz havası adlandırmışlar.

Yeri düşmüşkən demək lazımdır ki, "Aşıq Hüseyni" "Dastanı"ya qədər bir inkişaf prosesi keçirərək xeyli inkişaf etmiş, "Muğana ceyran"la birləşdikdən sonra isə zəngin bir saz havasına çevrilmişdir.

Deməli, istedadlı şairimiz Səməd Vurğunun qoşmaları təkcə aşıq poeziyasının deyil, eyni zamanda saz havalarının da inkişaf etməsinə güclü təsir göstərmişdir.

S.Vurğunun elə şeirləri, yaxud elə şeir parçaları aşıqlarımızın repertuarına daxil olmuşdur ki, onlar aşıq yaradıcılığının özünəməxsus inkişaf qanunlarına tam cavab verir. Hər hansı bir aşıq müəyyən bir şeiri öz ifasında saxlamaq istəsə də, öz arzusuna, ideallarına, adət-ənənələrinə, milli mənəviyyatına uyğun olmasa xalq onu daimi repertuarlarda qalmağa və yaşamağa qoymaz.

1955-ci ilin avqust ayında xalq şairimiz Səməd Vurğunun Kəlbəcər səfəri Aşıq Şəmşiri Respublikamızın geniş ictimaiyyətinə dərindən

tanıtdı. Şairlə aşığın görüşü və deyişməsi olduqca diqqətəlayiq bir hadisə olub dərin iz buraxmışdı.

Aşıq Şəmşir "Xoş gəlib", "Səni", "Bir də gəl", "Nə xəyaldadı", "Gələndə" və s. hərarətli şeirlərində xalqımızın böyük şairə olan dərin məhəbbətini yüksək bir eşqlə ifadə etmişdir.

Səməd Vurğunu özünə ustad sayan Aşıq Şəmşir "Bir də gəl" şeirində onu yenidən arzulamışdır:

*Çəkir həsrətini bizim Kəlbəcər,*
*Böyük şair, şən dağlara bir də gəl!..*
*Dedin: "Vurğun demə gəldi-gedərdi",*
*Verdiyin o düz ilqara bir də gəl!*[1]

Təəssüf ki, şairin vaxtsız ölümü bu istedadlı aşıqla bir də görüşünə imkan vermədi.

Səməd Vurğunla görüşündən sonra məşhurlaşan Aşıq Şəmşir Azərbaycan İncəsənət xadimi kimi yüksək ada layiq görülmüşdür.

Xalqın dilində sevimli şairimiz Səməd Vurğunla Aşıq Şəmşirin görüşüb deyişməsinə və bununla da şair Qurbanın oğlu Aşıq Şəmşirin məşhurlaşmasına dair bir el məsəli də yaranmışdır:

---

[1] Aşıq Şəmşir, Azərbaycan SSR EA Nəşriyyatı, Bakı, 1959, səh 117

*“Qurban ocağının külaltı  közü,
Vurğun nəfəsindən alışan Şəmşir”.*

Böyük xalq şairimiz  S.Vurğunla Aşıq Şəmşirin görüşü, sözün həqiqi mənasında, “külaltı közü” qalan ocağı bir daha alovlandırdı. “Vurğun nəfəsindən alışan Şəmşir”in kitabı bundan sonra nəşr olundu. Ağdabanlı Qurbanın yaradıcılığı bundan sonra  toplanıb öyrənilməyə başlanıldı.

Xalq məsəli kimi yaranan “Qurban ocağının külaltı közü, Vurğun nəfəsindən alışan Şəmşir*”* ifadəsinin izaha ehtiyacı vardır. Doğrudan da, xalq filosof və şairdir. O ocağın külaltı közü sönmür ki, o köz palıd közü olur. O ocağı nəfəslə alışdırırlar ki, gələcəkdə ondan od alıb başqa bir ocağı yenidən alovlandırsınlar.  Bu yerdə insanın yadına Şəhriyarın “Heydər babaya salam” əsəri düşür. Şəhriyar ömrünün sonunda “Heydər babaya salam ” əsərini ana dilində yazdı. Burada bir ömrün keşməkeşli günlərini və gileygüzarını təsvir və tərənnüm etdi. Əsər ildırım sürəti ilə o taylı, bu taylı Azərbaycana yayıldı. Səməd Vurğun da birdən-birə Dəlidağa getdi. Dəlidağın timsalında Aşıq Şəmşirlə deyişdi. İllərdən bəri daxilində onu rahat buraxmayan  duyğularını nümayişanə söylədi. Aşıq Şəmşirlə Səməd

Vurğunun görüşü zamanın zərurətindən doğmuşdur. Bu bir tale işi idi. Səməd Vurğunla Şəmşirin deyişməsi mən deyərdim ki, "Heydər babaya salam"dan da böyük əks səda doğurdu. O taylı, bu taylı Azərbycanda yayıldı, aşıqların və xanəndələrin repertuarına ömürlük daxil oldu.



O dönəmdə Səməd Vurğunun güney yaradıcılığında cəmləşən əsərlərinə zaman kölgə saldı. Səməd Vurğunun sağlığında onun yaradıcılığına qibtə edənlər çox olmuşdu. Heyf ki, onlardan az-çox yenə də var. S.Vurğunun yaradıcılıq güneyində kölgəni görüb içindən göynəyənlər sevindilər. Lakin bu sevinc uzun sürmədi. Səməd Vurğunun quzey yaradıcılığına günəş şəfəqlər yağdırdı. Hər tərəf işıqlandı, gözəl bir çəmənə təbiət böyük bir xalı saldı. Xalının üstündə Səməd Vurğun və Aşıq Şəmşir yanaşı oturmuşdular. Yanlarında saz, sinələrində söz. Uzaqdan aşıqlar və xanəndələr bu böyük sənətkarların deyişməsini, ürəklərə sığal çəkən qoşmalarını oxuyurdular. Qənşərdə bir ağacın budağı üstündə iki bülbül çırpına-çırpına oxuyurdu. Onların oxuduğu sözlər də Səməd Vurğunun və Aşıq Şəmşirin idi. Səməd Vurğunun

və Aşıq Şəmşirin deyişmələri Azərbaycan ədəbiyyatında, aşıq sənətində tarixi bir yadigar olaraq qalır və qalacaqdır.

Şair Osman Sarıvəlli "Aşıq Şəmşir" kitabının müqəddiməsində aşığın yaradıcılıq yolundan bəhs edərək yazır: "Aşıq Şəmşir öz yaradıcılığında xalq şeirinin demək olar ki, bütün növlərindən ustalıqla istifadə edə bilmişdir.

Aşığın yaradıcılığında qoşma çox geniş yer tutur. Bizim əlimizdə olan 400-ə yaxın şeirin əksəriyyəti qoşmadır. Bu qoşmalar Şəmşirin yaradıcılığında nəinki say və həcm etibarilə, həm də sənətkarlıq cəhətdən başqa şəkildə yazılmış şeirlərdən seçilir".[1]

Müəllifin bu fikri təkcə Şəmşirə aid deyildir, bu Kəlbəcər aşıqlarının əksəriyyətinə aiddir. Qurbandan Şəmşirə qədər Kəlbəcər aşıqlarının yaradıcılığının əsas janrı qoşmadır. Qoşmanın isə yazılı və şifahi ədəbiyyatımızda mövqeyi çox böyükdür.

Müəllif yenə davam edib yazır: "Şəmşirin şeirlərində klassik aşıq şeirinin, qəhrəmanlıq və aşiqanə dastanlarımızın, xüsusən, "Əsli və Kərəm" dastanının, Tufarqanlı Abbas, Xəstə Qasım, Miskin Abdal, Molla Pənah Vaqif şeirlərinin, Aşıq Ələsgər, Aşıq Qurban yaradıcılığının, daha

---

[1] Aşıq Şəmşir. Şeirlər. Azərbaycan SSR Elmlər Akamediyasının Nəşriyyatı, Bakı, 1959, O.Sarıvəlli, Müqəddimə, səh 3-4.

sonralar isə xalq şairi Səməd Vurğunun lirik, aşiqanə şeirlərinin böyük təsiri duyulur”.[1]

Müəllif Miskin Abdalın Vaqifdən əvvəl yaşayıb yaratdığını xronoloji cəhətdən düz təyin etmişdir.

Şəmşir, Vurğunun dağlara gəlməsi münasibətilə dediyi gəraylıda Miskin Abdalın “Dağlar” şeirinin məlum ifadələrindən də ustalıqla istifadə etmişdir:

*Çoxdan atdın dərdi, qəmi,*
*Mənimlə sirdaşın həmi,*
*Məğribdən məşriqə kimi,*
*Uzanıbdı qolun, dağlar.*[2]

“Dağların məğribindən məşriqə səf çəkməsini” Abdal ilk dəfə demişdir. Şəmşir isə bunu qolun uzanması kimi, bir az da zərif şəkildə ifadə etmişdir.

Şəmşir “Səndən” rədifli gəraylısında dağlara müraciət edərək öz xalqının böyük söz ustadları olan Nizamini və Füzulini soruşur.

*Gəzib fürsət məqamını,*
*Qana salarsan hamını,*

---

[1] Aşıq Şəmşir. Şeirlər. Azərbaycan SSR Elmlər Akamediyasının Nəşriyyatı, Bakı, 1959, O.Sarıvəlli, Müqəddimə, səh 4.
[2] Aşıq Şəmşir. Şeirlər.1959, səh 27.

*Füzulini, Nizamini,*
*Soruşuram özüm səndən.*

Bundan sonrakı bənddə isə atası və sənət ustadı olan Aşıq Qurbanı, habelə Aşıq Ələsgəri dağlardan soruşur. Onları axtardığını, lakin tapa bilmədiyini deyir:

*Keçən qərinədən bəri,*
*Köç eləmiş neçələri,*
*Qurban ilə Ələsgəri,*
*Taparammı, gəzim, səndən.*[1]

Aşıq Şəmşir "Xəyalımda" rədifli gəraylısında atası Qurbanın onun xəyalında qələm tutduğunu, Ələsgərin söz inciləri düzdüyünü bildirir:

*Qələm tutub atam Qurban,*
*Yazır mənim xəyalımda,*
*Ələsgər söz inciləri,*
*Düzür mənim xəyalımda.*[2]

Başqa bir şeirində isə Şəmşir "Qurbanın nişanəsi", onun yadigarı olduğunu, xüsusilə "böyük aşıqların şeirlərini özündə zəbt və səbt etmiş bir dəftər" olduğunu qeyd edir:

---

[1] Aşıq Şəmşir. Şeirlər.1959, səh 29.
[2] Yenə orada. səh 93.

*Sevgi-məhəbbətin pərvanəsiyəm,*
*Bir ala gözlünün divanəsiyəm,*
*Şəmşirəm, Qurbanın nişanəsiyəm,*
*Böyük aşıqların dəftəriyəm mən.*[1]

Aşıq Şəmşirin yaradıcılığı üzərində Nəbati şeirlərinin də təsiri duyulmaqdadır.

"Gəlsin, gəlməsin" rədifli şeirində Şəmşir yazır:

*Atəşində yanan səməndər mənəm,*
*Pərvanəsi nara gəlsin, gəlməsin!*
*Leyli sorağında diyarbədiyar,*
*Məcnun bu dağlara gəlsin, gəlməsin.*[2]

Aşıq Şəmşir, atası Qurban kimi həm şifahi, həm də yazılı ədəbiyyatımızdan faydalanmışdır. Şəmşir savadlı, hazırlıqlı, şeirlərimizin qayda-qanunlarını bilən sənətkardır.

Aşıq Şəmşir həmişə Qurban yaradıcılığının davamçısı kimi aşıq şeirinin bütün formalarında yazıb yaratmağı qarşısına məqsəd qoymuşdur. O, bir çox gəraylı, ustadnamə, qoşma, təcnis, deyişmə, divani, müxəmməs, cığalı müxəmməs və başqa janrlarda iqtidarını nümayiş etdirmiş,

---

1 "Azərbaycan" jurnalı, 1966, № 4, səh 126.
2 Aşıq Şəmşir. Şeirlər.1959, səh 78.

bir tərəfdən də ustadlıq ənənəsini yerinə yetirməyə cəhd etmişdir.

Şəmşir bəzən ustadnamələrində aforizm kimi çox gözəl təsir bağışlayan misralar verir. Misal olaraq "Eylə" rədifli ustadnaməsinin ilk bəndində "Demədim ürəklə ticarət eylə", "Desəm olmaz" ustadnaməsinin üçüncü bəndində "Namərdin varı var, ürəyi yoxdu" misralarını göstərmək olar.

Xalqda həmişə qəlbinə iblis girib, gizlənib deyərlər, Şəmşir isə bu ifadəni "Eylər" rədifli ustadnaməsində "Qəlbində oynayır iblis barmağı" şəklinə salaraq işlədir. Görünür ki, o xalqdakı "şeytan"la "iblis barmağı" ifadələrini birləşdirmişdir.

Aşıq Şəmşirin ustadnamələri hikmətli sözlərlə-aforizmlərlə zəngindir. Onun ustadnamələrində dini hadisələr, dini ifadələr yoxdur. Demək olar ki, Aşıq Şəmşirin böyük ustalıqla yaratdığı ustadnamələrin bəzəyi, bünövrə daşı atalar sözləri və eldən-elatdan gələn canlı xalq ifadələridir:

*Şəmşir kimi sən də doğru, düz dolan,*
*Çox olub tarixdə yenən, ucalan,*

*Bir gün mətahını çox olar alan,*
*Ellərin dilində dastan olarsan.*[1]

Və yaxud:

*Gəzsən, sənətkarın sayəsində gəz,*
*Böyük zəhmətinə alarsan əvəz.*
*Aşıq ol, alim ol, şair ol, qərəz.*
*Dünyada yaxşı ad qoyasan gərək.*[2]

Aşıq Şəmşir öz ustadnamələrini yaradarkən həm də yazılı və şifahi poeziya qaynaqlarına baş vurur, daha kamil, daha sərrast fikirlər və ifadələr axtarıb tapır.

Şəmşirin yaradıcılığında təcnislər mühüm yer tutur. O, dilimizin əlvan boyalarından, bayatılardakı zəngin cinaslardan məharətlə istifadə edərək mükəmməl təcnislər yaratmışdır.

*Gül gülü çağırır, çiçək çiçəyi,*
*Topla yasəməndən yara, dər indi.*
*Fərhad qayalarda Şirin eşqinə,*
*Çapardı daşlardan yara dər indi.*

---

[1] Aşıq Şəmşir, Bakı, 1959, səh 41.
[2] Yenə orada, səh 43.

*Çox çətindi ölüm adı, qan adı,*
*Səməndərin oda yandı qanadı,*
*Yetişməmiş neştər vurdu qanadı,*
*Təbibim naşıdı, yara dərindi.*

*Yolum uzaq, mən piyada, yar atdı,*
*Müjgan oxun sinəm üstə yar atdı,*
*Şəmşiri yaradan bir yol yaratdı,*
*Birdəmi təzədən yaradar indi?!*[1]

Aşıq Şəmşir cinas-bayatılara yaxşı bələd olduğundan təcnis binalarını asanlıqla və mükəmməl qura bilir. Ən maraqlısı odur ki, hər təcnisində bir mətləb işıq üzü görür. "Məni" adlı təcnisində bizim üçün kəşf olan bir misra var. "Sən çiçəkdə şirin balsan, mən - arı":

*Şəmşirəm, sevirəm mərdi, mən əri,*
*Gözləyirəm namus, qeyrət, mən arı.*
*Sən çiçəkdə şirin balsan, mən – arı,*
*Qondur yanağına, ya xala məni.*[2]

---

[1] Aşıq Şəmşir, Bakı, 1959, səh 124
[2] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004, səh 358

Aşağıdakı “Yaralı dağlar” təcnisində dağla, maralla əlaqədar təbii bir lövhə yaradır.

*Yaxşı saxla, qaçıb ovçu əlindən,*
*Sənə bir maralım yaralı, dağlar.*
*Təbib hanı, gəlib eləsin dərman,*
*Sızıldar, ah çəkər yaralı dağlar.*[1]

“Ay yarım ola” təcnisində bir gözəlin niqabın altından ay kimi çıxıb üzünü göstərdiyini, bədii bir dillə cinas sözlərlə, gözəlin gözəlliyini diqqətə çəkən bədii bir lövhə yaradır.

*Niqabından aya oxşar üz açdın,*
*Taledən uzaşdın, məndən uzaşdın,*
*Şəmşir yaxınlaşdı, sənsə uzaşdın,*
*Demişdim: vəfalı ay yarım ola.*[2]

Aşıq Şəmşir gözəlləri təsvir və tərənnüm etməkdən usanmır. O bilir ki, ürəyində məhəbbət odu olmayan şair yazıb-yarada bilməz. Onun

---

[1] Aşıq Şəmşir. “O Kürün, Arazın Tərtəriyəm mən”.Bakı 2004, səh 366.
[2] Yenə orada, səh 377

şeirlərinin ilham mənbəyi el gözəlləridir. Onları görüb eşqə düşməmək olmaz. O yazır:

*Qaşın qələm, boyun tərlan təhəri,*
*Dedim gözəllikdə beləsən, gözəl.*
*Məhəbbət eşqinə düşəndən bəri,*
*Mənəm yarpaq kimi, bil əsən, gözəl.*[1]

Aşıq Şəmşir təzadlı bir təcnis yaradır. Təcnisin mövzusu və bu mövzunun bədii cəhətdən həlli bizi düşündürməkdədir:

*Bir barı çəkmişəm sözdən, şeirdən,*
*Köməkdar ol, qoyma qala yarımçıq!*
*Görüm deyərsənmi başa çatmasın,*
*Qıyarsanmı belə qala – yarımçıq?*[2]

Aşıq Şəmşir cinaslı bayatı-bağlamalarını və qoşma şəkilli qıfılbəndini də məharətlə yaradır. Biz bundan əvvəl Sarı Aşığın və Aşıq Şəmşirin açılmamış bayatı-bağlamalarından nümunələr vermişik. Eyni zamanda, Xəstə Qasım və Aşıq Ələsgər kimi Aşıq Şəmşir də öz kitabında açılmamış qıfılbəndlər vermişdir. Mən onun

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004, səh 380

[2] Yenə orada, səh 390

açılmamış 5 bəndlik təcnis-qıfılbəndindən üç bəndini nümunə verirəm.

*İki min gülü var iki kök üstə,*
*Altından biri sər-beş arasında.*
*Sən kamil aşıqsan, gəl öyrət məni,*
*Qalmışam bu çətin iş arasında.*

*Doxsan dörd min səcdə qılır birinə,*
*Otuz mini ikram edir pirinə,*
*On ikisi tac qoyubdu sərinə,*
*Altısı gəşt edir qaş arasında.*

*Kəndim Ağdabandı, yaylağım Murov,*
*Sözümdə məharət, qılıncımda sov!*
*Şəmşir bu şikarda tapıbdı bir ov,*
*Bir milyard iki yüz yaş arasında.*[1]

Bizim dövrümüzdə cığalı müxəmməsin ən kamil ustası da Aşıq Şəmşir sayılır:

*Ağrın alım, hansı dağın maralısan, xırdaca gül,*
*Söylə görüm, nə mənzilə vəfalısan, xırdaca gül,*
*Yoxsa Quba ceyranısan, oralısan, xırdaca gül,*

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004, səh 392

*Köks ötürüb, ah çəkmə heç, saralısan, xırdaca gül,*
*Bəlkə sən naşı ovçudan yaralısan, xırdaca gül.*

*Yaralısan sən nədən,*
*Gözəl, göyçək, gül bədən,*
*Bu zülfü nərgiz, səmən,*
*Anlamışam indi mən,*
*Dilrüba sənsən həmən.*

*Öz bağrımız qonçası,*
*Ləbləri zər kimyası,*
*Hüsnü cənnət alması,*
*Eyni gözəllər xası,*
*Tanımışam, kürd balası, buralısan, xırdaca gül.*[1]

Aşıq Şəmşirin məcmuəsinə düşməmiş, bir sıra şeirləri də vardır ki, 1955-ci ilin avqust ayından sonra, yəni xalq şairimiz Səməd Vurğunla görüşündən sonra yazılmışdır. Kitabdakı şeirlər əsasən klassik ənənələrə istinadən yaradıldığı halda, yeni şeirlərdə Səməd Vurğun lirikasına istinad dönüş, yeniliyə meyl nisbətən qüvvətlidir. Bundan sonra aşığın yaradıcılıq axtarışları apardığını, yeni ruhlu əsərlər yazdığını, dövrün nəbzini tutduğunu, mərkəzi qəzet və jurnallarda fəal iştirakını görürük. Bu,

---

[1] Aşıq Şəmşir, Bakı, 1959, səh 149.

şair-aşığın yaradıcılığına Səməd Vurğun lirikasının təsiri ilə, aşığın dünyagörüşündə əmələ gələn dəyişikliklə izah olunmalıdır. Səməd Vurğunun bu məsələdə ən böyük xidməti aşıqda müasirlik ruhunu gücləndirmək, onu mətbuata bağlamaq olmuşdur. Vurğuna qədər Şəmşirin və atası Qurbanın şeirlərinin mətbuatda çox da geniş çap olunmadığını qeyd etmək lazımdır. S.Vurğun onların yaradıcılığının öyrənilməsi üçün "bir qapı" açdı, Aşıq Şəmşirdə inam yaratdı, onu bəzən giley-güzar, köhnə ruh, köhnə formaya xas yaradıcılıq yolundan uzaşdırdı. Aşıq Şəmşirin yeni yaradıcılıq dövrü başlandı.

Aşığın Xəzərə həsr etdiyi "Kimi" rədifli qoşması bu cəhətdən çox səciyyəvidir:

*Verəndə küləklə Xəzər baş-başa,*
*Çarpışır iki qoç döyüşən kimi.*
*Gah görürsən, qucaqlaşır, öpüşür,*
*Ana balasına qovuşan kimi.*

*Mənim qızıl donlu Azərbaycanım,*
*Şəmşirəm, var sənə, sözüm, dastanım,*
*Məhəbbət eşqinlə qaynayır qanım,*
*İstəkli ürəklər sevişən kimi.*[1]

[1] Şeir 1966-cı ildə Aşıq Şəmşirin özündən yazılmışdır.

Aşıq intim duyğulardan irəliyə addım atır, şeirlərinə ictimai məna verməyə, onu bəşəri hisslərlə bəzəməyə can atır və çox zaman müvəffəq olur.

Hətta aşığın ustadnamələrinin də məzmun və forması getdikcə dəyişir:

*Adam var, gedəndə bir evdən gedir,*
*Onun dərdi az adamı, yandırır.*
*Adam da var, ölsə aləmi dağlar,*
*Ona öz qəlbini hamı yandırır.*[1]

Aşıq şairlə görüşündən sonra, yazdığı şeirlərdə çalışır ki, fikirlərini daha da obrazlı dillə söyləsin.

Şəmşirin qoşmaları oynaq, şux və cazibədardır. Onun rübabından qopan həzinlik könülləri ehtizaza gətirir.

Aşığın “Ana”, “Aşıq” və “Kimi” qoşmaları da şərti olaraq yeni mərhələ adlandırdığımız dövrün məhsuludur. Əlbəttə ki, onun “Aşıq”, “Kimi” yeni məzmunlu ustadnamələrini əvvəlki ustadnamələri ilə yanaşı qoymaq olmaz:

*İndi ki, saz alıb düşübsən elə,*
*Mərdin məclisində oxu, çal, aşıq!*

---

[1] Ustadnamə 1966-cı ildə Aşıq Şəmşirin özündən yazılmışdır.

*Qismətini ancaq halaldan istə,*
*Sən gözü tox, igidyana ol, aşıq!*

*Demə bir manata uzun bir nağıl,*
*Çoxdur belə dastan deyən kəmağıl,*
*Zəhər olsun elə gəlir, mədaxıl,*
*Sənətkarsan, qiymətini bil, aşıq!*[1]

Və yaxud:

*Şəmşir gərək mərd ocağın qalasın,*
*Hər kəs çəkər öz dilinin bəlasın,*
*Qoy səni şir yesin, şir parçalasın,*
*Tülkü kölgəsində yatana kimi.*

Şəmşirin son şeirləri yeni ədəbi ifadələrlə, fikirlərlə, orijinal təşbehlərlə zəngindir.

Şair-aşığın beş bəndlik "Dağlar" gəraylısında Vurğunun səsi, nəfəsi aydın duyulmaqdadır:

*Bu dünyada boş qəfəsəm,*
*Cana borclu bir nəfəsəm.*
*Səndə əgər görünməsəm,*
*Demə, Şəmşir yoxdu, dağlar!..*[2]

---

[1] "Ədəbiyyat və incəsənət" qəzeti, 11 fevral, 1967, № 6
[2] Gəraylı 1961-ci ildə Aşıq Şəmşirin özündən yazılmışdır.

Şəmşir Vurğun yaradıcılığına, onun mövzularına, yaradıcılıq ənənələrinə qəlbən bağlanmışdır.

Aşığın "Vaqif elə gördü, mən belə gördüm" qoşması da sübut edir ki, o bir sənətkar kimi müasirlik vəzifəsini, əsrin sağlam havasını duyur və yeni ruhlu əsərlər yaratmağa çalışır:

*Bizim bu elləri Kür qırağında,*
*Vaqif elə gördü, mən belə gördüm.*
*O zaman daxmada, indi otaqda,*
*Vaqif elə gördü, mən belə gördüm.*

*Kəlağay altında olmayıb cuna,*
*Üzməmiş bu göldə yaşılbaş sona,*
*Gör nələr yetirib, gözəl zamana,*
*Vaqif elə gördü, mən belə gördüm.*

*Vaqif görüb xalqı sel qabağında,*
*Uçuq odalarda, yol qabağında,*
*Bu Kür təslim olub el qabağında,*
*Vaqif elə gördü, mən belə gördüm.*[1]

Qoşma yüksək bədiiliyə malik olmasa da mövzunun bu mövqedən alınması və şeirdə müqayisə olunması çox maraqlıdır.

---

[1] Qoşma 1961-ci ildə Aşıq Şəmşirin özündən yazılmışdır.

“Qurban bulağı” məclisinin mütərəqqi ənənələrinin ən yaxşı davametdiricisi Aşıq Şəmşir idi. Ağdabanlı Qurban yaradıcılığı zəminində yetişib kamala çatmış olan Aşıq Şəmşir Səməd Vurğun poeziyasından ilham alaraq qanadlanmış, köhnə ənənəvi mövzuların bəndini dağıtmış və yeni zəmanənin yeni mövzularına keçmişdir.

Aşıq Şəmşir yaradıcılığına bütövlükdə nəzər saldıqda göz önündə iki Şəmşir durur: bunlardan biri köhnə aşıq poeziyası ənənələri ilə düzüb qoşan Şəmşir, o biri isə Vurğun lirikası ruhunda yazıb yaradan Şəmşir. Aşıq Şəmşir xalq şairimiz Səməd Vurğunla görüşündən sonra, bir şair kimi, bir söz ustası kimi xeyli irəliləmişdir.

Aşıq Şəmşir xalq arasında böyük şöhrət qazanmış və bir yaradıcı sənətkar kimi məşhurlaşa bilmişdir. Bu, səbəbsiz deyil. Hər bir şagird öz ustadının ədəbi irsi zəminində yetişmiş və inkişaf etmişdir.

Ağdabanlı Qurban öz dərin biliyi və savadı ilə müasirlərindən fərqlənirdi. Qurban oğlu Şəmşirə aşıqlıq sənəti ilə yanaşı oxumaq və yazmaq da öyrətmiş, beləliklə onu həm də yazılı ədəbiyyata bağlamışdı. Şəmşirin aşıq repertuarı çox zəngin idi. O, “Koroğlu”, “Abbas və Gülgəz”, “Heydər bəy”, “Alı xanla Pəri xanım”, “Abdulla və Cahan”, “Novruz”, “Nəcəf və

Pərizad", "Valeh və Zərnigar", "Məsim və Diləfruz", "Şah İsmayıl", "İbrahim", "Tahir və Zöhrə", "Xəstə Qasım" kimi dastanları, bir çox mahnıları və 70-dən artıq klassik aşıq havasını bilirdi.

Aşıq Şəmşir bütün bunları atası Ağdabanlı Qurbandan öyrənmişdir.

Aşıq Şəmşir də atası Ağdabanlı Qurban kimi, hər iki qaynaqdan, şifahi və yazılı ədəbiyyatdan eyni dərəcədə faydalanmış, ilham və qüvvət almış aşıqlardandır.

Sinkretik bir sənət növü olan aşıq sənəti uzun tarix boyu söz sənətini, musiqini, rəqsi, hətta bir çox hallarda aktyor sənətini də özündə birləşdirmişdir.

İstedadlı şair-aşıq olan Şəmşir yaradıcı və peşəkar aşıqlara məxsus bütün gözəl xüsusiyyətləri özündə cəmləşdirə bilmişdir. Aşıq Şəmşir oxuyanda könülləri məftun edən müğənni, qoşanda şair və bəstəkar, çalanda çalğıçı, rəqs edəndə isə bir növ aktyor olur.

Aşıq Şəmşir həm də musiqi yaradıcısıdır. O, "Şəmşiri" saz havasının da müəllifidir.

Akademik M.İbrahimov, professor M.H.Təhmasib, şair O.Sarıvəlli və başqa alim və yazçılarımız öz məqalələrində Aşıq Şəmşirin sənətkarlığını yüksək qiymətləndirmişlər.

Aşıq Şəmşir azad dünyamızdan ilham alaraq, xalqı və vətəni tərənnüm edən şeirlər yazıb yaratmışdır.

Yazıçı, araşdırıcı Məmməd Aslan yazır: "Səməd Vurğunla İstisuda o unudulmaz görüşdən sonra Bakı mühitində də Dədə Şəmşirin belə fədakar heyranları yaranmışdı.

Şöhrəti nəinki Azərbaycana, hətta bütünlükdə Qafqazın hüdudlarından çox kənara yayılmışdı".

Şair Osman Sarıvəlli Aşıqla bağlı yazılarında Səməd Vurğunun yeni bir planet tapdığını qeyd edir.

Yazıçı-jurnalist İslam Fərzəliyev Kəlbəcər səfəri ilə əlaqədar yazdığı yazıda çox qiymətli bir məsələyə toxunur. Yazır ki, Aşıq Şəmşirlə Səməd Vurğunun görüşü zamanı gurultu qopur. Səməd Vurğun səhnədə görünür. Səmədin üstünə o qədər gül tökürlər, çiçək dizinə çıxır. Sanki başı qarlı bir dağın ətəkləri lalələrlə, nərgizlərlə və bənövşələrlə örtülübmüş.

Bütün bu deyilənlər "Aşıq Şəmşir və Səməd Vurğun haqqında dastan yarandığına və ya bu dastanın təkamül ömrünü keçirdiyinə bir sübutdur".

Şair Zal Cabbarlı deyir, Səməd Vurğun gördü ki, Aşıq sazını köynəyinə qoydu. Səməd

Vurğun dönüb gəldiyi yollara, başı qarlı möhtəşəm dağlara bir də baxdı.

- Aşıq qardaş, o sazı bir köynəkdən çıxart görüm.

Şair "Gəraylı" havasına həsrət dolu bir avazla oxumağa başladı.

*Duman, gəl-get bu dağlardan,*
*Dağlar təzə bar eyləsin.*

Şair Həbib Əhmədov görkəmli el sənətkarları haqqında yazdığı qoşmanın bir yerində deyir:

*Abdullah dünyadan getdi narazı,*
*Zimistana döndü Dilqəmin yazı,*
*Aşıqlıq irsini, sədəfli sazı,*
*Şəmşirə tapşırıb Qurban yatıbdı.*

Aşıq Şəmşirin daha geniş miqyasda tanınması, əsərlərinin nəşr olunması Qurban irsini öyrənməkdə böyük imkanlar yaradır. Axı, Şəmşirin şeir çəməni, "Qurban bulağı"nın həyatverici suyu axan bu çəmənin gülləri heç vaxt solmayacaqdır. Çünki bu çəmənə Aşıq Ələsgərin, Səməd Vurğunun ayağı dəyib.

Qədirbilən Aşıq Şəmşir xalq şairimiz Səməd Vurğunun xatirəsini, xüsusən şairin Kəlbəcərə səfərini mənalandıran, əbədiləşdirən "Vurğun dağlarda " adlı dastanı tamamlamaq üzrə idi. Əsərdə vətənpərvər şairimizin xeyirxah əməlləri, Azərbaycanın ecazkar təbiətinə vurğunluğu gözəl boyalarla verilmişdir. Dastanda verilmiş qoşmaların birində deyilir:

*Hər məclisdə söhbəti var, sözü var,*
*Bir qızıldı hər kəlməsi Vurğunun.*
*Qərinələr keçər, illər dolanar,*
*Getməz bu dağlardan səsi Vurğunun.*

Səməd Vurğunla Aşıq Şəmşirin görüşündən sonra redaksiyalara və aşığın ünvanına çox sayda məktublar, şeirlər gəlirdi. Əgər bunların hamısı toplanıb, nəşr olunsa böyük bir kitab olar, lakin mən burada Aşıq Şəmşirin və Səməd Vurğunun tarixi görüşünün şahidi olan bir şəxsiyyət haqqında danışmaq istəyirəm. Qəmbər müəllim Aşıq Şəmşirin böyük oğludur. Mən deyərdim ki, Qəmbər müəllim sazın, sözün vurğunu olmaqdan əlavə, o əzəl gündən ulu babaları Miskin Abdalın, babası Ağdabanlı Qurbanın, atası Aşıq Şəmşirin böyük ədəbi irsinin qoruyucusudur.



*Sədnik Paşa Pirsultanlı Aşıq Şəmşirin oğlu Qənbər müəllimlə birgə. 1966-cı il dekabr ayı*

Qəmbər Şəmşiroğlu hələ bu görüşdən çox-çox əvvəl “Sazdadı” qoşmasında bu dediklərimizin hamısına güzgü tutur, bu güzgüyə baxıb deyir:

*Babalardan qalıb bizə yadigar,*
*Ömrün gəl-gəl deyən səsi sazdadı.*
*Fərhadın, Şirinin badə içdiyi,*
*Qızıl üzlü piyaləsi sazdadı.*

Qəmbər müəllim gözəl saz çalır, saz havalarını dürüst bilir və sazda nələrin yaşadığını gözəl duyur. Sazı nə üçün sevdyini, qəmin, sevincin, qəhrəmanlığın sazda nə şəkildə yaşadığını bədii bir dillə yaddaqalan şəkildə belə ifadə edir:

*Nəbinin tüfəngi, Koroğlu cəngi,*
*Didib parçaladı neçə nəhəngi,*
*Dilqəmin şeirinin gözəl ahəngi,*
*Kərəmin qəm-naləsi sazdadı.*

Qəmbər müəllim də atası Şəmşir kimi sazdan, sözdən, aşıq yaradıcılığından söz düşəndə babası Ağdabanlı Qurbanla Aşıq Ələsgərin adlarını qoşalaşdırır, onların adlarını bir-birindən ayırmır:

*Saz şahidi olmuş neçə dünyanın,*
*Oxşamış könlünü min-min obanın,*
*Ələsgərin, Ağdabanlı Qurbanın,*
*Eşq atəşi, şux həvəsi sazdadı.*[1]

---

[1] "Yenilik" qəzeti. (Kəlbəcər rayonu) 25.06.1966.




Qəmbər müəllim bu tarixi görüşü heç zaman yaddan çıxarmır. Dağları, yamacları, düzləri, gəzdikcə bulaqları, çayları, gölləri gördükcə duyğulanır. Səməd Vurğunu yada salır, öz arzu və istəklərini şeirə gətirir. "Ceyran" qoşmasını oxuyanda insanın canından soyuq bir gizilti keçir, inanırsan ki, bu şeirin hər misrası təbii bir hissin, duyğunun, həyəcanlı anların məhsuludur:

*Vurğunu hüsnünə eylədin aşiq,*
*Ay bizim ellərin gözəli, ceyran.*
*Qaçışın boyuna verir yaraşıq,*
*Duruşun, baxışın məzəli, ceyran.*

Müəllif ovçularla ceyranların əzəldən dostluqları olmadığını ceyrana xatırladır. "Təpələrdən enəndə düzə" ceyranın xata çəkəcəyindən ehtiyat edir:

*Alçaq təpələrdən enəndə düzə,*
*Gözəl görünərsən baxdıqca gözə,*
*Ovçular əzəldən dost deyil sizə,*
*Çətindi aranız düzəli, ceyran.*

Şair ceyranı onlardan uzaqda olmağa çağırır. Özünün onların tərəfində olduğunu deyir. Onun hüsnünə min şeir yazsa da yorulmayacağını bildirir.

*Qaçıb uzaq durma, yaxın gəl bir az,*
*Qorxma mən tərəfdən bir xətər olmaz,*
*Hüsnünə min şeir yazsa yorulmaz,*
*Qənbərin qələmi, öz əli, ceyran.*

Bu sətirlərin müəllifi ilk dəfə Kəlbəcər torpağına qədəm basarkən yazdığı gəraylıda Aşıq Şəmşirin böyüklüyünü, azman bir sənətkar olduğunu belə dilə gətirir.

*Gəlib çıxdım gül çağına,*
*Girdim Şəmşirin bağına,*
*Sinəm döndü söz dağına,*
*O, içən çeşmədən içdim.*

Eyni zamanda bir neçə gün sonra S.Vurğunun dilə gətirdiyi Dəlidağı, Ceyran bulağını seyr etdikdən sonra müəllif "Dəlidağ"

qoşmasını yazmışdı. Həmin qoşmadan iki bəndi nümunə veririk.

*Bəxtərvərsən, ucalardan ucasan,*
*Gör neçə dağların gözü var səndə.*
*Soruşsalar, bilərsənmi, Dəlidağ,*
*Neçə nəğməkarın sözü var səndə.*

*Yaddan çıxmaz bu görüşüm, vüsalım,*
*İzin ver, Dəlidağ, bir xəbər alım,*
*Niyə mən gedirəm, getmir xəyalım?*
*Yoxsa, Vurğunumun izi var səndə?*

Səməd Vurğun dünyadan köçəndə ona dağ çiçəklərinin sayı qədər, yarpaq-yarpaq həzin, emosional, səmimi şeirlər həsr olunduğu kimi, Şəmşirin uyuduğu torpağa, yatdığı məzara da gül-çiçək yağışı, şeir yağışı yağmışdır. Mən deyərdim ki, Aşıq Şəmşirin dünyadan köçməsi münasibəti ilə yazılan şeirlər içərisində daha səmimi duyğuları şair Ənvər Rza yaşamışdır.

*Qocalmaq bilmədi eşqi, həvəsi,*
*Qaldı qartallara zil zəngüləsi,*
*Getməz bu dağlardan aşığın səsi,*
*O, coşub-çağlayan irmaq kimidir.*

“Getməz bu dağlardan aşığın səsi” deyən sənətkar, Aşıq Şəmşirdən sonra insanlar bir yana, təbiətin nə hala düşdüyünü belə mənalandırır:

*Həsrətdən dağların zirvəsi bəyaz,*
*Üşüdür gül üstdə arını ayaz,*
*O Dədə Şəmşirsiz Kəlbəcər bu yaz,*
*Bülbülü gəlməyən bir bağ kimidir.*

Ənvər Murovda qəlbini ovunduracaq, ona təsəlli verəcək bir kəsin olmadığını görüb ovçunu öz yanına çağırır və deyir: “Ay ovçu, bəri gəl, qoy ovun dursun”.

*Getməsin dumanı Murovun, dursun,*
*Ay ovçu, bəri gəl, qoy ovun dursun.*
*Ənvəri Şəmşirsiz kim ovundursun? –*
*Şairdir, ürəyi yarpaq kimidir.*[1]

Bu sətrin müəllifi Kəlbəcərə həsr etdiyi və çox bəndli qoşmada Kəlbəcər torpağını, bu torpağın unudulmaz oğlunu belə xatırlayır, belə dilə gətirir:

*Keyti-Meyti dağları verib boy-boya,*
*Dəlidağa baxıb gözlərin doya,*

---

[1] Ənvər Rza. “ Bəxtəvər dustaq” Bakı 1994. səh 31.

*Çiçəyində min bir naxış, min boya,*
*Bir Məndilim Kəlbəcərdə qalıbdı.*

*Gözüm qalıb baharında, yazında,*
*Qiyməti var o torpaqda sözün də,*
*Hey inildər Aşıq Şəmşir sazında,*
*"Göyçə gülüm" Kəlbəcərdə qalıbdı.*

Hələ bundan sonra toyda, mağarda, el şənliklərində adı çəkilən mahnılar səsləndikcə, könülləri təlatümə gətirəcək. Aşıq Şəmşirin fəlsəfi baxışları, mühakimələri duyulduqca onun haqqında cild-cild romanlar, elmi monoqrafiyalar yazılacaq. O taylı, bu taylı Azərbaycan onun şeirləri ilə oyanacaqdı. Aşıq Şəmşir aşıq poeziyasında və musiqisində gur bir səsdi, sədadır. Aşıq Şəmşir şeir-sənət dünyasında elə bir məşəldir ki, əbədi olaraq yanacaq, şeir sevərlərin qəlbinə işıq salacaqdır.

## *III BÖLÜM*

## *Aşıq Şəmşirin sələfləri və xələfləri*

Sələfləri dedikdə Aşıq Şəmşirdən əvvəl yazıb yaradan Dirili Qurbani, Miskin Abdal, Aşıq Lələ və Sarı Aşıq, Qaracaoğlan, Tikmədaşlı Xəstə Qasım, Abdalgülablı Valeh, Aşıq Ələsgər və atası Ağdabanlı Qurban nəzərdə tutulur. Aşıq Şəmşirin şeir çəməninə bunların yaradıcılıq qaynaqlarından abı-həyat damlaları sızmışdır. Aşıq Şəmşir bunların hansının yaradıcılığından necə bəhrələnmişdir? Bunların həyat və yaradıcılıqlarının hansı cəhəti Şəmşirin ruhu ilə, yaradıcılıq konsepsiyası ilə uyğun gəlmişdir? Biz burada konsepsiya məfhumunu elə-elə belə işlətmirik. Çox aşığın fəlsəfi dünya görüşünü işləmək və müəyyənləşdirmək mümkün deyildir.

Çünki onların ardıcıl sistemli dünya görüşlərinin konsepsiyası yoxdur.

Aşıq Şəmşirin fəlsəfi konsepsiyası vardır. Ta ulu babası Miskin Abdaldan, atası Ağdabanlı Qurbandan üzü bəri nəsil səcərəsinin bədii

təfəkkürü bir sistem halında formalaşa-formalaşa gəlmiş və öz ənənələri ilə fəlsəfi konsepsiyasını müəyyənləşdirmişdir.

Miskin Abdalın da, Ağdabanlı Qurbanın da, Şəmşirin də şeir yaradıcılığının mərkəzində insan və təbiət dayanır. Lakin bu o demək deyildir ki, Aşıq Şəmşirin nəsil səcərəsi öz – özlərinə qapanmış, ətraf mühitə diqqət yetirməmiş, özündən əvvəl yazıb-yaradan və ya düzüb-qoşan aşıq-şairlərin yaradıcılığına biganə qalmışdır, əksinə Şəmşirin yaradıcılığında bunlar birləşir, böyük nəhrilər yaradır.

Biz bilirik ki, Aşıq poeziyasında ilk məsail nümunəsi XVI əsrin böyük sənətkarı Dirili Qurbani tərəfindən yaradılmışdır. Qurbaninin 63 məsaili özündən sonra gələn bütün sənətkarlar üçün bir örnək olmuşdur. Qurbaninin 63 məsaili Tufarqanlı Abbas, Qaracaoğlan, Xəstə Qasım, Şəmkirli Hüseyn və Aşıq Ələsgər kimi böyük sənətkarların yaradıcılıq yollarını müəyyənləşdirmək üçün əsas olmuşdur.

Məsail nə deməkdir? Məsail ərəbcə məsələlərin cəmi deməkdir. Hansı məsələlərin? Allahla, peyğəmbərlə əlaqəli dini məsələlərin cəmi nəzərdə tutulur. Apardığımız araşdırmalar müəyyən etmişdir ki, klassik ədəbiyyatda Nizami kimi dahi şairlərin iri həcmli əsərlərinin əvvəlində verilmiş «Minacat»larda, "Meracna-

mə"lərdə, yəni «Peyğəmbərin meracı»nda, «Peyğəmbərin mədhi»ndə hansı məsələlər qoyulmuşdusa, məsaillərdə də eyni məsələlərdən bəhs olunmuşdur. Fikrimizi əyaniləşdirmək üçün əvvəl Nizaminin əsərlərinə müraciət edək. «Sirlər xəzinə»sinin əvvəlində verilmiş minacatda Allaha belə müraciət olunur.

*Sən, ey bütün varlığa həyat verən, can verən!*
*Gildən yaranmışlara nəfəs verən, qan verən!*
*Biz hamımız faniyik, əbədiyyət sənindir,*
*Uca göylər, qüdsiyyət, təmiz niyyət sənindir.*[1]

«Xosrov və Şirin» poemasının əvvəlində isə deyilir:

*Dilimdə hər şeydən uca bir ad var,*
*Bu ada bağlıdır bütün varlıqlar.*
*Yaranmışlar ona səcdə edərək,*
*Hər an varlığına sahibdir, gerçək.*
*Təkdir, misilsizdir, - kim deyil agah?*
*Ulular deyirlər ona tək Allah.*[2]

«Peyğəmbərin mədhi», «Peyğəmbərin meracı» başlıqları altında Allahla peyğəmbərin yaxınlığı və aradakı möcüzələr təsvir olunur.

---

[1] Nizami Gəncəvi «Sirlər xəzinəsi». Bakı 1981, səh 24
[2] Nizami Gəncəvi «Xosrov və Şirin». Bakı 2004, səh 23-24

*Məhəmməd seçilən, Allah seçəndir,*
*Yerdən göyə qədər duan var olsun,*
*Seçib seçilənə salamlar olsun.*[1]

«Peyğəmbərin meracı» bölməsində oxuyuruq:

*Açantək bu sirri Cəbrayıl ona,*
*Məhəmməd bu sözdən, bu həycana,*
*Huşunu itirib ətrafa baxdı,*
*Qulluq sırğasını qulağa taxdı.*
*Peyğəmbər əmindir, Cəbrayıl əmin.*
*Onları qorxutmaz nə şeytan, nə cin.*
*O dedi: Allahın hər peyğamını,*
*Bu duydu elçinin sirr-kəlamını.*[2]

Həmin hissədə Cəbrayılla yanaşı, Mikayılın, İsrafilin, Məhəmmədin atı Büraqın adları ehtiramla çəkilir. Adəm, Həvva nənə, digər müqəddəs kultların, şəxslərin adları yad edilir. Qeyd edilir ki, «mənada Adəmin can kimyası, surətdə aləmin göz tutyası» olan Məhəmməd hər şeyə qadirdir. Burada eyni zamanda İsanın, Musanın, Süleymanın, İbrahim-xəlilin adları yad edilir:

---

[1] Nizami Gəncəvi «Yeddi gözəl». Bakı 2004, səh 22
[2] Yenə orada, səh 22-23

*Ruhlara dərs öyrət sən İsa kimi,*
*Eşqdən şam yandır bir Musa kimi.*
*Üzüyə füruzə qaş salanda sən*
*Bizdən Süleymantək əta görərsən.*[1]

Başqa bir yerdə peyğəmbər haqqında deyilir:

*Türbətinin qubarı döndü ənbər ətrinə,*
*Yurdun ənbər vətəni oldu sənin xətrinə.*
*Torpağın ətirlidir Süleymanın mehindən,*
*Cənnət də ətirlənər gülzarının şehindən.*[2]

«Peyğəmbərin mədhi»nin davamında oxuyuruq:

*Daim ədalətindən nəşə duydu Süleyman,*
*Peyğəmbərlik tacına sanma uydu Süleyman,*
*O quyudan qisməti, ah, nə oldu Yusifin?*
*Nəsibi bir kəndirdi, bir də doldu Yusifin,*
*Gedər-gəlməz səfərə atını çapdı Xızır.*
*Camı boşdu həqiqət sorağında Musanın,*
*Niyyət bais deyildi təlaşına İsanın.*[3]

Hətta «İsgəndərnamə»nin əvvəlində verilmiş peyğəmbərin meracında Xızırın və Musanın bir qasid kimi Məhəmməd peyğəm-

[1] Nizami Gəncəvi «Xosrov və Şirin», Bakı, 2004, səh 34
[2] Nizami Gəncəv «Sirlər xəzinəsi». Bakı, 1981, səh 35
[3] Nizami Gəncəvi «Sirlər xəzinəsi». Bakı, 1981, səh 39

bərin atının önündə getdiklərini Nizami qeyd edir:

*At sürdü yollardan, dağlardan keçdi,*
*Bir sıra təpəni bir anda biçdi,*
*Yanında qasiddi Xızr ilə Musa,*
*Atının önündə gedirdi İsa.*[1]

Şifahi xalq ədəbiyyatına, onun canlı və hərəkətdə olan qoluna, aşıq sənətinə Dirili Qurbani dərindən bələd olduğu kimi, klassik yazılı ədəbiyyata da eyni dərəcədə bələd olmuş və onların hamısından tükənməz bir qaynaq kimi istifadə etmişdir.

Bizim arxivimizdə olan Qurbaninin 63 məsaili əsli Göyçənin Cil kəndindən olan, hazırda Şəmkir rayonunun Keçili kəndində yaşayan məşhur aşıq Qasımın oğlu, Cilli Museyibin qardaşı Aşıq Əlidən toplanılmışdır. Həmin 63 məsailin ilk bəndlərində deyilir:

*Şükür dərgahına qadir Allahın,*
*Məhəmməd dinini bəyan eylədi.*
*Sidqinən çağırdı, saqi-kövsəri,*
*Tamam dərdlərə dərman eylədi..*

---

[1] Nizami Gəncəvi «İskəndərnamə». Bakı, 1964, səh 31

*Yaz ayında lala bürüyər dağı,*
*Mudəm səbzə olsun mömінlər bağı.*
*Doqquzuncu imam Məhəmməd Tağı,*
*Əliyən Nağını əyan eylədi.*

*Havada kəşt edir Süleyman taxtı,*
*Bilin ki, nə vaxtdı qıvlanın vaxtı.*
*Məhəmmədə gələn "Quran" da haqdı,*
*Musa da "Tövrat"ı bəyan eylədi.*

Məsailin ayrı-ayrı bəndlərində Fatmeyi-Zəhra xatundan, Museyi Kazımdan, Sahibi Zamandan, on iki imamdan, Firuddindən, Suliddindən, müqəddimatdan, müqərratdan, səkkiz namazından, Süleyman taxtından, Məhəmmədə gələn "Quran"dan, Qadiri Sübhandan, Murtuza Əlidən, səkkiz cənnət otağından və digər dini məsələlərdən, müqəddəs şəxslərdən ətraflı bəhs olunur, Qurbani şeirinin möhürbəndində 63 məsailin adı qeyd edilir.

Bəzi ustad aşıqlar Qurbani məsailinin 53, bəziləri isə 63 olduğunu söyləyirlər. Lakin bizə görə Qurbaninin məsaili 53 yox, 63-dür.

Qurbaninin 63 məsaili aşıq yaradıcılığında ölməz bir sənət incisidir. Həm də o dövrdə buna böyük ehtiyac vardı. Nizami kimi dahi şairlər irihəcmli əsərlərinin əvvəlində «Minacat», «Peyğəmbərin mədhi», «Peyğəmbərin mina-

catı» kimi möcüzələrlə dolu islami dəyərləri xalqa çatdırırdısa, Qurbani kimi yüksək dini təhsil görmüş ustad sənətkarlar da məclisə daxil olarkən ustadnamə yerinə dərin mündərəcəli məsaillərini söyləyirdi. Qurbaninin ölməz əsəri olan məsaili aşıq Abbasa da, Xəstə Qasıma da, Abdalgülablı Valehə də, Şəmkirli Aşıq Hüseynə də, Aşıq Ələsgərə də güclü təsir etmiş, onlar da bu yöndə peyğəmbərin möcüzələrindən bəhs edən əsərlər yaratmışlar. Tufarqanlı Abbasın və Xəstə Qasımın dini ustadnamələri, Şəmkirli Hüseynin zəncirləməsi və Aşıq Ələsgərin «peyğəmbərin meracı» adlı şeirləri dediklərimizə misal ola bilər.

İslam dininin xalqımızın mənəvi həyatında və mədəni inkişafında müstəsna rol oynadığını inkar etmək qeyri-mümkündür. Dirili Qurbani islami dəyərləri yüksək qiymətləndirərək, onu öz əsərlərinin canına hopdurur, məclislərdə deyir və geniş kütlə arasında yayırdı. Bir-birindən kəskin şəkildə fərqlənən məsaillər, vücudnamə kimi dastanların əvvəlində, cahannamələr isə dastanların sonunda deyilirdi. Bəzi araşdırıcılar Dirili Qurbaninin Şah İsmayıl Xətainin sarayına qədər inkişaf edib, yol tapmasını müxtəlif şəkildə elmi bir dillə yox, bədii nümunələr əsasında danışırlar. Bu doğru deyildir. Şah İsmayıl Xətai Səfəvi dövlətinin

ideologiyasını formalaşdırarkən islami dəyərlərə söykənirdi. Tədqiqatçılar çox zaman bu islami dəyərləri sufizm şəklində, yəni şəriət, təriqət, mərifət və həqiqət kimi izah etməyə çalışırlar. Şəriətin tələbi budur ki, təkcə "Quran"a deyil, bütün dini kitablara bələd olmalısan. Təriqət odur ki, seçdiyin dini yoldan dönməyəsən. Mərifət odur ki, hansı dinə mənsubsansa, xalq arasında o dini mərifətlə təmsil edəsən. Həqiqət odur ki, qardaşın bir adam öldürüb, yerinə isə başqasını həbs ediblərsə sən həqiqət naminə, qardaşın olsa belə, kimin günahkar olduğunu aşkarlamalısan. Bax, bu dörd cəhət səndə cəmləşsə, insani-kamil olarsan. Göydə Allahı, onun işığını görmək istəyən, onu sənin alnında, alnına yazılmış hərflərdə oxuya bilər, yerdə sən onun təcəllası olarsan. İslami dəyərlərin içərisində bu kiçik bir xətdir, bunlar Nəsimi, Şah İsmayıl Xətai, Qurbani və Pirsultan Abdal yaradıcılığında özünü daha qabarıq büruzə verir. İslami dəyərlərə çox məsəllər daxildir. Bunlar Dirili Qurbani yaradıcılığında öz təcəssümünü tapmışdır. Hələ ozanların son nümayəndəsi Dədə Yediyarla Qurbaninin deyişməsi, Qurbaninin dini ehkamlara nə qədər dərindən bələd olduğunu aşkar deyir. Dədə Yediyarla Qurbaninin deyişmələrindən bir nümunə:

*Dədə Yediyar:*

Nədən hasil oldu İsrafil suru?
Kim camal göstərdi, yandırdı Turu?
Hansı peyğəmbərin alnında nuru,
Onu kim görcəyin müsəlman oldu?

*Qurbani:*

Nurdan hasil oldu İsrafil suru,
Haqq camal göstərdi, yandırdı Turu.
Məhəmməd peyğəmbər – alnında nuru,
Xədicə görcəyin müsəlman oldu.

Qurbani saraya getməzdən əvvəl Şah İsmayıl Xətai onun yaradıcılığı ilə, ağlı ilə, kamalı ilə dərindən tanış olmuş, Dədə Yediyarın meydanında qalib gəlib, sınaqdan çıxdıqdan sonra onu öz sarayına dəvət etmiş və aşıqlara başçı seçmişdir. Hətta Qurbaninin elə şeirləri var ki, Xətai şeirləri ilə səsləşir, eyni mənanı təqib edir. Xüsusilə Xətaiyə məxsus vücudnamə və cahannamə parçalarının Qurbaninin təsiri ilə yazıldığına şübhə yeri qalmır. Xətai də böyük həvəs göstərmişdir ki, onun şeirləri də dastan gecələrində ustadnamə yerində söylənilsin. Onun «Tövbənamə» qəzəli buna misal ola bilər.

Aşıqlar Xətainin nəinki qoşmalarını, hətta qəzəllərini sazda oxumağa başlamışlar. Divani şeir şəkli onun qəzəlləri əsasında formalaşıb meydana çıxmışdır. Aşıqlar hətta məclisi Şah İsmayıl Xətainin dini şeiri olan "Tövbənamə"si ilə açırmışlar. Akademik Həmid Araslı da «Aşıq yaradıcılığı» adlı əsərində bu hadisəni xüsusi vurğulayır və Şah İsmayıl Xətainin qəzəlindən bir beyt nümunə verir:

*Şah Xətai seyrə çıxdı açdı Hürrün qəbrini,*
*Ya İlahi, sən bilirsən günahkaram doğrusu.*[1]

XVI əsrdə yaşayıb-yaratmış, Səfəvi xənadanının böyük hörmət və nüfuzunu qazanmış Qurbani Şah İsmayıl Xətai ilə birlikdə Çaldıran döyüşündə iştirak etmiş və o illərdə «Baş divani» («Xətai divanisi»), «Ayaq divani» («Osmanlı divanisi») saz havalarını yaratmışdır.

Şah İsmayıl Xətaidən sonra, XVII əsrdə sənət meydanına gələn Tufarqanlı Abbas Şah İsmayıl Xətainin və Qurbaninin yaradıcılıq yolunu intixab etmiş, Qurbaninin məsail şeirinin təsiri ilə yaddaqalan dini şeirlər yazmışdır. Tufarqanlı Abbas başqa sənətkarlardan fərqli olaraq öz şeirləri və həyat macəraları ilə bağlı,

---

[1] Həmid Araslı. «Aşıq yaradıcılığı», Bakı, 1960, səh 34

«Abbas və Gülgəz» kimi bütöv bir dastan yaratmışdır. Prof. M. H. Təhmasib haqlı olaraq qeyd edir ki, Tufarqanlı Abbasın tərcümeyi-halı, ədəbi irsi onun dastanında cəmləşmişdir. Tufarqanlı Abbasın şeirlərindən nümunələrə diqqət yetirək:

*Xətmi Rəsul merac üstə yeridi,*
*Məlakələr dörd bir yanın bürüdü,*
*Cənab Əmir şir donunda şiridi,*
*Özü kəsdi Mustafanın yolunu.*

Və yaxud:

*Bir şəhərə vardım öz peşəsində,*
*Əyləşib cənnətin sər guşəsində,*
*On səkkiz min aləm bir küçəsində,*
*Bir yanı boş qalıb, min bəndərgahı var.*

Bu şeir parçalarında Qurbaninin 63 məsailinin təsiri duyulmaqdadır. Qurbani aşıq poeziyasına ilk dəfə olaraq məsail, divani və təcnis şeir formalarını gətirdiyi kimi, bundan sonra sənət meydanına gəlmiş Tufarqanlı Abbas da aşıq yaradıcılığına örnək olaraq müləmmə təcnis (çoxdilli), cığalı təcnis və vücudnamə kimi şeir formalarını gətirmişdir.

XVI əsrin məşhur aşıq şairi Şah İsmayıl Xətainin, Dirili Qurbaninin müasiri olan Miskin

Abdal da məsail şeir formasına biganə qalmamış, onu bəyənmiş, təqdir etmiş, o da məsail formasında şeir yaratmışdır. Təəssüflər olsun ki, Miskin Abdalın yazdığı məsaildən bir neçə bənd və beyt gəlib bizə çatmışdır.

Ustad sənətkarların yaratdıqları məsailləri və digər ilkin şeir formalarını ona görə göz önünə gətiririk ki, Aşıq Şəmşirin tarixi ənənələrə söykənən, möhkəm yaradıcılıq konsepsiyası olan bir sənətkar olduğu aşkar olsun. O, özündən əvvəl yaranan şeir nümunələrinin heç birinə biganə qalmamışdır.

Meracnamələr, zəncirləmələr, müəyyən mənada cahannamələr məsaillərin törəmələridir. Aşıq Abdalgülablı Valehin və Aşıq Şəmşirin cahannamələri buna misal ola bilər. Bu dərin dəryaya ancaq klassiklərlə yanaşı durmaq qabiliyyətinə malik Aşıq Şəmşir dalar və oradan nadir inciləri üzə çıxarardı. Aşıq Şəmşir bir məsail bəndində yazır:

*Köçdü bu fənadan kim üzü gülər?*
*Hanı yüz iyirmi dörd min Peyğəmbər?*
*On iki istəkli imam gəldilər,*
*Qalmadı əmbiyə-xaba dünya.*

Ağdabanlı Qurbanın öz iyirmi beş bəndlik dini cahannaməsindən bir neçə bəndi nümunə

verməklə kifayətlənirik. Aşıq Şəmşir üç adı: Ya Allah, Məhəmməd, Əli xilqəti – sözlərini əzəl-əzəl dilə gətirməyi vacib sayır:

*Yer üzü cəm oldu doqquz nöhrəvaq,*
*Pak aydan seçildi bu ana torpaq.*
*Üç ad vacib oldu lövhə yazılmaq,*
*Ya Allah, Məhəmməd, Əli xilqəti.*

*Fəsul-Əkrəm mindi ildırım Buraq,*
*Cəbrail bələdçi olubdu ancaq,*
*Haqq onu Meraca çağırıb qonaq,*
*Əlbəttə mövlaya var məhəbbəti.*

Məhəmmədin Meraca getməsində Burağın onu göylərə qaldırmasını, Cəbrayılın bələdçilik etməsini Miskin Abdal ustalıqla təsvir və tərənnüm edir.

*Hər kim şərdə şəri bilməsə,*
*Göydə əfsəl qəzənfəri bilməsə,*
*Hər kim ki, Əlini Vəli bilməsə,*
*Onun başın zülfüqara verəsən.*

*Qadir-mövlam nəzər salıb hər yana,*
*Fərq qoymayıb, bəyə, gədaya, xana,*

*Abdal da sığınıb qadir sübhana,*
*Sən də meylin beylə yara verəsən.*[1]

Bütün varlığı ilə Əliyə bağlı olan Miskin Abdal hətta öləndə belə Şahi-Nəcəfdə, yəni Əlinin yanında dəfn olunmaq arzusunda imiş:

*Gözüm qaldı gərdən bağı sədəfdə,*
*Mən də gedib qalam şahi-Nəcəfdə.*[2]

Miskin Abdalın şeirlərindən belə anlaşılır ki, o, Şah İsmayıl Xətainin vəfatı zamanı bu şeiri yazmışdır:

*İqlimin şahıydı həzrət Süleyman,*
*Ədalətə pənah idi Nuşirəvan,*
*Şıx oğlu İsmayıl cənnəti məkan,*
*Düşməz ələ o bir yadigar idi getdi.*[3]

Şəmşir arzu edirdi ki, kaş o meracı, biz də görəydik. Artıq könülləri şad edən merac əhvalatı dillər əzbəridir.

*Meracdan Məhəmməd qayıtdı geri,*
*Ürəkdən şad etdi istəyənləri,*

---

[1] Sədnik Paşayev, "Ağdabanlı Qurban və müasirləri", (namizədlik disserasiyası), 1969.
[2] Yenə orada.
[3] Yenə orada.

*Dillərdə əzbərdi o vaxtdan bəri,*
*Kaş biz də görəydik o ziyarəti.*

Aşıq Şəmşir dini hadisələrə, inam və etiqadlara sidqinən, ürəkdən bağlı idi. Minacatlarla, meracnamələrlə səsləşən dini hadisələri, Allaha məhəbbəti özündə ifadə edən elə qoşma məsaillər yaratmışdır ki, Şəmşirin klassik poeziya ənənələrinə az qala yazılı ədəbiyyat nümayəndələri qədər dərindən bələd olduğuna şübhə yeri qalmır. Onun "Allah" rədifli qoşma-məsaili aşıq poeziyasında möcüzələrlə dolu bir sənət abidəsidir. Aşıq Şəmşir bu qoşma məsaili gələcək nəsillərə bir yadigar olaraq ölməz sənət örnəyi olaraq qoyub getmişdir. Siz qoşma-məsaildəki dərin fikirlərə Allaha ehtirama diqqət yetirin. Şeirin hər misrası zehindən gələn, ağıldan gələn, ağıl süzgəcindən keçən hikmətlərlə dolurdur. Bu qoşma-məsaili bütöv verməyi məqsədəuyğun hesab etdik. Ona görə ki, çox aşıq məsailin nə olduğunu bilmir.

*Kərəmin kanısan, rəhmin kanı,*
*O nur camallara bağışla, Allah.*
*La şərik isminə, mürüvətinə,*
*Sahibi-ixtiyara bağışla, Allah.*

*Yə dü bü ağlara, altı gözələ,*
*Mərhəmət adına, axır-əzələ,*
*Bir vahid olana, bil ləm yəzələ,*
*Xoş nəzər hallara bağışla, Allah.*

*Qır tərəhim, bu günahkar möhtaca,*
*Əfv eylə, İlahim, Kəbeyi-taca,*
*Məhəmmədi sən çağırdın mehraca,*
*O gedən yollara bağışla, Allah.*

*Cümlə Rəsuluna, imamlarına,*
*And verirəm səni baqi bağına,*
*Bədəni yaralı Şahsuvarına,*
*Amandı, onlara bağışla, Allah.*

*Şəmşir, sığın haqqa dərd-qəm eyləmə,*
*Haqdan qeyri kəsdən dilək diləmə,*
*Fərat kənarında yatan ələmə,*
*Ələmdar qollara bağışla, Allah.*

Ümumiyyətlə, Aşıq Şəmşir əqidəli, yol-ərkan tanıyan alimanə bir insandır.

Xəstə Qasım və Aşıq Şəmşir hər iki qaynağa, yazılı və şifahi poeziyaya dərindən bələddirlər. Ona görə bu sənətkaların bir yox, iki dünyanı seyr edən bir cüt qartal qanadları vardır. Xəstə Qasım Nizami yaradıcılığından gör nə gözəl faydalanmışdır!

XVII əsrin sonu XVIII əsrin əvvəlində sənət meydanına gəlmiş Tikmədaşlı Xəstə Qasım özünə qədər mövcud olan klassik ədəbiyyatdan, zəngin folklorumuzdan, folklorumuzun hərəkətdə olan, çevik və tez-tez dəyişmələrə məruz qalan aşıq sənətindən istənilən qədər faydalanmışdır. Həmin qaynaqlardan bəhrələnmiş, öyrənə-öyrənə, dərinləşə-dərinləşə dərya-dəniz olmuş, bir dağ kimi ucalmış, geriyə boylananda Nizami, Füzuli, Qurbani və Tufarqanlı Abbas kimi azman söz ustadlarını görmüş və bununla da öz sənət yolunu müəyyənləşdirmişdir. Xəstə Qasım sələflərinin poetik və melodik əsərlərindən təsirləndiyi kimi, onun xələfləri də şair-aşığın ədəbi irsinə söykənərək gözəl sənət nümunələri yaratmışlar. Xəstə Qasım sələflərinin yaradıcılığından necə faydalanmışdır? Nizami yazır:

*Əvvəl əyri bitən bir cavan budaq,*
*Zənn etmə, qocalsa düzgün olacaq.*[1]

Xəstə Qasım həmin beytin təsiri ilə yazdığı qoşmasında fikrini belə ifadə edir:

*Əzəl yerdən çıxan əyri ağacı,*
*Yüz min ustad rəndələsə düz olməz.*[2]

---

[1] Nizami Gəncəvi «Xosrov və Şirin», Bakı, 1962, səh 222
[2] Xəstə Qasım, Bakı, 1975, səh 10

Məlumdur ki, Xəstə Qasım dərin mündəricəli ustadnamələr, qıfılbəndlər müəllifi kimi şöhrət qazanmışdır. Xəstə Qasım yaradıcılığına əzəl gündən böyük heyranlıq göstərmiş Aşıq Şəmşir onun ustadnamələri ilə bir səviyyədə dura biləcək şeirlər yazıb-yaratmışdır. Xəstə Qasım bir ustadnaməsində deyir:

*Xəstə Qasım, yazlarımız yazlanar,*
*Qızılgüllər pardaxlanar, nazlanar,*
*İgid daldasında igid gizlənər,*
*Tülkünün dalında heç bir zad olmaz.*

Bəlkə də Aşıq Şəmşir öz sələflərindən irəli gedərək aşağıdakı çox dəyərli ustadnaməsini yaratmışdır.

*Qoy səni şir yesin, şir parçalasın,*
*Tülkü daldasında yatana kimi.*

Aşıq Şəmşir öz sələflərinin əksəriyyətinin yaradıcılığına dərin məhəbbət bəsləmiş, lakin bunların heç birini Qaracaoğlan yaradıcılığı ilə yanaşı tutmamışdır. O, haqlı idi. Qaracaoğlan təkcə Anadolunun, Azərbaycanın, Krım Tatarlarının, Orta Asiya türklərinin aşıq-şairi deyildir. Qaracaoğlan bütövlükdə türk dünyasının tanınmış yaradıcı aşıqlarından biri idi. Türk

dünyasında aşıq sənətinin səyyarlığını o təşkil etmişdir. Onun səsi gah Anadoludan, gah Şirvandan, gah Ağbabadan, gah Misirdən, gah da Türkmənistandan gəlmişdir. Türk xalqlarından hansını dilləndirsən deyər: “Qaracaoğlan bizim aşığımızdır”. Hər kəsdən çox Qaracaoğlanın poeziyası Aşıq Ələsgərin və qardaşı oğlu İmanın yaradıcılığına silinməz izlər buraxmış və təsir göstərmişdir. M.P.Vaqif poeziyasını Qaracaoğlansız təsəvvür etmək çox çətindir. Qaracaoğlan poeziyası yazılı və şifahi poeziyamıza və onların tanınmış nümayəndələrinin yaradıcılığına silinməz izlər buraxmışdır. Az qala Vaqifin qoşmalarının canına hopmuş misralar “gəl məni gör” deyir. “Bulağın yolu”, “Bənövşə” və digər şeirləri buna misal ola bilər. Kim deyər ki, Aşıq Ələsgərin arvadına yazdığı tərifnamə - “Xəbərin varmı” və Növrəs İmanın “Varmı” şeirləri Qaracaoğlanın sənət çeşməsindən su içməmişdir?

Qaracaoğlanın bir gəraylısına diqqət yetirək:

*Ala gözlü, nazlı dilbər,*
*Elindən xəbərin varmı?*
*Sevgilim, kəmər açılıb,*
*Belindən xəbərin varmı?*

*Dəvələr boynunda zəncir,*
*Sarvan çəkər, maya incir,*
*Bu yetim qapında yoncur,*
*Qulundan xəbərin varmı?*

*Ala gözlü, boyu bəstə,*
*Hər nə desən gözüm üstə,*
*Qaracaoğlan düşüb xəstə,*
*Ölümdən xəbərin varmı?*

Bu gəraylı ilə ustad sənətkar Aşıq Ələsgərin "Xəbərin varmı" şeirinə birlikdə baxaq. Görək Aşıq Ələsgər həmin şeirin təsirindən kənarda qala bilmişdirmi?

*Ala gözlü, nazlı dilbər,*
*Elindən xəbərin varmı?*
*Dörd bir yanın bağça söyüd,*
*Gülündən xəbərin varmı?*

*O vaxt ki, mən gəldim sizə,*
*Mail oldum ala gözə,*
*Zibilin çıxıbdı dizə,*
*Külündən xəbərin varmı?*

*Ələsgərnən eylər dava,*
*Ariflər salsın hesaba,*

*Cehizindi qırıq tava,*
*Malından xəbərin varmı?*

Qaracaoğlan "Dərmanımmı var" qoşmasını belə başlayır.

*Üryan gəldim, yenə üryan gedirəm,*
*Ölməməyə əldə fərmanımmı var?!*
*Əzrayıl gəlmiş də can tələb eylər,*
*Canı verməməyə dərmanımmı var?!*

Qaracaoğlan şeirinin bənzəri olan qoşmasını Növrəs İman belə başlayır:

*Bəlalı gəlmişəm fani dünyaya,*
*Mənim sağalmağa dərmanımmı var?!*
*Əzrayıl gələcək canım almağa,*
*Onu verməməyə fərmanımmı var?!*

Aşıq Ələsgərin və Növrəs İmanın Qaracaoğlanın şeir çeşməsindən içib feyziyab olmasını hər kəsdən əvvəl şair-araşdırıcı Məmməd Aslan duymuşdur.[1]

[1] Türk xalq şeirindən seçmələr, Bakı, Gənclik" nəşriyyatı, 1980 səh 162.

Molla Cümə şeirlərində şair-aşıq Qaracaoğlanın təsiri açıq şəkildə duyulur. "Qız pətəkdə bala bənzər" gəraylısında Qaracaoğlan deyir:

*Gəlin hurilərdən huri,*
*Qızsa mələklərdən biri,*
*Gəlin köksü busə yeri,*
*Qız tumurcuq gülə bənzər.*

*Gəlin gülər için-için,*
*Qız gəlinə söylər suçun,*
*Gəlin hörüb yığmış saçın,*
*Qızın saçı selə bənzər.*

*Gəlinin ləbləri bəstə,*
*Qız eylədi məni məstə,*
*Gəlin şərbət kimi tasda,*
*Qız pətəkdə bala bənzər.*[2]

Qaracaoğlanın bu gəraylısının təsiri ilə Molla Cümə aşağıdakı gəraylısını yaratmışdır.

*Bulaq üstə bir qız gördüm,*
*Kəsilməmiş nara bənzər.*
*Yanında bir gəlin durmuş,*
*Ağ sinəsi qara bənzər.*

---

[2] Qaracaoğlan. "Şərq-Qərb" nəşriyyatı, Bakı, səh 183.

*Qaradı gəlinin qaşı,*
*Haçadır zülflərin başı,*
*Qız qəfəsdə Tovuz quşu,*
*Gəlin bağda bara bənzər.*

*Gəlin gərək danışmağa,*
*Qız gərək könül açmağa,*
*Molla Cümə sarmaşmağa,*
*Qız qaməti dara bənzər.*

Molla Cümə savadlı olduğu üçün klassik poeziyaya dərindən bələd ola bilmişdir. O, Qaracaoğlan poeziyasının incəliklərinə dərindən bələd olmuş, onun nadir şeir formalarına uyğun olaraq belə bir nadir gəraylı yazmışdır.

Aşıq poeziyasında Qurbani dedikdə bənövşə, bənövşə dedikdə Qurbani yada düşür. Lakin diqqətlə nəzər saldıqda aydın olur ki, Qaracaoğlanın yaratdığı "Bənövşə"də də ondan geri qalmayan, yadda qalan lövhələr yaşamaqdadır. Qaracaoğlan kollar içində bitən bənövşənin yanağına tikan batmasından qorxur. O yazır:

*Qadir mövlam səni öymüş, yaratmış,*
*Çiçəklər içində, ay tər bənövşə.*
*Bitirsən tikanlı kollar içində,*
*Qorxuram üzünə bata, bənövşə.*

Qurbani bənövşəyə baxıb:

*Ayrılıqmı çəkib, boynun əyridi,*
*Heç yerdə görmədim düz bənövşəni -*

deyir.

Qaracaoğlan Qurbaninin bu beytini elə yada salır ki, həm ondan təsirləndiyini bildirir, həm də yeni məna çaları olan poetik fikirlər söyləyir. Bu böyük sənətkardan təsir alması və ya başqasına təsir etməsi güclə sezilir. Həm özündən əvvəlki sənətkarların yaradıcılığına bələd olduğunu bildirir, həm də onun poeziyasında fikirdən fikir doğur. Öz şeirini daha yeni bənzətmələrlə, təşbehlərlə bəzəyir.

Aşıq Şəmşirin "Bənövşə"si də öz ətri ilə, ətrafa yaydığı rahiyəsi ilə, gözəlliyi ilə seçilir.

*Nolar yuxarı tut, barı, boynunu,*
*Üşütməz dağların qarı boynunu,*
*Sən əyəndə yerə sarı boynunu,*
*Mən çəkirəm ahu-nalə, bənövşə.*

Bənövşənin boynunu yerə əyməsi aşığı kədərləndirir, ah-nalə çəkməyə məcbur edir. Şair-aşıq öz qocalığından və bənövşənin kədərindən qəhərlənib telli sazını götürüb

bənövşənin könlünü almağa gəlir. O bu münasibətlə deyir:

*Şehdən çəmənlərə ətir səpir yaz,*
*Durmaz, köynəyindən çıxar telli saz.*
*Şəmşir qocalıqdan inciyib bir az,*
*Gəlib ki, könlünü ala, bənövşə.*[1]

Belə bir hökmü qəti vermək olar ki, Qaracaoğlan aşıq yaradıcılığının, aşıq poeziyasının təkcə yaradıcısı deyildi, həm də onun nəzəriyyəçisi idi. Qaracaoğlan dastanı aşığın ən mükəmməl dərsliyi hesab etmişdir. Qaracaoğlan "Olmadı" rədifli qoşmasında məhəbbət dastanlarını göz önünə gətirir və orada hər bir qəhrəmanın taleyindən söz açır.

*Qarşımızda duran, hey qarlı, dağlar,*
*Hanı, dağlar, sizdə qalan olmadı.*
*Kərəm sevdi Əslisindən yad oldu,*
*Aşıq Qərib kimi gülən olmadı.*

İkinci bənddə də Kərəmin iztirablarını dilə gətirir, onun nakam məhəbbətinə acıyır.

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh. 79.

*Kərəm Əslisini neçə il gəzdi,*
*Axırı tapmadı, canından bezdi,*
*Yar yolunda o ürəyini üzdü,*
*Aşıq Kərəm təki yanan olmadı.*

Bu yerdə Qaracaoğlanın yadına Fərhadla Şirin düşür. Fərhadın faciəli ölümü göz önünə gəlir. Qaracaoğlan yana-yana, qovrula-qovrula yazır:

*Kim görübdü Fərhad ilə Şirini,*
*Onlar da sevirdi biri-birini,*
*Atdı külüngünü, yardı sərini,*
*Fərhad tək yar yolunda ölən olmadı.*

Aşıq Şəmşir də dastanı aşığın kamil dərsliyi hesab edirdi. Aşıq Şəmşir dəfələrlə mənim yanımda demişdir ki, dastan olmadan ustad şagird yetişdirə bilməz, onsuz ustad şagird, ustad ata-oğul, ənənəsini davam etdirmək qeyri-mümkündür. Məlumdur ki, ustad - şagird ənənəsindən sonra, ustad - ata-oğul ənənəsi meydana çıxmışdır. XIX əsrdə Şəmkirli Aşıq Hüseyn öz aşıqlıq sənətini oğlu Çobana, Aşıq Ələsgər oğlu Talıba, Ağdabanlı Qurban oğlu Şəmşirə öyrətmişdir.

Aşıq Şəmşir isə bir çox şagird yetişdirmişdir. Onlardan mənim yaxşı tanıdığım Aşıq

Gəray, Xalıqverdi Həmidoğlu, Bala İslam, Qəmkeş, Saday Cəfərov, Qardaşxan və Dağıstandan Kəlbəcərə gəlib Şəmşirə şagird olan Aşıq Sakit idi. Aşıq Gəray hörmətli bir sənətkar kimi tanınmış və dünyasını dəyişmişdir. Aşıq Sakit Şəki bölgəsində ən şöhrətli sənətkardır. O, Aşıq Şəmşirin şeirlərini yaşadığı bölgədə və ora yaxın olan coğrafi ərazilərdə yaymaqdadır.

Aşıq Şəmşir şakəri olduğu, ömür boyu repertuarında saxladığı "Novruz və Qəndab" dastanını öz poeziyasında təsvir və tərənnüm etmişdir. Dağlarla bağlı Novruzun taleyinə uyğun yaddaqalan bir lövhə yaratmışdır. Aşıq Şəmşir Uzun yalda sevgilisinin dalınca gedəndə qara düşür, az qala tələf olmaq dərəcəsinə çatır. Elə bu zaman Misirə Qəndabın dalınca gedən Novruz yadına düşür. Novruz da dağda borana düşür. Getdiyi yerdə gəmi dağılır, bir taxta parçasının üstdə qalır. Dastanlarımızı incədən-incəyə, dərindən-dərinə duyan və bilən Aşıq Şəmşir sevgi yolunda çəkdiyi bəlaları xəyalında Novruzun düşdüyü vəziyyətlə müqayisə edir.

*Deyirlər düşmüşdü Novruz borana,*
*Onu Qəndab kimi yar öldürürmüş.*

*Mənə deyən yoxdur: "Sən nə gəzirdin,*
*Uzun yalda səni qar öldürürmüş".* [1]

Aşıq Şəmşirin vicdan tərəzisi çox dəqiqdir. Haqqı nahaqqa verməyən sağlam düşüncəli bir insandır. Hər şeyə düzgün münasibət göstərməsi, hər sözünün ədalətli səslənməsi aşıq yaradıcılığına dərindən bələd olması idi.

*Başına döndüyüm bulağın yolu,*
*Gedəndə boş gedir, gələndə dolu.*
*Ağ sinə üstündə bənövşə kolu,*
*Dərsəm öldürərlər, dərməsəm ölləm.*

Həmin şeir eyni məzmunda gah M.P.Vaqifin, gah da Aşıq Ələsgərin adına deyilirdi. Biz şübhə etmirik ki, onlar həmin şeiri nəzirə kimi də yaza bilərdilər. Amma həqiqət budur ki, həmin şeirin ilkin formasını Qaracaoğlan yaratmışdır. Aşıq Şəmşir bu şeirin ilkin formasının Qaracaoğlanla bağlı olduğunu poetik bir üsulla, Qaracaoğlana yazdığı nəzirə ilə təsdiqləmiş və öz möhürünü vurmuşdur. Məhz Şəmşir "Ölləm" qoşmasını Qaracaoğlana nəzirə yazmışdır. Şeirin ilk bəndi belədir.

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 220

*Bir ala gözlüyə aşiq olmuşam,*
*Alsam – ola bilməz, almasam, ölləm.*
*Qulluğunda qolu bağlı qul kimi,*
*Qalsam – ola bilməz, qalmasam, ölləm.*[1]

Aşıq Şəmşiri, onun poeziyasını sevən, ömrü boyu bu poeziyanı izləyən Zəlimxan böyük poetik dəyərə malik qoşmasını belə tamamlayır.

*Barmağı pərdədə, mizrabı teldə,*
*Turacı meşədə, sonanı göldə,*
*Kəkliyi qayada, ceyranı çöldə,*
*Qartalı zirvədə görməsəm ölləm*

Heç bir aşıq Aşıq Lələnin mənəvi anası olan Yaxşı ilə Sarı Aşığın sevgilisi Yaxşının başqa-başqa adamlar olduğunu bir-birindən seçə bilməzlər. Bunları bilmək üçün "Aşıq Lələ və Yaxşı", "Sarı Aşıq və Yaxşı" dastanlarını Aşıq Şəmşir kimi bilmədən fikir söyləyə bilməzlər. Hər iki aşıqin taleyini bir bənd şeirində Aşıq Şəmşir belə ifadə edir.

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004.səh 116

*Qışda dağlar həsrət çəkir a yaza,*
*Nərgizi qoşadı, lalə tək açdı.*
*Saldı eşq əlindən sərin ayaza,*
*Yaxşıya dərdini lələ tək açdı.*[1]

Lələ ilə bağlı böyük bir bayatılı dastan mövcuddur. Onu burada genişliyi ilə izah etmək imkan xaricindədir. Yaxşı ilə Zamanın övladları olmur. Kərbalaya gedən zəvvarlardan biri deyir:

- Ay Zaman qardaş, biz ziyarətdən qayıdınca Allah sizə bir övlad versin.

Yaxşı baxır ki, zəvvarların karvanı dağdan enib gəlir. Yaxşı deyir:

- Ay Zaman, qonaqlar məyus olacaq. Qoy beşiyə bir daş bələyim, elə bilsinlər uşağımız olub.

Ziyarətçi əlindəki hədiyyə ilə birlikdə beşiyə tərəf yeriyir. Beşikdə uşaq ağlayır. Bunlar gedəndən sonra baxırlar ki, bir oğlan uşağıdır. Lələ böyüyür, gecə-gündüz Yaxşıdan əl çəkmir. Zaman arvadını Lələyə qısqanır. Lələ hiss edir ki, Zaman onu  əlindəki nacaqla öldürəcək. O qaçıb bir ağaca çıxır, tamam paltarını soyunur, Zaman görür ki, Lələnin bədəni gömgöy daşdır. Daşın üstündə bir topa gül bitib. Lələ həmin

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 413

gündən evdən çıxıb gedir, başına çox macəralar gəlir. Lələ bir də mənəvi anası Yaxşının qar yağmış məzarını ziyarətə gəlir. Lələnin təsiri altında  şeirlər yazan Sarı Aşıq öz sevgilisini Lələnin mənəvi anası Yaxşıya oxşadır. Molla Cümə sevgilisini "İsmi-pünhan" çağırdığı kimi, o da sevgilisini Yaxşı deyə çağırır. Yarım əsrə qədər mənimlə yaradıcılıq əlaqəsi saxlayan Aşıq Şəmşir bu incəlikləri çox gözəl bilirdi. Mən cəsarətlə deyə bilərəm ki, Aşıq Şəmşir folklorumuzu, xüsusən aşıq yaradıcılığını kamil bilən canlı ensklopediya idi.

Aşıq Şəmşir deyirdi ki, Sarı Aşıq haqqında adamların bir anlayışı düzgün deyil. Hamısı deyir ki, Sarı Aşıq Güney Azərbaycanın Qaradağından Azərbaycanın Qarabağına gəlmiş, Laçında Həkəri çayının sahilində yerləşən Güləbirt qəriyəsində məskunlaşmışdır. Burada Yaxşı adında bir qızı sevmiş, oradan heç yana çıxmamış, orada da vəfat etmişdir. Bu doğru deyildir. Birincisi, gəzməyən, görməyən sənətkar özünə qapanar, ictimai məzmunlu əsərlər  yarada bilməz. Bu hökmü verənlər Sarı Aşıq yaradıcılığına az bələddirlər. Sarı Aşıq hər şeydən əvvəl Qarabağ obalarını dolam-dolam dolanmış və hər biri haqqında gözəl bayatılar yaratmışdır. Əlbəttə, aşağıdakı bayatını eşitməyən Sarı Aşığın səyyar sənətkar olduğunu

söyləyə bilməz. Aşıq Şəmşirin bizə söylədiyi, heç bir kitaba daxil edilməmiş bayatıya diqqət edin.

*Mən aşiq, buğda gördüm,*
*Buğdanı Tığda gördüm.*
*Gözəli Çanaqçıda,*
*İgidi Tuğda gördüm.*

Çanaqçı qala – Şuşanın köhnə adlarından biridir.

Aşıq Şəmşir klassiklərimizdən Sarı Aşıq yaradıcılığına, Qaracaoğlan poeziyasına böyük əhəmiyyət verirdi. Aşıq Şəmşir deyirdi ki, Sarı Aşıq və Qaracaoğlan dilimizin gözəllik mənbəyidir. Onlar kimi şeirdə dilin incəliyinə, estetik gözəlliyinə diqqət yetirən sənətkarları barmaqla saymaq olar. Xalq şeiri, xalq düzgülərində, bayatılarında, dilimizin qızıl söz külçəsini təşkil etsə də, Sarı Aşığın zərgər dəqiqliyi ilə işlənmiş bir bayatı bağlamasını digər bayatı-bağlama əvəz edə bilməz. Çünki o nümunələr Sarı Aşığın istedadının gücü ilə yaranmışdır. Bayatı, tapmaca xalq inciləridir. Lakin bunların içərisində par-par parıldayan, dənə-dənə seçilən, memarlıq abidəsi kimi görünən Sarı Aşığın bayatıları insanı heyrətə gətirir. Sarı Aşığın bayatı bağlamaları nə ilə

seçilir? Onun bayatı-bağlamaları forma etibarı ilə cinas bayatıdır. Məzmununa görə qıfılbənd bağlamadır. Məsələn:

*Mən aşiq, qoyun dərdi,*
*Çobanın qoyun dərdi.*
*Bağban bir gül üzüncə,*
*Çoban bir  qoyun dərdi.*

Məlumdur ki, birinci misrada çobanın qoyun dərdindən söhbət gedir. Son misrada isə bir gözəl mətləb gizlənir. Bağban gülü çətin bəslədiyi üçün  bircə gülü dərməyə əli gəlmir. Lakin çoban bir anın içində bir qoyun, yəni bir qoyun-qoltuq gül dərir. Siz məna  yükünə, məna gözəlliyinə baxın. Sözlərin seçiminə, cinaslar düzümünə baxın. İndiyə qədər Sarı Aşığın bağlı qalmış, olduqca çətin görünən bağlama-bayatılarını açmaq üçün Aşıq Şəmşir bizə açar vermişdir. Sarı Aşığın açılmayan bayatılarından biri aşağıdakıdır:

*Aşıq deyər,  bir ata,*
*Bir oğuldu, bir ata.*
*Yeddi dəvə, qırx,  qatır,*
*Yüklənibdir bir ata.*

Necə yəni?  Yeddi dəvəni, qırx qatırı bir ata necə yükləmək olar? Bu ki, ağlasığmazdır.

Açması belədir: Yeddi dəvənin yununu qırxıb, onların bir-birinə qatıb bir ata yükləmək olar.

Başqa bir bayatı bağlamasında deyir:

*Mən aşiq,  bay  keçdi,*
*Kasıbı bay keçdi.*
*Altı camış, yüz keçi,*
*Qucağında çay keçdi.*

Bu sadə bir şəkildə qurulmuş bayatı bağlamadır. Altı camış dedikdə,  say etibarı ilə altı camış nəzərdə tutulmur. Yüz keçi dedikdə yüz keçi nəzərdə tutulmur. Yüz keçi üz keçi mənasındadır. Sarı Aşıq bildirir ki, məstimin altı camış dərisindən, üstü keçi dərisindəndir. Məstimi soyunub qucağıma aldım və çayı keçdim. Əlbəttə ki, altı camışı, yüz keçini qucağına alıb heç kəs çaydan  keçə bilməz. Bu bayatı bağlamalar əsrlərdən bəri bağlı qalmışdı. Yüzlərlə sənətkar düşünmüş, daşınmış, lakin onu yozub bir yana çıxara bilməmişdir. Bu dərin qıfılbəndi, bağlama-bayatını Aşıq Şəmşir ona görə aça bilmişdi ki, o, Sarı Aşıq yaradıcılığına dərindən bələd idi. Aşıq Şəmşir də Sarı Aşıq kimi məişət müşahidələrinə meydan verir,

müəyyən nişanələrlə qapısı bağlı sənət sarayına girə bilirdi.

Şəmşirsevərlərə bir məsələ də bu günə qədər aydın deyildir ki, bayatı-bağlamalar Aşıq Şəmşir yaradıcılığında xüsusi mərhələ təşkil edir. Aşıq Şəmşirin bayatı-bağlamalarından burada bir örnək vermək yerinə düşər.

*Aşıq deyər, o tabax,*
*Qızıldandı o tabax.*
*Qan üstündə zəmi var,*
*Dəryaz biçən ota bax.*

"Aşıq deyər, o tabaq" dedikdə insanın başı nəzərdə tutulur. İkinci misrada o tabağın qızıldan olduğu deyilir. Üçüncü misrada qan üstündə zəmi dedikdə insanın tük bitmiş üzü nəzərdə tutulur. O üzü dəryazla biçdikdə, yəni tükünü qırxdıqda bir yerini kəsdikdə zəminin altından qan çıxır.

Sarı Aşığın yolu ilə gedən Aşıq Şəmşir ikinci bayatı-bağlamasında deyir:

*Kürün qırağı düzdü,*
*Sanarsan əlli, yüzdü.*
*Oğul on beş yaşında,*
*Anası hələ qızdı.*

Sarı Aşığın açılmamış bayatı-bağlamaları kimi Aşıq Şəmşirin də bu bayatısının yozumunu şeir-sənət sevərlərin ixtiyarına buraxırıq.

Aşıq Şəmşir deyirdi ki, Sarı Aşığın bu bitkin cinasları, bayatı-bağlamaları olmasaydı, aşıq poeziyasında ondan sonra təcnis binaları, qıfılbənd sarayları qurula bilməzdi. Biz hələ Sarı Aşıq yaradıcılığının sirrini-sehrini dərindən-dərinə öyrənə bilməmişik.

Sarı Aşıqdan əvvəl və sonra heç kəs cinas və bayatı-bağlama yaratmaqda onun fəth etdiyi zirvəyə yüksələ bilməmişdir.

Sarı Aşığın taleyinə acıyan, onu dərindən duyan böyük el şairi, el aşığı Aşıq Şəmşir yazır:

*Gəl, sınıq könlünü sarı aşığın,*
*Rəngi zəfərandı sarı aşığın.*
*Sinəsi yaralı Sarı Aşığın,*
*Canına eşq odun Yaxşı qaladı.*[1]

Aşıq Şəmşir yaradıcılığına Molla Pənah Vaqif çeşməsindən həyatverici abı-kövsər sızmadığını desək insafsızlıq olar. Bütün bu yuxarıda deyilənlərdən çox, dərin dəryasında ada olduğunu etiraf etdiyi kimi Ağdabanlı Qurbanın

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. Səh 386.

daha böyük təsiri olmuşdur. Mən qamaşmadan, sağa-sola sərpilmədən, cəsarətlə deyə bilərəm ki, Ağdabanlı Qurban XIX əsr yazılı və şifahi poeziyamızda Vaqiflə müqayisə oluna biləcək bir sənətkardır. 1961 və 1966-cı illərdə Kəlbəcərin Ağdaban kəndində şair-aşığın "Universiteti"ni görmüşəm. Bu universitetin kitabxanasında Şərq ədəbiyyatından qədim kitablar, o cümlədən Nizaminin, Firdovsinin, Hafizin, Xəyyamın və bir çox sənətkarların əsərlərini öz gözümlə seyr etmişəm. Onun üç əlyazmasından ibarət qovluğu mühafizə olunub saxlanılırdı. Onun birinci qovluğunda ulu babası Miskin Abdalın, Miskin Abdalın nəvə-nəticələrindən Müsəmma Miskinin, Miskincəli Miskinin, Şəmkirin Miskinli kəndində yaşayan satirik-şair Məmmədcəfərin əldə olan şeirləri Ağdabanlı Qurban tərəfindən yazıya alınmışdır.

Nümunə üçün Müsəmma Miskinin bir qoşmasına diqqət yetirək. Uzun müddət Qızıltorpaqda (indiki Gədəbəydə), Göyçədə qala bilməyən Müsəmma Miskin İrana gedir. Orada həsrət dolu "Arzular" qoşmasını yazır.

*Murquhi-kufəm, düşmüşəm xakə,*
*Açılmaz balu-pər, uca arzular.*
*Şeir fəhimi qalxıb ucu əflakə,*
*Bilməm nə küçavə - küçə arzular.*

*Dəmiri sərəddi, Balçılı çayı,*
*Ruziyi-zəmində yoxdu həm tayı.*
*İçdim xəyalından oldum sövdayı,*
*Gündüz xəyal edib, gecə arzular.*

*Miskin açdı-tökdü zərri-simini,*
*Axtardım tapmadım vətən kimini,*
*Sular şırha-şırı, dağlar fəslini,*
*Könlüm Sarıdamı*[1] *necə arzular.*[2]

Miskin Abdal səcərəsindən olan şair aşıqların heç kəsə müyəssər olmayan bakirə bir xüsusiyyətlərini burada qeyd etməyə dəyər. Onların şeirlərini yüzlərlə şairin şeirləri içərisində qarışdır, sən axtarmamış şeir özü dillənər. Mən burdayam. Bir dəfə qəribə bir hadisə baş vermişdi. Dirili Qurbaninin və Ağdabanlı Qurbanın yaradıcılıqlarını bir-birindən fərqləndirə bilməyən, hətta bəlkə adlarını bir-birindən seçə bilməyən bir nəfər Ağdabanlı Qurbanın "Gülərmiş" qoşmasını görəndə: "Yəqin bu şeir Diririli Qurbaninindir, onun kitablarından kənarda qalmışdır" deyib təzə bir şey tapmış kimi "Ədəbiyyat" qəzeti redaksiyasına qaçır. Ağdabanlı Qurbanın bundan da qiymətli qoşmalarını

---

[1] Bu Şəmkir çayının üstündə olan bir kəndin adıdır. İndi o kənd Gədəbəyin yox, Tovuzun ərazisindədir.
[2] Şeir 1966-cı ildə Cahan Qahrı oğlu Abdalovdan alınmışdır.

eşidib dili tutulur. Maraqlıdır ki, Ağdabanlı Qurbanın "Gülərmiş" şeiri dünyaya gələndə müasirlərini heyrətə gətirmişdir. Şairin beş bəndlik qoşmasından üç bəndini nümunə gətiririk.

*Sən bax bu fələyin rüzigarına,*
*Əyyam yaxşı gəlsə dövran gülərmiş.*
*Könül, qübarlanma gəncü-varına,*
*Bağlar bar gətirsə, bağban gülərmiş.*

*Qorx o gündən dövlət-var azalanda,*
*Dadlanar dağlardan qar azalanda,*
*Namus əldən gedib, ar azalanda,*
*Dil danışıb, həcvü-hədyan, gülərmiş.*

*Qurban qəm eyləmə, kərəm-kanı var,*
*Adil zalım olmaz, haqq divanı var.*
*Endirər, qaldırar nərdivanı var,*
*Enən ağlayarmış, qalxan gülərmiş.*

Bu qoşma qısa bir zamanda ağızdan-ağıza düşür. Ona bir sıra nəzirələr yazılmışdır ki, bunlardan bir-ikisini nümunə üçün verməyi lazım bildik. Qoşmaya ilk nəzirələrdən birini Qurbanın ölümündən az sonra kəlbəcərli Növrəs Firuddin yazmışdır.

*Vilayət mülkündə aqil otursa,*
*Ellər xoşbəxt olar, zaman gülərmiş,*

*Tale üzə gülsə, bəxtin gətirsə,*
*Könül xoş olarmış, insan gülərmiş.*

*Bir igid neynəsin dara düşəndə,*
*Dostdan ürəyinə qara düşəndə,*
*Çörəkdən qismətin para düşəndə,*
*Naharsız dəstində qəlyan gülərmiş.*

*Yaz ayları bülbül ölsə bağında,*
*Çiçək kolu bitər solu-sağında,*
*Növrəs Firudinin müşkül çağında,*
*Eşitsə sözlərin Qurban gülərmiş.*[1]

Başqa bir nəzirəni Aşıq Hüseyn Cavan yazmışdır:

*Taleyi xoş insan gəlsə dünyaya,*
*Özüylə gətdiyi dövran gülərmiş.*
*Loğman gəlsə bir xəstənin yanına,*
*Xəstə ağlayarmış, Loğman gülərmiş.*

*Hüseyn, qayaların zirvəsindən aş,*
*Döyüş meydanına hünərlə yanaş,*
*Kömək eləməzsə qardaşa qardaş,*
*Kənardan əl çalıb düşmən gülərmiş.*[2]

---

[1] Qoşma 1966-cı ildə Aşıq Ələsgərin qardaşı oğlu Bilal Saleh oğlundan yazılmışdır.
[2] Aşıq Hüseyn Cavan "Qoşmalar", Bakı, 1959, səh 84-85.

Ağdabanlı Qurbanın Aşıq Ələsgərlə olduğu kimi, onun şagirdlərinin də Qurbanla mövzu, amal birliyi aydın hiss edilməkdədir.

İkinci qovluqda Ağdabanlı Qurbanın yazıya köçürülmüş şeirləri mühafizə olunurdu. Qeyd etmək lazımdır ki, Ağdabanlı Qurban bütün şeirlərini M.P.Vaqif kimi yazıya köçürmüşdür. Daha doğrusu, o başqa aşıqlar kimi şeirlərini sazın köməyi ilə düzüb qoşmamışdır. Yazılı ədəbiyyatın parlaq bir nümayəndəsi kimi, Ş.İ.Xətai, Vaqif, Zakir və Nəbati kimi şeirlərini qələmə almışdır. Bir qism şeirləri isə həqiqətən sazın köməyi ilə ərsəyə gəlmişdir. Ağdabanlı Qurban müasirlərindən bir addım da irəli gedərək XIX əsr satirik poeziyanın banilərindən biri olmuşdur. Hətta Ağdabanlı Qurbanın "universitet kitabxanasında" "Molla Nəsrəddin" jurnalının bütün saylarının komplekti var idi. Mənfur qonşularımız Kəlbəcərin Ağdaban kəndindəki şöhrətli şair-aşığımız Şəmşirin evini yandırmış, onların hamısından qiymətli XVI əsrdən üzü bəri Miskin Abdal səcərəsinin yaratdığı mənəvi sərvətləri məhv etmişlər.

Qurban həyat səhnələrini ara-sıra, təsadüfdən-təsadüfə təsvir və tərənnüm etmir. Onun həyata dərin bir ictimai baxışı, yaradıcılığında isə tam bir ardıcıllıq vardır. Qurbanın ictimai fikri, qüdrətli söz sənəti bizə onu M.P.Vaqiflə,

Q.Zakirlə, S.Ə.Şirvani və M.Ə.Sabirin satirik əsərləri ilə müqayisə etməyə imkan verir.

Hər iki sənətkar eyni dövrdə bir-birindən xəbərsiz M.Ə.Sabir Bakıda, Qurban isə Kəlbəcərin Ağdaban kəndində "Əkinçi" adlı şeir yazmışdır.

Hər iki şeirdə mülkədarla kəndli, zəhmətkeş kütlə ilə istismar dünyası üz-üzə dayanmışdır. Bircə fərq sənətkarların yaradıcılıq üslubundadır. M.Ə.Sabir kəndlilərin vəziyyətini istehza və kinayə ilə, Qurban isə ürək yanğısı və acı fəryadla təsvir edir. M.Ə.Sabir yazır:

*Söz açma mənə çox çalışıb, az yeməyindən,*
*Canın bəcəhənnəm ki, ölürsən, deməyindən.*
*Mən gözləmənəm, buğda çıxar, ver bəbəyindən ,*
*Yoxsa soyaram lap dərini adə, əkinçi.*[1]

Ağdabanlı Qurban isə yazır:

*Hanı, kimdən olur kömək, harayın?*
*Sənin ellər üçün var haqqı-sayın,*
*Çox zəhmət çəkirsən, az olur payın,*
*Özgələrə çatır varın, əkinçi.*

*Bülbülsən, qışdasan, dayan gözlə yaz,*
*Qəlbində arzu var, gözündə muraz,*

---

[1] M.Ə.Sabir. "Hophopnamə", Bakı, 1962, səh 108.

*Susasan bir qaşıq su verən olmaz,*
*Quruyanda dodaqların, əkinçi.*[1]

Biz hər iki sənətkarın başqa şeirlərində də eyni məsələyə toxunulduğunu görürük.

Eyni mövzular zamanın özündən doğmuş, realist sənətkarları ideyaca birləşdirmiş, onları eyni nəticəyə gətirib çıxarmışdır.

XIX əsrin görkəmli el şairi Ağdabanlı Qurbanın yaradıcılığında yoxsul kəndlilərin vəziyyəti geniş əhatə olunmuşdur. Onun "Görəndə", "Gəldi-getdi", "Gəlir", "Yoxsulun", "Əkinçi", "Yoxdur", "Kasıbların" və başqa satirik qoşmalarını oxuduqda aydın olur ki, Qurban ən yoxsul xalq kütlələrinin, zəhmətkeşlər sinfinin şairidir. O, bu sinfin mənafeyi tərəfindədir. Qurban zəhmətkeş insanların dostu ilə dost, düşmənləri ilə düşmən idi.

Müəllif öz əsərlərində qızğın bir ehtirasla maddi bərabərsizliyi qamçılayır. Kasıbların tərəfində dayanaraq üzünü dövrana tutub onların xilasını arzulayırdı:

*Ey dövran, bir ucalt yoxsul olanı,*
*Bir bax əhvalına sən kasıbların.*

[1] "Əkinçi" qoşması "Sovet kəndi" qəzetinin 4 oktyabr 1966-cı il 119-cu il nömrəsində götürülmüşdür.

*Cibi pulsuz olan çətin dolanır,*
*Tökülüb əynindən don kasıbların.*

*Yığılıb zalımlar əlbir olublar,*
*Oğrular mahala talan salıblar,*
*Füqaranı turac kimi yolublar,*
*Soyurlar belindən gön kasıbların.*

*Qurban xəcalətdir, əhli-əyaldan,*
*Küsmüşəm taledən, bəxti-iqbaldan,*
*Çıxarmı görəsən dərdi məlaldan,*
*Olarmı işıqlı gün kasıbların?*

Belə ki, Qurbanın satirik şeirləri ilə yanaşı, heç də Vaqif poeziyasından seçilməyən nadir gözəlləmələri vardır ki, onların hər birində Azərbaycan gözəlinin rəsmi çəkilir, təsvir və tərənnüm olunur. "Bir-bir" qoşması buna misal ola bilər.

*Qəmər üz, qadanı bu canım alsın,*
*Sallanıb gələndə otağa bir-bir.*
*Diləfrüzün şöləsində dolansın,*
*Olsun pərvanələr sadağa bir-bir.*

*Gözə qoruq yoxdu, dilə qadağa,*
*Olum gözlərinə qurban, sadağa,*

*Şəhdi-zülal, bal tökülüb dodağa,*
*Öpəsən xal düşə yanağa bir-bir.*

*Günəş də tanıyır o mahtabanı,*
*Qırmızı gül yanağından utanı,*
*Öldür, qurtar, həsrət qoyma Qurbanı,*
*Qohum-qardaş gəlsin sorağa bir-bir.*

Aşıq Şəmşir Dərbənd aşıqlarından Aşıq Rəcəbin şeir yaradıcılığına böyük maraq göstərərdi. Onun şeirlərindən nümunələri əzbər deyərdi. Rəcəbdən söhbət düşəndə əlini əlinə vurub deyirdi:

- Zalım oğlu gör nə deyib ha: "Kasıbın dövləti bir arvad olar". Doğrudan da belədir.

Aşıq Şəmşir öz Güllüsünü göydəki hürülərə tay bilir və onun tərifini hər yanda söylədiyini bildirir. Aşıq Şəmşir yazır:

*O işvəli ceyran, o nəcib pəri,*
*Şəmşiri eylədi dəli, sərsəri,*
*Nəğməsiylə doldurmuşam dəftəri,*
*Vəsfi qalsın bu cahanda Güllünün.*[1]

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. Səh 86

Amma Aşıq Rəcəb sözün əsl mənasında aşıqlıqdan ziyadə pərgar şair olub. Onun bədii cəhətdən bu qədər mükəmməl "Kəklik" şeirini kim yarada bilər? Sən buradakı sözün düzümünə, gözəlliyinə bax.

*Səhər qahqah oxur şirin dililə,*
*Çolpalanıb çıxar bu dağa kəklik.*
*Qorxmursan ovçudan, tülək tərlandan,*
*Məgər yoxdur sənə qabağa, kəklik?*

*Yeri, kəklik, sənin sinən aladır,*
*Görənlərin gözü səndə qaladır,*
*Ayaqların dağda bitən laladır,*
*Yerişini gördüm, get dağa, kəklik?!*[1]

Aşıq Şəmşir özü də bir "Kəklik" şeiri yazır və kəkliyin başqa gözəllik nişanələrini bir-bir sayır.

*Qayalarda qumru kimi ötərsən,*
*Görüb ovçuları yerə çökərsən,*
*Səhər-səhər qayalarda səkərsən,*
*Çıxarsan yurdumun daşına, kəklik!*

[1] "Qoşmalar", II çapı, Bakı 1938. səh 41

*Şəmşir fərağında olubdu bihal,*
*Gözlərində sürmə, buxağında xal,*
*Dəhanında şəkər, ləblərində bal,*
*Gəlirmi sözlərim xoşuna, kəklik!*[1]

Aşıq Şəmşir özündən əvvəl yazıb-yaradan sələflərinin, müasirlərinin və xələflərinin yaradıcılığına biganə qalmamışdır. Şişqayalı Aydının o qədər də geniş yaradıcılığı yoxdur. Sayca az olan şeirlərindən biri onu maraqlandırmış, ona bənzər bir gəraylı yaratmışdır. Aydın gəraylısını belə başlayır:

*Ay iki dağın arasınnan,*
*Bala, bir cüt maral endi,*
*Biri eşqin havasından,*
*Biri yardan yaral endi.*

*Əsmə badi-səba, əsmə,*
*Gəl əsib səbrimi kəsmə,*
*Biri Dursun, biri Məsmə,*
*Aydın deyər: olar endi.*

Aşıq Şəmşir özünün buna bənzər gəraylısını belə yazıb.

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. Səh 474

*Şəmşir, vəsf et, yaz bu qədər,*
*Dost adını eylə əzbər!*
*Bir tərəfdən gəldi Mənzər,*
*Bir tərəfdən Səmər endi.*[1]

XIX əsrin qadın aşıqlardan Maralyanlı Pərinin, Şəmkirli Aşıq Həmayılın, Şirvanlı Aşıq Sonanın – hər birinin beş-on qoşması vardır. Lakin bunların müasiri olan Kəlbəcərli Aşıq Bəstinin olduqca geniş və əhatəli şeir və dastan yaradıcılığı bizə miras qalmışdır. Aşıq Bəsti bir çox sənətkarlar kimi "Qurban bulağı" məclislərinin yetişdirdiyi, kamala çatdırdığı sənətkarlardan biridir. Aşıq Bəsti Ağdabanlı Qurbanla, Aşıq Şəmşirlə toylar, məclislər keçirmişdir. Aşıq Şəmşir qeyd edirdi ki, dünya haqqında bəlkə də yazmayan sənətkar yoxdur. Lakin Aşıq Bəstinin "Dünya" qoşması aşıq poeziyasında boy vermiş nadir incidir.

*Məleykə boyludur, şirin ləhcəli,*
*Əzəldən tamaşa olan bu dünya.*
*Qoca cadugardır aldadar səni,*
*Cavanlıq donunda qalan bu dünya.*[2]

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. Səh 345.
[2] Aşıq Bəsti "Bənövşələr", Bakı, Agah 2001, səh 14.

Aşıq Şəmşirin nəsil səcərəsi və o nəsilə mənsub olan sənətkarlar öz dövrünün sənətkarları ilə yaradıcılıq əlaqəsi yaradırlar. Zaman-zaman o dostluğu səmimiyyətlə işlədirlər. Qamışlı şair Rüstəm, onun qardaşı Zal Qurban ocağının ən yaxın, gedişli-gəlişli dostları olmuşlar. Əgər bu dostluğu dünən Aşıq Şəmşir davam etdirirdisə, bu gün Qəmbər Şəmşiroğlu yeni tərzdə dostluq əlaqələrini qurur, dostluq əlaqəsini qırılmağa qoymur.

Qamışlı şair Rüstəm yazır:

*Həqiqi dostların hər zəhmətini,*
*Çəkərəm cahanda el əvəzində.*
*Desələr tikan var dostun yolunda,*
*Tutaram dəstimdə gül əvəzində.*[1]

Zalın şeirlərindəki hikmət insanı düşünməyə, daşınmağa, baş sındırmağa vadar edir. Onun şeirləri geniş müşahidələrinin məntiqi nəticəsidir. Ona görə də onun hər sözü ürəklərə yol tapır.

*Heç kəs mənliyinə don geydirməsin,*
*Kimin kimliyini el özü bilir.*

---

[1] Qamışlı şair Rüstəm "Laçın qaya, çal yadıma düşəndə". Gəncə 2002. səh 14.

*Ala qarğa çox da desə bülbüləm,*
*Bülbülün nəfəsin gül özü bilir.*

Və yaxud:

*Quşu dimdiyindən, satqını gözdən,*
*Xaini ürəkdən, yaltağı sözdən,*
*Keçirib sınaqdan, baxmayıb üzdən,*
*Yaxşını, yamanı Zal özü bilir.*




Aşıq Şəmşir olduqca həssas sənətkar idi. Təkcə aşıqlıq etmirdi, yurdumuzun hansı bölgəsinə gedirdisə orada tarixi yerlərlə, qalalarla, dağlarla, məşhur şəxsiyyətlərlə dərindən maraqlanır və qiymətli məlumatlar əldə edirdi. Bir dəfə Aşıq Şəmşirin güzarı Gədəbəyə düşür. O, ilk dəfə şair Miskin Vəli ilə maraqlanır, görüşür. Onlar böyük Qarabulaq kəndini, Qanlı dağı, Şanalı dağı, Koroğlu və Eyvaz qalasını birlikdə seyr edirlər. Eyni kökdən, soydan olan hər iki aşıq-şair öz düşüncələrini bölüşürlər, tarixə səyahət edirlər.

Aşıq Şəmşir görüşün başlanğıcını belə təsvir edir:

*Aşıq Vəli, ellərini dolandım,*
*Babamız Miskinin yerini gördüm.*
*Yaqubun qəbrini ziyarət etdim,*
*Abdal ocağının Pirini gördüm.*



***Şəmşirin Gədəbəyə gəlməsi münasibıtilə düzələn şənlik məclisindən bir görünüş***

*Şəkildə birinci cərgədə Miskin Vəli, Aşıq Şəmşir və el şairi Cəmil Əkbərov, İkinci cərgədə birinci tarix elmləri namizədi Qafar Həsənov, ikinci fəlsəfə elmləri namizədi Qurban Əliyev və Nağı Əliyev*

Bu gördüklərini Aşıq Şəmşir öz şeirləri ilə yenidən poetik bir dillə xalqa çatdırır. Bu yerdə Koroğlu qalasının, Eyvaz yurdunun olduğunu yenidən zehinlərdə canlandırır. Şanalı dağ, Dəli Qoşqar şair-aşığa çox şey xatırladır, qəlbini qürur hissi ilə doldurur.

*Koroğlu qalası, Eyvazın yurdu,*
*Gözəl mənzərəsi məni doyurdu,*
*Döyüş günüdümü, nə vurhavurdu?*
*Çapar köhlənlərin tərini gördüm.*

*Baxanda Şanalı dağına sarı,*
*Başı dumanlardan qalxıb yuxarı,*
*Göstərdilər mənə dəli Qoşqarı,*
*Çiçəklərin bəhri-bərini gördüm.*[1]

Aşıq Şəmşir böyük bir nəslin, soyun, səcərənin 500 illik yolunun yolçularından biridir. O, əldə edilmiş ənənələrə sadiq qalaraq ardıcıl olaraq sələflərindən nə isə öyrənmiş, nə isə əxz etmiş, müasirləri ilə dilbir olmuş, şərikli şəkildə müəyyən mətləblərə aydınlıq gətirmiş, xələflərinə isə, yəni özündən sonra gələn gənclərə nəyi isə öyrətməyə çalışmışdır. Aşıq Şəmşiri adi

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. Səh 240

bir aşıq kimi tanımaq olmaz. O, özü-özlüyündə zaman-zaman öyrənilməyə layiq bir məktəbdir.



***Aşıq Şəmşir və Məmməd Araz***

Aşıq Şəmşirlə Səməd Vurğunun tarixi görüşündən sonra Kəlbəcərin Ağdaban kəndində bir ocaq yanırdı. Ocağın işığına, şöləsinə şeir-sənət pərvanələri gəlirdi. Bu pərvanələrdən biri də Vətəni sevən və sevdirən, vətəni tanıyan və tanıdan, humanist və vətənpərvər şairimiz Məmməd Araz idi. Məmməd Araz XX əsr yazılı poeziyamıza yeni nəfəslə gəlmiş, sayılan-seçilən, ədəbiyyatda öz yeri, mövqeyi olan bir sənətkardır.

Qayəsi nur, mayəsi nur - deyən sənətkar Aşıq Şəmşir kimi azman sənətkarı dinlədikdən sonra, Aşıq Şəmşirlə Səməd Vurğunun deyişməsindəki Dəli dağa, Ceyran bulağına baxdıqdan sonra aşıq şeirinin nüfuzedici təsiri onun poeziyasından yeni bir qol ayırdı. Onda dağlara yaraşan, dağlara bağlanıb zaman-zaman onu yaşadan qoşmalara həvəsi gücləndirirdi.

Onun qəlbundə belə bir hiss baş qaldırdı ki, onun da sözləri saza-sözə gəlsin, məclislərdə oxunsun.

Aşıq Şəmşir və Səməd Vurğun zirvəsinə doğru, qoşa dağlarına doğru boylandı və o mərtəbəyə çatmağa can atdı. Doğrudan da istedadlı şairimiz buna nail oldu. Onun dünyaya gətirdiyi "Duman salamat qal, dağ salamat qal" qoşması doğulan, ana-balaya sarmaşan kimi "İncəgülü" havasının körpə kimi boynuna sarıldı. Qoşma yavaş-yavaş dil açdı. Ana sazın telləri üstündə, pərdələri üstündə gəzməyə başladı.

*Bəlkə bu yerlərə bir də gəlmədim,*
*Duman salamat qal, dağ salamat qal.*
*Arxamca su səpir leysan buludlar,*
*Leysan salamat qal, yağ salamat qal.*

*Gəldim, qarşıladı güllər, çiçəklər,*
*Gedirəm əl edir boz biçənəklər,*

*Nidamı çaylara desin küləklər,*
*Bulan salamat qal, arx salamat qal.*

*Qıy vuran qartallar yox oldu çəndə,*
*Nərgizlər islandı şehli çəməndə,*
*Ay qaragöz pərim, arxamca sən də,*
*Boylan salamat qal, bax salamat qal.*

*Bu uca dağların biri də sənsən,*
*Pələngi də sənsən, şiri də sənsən,*
*Məmməd Arazın şeiri də sənsən,*
*Çoban salamat qal, sağ salamat qal.*

Məmməd Arazın bu şeiri elə ilk andan insanların qəlbinə yol tapdı. Öz həzinliyi ilə şeir üzərində sezilməz dərəcədə Səməd Vurğunun bir nisgili yaşayır.

Əgər S.Vurğun deyirdisə ki, "unutmaz bu oba, bu mahal məni" və yaxud "gedirəm yamandı ayrılıq dərdi", Məmməd Arazın qabağına çıxacağını hiss edib "duman salamat qal, dağ salamat qal" – deyərək, öz tarixi missiyasını yerinə yetirir. Məmməd Araz belə bir həqiqəti Aşıq Şəmşirlə Səməd Vurğun timsalında dərk edir ki, ömrünü dağa bağlayan, folklorumuzun canlı qolu olan aşıq yaradıcılığına bağlayan, saza-sözə bağlayan, sənətkar zaman-zaman yaşayacaqdır. Doğrudan da Aşıq Şəmşirlə

ünsiyyətdə, ülfətdə olan, uzaq yolları yaxın hesab edib tez-tez Tərtər boyunca Sərsəngdən ötüb Qamışlı körpüsünə gedən, Kəlbəcərə gedən, oradan Aşıq Şəmşirin görüşünə gedən, Aşıq Şəmşirlə birlikdə Səməd Vurğun poeziyasında özünə yer almış Dəli dağı, Ceyran bulağını, Kəklikli qayaları seyr edə-edə Məmməd Araz özü də dumanlı dağların, bulaqların, kəklikli daşların tərənnümçüsünə çevrildi.

İndi aşıqlar məclislərdə Aşıq Şəmşirlə Səməd Vurğunun qabaq-qabağa dedikləri şeirlərlə yanaşı, Məmməd Arazın "Duman salamat qal, dağ salamat qal" şeirini də oxuyurlar. Məmməd Arazın bu qoşmasına o taylı, bu taylı Azərbaycanda az nəzirə yazılmamışdır.

Aşıq Şəmşirin şeir-sənət ocağının pərvanələrindən biri də Zəlimxan Yaqub idi. Zəlimxan Yaqub ümumiyyətlə qaynar adamdır. El adamıdır, məclis adamıdır, saz-söz adamıdır. Səməd Vurğun poeziyasına, Aşıq Şəmşir sənətinə ürəkdən bağlı olan Zəlimxan Yaqubu Kəlbəcər dağlarında, Ağdabanda - Şəmşir ocağının başında tez-tez görmək olardı. Zəlimxan Yaqub şair-aşığın ağlına, kamalına heyran qalmışdı. Bu pirani aşığı ancaq müdrik dağlarla xəyalında müqayisə edə bilirdi. Aşıq Şəmşir də öz növbəsində Zəlimxan Yaqubun yazılı və şifahi poeziyamızın nadir incilərini, dastanlarımızı, aşıq ifaçılığını

sinədəftər etməsinə Allahın möcüzəsi kimi baxırdı. Doğrudan da hamını təəccübləndirir ki, bu fəhm-fərasət zehnin, yaddaşın möhkəmliyi Zəlimxanda hardandır? Hansı əsrdəsə, hansı vaxtdasa xalqımızın arasında Zəlimxana bərabər bir şəxsiyyət olubmu? Bəli olub! Məlumdur ki, XIX əsrdə Tiflis Qafqazın mədəniyyət mərkəzi idi. Bu zaman böyük şair-tarixçi Abbasqulu Ağa Bakıxanov da burada işləyirdi. O, hər gün işə gedərkən eyni küçə ilə gedirdi. A.A.Bakıxanovun keçdiyi anda bir Azəri qızı pəncərənin qabağında oturub tar çalırdı. Abbasqulu da bu qızın çaldığı tarın melodiyasına elə alışmışdı ki, saatlarla qulaq asmağa hazır idi. Lakin bu həzin musiqiyə o yarım saat vaxt ayırırdı. O, qızın adını öyrənir ki, adı Fatimədir. "Fatimə tar çalır" adlı gözəl bir şeir yazır. Tiflisdə fəaliyyət göstərən M.Ş.Vazehin "Hikmət divanı" şeir məclisi var idi. Bu məclisə A.Bakıxanov da gəlirdi. A.Bakıxanov "Fatimə tar çalır" şeirini məclisdə oxuyur. Hafizə adlı şair deyir ki, şeir Abbasqulunun yox, mənimdir. Şeiri biriniz əlinizdə tutun mən misra-misra əzbər deyim. Şeiri doğrudan da Hafizə doğru-düzgün, axıra qədər əzbər deyir. A.Bakıxanov çox pərt olur, şeiri cırıb atır və məclisi tərk edir. Hafizə xahiş edir ki, Bakıxanovu geri çağırın. Mənim adım

Hafizədir, ona görə ki, yanımda bircə dəfə oxunan şeir hafizəmdə, yaddaşımda qalır. Şeir doğrudan da Bakıxanovundur.

*Əlində titrərkən o nazik tellər,*
*Sonsuz həyəcanla titrədi qəlbim.*
*O incə, o şirin, dadlı nəğmələr,*
*Fələyə qaldırdı ruhumu mənim.*
*Eşqim yüksəldi*
*fərəhlə bir an.*
*Şövqə gəldi*
*can.*

*Qoy açsın qanad,*
*sənin xəyalın,*
*Bir an da olsa qoy gülsün bu həyat,*
*Məst etsin qəlbimi gözəl cəmalın.*
*Hamıdan xoşbəxtəm bu dünyada mən,*
*Səninlə bağlıdır bəxtiyarlığım.*
*Əqlim də sən oldun, düşüncəm də sən*
*Sənsiz nəyə lazım mənim varlığım?*[1]

---

[1] Abbasqulu ağa Bakıxanov, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı 1964, səh 301

Mənim Zəlimxan Yaqubun Gürcüstan torpağından olan Hafizə ilə qohumluğu haqqında məlumatım yoxdur. Lakin Zəlimxanın Koroğlu ilə qohumluğu var. Lopa bığları, Koroğlu papağı, hərdən-hərdən əlini bığına çəkməyi, saz götürüb meydana girməyi, bunların hamısı Koroğludan qalma nişanələrdir.

Elə bu yerdə Aşıq Şəmşirlə aramızda olan bir söhbəti yenidən xatırlamaq çox yerinə düşərdi. Aşıq Şəmşir bulud kimi dola-dola, kövrələ-kövrələ belə söyləyirdi: "Nigarla Koroğlunun tabutunu Qırata yükləyib aparırlar. Bir taləzarlıqda, al-yaşıl çəmənlikdə Qırat ayaqlarını daşa döyüb dayanır. Tabutları düşürüb yanaşı qoyurlar. Qırat gülləri, çiçəkləri əlçim-əlçim yerdən dişi ilə qoparıb Koroğlu ilə Nigarın üstə səpir. Sonra da o gülləri göz yaşları ilə sulayırmış kimi ağlamağa başlayır. Onun göz yaşları axşamdan düşən şəbnəmi, səhər şehini xatırladır. Onlar muncuq-muncuq, almaz dənələri kimi par-par parıldayır. Baxanların gözünü qamaşdırır". Yəqin ki, Zəlimxan Yaqub bir şair kimi çiçəklərdən, güllərdən rəng alıb çeşni çıxartdığı kimi, təsvir etdiyimiz Aşıq Şəmşirdən yadigar zehnimizdə dərin iz buraxan, bizi həyəcanlandıran bu emosional mənzərədən təsirlənərək Aşıq Şəmşir və təbiət mövzusu ədəbiyyatımıza yeni bir ərməğan bəxş edəcəkdir.



***Şair Zəlimxan Yaqub hər dəfə Ağdabanda Dədə Şəmşiri ziyarətə gələndə onu Güllü nənə ilə güldürərədi***

Aşıq Şəmşirlə Zəlimxan arasındakı dostluq telləri onları maqnit kimi özünə çəkirdi. Zəlimxan qışın boranında, qarında Bakıdan Kəlbəcərin Ağdabanına tez-tez Aşıq Şəmşirin görüşünə gəlirdi. Bir görüş, bir salam onlar üçün bir dünya idi. Onlar bir işarə ilə, bir sözlə bir-birlərini başa düşürdülər. Hər ikisini anaları şair doğmuşdu. Hər ikisi Rövşən yaşa çatanda Çənlibelin qoşa bulağından su içmişdir. Rövşən bu sudan içəndən sonra şair və qəhrəman olmuşdur, Koroğluluq mərtəbəsinə çatmışdır. Bunlar da Qoşabulağın suyundan içib şair oldular. Qəhrəmanlığa doğru gedəndə Səməd Vurğunun bir kəlamı onları dayandırdı. Səməd Vurğun demişdir: “Vaxt gələcək Koroğlunun bu və ya digər hərbi məharəti unudulacaqdır. Lakin şair Koroğlunun şeirləri ona parlaq gələcək qazandıracaqdır”. Hər iki sənətkar – Aşıq Şəmşir və şair Zəlimxan əllərini-əllərinə vurub gülə-gülə demişlər: “Bəh-bəh, gör ha,

Səməd Vurğun şairliyi qəhrəmanlıqdan, şeiri qılıncdan üstün tutmuşdur". Lakin deməklərinə baxmayaraq onlar Koroğluluqdan da qalmamışlar. Qələm götürdülər, sinələrinə saz qaldırdılar, dillərinə söz gətirdilər. Lakin əllərini qılınca, qalxana uzatmadılar. Aşıq Şəmşir ömrü boyu piyada yox, atın belində dağların başında zildən Koroğlu havaları, Koroğlu cəngiləri çalıb oxumuş və hər zaman dağlardan Koroğlu nərəsi, Koroğlu cəngisi eşidilmişdi. Aşıq Şəmşir belə məqamda Koroğlunu bir şeirində belə dilə gətirir, qeyzə gəlir, onun gücünə, qüvvəsinə inanır və deyir:

*Koroğlu tək Qırat minən,*
*Qayaları çapar gedər.*
*İstədiyini bir anlığa,*
*Zülmətdən tapar gedər.*

Zəlimxansa öz varlığında, şəxsiyyətində Koroğlu görkəmi, Koroğlu şəxsiyyəti formalaşdırmağa çalışmış və Koroğlunun haylı-haraylı, nərəli qoşmalarına bərabər təpərli, hünərli qoşmalar yaratmışdır. Hətta Zəlimxan bəzən şairlik çərçivəsindən çıxaraq sazı sinəsinə basıb, əlini bığına çəkib, papağını Koroğlu kimi gözünün üstə qoyub, Koroğlunun cəngi havaları üstündə mahnılar ifa etmişdir. Zəlimxan Koroğlunun

“Misri” saz havasını həmişə bir qoşuna bərabər tutmuşdur. O, altı bəndlik “Misrinin” adlı qoşmasının möhürbəndində deyir:

*Dağılmaz torpağımın nə bəndi, nə bərəsi,*
*Hansı havanı çalsam, bir qoşundu hərəsi.*
*Adıyla qoşalaşdı Koroğlunun nərəsi,*
*Misri qılıncım kimi kəsəri var “Misri”nin!!!*

Mən deyərdim ki, Zəlimxan artıq səhnədə özünün yaddaqalan obrazını yaratmışdır.

Zəlimxan bir şair kimi, aşıq sənətinin sirrinə, sehrinə bələd bir insan kimi Aşıq Şəmşirlə görüşməyə özündə bir mənəvi ehtiyac duyurdu. O, bunu iki cəhətdən qiymətləndirirdi. Birincisi, o Aşıq Şəmşirə dünya görmüş bir ağsaqqal, dədələrdən yadigar qalmış zəmanəsinin Dədə Qorqudu kimi baxırdı. Şəmşirin hər sözü ona Dədə Qorqud kəlamı kimi təsir bağışlayırdı. O, bundan böyük hikmətlər duyurdu. Heyran qalırdı və zövq alırdı. İkincisi, Aşıq Şəmşiri təpədən dırnağa şair hesab edirdi, aşıqlıqda isə onu bir ustad kimi tanıyırdı. Onun nəzərində indiki zamanda Aşıq Şəmşir aşıq sənətinin hamisidir, qoruyucusudur.

Onlar görüşəndə nağıl, dastan dünyasına düşürdülər. Onların romantik, xəyali söhbətlərində gah Kərəm Ərzurumun gədiyində borana düşürdü, gah Şah İsmayıl atın belində ceyranı

qova-qova bir çadıra gəlib çıxırdı, gah vanlı Alıxan saz sinəsində dağlar, dərələr, meşələr keçib Pərixanımı axtarırdı, gah Novruz dəryada bir taxta parçasının üstündə qalırdı, gah Dəli Becan Abbası zəhər quyusuna salırdı, gah da Koroğlu qılınc çaldıqca göydə şimşək çaxır və yalavıya-yalavıya yeddi tilsimli dağ keçirdi. Bir sözlə, Aşıq Şəmşirlə şair Zəlimxanın görüşündən qeyri-adi təkrarolunmaz bir mənzərə, bir xəyal dünyası yaranırdı. Bax, dostluq buna deyərəm, o dostluq ki, onun hər görüşü şirin-şərbətli bir dünyadır. Onları bir-birinə bağlayan ilahi bir məhəbbət, ilahi bir sənət istəyidir. Bu dostluq sənətkarlar üçün, eləcə də hər kəs üçün örnək ola bilər.

Aşıq Şəmşirin xoşbəxtliyi onda idi ki, onun hər sözünün arxasında şəxsiyyət dayanırdı. Onun sazının sözü, sözünün sazı bunlardan da üstün olaraq bütün yaradıcılığını şəxsiyyəti tamamlayırdı. Sənətsevərlər, dostları, şagirdləri, bir sözlə pərəstişkarları onu bir an belə unutmamışlar.

Aşıq Şəmşirin xəstələnməsi şair Zəlimxana kədər gətirir. Başına qəm buludu yığılır, kövrəlir. O yazır:

*Sənsiz Kəlbəcərdə darıxmazdı saz,*
*Yatma, bu yasdıqdan dur, Dədə Şəmşir.*

*Ellər məclisinə bərəkət kimi,*
*Yağsın sifətindən nur, Dədə Şəmşir.*

Ata kimi kök olan, oğul kimi özünü onun budağı hesab edən, Qurban ocağına bağlı olduğunu bildirən Zəlimxan yazır:

*Gör nələr yetirib bu ana torpaq,*
*Atalar kök olub, oğullar budaq,*
*Qurbanın əliylə çatılan ocaq,*
*Gur olsun, daha da gur, Dədə Şəmşir.*

Zəlimxan arzu edir ki, aşıq-şair ayağa qalxsın, Ceyran bulağında təzə məclis qursun və Ceyran bulağından Səməd Vurğunu soruşsun, daha doğrusu ötən günləri yenidən gözümüz önündə canlandırsın:

*Gəl qoyma cavabsız sual-sorğunu,*
*Etmə Zəlimxanı illər yorğunu,*
*Ceyran bulağından soruş Vurğunu,*
*Məclisi təzədən qur, Dədə Şəmşir.*

Zəlimxan yüz deyə, yüz danışa Aşıq Şəmşir onun əbədi mövzusudur.

Aşıq Şəmşirin çox sayda sənətinə pərəstiş edən davamçıları, xələfləri var idi. Aşıq Şəmşir onları ara-sıra şeirlərində dilə gətirir. Aşıq

Şəmşir “Görəndə” qoşmasında Səməd Vurğunla görüş gününü bir sevinc hesab edir və həmyerlilərini, şairlərdən Məmməd Aslanı, Zarlı Məmmədxanı, Əlqəməni, Kamranı, Uğurlu Salmanı, Rüstəmi, Məmmədi, Qəmkeşi, onun qardaşı İdrisi öz yanında görmək, könlünün şadlığını onlara bildirmək istədiyini şeir dili ilə ifadə edir. Həmin şairlərin adlarını qoşmanın beş bəndində yerləşdirir. Mən oradan iki misranı xüsusi olaraq kənara çıxarmaq istəyirəm: “Bir dastan başlasın Aslan Məmmədim”, “Əlqəmənin təbi püskürən vulkan”.

Aşıq Şəmşirin xələfləri içərisində aşıq-şair Qəmkeş sayılıb seçilirdi, özünəməxsus mövqeyi vardı. Aşıq Şəmşir xələfləri içərisində çəkisi, tutumu olan Qəmkeşi belə xatırlayır:

*Hanı söz bağının bağbanı Qəmkeş,*
*Şəmşir qalasının bir yanı Qəmkeş.*
*Oyanıb başlasa dastanı Qəmkeş,*
*Deyərsən, yaradıb saz bu dünyanı.*[1]

Doğrudan da Əlqəmə də, Məmməd Aslan da həmişə Aşıq Şəmşirin yanında olardılar. Xüsusi ilə Məmməd Aslan Aşıq Şəmşir məclisinin bir tərəfində başda oturardı.

---

[1] Səndik Paşa Pirsultanlı “Pirsultan pinarı”, Gəncə 2007, səh 595.

Məmməd Aslan Şəmşir ocağının, Şəmşir qonaqlarının bələdçisi idi. Aşıq Şəmşir qonaqlarını Kəlbəcər dağları ilə, bulaqları ilə şair-aşığın yaradıcılığı ilə, sənəti ilə dərindən tanış edən də Məmməd Aslan idi.



*Aşıq Şəmşir və Sədnik Paşa Pirsultanlı.*
*7 sentyabr 1961-ci il*

Mən 1961-ci ilin 7 sentyabrında Kəlbəcərə folklor səfərinə getmişdim. “Yeni həyat uğrunda” rayon qəzeti redaksiyasının poçtunda toplanmış şeirləri gözdən keçirirdim. Diqqətimi bir şeir cəlb etdi. Elə şeirin ilk beyti məni qan tutan kimi tutdu.

*Səndən özgə,  Azərbaycan,*
*Nə var mənim ürəyimdə.*

Vətəni sevə-sevə ürəyində yerləşdirəsən bundan böyük nə ola bilər?! - Və yaxud bundan tutarlı ayrı bir söz deyimi varmı?

Mən üzümü qəzetin redaktoru İsaq Xankişiyevə tutub dedim:

- Məmməd Aslan kimdir?

O dedi:

- Məmməd Aslan, Bəhmən Vətənoğlu istedadlı gənc şairlərdir. Hər ikisi Bakıda ali məktəbdə tələbədir.

Məmməd Aslan istedadlı şair olmaqla yanaşı, yazıçı və publisistdir.

Əslisinin dalınca gedən Kərəmdən sonra Ərzurumun gədiyində, çənli-boranlı gündə Məmməd Aslan görünüb.[1] Məmməd Aslan bir səyahətnamə müəllifi, şair və publisist kimi Azərbaycandakı qədər Türkiyədə də məşhurdur.

Aşıq Şəmşir Bəhmən Vətənoğlunu şairlik istedadına və qüdrətinə görə dağlara bənzədirdi, dağlarla müqayisə edirdi. “Yeridi” adlı qoşmasında Bəhməni Dəli dağa, Kərəmi Çalbayır dağına bənzədir, onu Dəlidağla yanaşı qoyur.

[1] Məmməd Aslanın “Ərzurumun gədiyinə varanda” kitabına işarədir.

*Bəhmən - Dəlidağdı, Kərəm –Çalbayır,*
*Kəlbəcərin qoşa dağı yeridi.*[1]



***Bəhmən Vətənoğlu***

Bəhmənin qəlbi vətənə, vətənin vüqarlı dağlarına bağlı idi. Onlardan bir an belə ayrılmaq istəmirdi. Hətta öləndə də qəbrinin dağların zirvəsində olmasını belə arzulayırdı. O yazırdı:

*Murovun başında qəbrim olaydı.*

Yerin behiştlik olsun Bəhmən! Murovun başında dəfn olunmaq sənə qismət olmadı. Lakin sənin ruhun bax Murovun başından Kəlbəcərə boylanan ağ buluddadır.

Aranda istiləndə, könlümə dağ havası düşəndə Aşıq Şəmşirin xələflərindən lirik şair, səmimi hisslər müəllifi Ənvər Rzanın şeirlərini oxuyuram. Sinəm dağ havası ilə dolur, burnuma

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. Səh 235

çəmən-çiçəyin ətri vurur, qulaqlarıma bulaqların zümzüməsi, çayların qıjıltısı gəlir.

*Kəndin hər nemətdən yenə var payı –*
*Qayanın kəkotu, dağın qar payı...*
*Uzanıb yatdığım çəmən çarpayı,*
*Nə yaxşı görüşdük, nə yaxşı yenə!*[1]




Bax beləcə biz bir ön sözdə, üç fəsildə Aşıq Şəmşirin sələfləri ilə, müasirləri ilə və xələfləri ilə tanış olduk. Şair-aşığın onlarla yaradıcılıq təmaslarının müəyyən nöqtələri ilə az-çox tanış ola bildik. Aşıq Şəmşir yaradıcılığını öyrənmək, tədqiq etmək o qədər də asan deyildir. Aşıq Şəmşiri bir neçə istiqamətdə öyrənmək lazımdır. Aşıq Şəmşirin şair nəsli, ulu babası Miskin Abdal, atası Ağdabanlı Qurban və özü zəngin ədəbi irs qoyub getmişdir. Hələ onların bu keşməkeşli həyatda qazandıqları zəngin təcrübə, sənətin asan və çətin yolları ayrıca bir tədqiqata

---

[1] Ənvər Rza "Bəxtəvər dustaq", Bakı 1994, səh 19.

möhtacdır. Əsər ön sözdən, dörd fəsildən və son sözdən ibarətdir. “Şəmşir və dağlar” bölümündə Şəmşirə anası ilə bərabər “döşündən süd verib” böyüdən dağlardan, ikinci bölümdə Aşıq Şəmşirin Səməd Vurğunla görüşünə həsr etdik. Belə bir görüş Azərbaycan ədəbiyyatı tarixində olmamışdır. Bu dastanlardakı  gördüyümüz çoxsaylı deyişmələr deyil. Bu Şah İsmayıl Xətaiyə tarix imkan vermədiyi, lakin arzu etdiyi bir deyişmədir. Bu deyişmə təkcə türk dünyasına deyil, onun sənətkarlarına deyil, bəlkə də bütün dünyaya örnək ola biləcək bir deyişmədir. Səməd Vurğunla Aşıq Şəmşirin deyişdiyi yerdə Şah İsmayıl Xətai ilə  Qurbaninin ruhu əl çalıb gülür. XVI əsrdən başlanan, lakin həyata keçməsi mümkün olmayan arzunun  XX əsrdə Səməd Vurğunun və Aşıq Şəmşirin timsalında təntənəsini görüb ruhları şad olur. Üçüncü bölümdə biz Aşıq Şəmşirin öz sələflərindən kimlərin yaradıcılığına xüsusi diqqət yetirdiyini, müasirlərindən kimlərlə görüşüb dilbir olması ilə, xələflərindən hansıların yaradıcılığına xüsusi əhəmiyyət verdiyini görürük. Mən deyərdim ki, ön söz və üç bölüm də  son bölüm üçün hazırlıq mərhələsi idi. IV bölüm “Aşıq Şəmşirin poetik aləminə səyahət” adlanır. Bu bölümdə  yalnız və yalnız Aşıq Şəmşirin fərdi yaradıcılığı tədqiqata cəlb olunacaqdır. Şair-aşığın ucalığını ancaq

sənətkarlığı müəyyənləşdirə bilər. Biz bu bölümdə Aşıq Şəmşir poeziyasına güzgü tuta-cağıq. Hər kəs o güzgüdə Aşıq Şəmşir poe-ziyasının qüdrətini görə biləcək. Nizami Gəncəvi "Xosrov və Şirin" əsərində "Kəlilə və Dimnə" əsərindəki hər hekayəti, nağılı istedadının qüdrəti ilə bir beytdə verə bilmişdir. Siz bu bacarığı, ümumiləşdirməni Aşıq Şəmşir poeziyasında aydın görə biləcəksiniz. Burada Aşıq Şəmşirin hər bir şeir bəndi, misrası, ayrı-ayrı ifadələri, orada işlənən arğaclar, ilmələr ağıldan, fəhmindən keçiriləcək və poetik baxımdan qiymətlən-diriləcəkdir.

# IV BÖLÜM

## *Aşiq Şəmşirin poetik aləminə səyahət*




Aşıq Şəmşir müəzzəm-işıqlı və gözəl yaradıcılıq yolu keçmişdir. Aşıq Şəmşirin poetik arealı, poetik aləmi o qədər zəngindir ki, oraya daxil olmaq və səyahət etmək üçün aşıq yaradıcılığının sirrini, sehrini, bu yaradıcılığın köklərini, tarixən yazılı ədəbiyyatla əlaqəsini dərindən bilmək lazımdır. Aşıq Şəmşirin yaradıcılığının ciddi, ağır və gərəkli məqamlarını göz önünə gətirdikdən sonra, şeirindəki gözəlliklərə, poetik incəliklərə və xırdalıqlara toxunacağıq. Burada yaradıcılığın ana xəttini təşkil eləyən məqamlar hansılardır?

a) Şah İsmayıldan və Miskin Abdaldan başlanan yolun Səməd Vurğun və Aşıq Şəmşirin timsalında XX əsrdə yenidən təzahür etməsi, daha konkret desək, XVI əsrdən başlanan yazılı

poeziya ilə aşıq poeziyasının XX əsrdə tamamlanması, 500 ildən artıq dövr ərzində bu əlaqədə yazılı və şifahi poeziya nələr qazanmışdır?.

b) Tikmədaşlı Xəstə Qasım aşıq yaradıcılığının bel sütunudur. Aşıq poeziyasındakı ən dərin fikirlər, ən yeni və mürəkkəb şeir formalarının meydana gəlməsi onun adı ilə bağlıdır. Xəstə Qasım yaradıcılığının xeyirxah təsiri Aşıq Şəmşirin iliyinə, qanına hopmuşdur. Aşıq Şəmşir Xəstə Qasımın yaradıcılıq çeşməsinin gözündən içmiş, feyziyab olmuş, özündə hiss etdiyi müsbət təsiri ömrünün sonuna qədər davam etdirmişdir.

v) Qaracaoğlanın və Sarı Aşığın aşıq poeziyasındakı mövqeyini Aşıq Şəmşir kimi dərk edən, anlayan sənətkar az-az tapılar. Onlardan dil incəliklərini və gözəlliklərini öyrənən, söz sərrafı kimi oradan incilər seçən Aşıq Şəmşir təcnis binalarını və qıfılbənd saraylarını qura bilmişdir.

Səməd Vurğun Aşıq Şəmşirlə görüşündə deyir:

*Bəxt məni bu yerə qonaq göndərdi.*

Şairi bəxt hara gətirmişdi?

Əlbəttə, Kəlbəcər dağlarına. Kimin yanına? İllərdən bəri Səməd Vurğunun axtardığı əhli-

halın - Aşıq Şəmşirin yanına gətirmişdi. Şair bundan çox məmnundur. Lakin şairin daxilində bir narahatlıq, bir təlaş da vardır. Şairin daxilində onu narahat edən bir "ayrılıq dərdi" də vardır. Səməd Vurğun bu görüşdən böyük təsəlli tapır. Ona görə ki, bundan sonra Səməd Vurğuna "gəldi-gedərdi" demək olmaz. Özü də buna çox inanır və deyir: "Unutmaz bu oba, bu mahal məni". Hansı oba, hansı mahal? Miskin Abdalı 500 ildən bəri, Aşıq Ələsgəri, Ağdabanlı Qurbanı unutmayan mahal. Dəlidağı, Qoşqarı özünün vüqarı hesab edən, sənətkarları sazında, sözündə yaşadan, onlara sözdən heykəl qoyan mahal. Aşıq Şəmşir xoşbəxt sənətkardır. Ona görə ki, bu mahalda doğulmuş, böyümüş, saz götürüb, söz qoşub məşhurlaşmışdır. Aşıq Şəmşir xoşbəxt sənətkardır, ona görə ki, babası Miskin Abdal yazılı poeziyamızın nəhəng nümayəndələrindən biri olan Şah İsmayıl Xətai ilə görüşmüş, yaradıcılıqları bir-birilə çulğalaşdığı kimi, XX əsrdə də yazılı poeziyamızın əvəz olunmaz böyük sənətkarı Səməd Vurğun Aşıq Şəmşirlə görüşmüş və onların timsalında yazılı poeziya ilə aşıq poeziyası bir-birilə çulğalaşmışdır.

Aşıq Şəmşir elə belə aşıq-şair deyildir. Onun Azərbaycan aşıq poeziyasında bir yaradıcılıq sistemi, özünəməxsus yaradıcılıq

konsepsiyası və həyata fəlsəfi baxışı vardır. XVIII əsrdə irsiyyət qanununu öz yaradıcılığında əsaslandıran, izah edən ən böyük sənətkarlardan biri Xəstə Qasımdır. Görün irsiyyət qanununu Xəstə Qasım bir qoşma daxilində nə gözəl izah edir. Adama ilk növbədə elə təsir edir ki, bu biçimlənmiş, bitkin şeir Xəstə Qasımın ustad-namələrindən biridir. Lakin elmdən xəbəri olan hər kəs bu qoşmaya diqqət etdikdə Xəstə Qasımın daha ciddi bir məsələdən, irsiyyət qanunundan danışmasını öyrənir. Xəstə Qasım yazır:

*Ot bitər kök üstə, əsli nə isə,*
*Yovşan bəsləməklə çəmən zar olmaz.*

Və yaxud:

*Sərv ağacı hər ağacdan ucadır,*
*Əsli qıtdı, budağında bar olmaz.*

Aşıq Şəmşir Xəstə Qasımın bu dediklərini öz poeziyasına necə gətirir, onu obrazlı bir dillə necə söyləyir:

*Alağa – qərənfil, yovşana – reyhan,*
*Tikanlı qanqala – gül desəm olmaz.*

*Dəmirə saf qızıl, söyüdə - sandal,*
*Tapılan hər daşa – ləl desəm olmaz.*[1]

Başqa bir şerində isə bir az da konkret şəkildə fikrini belə açıqlayır:

*Tərlan yumurtasın qarğa bəsləsə,*
*İtirməz əslini, sar ola bilməz.*[2]

El arasında belə bir söz var:

*Mərd ilə yoldaş oldum,*
*Dağlar qədər ucaldım.*
*Namərdlə yoldaş oldum,*
*Bircə gündə qocaldım.*

Aşıq Şəmşir namərdin də, səxasızın da irsiyyət qanunu ilə əlaqəli olduğunu bir ustadnaməsində dəlillərlə, insanları inandıra-inandıra bildirir. Aşıq Şəmşir fikrini davam etdirərək deyir:

*Olsa qapısında səksən min dəvə,*
*Sailə bir yetim quzu da verməz.*

---

[1] Aşıq Şəmşir, Bakı 1959, səh 33
[2] Yenə orada. səh 190

Yəni insanı sevindirəcək, onun ehtiyacını ödəyəcək heç nəyi ona qıymaz.

*Nakəs bir dağ kimi yığsa qumaşı,*
*Möhtaca bir qarış bezi də verməz*

Hətta insana həyat verən, işıq verən, ixtiyarı olsa, gözü də verməz. Aşıq Şəmşir içindən odlana-odlana beləsi haqqında yazır:

*Yaradan xainə versə ixtiyar,*
*İnsana görməyə gözü də veməz.*

Görürsünüzmü, Aşıq Şəmşir həyatın bütün sahələrində namərdi sınayır, onun xəsis xislətini açıb göstərir. Aşıq Şəmşir arzu edir ki, heç kəs belə namərdə rast gəlməsin.

*Kimsənə olmasın namərd möhtacı,*
*Sən şəkər istəsən, duzu da verməz.*[1]

Aşıq Şəmşir yaradıcılığında fərdi insanların birbaşa ünvanına həcv söyləməmişdir. O, cəmiyyətə zidd adamları satira aynasına, daha doğrusu onların eybəcər sifətlərini həmin aynaya

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 153

gətirir. O, bununla düz olmayan, yolunu düz seçməyən adamları düz yola gətirmək istəyir. Ümumiyyətlə, Aşıq Şəmşirin satirası öldürücü deyil, islahedici satiradır. O, özünün əxlaqi görüşlərini həyata baxışını ustadnamələrində verir. Aşıq Şəmşir xalq pedaqoqikasına dərindən bələd bir kamil ustaddır. O, xalqımızın milli xüsusiyyətlərini, özünəməxsusluğunu, mentalitetini həyatda hərəkətində və yaradıcılığında qoruyur. Onun konsepsiyası belədir ki, sən dünyaya vətəni sevmək və qorumaq üçün gəlmisən. "Vətənin" şeirində deyir:

*Könül aşiqisən  dolan, yorulma,*
*Hey başına, ayağına vətənin.*
*Bu cənnətdən qeyri yana vurulma,*
*İsin isti ocağına vətənin.*

*Ata yolu saxlayırmı hər oğul?*
*Öz yurdunun qurbanıdı nər oğul,*
*O bir ana, mən də ona bir oğul,*
*Sığınmışam qucağına vətənin*[1]*.*

Aşıq Şəmşir xoşbəxtliyi ailənin möhkəmliyində və təmizliyində görür. Şeirlərindən açıqca məlum olur ki, Aşıq Şəmşir lap gənc-

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. Səh 191

liyindən, atasının sağlığından Nizaminin yaradıcılığına məftundur. Ondan öyrənməkdən, onun fikirlərindən bəhrələnməkdən doymur. Çox zaman şeirlərini Nizami yaradıcılığının işığında yazır. Nizami hikmətlərini öz yaradıcılığında görmək istəyir. Nizami yazırdı:

*İstəsən övladın ola pak ürək,*
*Bir ata, bir ana tanısın gərək.*

Klassik poeziyanın aşıq poeziyasındakı sufizmi yəni şəriəti, təriqəti, mərifəti və həqiqəti dərindən bildiyi üçün Aşıq Şəmşir insani-kamil səviyyəsinə yüksəlmiş bir şəxsiyyət idi.



**Dədə Şəmşir sevimli Güllüsü ilə**

Aşıq Şəmşir ömrü boyu öz Güllüsünü şeirlərində tərənnüm etmiş, ona yüksək məhəbbət bəslədiyini bildirmiş və saf ürəkli övladlarını birlikdə dünyaya gətirmiş, birlikdə böyütmüş, boya-başa çatdırmışdır. Aşıq Şəmşir ömür-gün yoldaşı Güllü haqqında çox sayda şeirlər yazmışdır. Biz onlardan bir-ikisini örnək veririk:

*Həmən bu yaylaqda qurduq alaçıq,*
*Hüsnü gözəl idi onda Güllünün.*
*Səhər tezdən o durardı başaçıq,*
*Qulac saçı hər yanında Güllünün.*

*Dəhanı şəkərdi, dişləri sədəf,*
*Gözləri etmişdi aləmi hədəf,*
*Hər qıya baxanda o mənə tərəf,*
*Eşqi çoxalırdı canda Güllünün.*[1]

Şəmşirə görə sevəndə gözəli elə sevəsən ki, ömrün boyu könlündə, gözündə yaşada biləsən. Aşıq Şəmşir romantik sevginin yox, real həyata bağlı sevginin aşiqidir. O bildirir ki, gözəllər gözəli olan bəxt ulduzuna baxanda gərək onda yeni bir gözəllik nişanəsi görəsən. Aşıq Şəmşir öz Güllüsünü ömrü boyu hər yaşda vəsf etmiş,

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. Səh 85

hər dəfə Güllüdə bir gözəllik nişanəsi arayıb, axtarıb tapmışdır. Şəmşir yazır:

*Sən ey güldən gözəl, alagöz pərim,*
*Ağ sinən cənnəti-rizvana dəyər.*
*Mənim fikrim-zikrim, dildə əzbərim,*
*Bir tərifin neçə dastana dəyər.*[1]

Şəmşirlə Güllü xanımın birlikdə ömür sürdüyü dövrdən 50 il keçir. Lakin elə bil ki, Şəmşir Güllünü bu gün görür. Yenə də onun hüsnünə, yanaqların al-lalə kimi qırmızılığına, onun Günəşə, Aya bənzəməsini, yeni təşbehlərlə vəsf etməkdən doymur. Gözəl gözəlliyini o zaman qoruyub saxlayır ki, o saf olur, sədaqətli olur, el içində hörmət qazanır, qohum-əqrabasının, oğlunun-qızının başı uca dolanmasına bir örnək olur. Aşıq Şəmşir yazır:

*Sən bizə gəldiyin əlli bir ildi,*
*Baxıram hüsnündən doya bilmirəm.*
*Yanaqların al-qırmızı lalədi,*
*Gözlərinə qiymət qoya bilmirəm.*

---

[1] Aşıq Şəmşir. “O Kürün, Arazın Tərtəriyəm mən”. Bakı 2004. səh 254

*Sinənə düzülüb cənnətin narı,*
*Qoynunda açılıb yazın baharı,*
*Sənin qələm qaşlarının oxşarı,*
*Bənzəyir Günəşə, Aya bilmirəm.*[1]

Hətta oğluna belə "Eşqin mənasını duymayan qıza" məhəbbət bəsləməyi məsləhət görmür. Aşıq Şəmşir bu münasibətlə yazır:

*Kəm baxma yediyin çörəyə, duza,*
*Doğruya doğru ol, sadiq ol düzə.*
*Eqin mənasını duymayan qıza,*
*Bəsləmə qəlbində məhəbbət, oğlum..*[2]

Eyni zamanda "İnsan oğlu" şeirində daş da sirr saxlamır ifadəsini işlətməklə bərabər insana səmimiyyətini də gizlədə bilmir, onu polad kimi dözümlü olmağa çağırır və deyir:

*Göstər ehtiramın xalqa nə isə,*
*Baş əymə namərdə, sirr vermə pisə!*
*Aqil, kamil, arif olan məclisə,*
*Sözünü xoş danış, ibadət eylə!*[3]

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004. səh 287
[2] Yenə orada, səh 185
[3] Yenə orada, səh 65

Aşıq Şəmşir şeirinin bu bəndindən Xəstə Qasım şeirinin ətri gəlir, həyatverici nəfəsi gəlir. "Sirr vermə nadana, sirr vermə pisə".

Aşıq Şəmşirin aşağıdakı ustadnaməsinin bu bəndində də Xəstə Qasım yada düşür.

*Hər kəs qeyrətini düşünsün əzəl,*
*Gül olmaz söyüddən, tökülər xəzəl,*
*Abır, həya hörmət bilməyən gözəl,*
*Çəksə də üzünə pərdə, yaraşmaz!*

Aşıq Şəmşir fikrini çox sərrast deyir. Ona görə də onun nəsihətamiz sözləri insanın iliyinə, qanına işləyir.

*Şəmşir məqsədinə çata yaxşıdı,*
*Gövhəri sərrafa sata yaxşıdı!*
*Yaxşı oğul, yaxşı ata yaxşıdı,*
*Beyvəcsə xeyirdə, şərdə yaraşmaz.*[1]

Aşıq Şəmşir özü ustadnamələrində nəsihət verdiyi kimi özü də ömrü boyu atalar sözlərinə, ariflərin nəsihətlərinə qulaq asır və insanların kamil oxumasını, mərifətli söz öyrənməsini dönə-dönə tövsiyə edir. O yazır:

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004, səh. 466

*Şəmşir, dərsin əlli öyrən, yüz öyrən!*
*Oxuyanda kamil oxu, düz öyrən!*
*Ariflərdən mərifətli söz öyrən!*
*O sözlər sənə çox nəsihət eylər.*[1]

Aşıq Şəmşir insana məhəbbət bəsləməyi, yalan, böhtan, şər danışmamağı arzulayırdı.

*İnsan ol, insana bəslə məhəbbət,*
*Şəmşir bu barata uymuşdur əlbət,*
*Çalış həqiqətə olma bədniyyət,*
*Nə yalan, nə böhtan, nə şər arzula!*[2]

Lakin bununla belə insanların hamısının eyni olmadığını, bəzilərinin qurd balası olduğunu, ilan olduğunu qeyd edirdi və məsləhət görürdü.

*Ağlın olsun, bivəfaya yar olma,*
*Heç qurd balasının qaydına qalma,*
*İnanıb ilanı qoynuna salma!*
*Bacarsa, gözündən vuracaq sənin.*[3]

---

[1] Aşıq Şəmşir."O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004.səh 467
[2] Yenə orada. səh 69
[3] Yenə orada, səh 470



Şair-aşıq, sazbənd
İsmayıl Mahir

Aşıq Şəmşir ellər, elatlar gəzmiş, sinə dolu abırlı, həyalı bir aşıq idi. Onun yurdumuzda çox pərstişkarları vardı. Gəncəyə gələndə hamı onu qonaq aparmaq, yadigar şəkil çəkdirmək istəyərdi. Aşıq Şəmşir bir növ eyhamla deyərdi. "İnsanın dostu, tanışı çox olar, lakin gedəcək yeri az". O, Gəncəyə gələndə şair-publisist Abdulla Şərifin, alim Cəmil Əkbərin və əsli Göyçənin İnəkdağı kəndindən olan aşıq-şair İsmayıl Mahirin qonağı olardı. Bir dəfə İsmayıl Mahir Aşıq Şəmşiri qonaq aparmaq istəyir.

- Yox, Mahir, bir işim var. O düzəlməsə bir də sizə qonaq gedən deyiləm.

İsmayıl Mahir aşıq olmaqdan əlavə saz düzəldən sazbənd idi. Aşıq Şəmşir deyir:

*Mahir, bilirsənmi niyə gəlmişəm,*
*Bağlayarsan telli-tavar saz mənə.*
*Səddi-sorağını çoxdan bilmişəm,*
*Elə bilmə vəsfin çatıb, az mənə.*

Elə oradaca İsmayıl Mahir bədahətən Aşıq Şəmşirə öz şeirini deyir:

*Şəmşirim xoş gəldin, səfa gətirdin,*
*Bağlayacan telli-tavar saz sənə,*
*Hədiyyəm ustada kaş layiq olsun,*
*Təbiət bəxş edib xoş avaz sənə.*

Qısa bir müddət ərzində İsmayıl Mahir sədəfli bir saz düzəldib, Dədə Şəmşirə aparır. Şəmşir bircə bəndlə İsmayıl Mahirin Ağdabana gəlməsini belə mənalandırır.

*Pirinə baş əyən arzuya çatar,*
*Bəzirgansan çək qəfləni ləl apar,*
*Bazarımda yaxşı mirvarilər var,*
*Seç mətahın, gövhər-kana gəlmisən.*

Dədə Şəmşirlə İsmayıl Mahirin iki deyişməsi var. Lakin biz deyişmələrdən misal gətirdiyimiz üç bəndlə kifayətlənirik.

Aşıq Şəmşir hansı eldə, hansı evdə qonaq qalmışdısa hikmətli sözləri ilə bir iz qoyub getmişdir. O, dostu Cəmil Əkbərin evinə tez-tez gəlirdi. Bir dəfə üçyaşlı qızı Aludə Aşıq Şəmşirin gəlib əlindən tutur. Aşıq onu qucağına alır. Körpənin bu istiqanlılığı Aşıq Şəmşirin xoşuna gəlir. Bir baba kimi Aludəyə nəsihət dolu, ona xoş gələcək arzulaya-arzulaya beş bəndlik qoşma

yazmışdır. Tarixi yadigar kimi bu şeir bizim üçün çox qiymətlidir. Aşıq Şəmşirin böyüklüyü onun sadəliyində idi. 44 il bundan əvvəl yazdığı şeirdə əziz dostunun 3 yaşlı qızına yazdığı şeir belədir.

*Üç yaşını yetirəsən yüzə sən,*
*Anam, bacım, körpə qızım, yaxşımı?*
*Qoy bu nəğmə məndən qalsın yadigar,*
*Şəninə bir tərif yazım, yaxşımı?*

*Sən elə gözəlsən, qızım Aludə,*
*Sənin tək balanı çox sevər dədə,*
*Atanla gəl bizə yaz gələn vədə,*
*Bu ilqarı gözlər gözüm, yaxşımı?*



Aludə aşıq-şairin arzu etdiyi kimi xoşbəxt ailə qurmuş, iki qızı institutu bitirmiş, 15 yaşlı oğlu isə orta məktəbdə oxuyur. Bir tarixi yadigar kimi aşağıda Aludənin üç yaşında Aşıq Şəmşirlə çəkilmiş şəklini nümunə veririk.

Aşıq Şəmşirin pərəstişkarları 1963-cü ildə Kəlbəcərə İstisuya gedir və orada Aşıq Şəmşirlə birlikdə şəkil çəkdirirlər.




Alim Heydər İsayev və onun oğlu Mahir İsayev




Aşıq Şəmşir, Cəmil Əkbərov və başqaları

Aşıq Şəmşirin poetik aləminə daxil olmaq, poetik aləminə səyahət etmək o qədər də asan məsələ deyildir. Aşıq Şəmşirin poetik aləmindən söhbət gedəndə qəribə bir mənzərə yaranır. Ədəbiyyat maraqlıları, şeir pərəstişkarları Aşıq Şəmşir deyəndə Səməd Vurğunu, Səməd Vurğun deyəndə Aşıq Şəmşiri yada salırlar. Aşıq Şəmşir yaradıcılığında Səməd Vurğun haqqında təzə deyilmiş söz, fikir, maraqlı süjet və kompazisiya, sadə və mürəkkəb quruluşlu əsərlər axtarırlar. Aşıq Şəmşir Səməd Vurğunun sorağı ilə gah Qazaxdakı Damcılı bulaqda, gah şairin ev muzeyində, gah da onun gəzib-dolaşdığı yurdumuzun ayrı-ayrı bölgələrində olur, hər dəfə də şairin həyatı ilə bağlı bir sözü, bir izi şeirində əbədiləşdirir. O yazır:

*Kəkliklər oxuyur, qartallar baxır,*
*Şəlalə süd kimi güneydən axır.*
*Buludlar qaralır, ildırım çaxır,*
*Sevindirər belə bu çağlar səni.*

*Bənövşə izinsiz qonur yaxaya,*
*Şəmşir saz əlində çalıb oxuya,*
*Nərgizlər yol üstdə gedir yuxuya,*
*Unutmaz bu böyük ocaqlar səni.*[1]

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004.səh 46

Aşıq Şəmşir Qazağa gedir, Səməd Vurğunun çox sevdiyi Damcılı bulağı görür. Dərdini həmin Damcılı bulağa deyir:

*İntizar qoyubdu o, Dəlidağı,*
*Hicrana bürünüb qaşı-qabağı.*
*Hələ yol gözləyir Ceyran bulağı,*
*Nə deyirsən bu ilqara, Damcılı?*[1]

Aşıq Şəmşir Səməd Vurğunu görmək üçün, ondan bir nişanə tapmaq üçün hər yanı dolaşır, nəhayət şairin ev muzeyinə gəlir. Bir mənzərəni görüb özünün ağladığını bir beytdə belə ifadə edir:

*Muzeydə yas tutub bir qara köynək,*
*Ağladım sahibsiz sazı görəndə.*[2]

Aşıq Şəmşirlə Səməd Vurğunun görüşünə ithaf edilmiş, şeirlərin sayını Dəlidağın, Qoşqarın yazda açan çiçəklərinin sayı ilə müqayisə etmək olar.

Aşıq Şəmşir Qaracaoğlanı və onun yaradıcılığını Qurbani yaradıcılığından heç də geri

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004. səh 43
[2] Yenə orada, səh 44

qalmayan bədii qüdrətə malik bir yaradıcılıq hesab edir. Əgər Qurbani "Ayrılıqmı çəkib boynu əyridi, heç yerdə görmədim düz bənövşəni" deyirsə, Qaracaoğlan da onu özünəməxsus bir tərzdə düşünüb istədiyi bənzətmələrlə dilə gətirir.

*Yetik olsan Qaracaoğlanın halına,*
*Qərib bülbül qonmuş gülün dalına,*
*Qədrini bilməzlər alır əlinə,*
*Ona görə əyri bitər bənövşə.*

Aşıq Şəmşir isə bənövşənin sıxılmasını, əyilməsini özünəməxsus şəkildə belə mənalandırır.

*Maralların, cüyürlərin gözündən,*
*Utanıb qısılır kola, bənövşə.*

Aşıq Şəmşirə görə Sarı Aşıqdan əvvəl də, öz dövründə də, özündən sonra da bayatı yaradıcılığı sahəsində onun fəth etdiyi zirvəyə hər kəs yüksələ bilməmişdir. Lalə, qızılgül qan qırmızı boyasını, rəngini haradan almışdır? «Ceyrançöl» əfsanəsinə görə, düzlərdə bitən lalələr ağappaq olmuş, ovçu ceyranı neçə yerindən yaralamış, ceyranın qanı ağ laləliyi qırmızı rəngə boyamışdır. Bu insanın «təsəvvürdə və

təsəvvürün yardımı ilə» yaratdığı obrazlardır. Həmin obrazlar insan xəyalı ilə, onun fantaziyası ilə süslənmişdir. İnsan, onun xəyalı, düşüncəsi, təbiətə və cəmiyyətə baxışı, tarixən zehnində yaratdığı etimologiyası xüsusi bir elmdir. Sarı Aşığın təsəvvürünə görə, qızılgülü qırmızı rəngə boyayan bülbülün bağrının qanıdır.

Sarı Aşıq deyir:

*Mən aşiqəm, qanlı gül,*
*Qanlı danış, qanlı gül.*
*Yemiş bülbül bağrını,*
*Çıxmış ağzı qanlı gül.*

Görürsünüzmü, Sarı Aşıq insan fantaziiyasının məhsulu olan bir əfsanəni bayatısının məzmununa gətirir, onu formaca gözəl biçimləndirir, tarixən bəşəriyyətin yaddaşına həkk ola biləcək ölməz poetik bir nümunə yaradır.

Aşıq Şəmşir sələflərinin, müasirlərinin və xələflərinin hər birinin yaradıcılığını qiymətləndirən mahir bir el sənətkarıdır. Aşıq Şəmşir yaradıcılığına hər hansı aşıq yaradıcılığının araşdırılması mövqeyindən girişmək olmaz. Onun sənət aləmi, poetik aləmi o qədər zəngindir ki, başqa yaradıcı aşıqlara yanaşmaq üsulu ilə yanaşıb söz demək mümkün deyildir.

Hətta onların poetik yaradıcılığını qiymət-ləndirərkən deyilən sözü də təkrar etmək olmaz. Adətən bundan əvvəl tədqiq olunan aşıq yaradıcılığında belə bir cümlə təkrar olunur. Bunu sənətkar özünə qədər mövcud olan aşıq şeirinin forma və şəkillərindən tamamilə fərqli şəkildə istifadə etmişdir. Aşıq Şəmşir şeirinin forma və şəkillərindən danışarkən onun əhatə etdiyi rəngarəng mövzuları, onun təsvir çalarlarını, poetik biçimlənməni, hər sözə, hər fikrə uyğun söz işlədilməsini, başqalarından fərqlənən deyim tərzini, daha bir çox şeir zinətlərini, söz axarını, misralardakı fikir tutumunu gözdən yayındırmaq olmaz.

Hər bir araşdırıcı dərindən dərk etməlidir ki, söhbət Aşıq Şəmşir yaradıcılığından, Aşıq Şəm-şir poeziyasından gedir. Aşıq Şəmşirlə Səməd Vurğunun deyişməsindən sonra ədəbi ictimaiyyət Şəmşir yaradıcılığına həm folklor, həm də yazılı ədəbiyyat nümunəsi kimi yanaşır, orada poetik yeniliklər və tapıntılar axtarır. Aşıq Şəmşir hiss edirdi ki, onun auditoriyası çox genişdir. Onun yaradıcılığına müxtəlif zövqlü insanlar maraq göstərirlər. Onun yaradıcılığında etik və estetik duyumlar, icti-mai fikirlər, müxtəlif çalarlı bədii nümunələr axtarırlar. Aşıq Şəmşir bir şeirində deyir:

*Köklü bir ağacı, Nizami demiş,*
*Əsərsə yüz külək, yel, yıxa bilməz.*
*Rişəsi torpağa işləyib onun,*
*Araz, Kür qarışan sel yıxa bilməz.*[1]

Hər bir bitkinin, ağacın kökü torpağın altında dayanır. Hər ağacı külək, tufan yıxır, lakin tufanın təkcə palıd ağacına gücü çatmır. Palıd ağacının rişələri, kökü çox dərindədir. Hətta, onun kökündə cücərib içərisindən çıxdığı qozanın qabığı çəkmə kimi ayağında geyincəkli qalır, çürümür. Bax, kökün sağlamlığı budur.

Adama təəccüblü gəlir ki, Şəmşir yaradıcılığında nə üçün alleqoriya, təmsil, əfsanə və nağıl motivləri özünəməxsus yer tutur. Aşıq-şairin təmsilə müraciət etməkdə marağı nədir? Aşıq Şəmşir hiss edir ki, onun yaradıcılığına təkcə aşıqsevərlər deyil, məktəb yaşlı uşaqlar da maraq göstərir. Kiçik yaşlılar üçün heyvanların adından, dilindən danışmaq onlara

---

[1] Aşıq Şəmşir, Bakı 1959, səh 44.

xüsusi zövq verir. Aşıq Şəmşir bütün bunları nəzərə alaraq yazır:

*Tısbağa özünə maral deyəndə,*
*Ölməyən maralın öləsi tutur.*
*Tülkü şirə dönüb özün öyəndə,*
*Göy uçub yerlərə gələsi tutur.*[1]

Tısbağanın özünə maral deməsi ilə əlaqədar Mehdi Hüseyn geniş bir hekayə yazmışdır. Aşıq Şəmşir eyni fikri şeirinin bir beytində yığcam, lakonik şəkildə ifadə etmişdir. Şeirin sonrakı bəndində Aşıq Şəmşir bir az da irəli gedərək yazır:

*Yarpaq düşməlidi vaxtı çatanda,*
*Xunxar yıxılacaq baxtı yatanda,*
*Dovşan kərgədana şıllaq atanda,*
*Şəmşir ağlasa da, güləsi tutur.*

Aşıq Şəmşir yazır ki, gərdişin bu gedişinə ağlamağım gəlsə də, güləsim tutur. Aşıq Şəmşir poeziyası rəngarəng və çoxcəhətlidir.

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004. səh 182

Muğan və Şirvan aşıqlarından Aşıq Pənahın yaratdığı "Ay mənim ana Kürüm" şeirini Aşıq Şəmşir yaza bilməz, Aşıq Məmmədağa kimi ifa edə bilməz. Aşıq Məmmədağa "Ay mənim ana Kürüm, qurbanam sana, Kürüm" – deyib oxuyanda, səsini zurna ilə qoşalaşdıranda səsi buludun altından yox, buludun üstündən keçir. Onun oxuduğu nəğmə Kürün özünün də xoşuna gəlir. Kür yavaşıyır, nazlana-nazlana axır, Muğanda yaranan mənzərənin öz təbii gözəlliyi və məlahəti yaranır. Adını çəkdiyimiz sənətkarlar da Aşıq Şəmşir kimi dağları vəsf edə bilməz. Aşıq Şəmşirin mayası o dağların havası ilə tutulub. Bunu Aşıq Şəmşir özü daha canlı şəkildə bəyan edir:

*Qüdrətdən verilib sənə yaraşıq,*
*İstəyin qəlbimə olub sarmaşıq,*
*Şəmşiri əzəldən sən etdin aşıq,*
*Unutma, yadına sal indi, dağlar.*[1]

Aşıq Şəmşirin varlığı, şeiri-sözü, bütün yaradıcılığı dağlara bağlıdır. O yazır:

*Sənin tərifini əzəldən dedim,*
*Dastanın yazılır yüz əldən –dedim,*

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004. səh 106

*Yüz huri-pəridən, gözəldən dedim,*
*Yenə sən bəzəksən sözümə, dağlar.*[1]

Aşıq Şəmşir dağlarla təmasda olur, onlarla insan kimi söhbət edir. Olub-keçənləri bilmək istəyir. Ürəyindən keçən suallara cavab axtarır.

*Fərhad "Şirin" deyib qayalar çapdı,*
*Koroğlu üstündə qalalar yapdı.*
*Məcnun Leylisini haradan tapdı?*
*Sualıma cavab ver indi, dağlar.*[2]

Aşıq Şəmşir şeirlərində dağların min gözəlliyini dilə gətirir. Onları təsvir etməkdən doymur. Dağları tərif etdikcə vəcdə gəlir. Və yaxud başqa bir şeirində:

*Bəhlul qarğı minib, Koroğlu-Qırat,*
*Rüstəmi-Zala da halaldı barat!*
*Şirinin yolunda fədakar Fərhad,*
*Əzib öz başını əfsana, heyif.*[3]

Aşıq Şəmşir "Tapşırdı" qoşmasında dağları, onun gülünü-çiçəyini, ceyranını, əliyini,

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004, səh 188
[2] Yenə orada, səh 125
[3] Yenə orada, səh 126

meşəsini, qartalını, kəkliyini təsvir etməkdən doymadığını bildirir. O yazır:

*Dedi yol gözləsin nərgiz, bənövşə,*
*Qış dolana, bahar gəlib yetişə,*
*Ceyrana düz verdi, əliyə meşə,*
*Qartala, kəkliyə qaya tapşırdı.*[1]

Aşıq Şəmşir bir Azərbaycan gözəlini dağlara qonaq çağıranda, başqa bir gözəlin hüsnünü, gözəlliyini vəsf edəndə yenə də təşbeh və bənzətmələri dağlardan alır. Aşıq Şəmşirin şeir xalısının arğacı biçənəklərin göy otu, ilmələri dağ çiçəkləridir. Qarşısında dayanan gözələ üzünü tutub deyir:

*Dolanım başına, a qələm qaşlı,*
*Xəstə pir başına dolanan kimi.*[2]

Aşıq Şəmşir gördüyü gözələ, Həmzə çəməngahını belə təqdim edir:

*Şəmşirin ovlağı, Murova da gəl,*
*Güllərin üstünə yenə gəzdir əl.*
*Həmzə çəməngahı cənnətdən gözəl,*
*Bilirəm, xoş gələr bu cəlal sənə.*[3]

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004. səh 54
[2] Yenə orada,səh 65
[3] Yenə orada, səh 87

Aşıq Şəmşir poeziyasında tarixi əfsanə və rəvayətlərə qəribə işarələr vardır. Gah Nuhun gəmisindən, gah da Məcnunun dağlardan səsi gəlməsindən danışır. Gah Bəhlul Danəndədən, gah Koroğludan, onun Qıratından, Rüstəm Zaldan, Şirinin yolunda öz başını əzən Fərhaddan və digər tarixi şəxsiyyətlərdən və qəhrəmanlardan söz açır. Onun Süleyman peyğəmbərə müraciəti də insanda maraq doğurur. Süleyman peyğəmbərə o zaman mürciət edir ki, o şeiri həyat yoldaşı Güllüyə ithaf edir. Aşıq Şəmşir görünür ki, Güllü xanıma müraciət edəndə ixtiyar çağlarında gənclikləri yada düşür. Süleyman peyğəmbərin başına gələn bir macəranı xatırlayır. Süleyman peyğəmbər bahar çağlarında bulağın başında bir gözələ rast gəlir, bir könüldən min könülə ona vurulur. Təxti Süleyman üzüyünü barmağından çıxarıb həmin gözəlin barmağına taxır. Süleyman bir də bu yerlərə payız gəlir. Görür o gözəlin yerində bir qarı əyləşibdi. Qarıdan üzük verdiyi gözəli soruşur. Qarı: - O, mənəm – deyir. Onda Süleyman üzüyünü geri istəyir. Qarı deyir:

- Aç sandığı, üzüklərin içindən öz üzüyünü seç.

Süleyman görür ki, saysız-hesabsız üzüklərin üstünə "təxti-Süleyman" yazılıb. Süleyman üzüyünü tapa bilmir. Qarı deyir:

- Mən dünyayam, yazda çiçəklənirəm, payızda bu günə düşürəm. Sandıqdakı üzüklər sənə anlatdımı ki, dünyaya sənin kimi çox Süleymanlar gəlib-gedib?

Aşıq Şəmşir "Dünya və Süleyman" əhvalatını obrazlı bir şəkildə dilə gətirir və həmin əhvalatı həyat yoldaşı Güllüyə çatdırmaqla dünyanın vəfasızlığını bildirir. Aşıq Şəmşir yazır:

*Deyirlər, tarixdə çoxdu Süleyman,*
*İndi məndən özgə yoxdu Süleyman,*
*Əgər mənim olsa təxti-Süleyman,*
*Dünyanı bir quruş bilmərəm sənsiz.*[1]

Aşıq Şəmşir istedadlı şair, söz yaradıcısı olmaqla yanaşı, məlahətli səsə malik, eldə-obada hörmət qazanmış ifaçı-aşıqdır. Aşıq Şəmşir neçə-neçə dastan bilirdi. Onun bildiyi dastanları Osman Sarıvərlli belə təsvir edir. O, "Koroğlu", "Abbas və Gülgəz", "Heydər bəy", "Alı xanla Pəri xanım", "Abdullah və Cahan", "Novruz", "Nəcəf və Pərizad", "Valeh və Zərnigar", "Məsim və Diləfruz", "Şah İsmayıl", "İbrahim", "Tahir və Zöhrə", "Xəstə Qasım" kimi

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004, səh 133

dastanları, bir çox mahnıları və 70-dən artıq klassik aşıq havalarını bildiyini söyləyir".

Dastan yaradıcılığı ilə əlaqədar olaraq Aşıq Şəmşir necə dastan danışırdı? İki dastanın timsalında mən buna aydınlıq gətirəcəm. Aşıq Şəmşir Yamənlə Çin arasında ticarət əlaqəsi quran Xoca Əzizi "Məsim və Diləfrüz" dastanında belə təsvir edir. Xoca Əziz karvan bağlayıb Çinə, Çin padşahının sarayına gedirdi. O, Çin padşahının özünün yeganə qızı Diləfrüzə tikdirdiyi sarayı, içindəki çılçırağı, həyətindəki hovuzu gördü. O, gördüklərini Yaməndə oğlu Məsim üçün yaratdı. Bu imarətlər bir-birindən seçilmirdi. Eləcə də Diyarbəkirli Kərim paşa Misirdə Cəlal paşanın qızı Qəndab üçün sarayı görüb Diyarbəkirdə oğlu Novruz üçün elə bir qala-qəsr qurdu. Bax, bu oğlanlar və qızlar saraya baxıb, atalarının danışdığı əhvalatları yada salıb, Diləfrüzün və Qəndabın təsvir olunmuş gözəlliklərini yuxuda gördülər, buta verib, buta aldılar. Bax bu verginin, telepatiyanın, yəni şüuraltı qabaqcadan görmənin əsaslarını Aşıq Şəmşir əyani şəkildə izah edirdi. Və gülə-gülə Aşıq Şəmşir mənə deyirdi:

- Görürsənmi, nağıllarda axşam yatırsan, səhər durub dənizin ortasında saray görürsən, sağından Günəş çıxıb, solundan Ay. İnsan xəyalında canlandırdığı romantik obyekti

sonradan maddiləşdirir, daşdan yonulmuş binalar ucaldır.

Mən Aşıq Şəmşiri dinlədikcə qəribə bir hiss keçirirdim. Bax, Naxçıvanın Arpa çayının sahilindəki Oğlan qala, Qız qala, Bakıdakı Səbayıl qalası – Oğlan qala və Qız qalası, Astaradakı Şindan qalası belə parlaq romantik xəyalın, fantaziyanın yaratdığı tikililərdir. Aşıq Şəmşirin orijinal bir söhbətini də xatırlamaq istəyirəm. O deyirdi – "Görürsənmi, qəhrəman Yaponiyaya getmir, Çinə gedir. Çünki Çində onun dilini başa düşən uyğurlar yaşayır. Qəhrəman Novruz Diyarbəkirdən Misirə gedir, ona yaxın ölkələrə getmir, çünki o yerdə Novruzun dilində danışan səlcuq türkləri yaşayır".

Biz dastanlarımızın coğrafiyasını araşdırmamışıq. Hər dəfə Aşıq Şəmşirin sözləri məndə intibah yaradırdı. Hər dəfə diqqətimi yeni bir sahəyə yönəldirdi, nəyisə axtarmalı, nəyisə tapmalı olurdum. Aşıq Şəmşir təkcə dastanlarımızı bilmirdi. O, bütün saz havalarını bilirdi. Hər bir havanı modernləşdirmədən klassik formasında çalırdı. Mən Aşıq Şəmşirdən yetmiş saz havasını 1961-1970-ci illər arasında yazıya almışam. Sazın kök və pərdələrini, üç səs qatarını, saz köklərini ondan öyrənmişəm. Danışan və danışmayan pərdələr, məhsuldar pərdələr nə

deməkdir, sazın ayaq pərdə hissəsinin zil olduğunu, şah pərdənin bəm olduğu, baş pərdənin pəs olduğunu və sazın digər sirlərini, möcüzələrini Aşıq Şəmşirdən öyrənmişəm. Aşıq Şəmşir sözün əsl mənasında özü-özlüyündə aşıq musiqisi konservatoriyası idi. Bu gəlişi gözəl söz deyil. Mən bunu canlı bir fakta əsaslanıb deyirəm. Bakıda Əminə Eldarova adlı gənc bir qız konservatoriyanı bitirir. Böyük bəstəkarımız Üzeyir Hacıbəyli ona məsləhət görür ki, namizədlik işini aşıq musiqisindən yazsın. Gənc bakılı qız çox aşıqdan, sənətkardan soraq tutur, onlarla canlı söhbətlər aparır. Lakin aşıq musiqisi haqqında lazımı məlumat toplaya bilmir. Ona məsləhət görürlər ki, əgər Azərbaycan aşıq musiqisindən dissertasiya yazmaq istəyirsənsə mütləq Aşıq Şəmşirlə görüşməlisən. Əminə Eldarova o zaman böyük alim, mərkəzi komitədə məsul vəzifə tutmuş Əziz Mirəhmədovla həyat qurmuşdu. Onlar Aşıq Şəmşiri Bakıya da çağıra bilərdilər.



***Şəkildə Tovuzlu Ələsgər, şair Zəlimxan Yaqub, musiqişünas Əminə Eldarova və Aşıq Aydın çoban oğlu***

Lakin bu gənc qız Bakıdan avtobusa minib birbaşa Kəlbəcərin Ağdaban kəndinə gəlir. Neçə günlərlə Aşıq Şəmşirin qonağı olur. Sazına, sözünə qulaq asır, yavaş-yavaş sazın sirrinə-sehrinə düşür. Əminə Eldarovanın Kəlbəcərə gəliş-gedişi neçə dəfələrlə təkrar olunur. O, aşıq musiqisi haqqında sanballı bir əsər yazır və müvəffəqiyyətlə müdafiə edir. Aşıq Şəmşirin nəfəsi ilə ərsəyə gəlmiş həmin dissertasiya monoqrafiya şəklində nəşr olunur.[1] İndi o əsər

[1] Əminə Eldarova, "Aşıq musiqisi"(rus dilində), Bakı,İşıq nəşriyyarı, 1984

təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da məşhurdur. Əminə Eldarovanın “Aşıq musiqisi” əsəri hazırda Amerikadadır. Rus dilinə tərcümə olunmuş bu əsər indi dünyanın başqa dillərinə tərcümə olunur.

Aşıq Şəmşir həm də bəstəkar aşıqdır. O, bir neçə saz havasının müəllifidir. Hətta “Şəmşiri” saz havasının adını məşhur folklorşünas Əkbər İrəvanlı öz doktorluq dissertasiyasında verdiyi saz havalarının siyahısına daxil etmişdir.

Aşıq Şəmşir birinci saz havasını aşağıdakı gəraylısı ilə əlaqədar yaratmışdır:

*Niyə məndən yan gəzirsən,*
*Dolanırsan gendən, ay qız?!*
*Pərişan qəlbimə dəymə,*
*Küsər könlüm səndən, ay qız!*[1]

İkinci saz havasını “Gül, ay qızım, mən qocaya bir də gül” şeiri əsasında yazmışdır:

*Bir vaxt cavan idim mən də sizin tək,*
*Deyərdin açılıb çəmən, gül, çiçək,*
*Sevməzdim çirkini, gəzərdim mələk,*
*Etibarsız bu dünyaya bir də gül!*[2]

---

[1] Aşıq Şəmşir. Bakı 1959. səh 19
[2] Yenə orada, səh 100

“Vədəsində” qoşmasını kim hansı saz havası üstündə oxuyur-oxusun Aşıq Şəmşir həmin qoşmanı çox fərqli şəkildə, yeni həyəcanla, hisslə əhatə olunmuş bir tərzdə yeni melodiya ilə ifa edirdi.

Yeri düşmüşkən bir daha xatırlamaq lazımdır ki, Aşıq Şəmşir Koroğlu havalarını özünəmxsus bir tərzdə ifa edirdi. Aşıq Şəmşirə görə “Baş divani” yəni “Şər Xətai” və “Ayaq divani” yəni “Osmanlı divanisi” 1514-cü ildə Çaldıran müharibəsi dövründə yaranmışdır. Aşıq Şəmşir elə həssas idi ki, hər bir saz havasının, şeir formasının kim tərəfindən nə zaman yaradıldığına xüsusi diqqət yetirirdi. Miskin Abdal ulu babası və Çaldıran müharibəsinin iştirakçısı olmasına baxmayaraq bu havaların Dirili Qurbani tərəfindən yaradıldığını təsdiqləyirdi.

Aşıq Şəmşir sazın kök və pərdələrinə, səs qatarlarına çox dərindən bələd idi. O, ilk təhsilini atası Ağdabanlı Qurbandan aldığı kimi, sazın-sözün sirrinə də onun vasitəsilə bələd olmuşdu. Mən  “Ağdabanlı Qurban və onun müasirləri” adlı namizədlik dissertasiyamın birinci fəslini “Aşıq poeziyasının sazla əlaqəli inkişaf yolu” adlandırmışam. Bu fəsil 64 səhifədən ibarətdir. Bu fəslin yazılmasında bilavasitə başqa sənətkarlardan çox Aşıq Şəmşirin əməyi vardır.

Aşıq Şəmşirin saz haqqında dediklərindən aşağıdakı nəticələrə gəldim.

Sazın ana pərdəsi sayılan Şah pərdədən yuxarı pəs, Şah pərdədən aşağı isə zildir. Şah pərdədən yuxarıdakı (Baş divani) və orta (Təcnis) pərdələrdə, daha doğrusu, bu pərdələrin köməyi ilə alınan köklərdə (musiqi ahəngində) daha çox insanda kədər hissi doğuran, Şah pərdədə və ona alt hissədə yaxın olan Ayaq divani pərdəsində insanda şadlıq və sevinc hissi doğuran, Şah pərdədən aşağıda olan Beçə və Ayaq pərdələrdə isə insanı döyüşə, mübarizəyə çağıran cəngi havaları çalınır.

Ayrı-ayrı şeir janrlarının musiqi ahəngi ilə əlaqədar olaraq yaranmış pərdə kökləri aşağıdakılardır: Şah pərdə kökü, Şah pərdənin Misri kökü, Çoban bayatısı kökü, Ayaq divani kökü, Ürfani kökü və Dilqəmi kökü.

Şah pərdə kökü, eləcə də Şah pərdənin Misri kökü Şah pərdəyə, Dilqəmi kökü Baş divani pərdəsinə, Ürfani kökü Təcnis pərdəsinə, Ayaq divani kökü Ayaq divani pərdəsinə, Çoban bayatısı kökü Bayatı pərdəsinə məxsusdur. Beçə pərdə ilə Ayaq pərdənin isə müstəqil kökləri yoxdur. Beçə pərdə və onun Ayaq pərdəsi öz musiqi ahəngini ana pərdə olan Şah pərdədən alır. Ona görə də həmin pərdənin birinə ana pərdənin beçəsi, o birinə isə Beçə pərdənin sonu,

ayağı  deyilir. Şeirin forması sazın pərdələrində, motivi isə köklərdə öz əksini tapır.

Bir növ pərdə şeiri, kök musiqini, yaxud belə də demək olar: pərdə formanı, kök məzmunu təmsil edir. Forma olan pərdə (şeirin heca vəzni) ilə məzmun olan kökün (motivin) daxili əlaqəsindən hər hansı bir şeir janrının sazda musiqi ahəngi alınır. Bu o deməkdir ki, sazla əlaqədə yaranan aşıq şeirinin forması məzmununa, məzmunu isə formasına təsir edir, bir-birini tənzim edir, bir-biri ilə vəhdətdə, əlaqədə inkişaf edirlər.

Aşıq Şəmşirin müxəmməs və divanilərinin hərəsi bir abidədir. Mən elə bir məclis, toy şənliyi görməmişəm ki, orada "Xırdaca gül" müxəmməsi ifa olunmasın. Aşıq Ələsgər kimi Şəmşir də Şahdağına bənzərsiz bir müxəmməs yazmışdır.

*Elimizdə, obamızda var adın, sanın, Şah dağı!*
*Yaz olanda sel gözləyir səndən aranın, Şah dağı!*
*Qış günündə əskik olmaz qarın, boranın, Şah dağı,*
*Daşlarında kəklik olur, düzdə ceyranın, Şah dağı!*
*Ovçular ov bərəsində qurur kamanın, Şah dağı!*[1]

[1] Aşıq Şəmşir. Bakı 1959. səh 140.

Onun "Gərək" rədifli divanisində Həzrəti Əliyə məhəbbəti öz dərin məzmunu ilə ifadə olunur.

*Şəmşir, əlin söylə görüm hansı xeyir-nəfdədi?*
*Sənin meyli-məhəbbətin nuru bir nəfərdədi,*
*Səsləsən, gələr hayına mərd ağan Nəcəfdədi,*
*Umudunu kəsməsin könül əhli-səxadan gərək!*[1]

Aşıq Şəmşirin "Əldən gedər" divanisi həm də dərin mündəricəli ustadnamədir. Aşıq Şəmşirin hər bir şeiri tədqiq olunmağa layiq bir abidədir. "İnciməz" divanisində Aşıq Şəmşir çox incəliklərə toxunur, insani keyfiyyətlərdən, onun gözəl cəhətlərindən söz açır.

*İncimərəm o kimsədən arif olub söz qana,*
*İşarəni başa düşə, mətləbini tez qana,*
*Dostunu yaxşı tanıya, ilqarını düz qana,*
*İnsan belə mərd yolunda versə də can, inciməz.*[2]

Aşıq Şəmşirin son şeir toplusunda onun ədəbi irsi tam əhatə olunmamışdır. Şəxsən

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən".Bakı 2004, səh 435
[2] Yenə orada, səh 438

mənim arxivimdə Aşıq Şəmşirin heç bir kitaba düşməmiş qoşma və gəraylıları vardır. Kəlbəcərli dostu Dəmirçi Süleymanla geniş deyişməsində iki dostun bir-birinə səmimi söz deyib cavab alması maraq doğurur. Çox bəndli şeirin iki bəndini nümunə verməyi lazım bildik. Aşıq Şəmşir altı bəndlik şeirini belə tamamlayır.

*Şəmşir səndən bil inciməz, Süleyman,*
*Dostunu unutmaz kamil bir insan.*
*Sel aparıb çaylaq olub Ağdaban,*
*Hələlik bağlıdır yolu sandığın.*

Dəmirçi Süleyman isə Aşıq Şəmşirə belə cavab verir:

*Sizin dağlar bizim dağdan başdısa,*
*Dözər Süleymanın bağrı daşdısa,*
*Ağdabanın yolu çınqıl-daşdısa,*
*Gətirər ceyranla cüyür sandığı.*

Belə örnəklərin sayını istənilən qədər artırmaq olar.

Aşıq Şəmşirə həsr olunmuş, ithaf olunmuş şeirlər rəngarəng və çox cəhətlidir. Aşıq Şəmşirə şeir yazanlar ona öz məhəbbətlərini müxtəlif cəhətdən, müxtəlif tərzdə bildirirlər. Biri Şəmşirlə görüşünü, əbədi dostluqlarını, biri Şəmşir

yaradıcılığına vurğunluğunu, Şəmşirin Dəlidağa, Ağdabana bağlılığını, Şəmşirin dünyadan köçməsinə müxtəlif yöndən təsvir və tərənnüm edirlər. Onların bu ithaf şeirlərinin hər biri gələcəkdə bunların əsasında "Aşıq Şəmşirə el-oba məhəbbəti" adlı ikinci elmi-publisist bir əsər yazmağa imkan verəcəkdir. Bu əsər xalqın qəlbindən su içməklə yanaşı, aşıq sənətkarları arasında türk dünyasında daha geniş tanınmasına rəvac verəcəkdir. Mən həmin ithaf şeirlərdən bir-iki nümunə vermək istəyirəm. Kəlbəcərli şair Nəcəf yazır:

*Dədə Şəmşir, sən bu dünya durduqca,*
*Unudulmaz sənətkarsan, hardasan?*
*Xəstə Qasım, Ələsgərsən, Alısan,*
*Könüllərdə olan varsan, hardasan?*

*Dəlidağın gözü qaldı dalınca,*
*Gül bənövşə, nərgiz gəzdin solunca,*
*Vurğun dedin dar məzarda olunca,*
*Müqabilsən, yenə varsan, hardasan?*

Aşıq Fətulla Şəmşir ocağına öz məhəbbətini belə söyləyir:

*Hanı Güllü xanım, təzdən sevəsən,*
*Gül camala min cür tərif deyəsən,*

*Saz götürüb məclislərə gedəsən,*
*Ağdabanı andım, ay Dədə Şəmşir.*

Baxın, şair Qivami Qazıyev yuxarıda adları çəkilən şairlərdən fərqli olaraq başqa bir səmtdən Aşıq Şəmşiri yada salır:

*Ellər İstusuya gələ yaylağa,*
*Xalqın qurban kəsər belə növrağa,*
*Şair Səməd Vurğun qalxa ayağa,*
*Bir də görüşünə gedə Şəmşirin.*

*Gəzdi telli sazla aranı, dağı,*
*Nəsihətlər verdi Qorqudsayağı,*
*Qivami, evinin əziz qonağı,*
*Dədələr olubdur Dədə Şəmşirin.*

Aşıq Şəmşirin şəyirdlərindən olan və Şəmşirlə məclislər keçirən Aşıq Xalıqverdi sənətkarın böyüklüyünü, özünəməxsus bir şəkildə təsvir edir:

*Sazım, sözüm axtarır,*
*İldə Dədə Şəmşiri.*
*Unutmaram heç zaman,*
*Dildə Dədə Şəmşiri.*

*Araz axdı sərindən,*
*Kür çağladı dərindən,*
*Tərpətmədi yerindən,*
*Nil də Dədə Şəmşiri.*

Aşıq Şəmşirin ləzgi şagirdi Sakit Şəmşirin ölümü münasibəti ilə oy çəkir, Dağıstanda kumuklar (türk tayfasıdır) ağıya "oy" deyirlər. Vaxtilə Dağıstanda işləmiş Almas İldırım da qəlbi göynəyəndə şeirində "Azərbaycan oy" deyir. Aşıq Sakit Şəmşirin ölümü münasibətilə kədərlənəndə varlığından "oy" sızıltısı keçir. O yazır:

*Bahar çağı bu nə haldı, Murovda,*
*Gül fəslini boran aldı Murovda,*
*Dərilməmiş həşəm oldu Murov da,*
*Neçə-neçə çiçəyim oy, gülüm oy!*

Aşıq Şəmşir öz müasirlərindən hansı üstün keyfiyyətlərinə görə fərqlənirdi? O, sənətdəki çəkini, nüfuzu hansı hərəkətləri, hansı davranışları ilə qazanmışdır? Bax, bunları biz bir-bir izah etdikdə onun sənətkar ucalığı meydana çıxacaqdır.

a) Aşıq Şəmşir bədahətən söz demək qabiliyyətinə malik idi. Onun bu yüksək istedad

sahibi olduğunu görən şair Bəhmən Vətənoğlu deyir:

*Aşıq doğulmuşdu, aşıq olmuşdur,*
*Aşıq yaranmışdı binadan Şəmşir.*
*Şair yaranmışdı, şair olmuşdu,*
*Şair doğulmuşdu anadan Şəmşir.*

b) Şəmşir dastanlarımıza, aşıq şeirlərinə, saz havalarına və onların söylənməsinə və ifasına dərindən bələd idi. Aşıq Şəmşir hansı saz havasını çalırdısa, oxumaq üçün ona uyğun mətn seçmək bacarığına malik idi. Şəmşirə görə şeir, pərdədə, musiqi saz kökündə özünü göstərir və birləşərək könüllərə yatan yeni mahnı meydana çıxır, yaddaqalan, könüllərə axan bir melodiya yaradır.

v) Məlumdur ki, sinkretik aşıq sənətinin işlək mühərriki improvizasiyadır. Hər bir aşığın fərdi improvizasiyaları vardır. Hətta o improvizasiya hər havanı ifa etdikdə dəyişə bilir. İmprovizasiyanı aşığın gərdişi, tərzi-hərəkəti, əllərinin pərdələr üstə gəzişməsi və oxuma üslubu tamamlayır. Sinkretik aşıq sənətinin arsenalında aşıq ifaçılığı üçün zəruri olan ünsürlər vardır. Bu ünsürlər aşağıdakılardan ibarətdir:

1. Səs – avaz
2. Saz – musiqi

3. Şeir – mahnı
4. Aktyorluq və natiqlik
5. Rəqs, ritm
6. Diringi  və s.-dən ibarətdir.

Professor Bülbül qeyd edir ki, ifa zamanı beş ünsürlə yanaşı nəqarət və diringilərin də özünəməxsus rolu vardır.

Bu sinkretik sənəti təkmilləşdirən və inkişaf etdirən improvizasiyadır.

Ladlar muğamın kökləridir, buna aşıq sənətində sazın kökləri deyilir. Aşıq sənətinin varlığı improvizasiyadır. Hər bir aşıq improvizator olduğu üçün ifa zamanı sazın əsas ahəngi qalmaqla, saz havasını bənzərsiz edir, yəni aşıq hər bir havaya yeni çalarlar əlavə edir və yaxud da havanın bitkin formasını ifa zamanı yoxsullaşdırır. Şərti olaraq sinkretik aşıq sənətini strategiya hesab etsək, improvizasiya onun tez-tez dəyişən taktikasıdır. Bu strategiyanın areanalından taktiki gedişlər edən hər bir improvizator aşıq öz istedad və qabiliyyətinə görə istifadə edir. Bax, sinkretik aşıq sənətinin sirli-sehirli, tədqiqata möhtac  nöqtəsi buradadır.

Sinkretik aşıq sənətinin döyüşən ürəyi improvizasiyadır. Aşığı aşıqdan fərqləndirən məlahətli səsidir və bir də oxumaqla, çalmaqla bağlı onun improvizasiyasıdır.

İmprovizasiya  sinkretik aşıq sənətinin işlək və dəyişkən mühərrikidir.

Hər bir saz havasının kökü bir muğama bağlıdır. Muğamlarla saz havasını bənzərsiz şəklə gətirən sazın kök və pərdələri, onun özünə məxsus ahəng qanunudur.

Tarixən muğam öz yolu ilə, aşıq sənəti də öz yolu ilə inkişaflarını davam etdirirlər. Muğamın 7 əsas ladı (kökü) olduğu kimi, sazın da 6 musiqi kökü vardır. Muğamın "Rast", "Şur", "Segah", "Şüştər", "Cahargah", "Bayatı-Şiraz", "Hümayun" ladları vardır.

Aşıq musiqisinin də 6 musiqi kökü vardır. 1.Şah pərdə kökü, 2. Şah pərdənin Misri kökü, 3.Çoban bayatısı kökü, 4. Ayaq divani kökü, 5. Urfani kökü, 6. Dilqəmi kökü.

Ü.Hacıbəyov muğam ladlarının və saz musiqi köklərinin məzmununu açmaq üçün gərəkli açar vermişdir. O yazır: "Rast" dinləyicidə mərdlik və gümrahlıq hissi, "Şur" şən, lirik əhvali-ruhiyyə, "Segah" məhəbbət hissi, "Şüştər" dərin kədər, "Cahargah" həyəcan və ehtiras, "Humayun" isə "Şüştər"ə nisbətən daha dərin kədər hissi oyadır".

Aşıq Şəmşir saza, sazın kök və pərdələrinə bələd olmaqla məlahətli səsə, oxumağa, saz havalarını ifa etməyə, aktyorluqdan və natiqlikdən ifaçılığında tam istifadə etmişdir. Aşıq

Şəmşir rəqs ünsüründən və diringidən istifadə etməmiş, məclisdə oynamamış, öz ağırlığını və çəkisini saxlamışdır. O, məclislərdə özünü Dədə Qorqud timsallı bir sənətkar kimi aparmışdır.

q) Aşıq Şəmşir heç bir elə, elata aşıqlıq etməyə getməmişdir. Onu Gəncəbasara, Qarabağ ellərinə toylara, məclislərə, şənliklərə çağırıb aparmışlar. Aşıq Şəmşir gedən mahalda yaxına, uzağa səs yayılmışdır ki, bu məclisə Aşıq Şəmşiri çağırıb gətirmişlər. Hamı o məclisə can atmışdır. Şəmşirin sözlərinə qulaq asmaq istəmişdir. Aşıq Şəmşir bu nüfuzu, hörməti ulu babası Miskin Abdalda, atası Ağdabanlı Qurbanda görmüş, qazanılmış ənənələri və ləyaqəti ömür boyu qorumuşdur. Ulu babası Miskin Abdal demişdir:

*Həqiqət yolunda budur nəsyətim,*
*Sözünü bilməyib deyəndən gen gəz.*
*Bilməz zərin, zər-zibanın qiymətin,*
*Sonradan tapıban geyəndən gen gəz.*

*Bir oğru, bir əyri olmaya eldə,*
*Danışıb dastanda, deyərlər dildə.*
*Xain əmanəti saxlamaz əldə,*
*Başını töhmətdə qoyandan gen gəz.*

*Abdal deyir: bu sözləri ədəbdə,*
*Gözüm qaldı gərdən bağı sədəfdə,*
*Mən də gedim qalam Şahı-Nəcəfdə,*
*Xörəyin bilməyib yeyəndən gen gəz.*

Aşıq Şəmşir də babasının nəsihətinə qulaq asıb ömrü boyu "Sözünü bilməyib deyəndən" gen gəzmişdir.

Aşıq Şəmşirin ulu babası Miskin Abdal, atası Ağdabanlı Qurban və özü savada, elmə, biliyə yüksək qiymət vermişlər. Aşıq Şəmşir ərəb əlifbası, latın və kiril əlifbaları ilə yazıb oxumağı bacarırdı. "Kitab oxumayan, məna duymayan" sənətkarın kamil bir sənətkar olmağına Aşıq Şəmşir inanmırdı. O, bu münasibətlə yazırdı:

*Uçmaz o qala ki, onun divarı,*
*Saxsı, kərpic olsun, daş olsun gərək.*
*Deyilən hər sözü saxlaya barı,*
*Bir kəsdə beyinli baş olsun gərək.*

*Dərin fikir yükdü bisavadlara,*
*Yazısız dastanlar gələmməz kara,*
*Alınmaz mətahı çəkmə bazara,*
*Üzükdə mirvari qaş olsun gərək*

*Əməyə, sənətə, elmə uymayan,*
*Övladına təməl daşı qoymayan,*
*Kitab oxumayan, məna duymayan,*
*Ağlasın gözləri, yaş olsun gərək.*[1]

Aşıq Şəmşir ağır məclislərdə, dastan gecələrində meydana daxil olarkən "Divani" saz havası çalıb ona uyğun mətn seçərdi və Allahı, peyğəmbəri yad edən nəsihətamiz bir divani şeiri oxuyardı. İkinci "Təcnis" havası çalıb cinasları məna dərinliyi ilə dolu bir təcnis mətni seçib oxuyardı. O, bununla öz sənətkarlığını bir daha nümayiş etdirərdi. Təcnis havası çalmaq, ona uyğun dərin mənalı mətn seçib oxumaq hər aşığa müyəssər olan bir şey deyildir. Tarixən aşıqları təcnislə və qıfılbəndlə imtahana çəkmişlər. Xəstə Qasım deyir:

*Xəstə Qasım sözün yetdi tamama,*
*Gündoğan, günbatan gəlsin salama,*
*Nə alim işidi, nə də üləma,*
*Təcnis mənasının çox hünəri var.*

Üçüncüdə "El havası" oxuyardı. "El havası" insanda gümrahlıq yaradır. İnsanın ruhu dağları,

---

[1] Aşıq Şəmşir. "O Kürün, Arazın Tərtəriyəm mən". Bakı 2004, səh 157

çəmənləri gəzir, yaylaqlara qalxan köçü göz-önünə gətirir. Bu havaya "Qaraçı" da deyilir. Çoxları bu havanı Qaraca çobanla, qaraçı tayfası ilə bağlayırlar. Məlumdur ki, bu hava "Alıxan qaytarmasıdır". "Alıxan və Pərixanım" dastanındakı bütün qoşmalar bu hava üstündə köklənmişdir. Alıxan itirdiyi Pəri xanımı və iki oğlunu axtararkən bu haylı-haraylı, qışqırıqlı saz havası üstündə yaratdığı qoşmaları oxuyur və ellərə çatdırırdı. Bu havaya "Qaraçı" adının verilməsini Aşıq Şəmşir belə izah edirdi: "Müəllim sən bilirsən ki, o biri havalar ya Şah pərdədən yuxarıda, ya da Şah pərdədən aşağıda çalınır. Aşıq əllərini Şah pərdədən yuxarı və aşağı pərdələr üzərində gəzdirir. "El havası" yeganə havadır ki, o çalınarkən ayaqdan başa, başdan ayağa bütün pərdələr üzərində aşıq gəzişmələr aparır. Yəni "Qaraçı" kimi aşığın barmaqları bütün pərdələrdə qapı-qapı gəzir. Bu səbəbdən də bu havaya "Qaraçı" deyilir, yəni hər pərdədən – qapıdan bir şey götürüb xallara, güllərə əlavələr edir. Bütün pərdələrdə çalındığı üçün "El havası" bu qədər zəngindir.

Aşıq Şəmşir deyirdi ki, "Səməndəri" saz havaları içərisində yanıltmacdır. Bu saz havası "Misri" saz havasından ayrılmışdır. Bu saz havasını Aşıq Əsəd yaratmışdır. Hər saz

havasının öz tarixi vardır. Mən yarım əsrdə yüz saz havasını öyrənib üzə çıxarmağa çalışmışam.

Məlumdur ki, sazın sinəsində üç səs qatarı vardır. Bu səs qatarlarının üç nöqtəsində, üç məhsuldar pərdəsində saz havaları yaradılır. Birinci məhsuldar pərdə "Baş divani" pərdəsisidr. Bu pərdədə pəsdən oxunan qəmli havalar yaradılır. İkinci məhsuldar pərdə ondan aşağıda sazın mərkəzindəki "Şah pərdə"dir. Burada bəmdən oxunan sevinc havaları yaradılır. Üçüncü məhsuldar pərdə "Ayaq pərdə"dir. Orada cəngi havaları mübarizə havaları yaradılır. Bu yaradılan havalara uyğun olaraq söz mətnləri seçilir. Saz ahənginə və motivinə uyğun mətnlərin düzgün seçilməsi əsas şərtdir və bu ifaçı-aşıqdan səriştəlilik tələb edir. Fikrimizi aydınlaşdırmaq üçün iki saz havasını pərdələrlə bağlı şəkildə izah edəcəyik. O zaman əyani olaraq hər kəsə aydın olacaqdır ki, havaların qəmli, sevincli və mübariz ruhda yaranmasının özü bir-birilə çox əlaqəlidir. Saza bələd adam onun kök və pərdələrini mükəmməl bilən bu məhsuldar pərdənin qanunauyğunluqlarını nəzərə alaraq bir yox, üç havanı əlaqəli şəkildə yarada bilər. El arasında "Sarıtel" saz havalarının yaranması ilə əlaqədar gözəl bir rəvayət yaşayır. Bir-birini sevən gənc oğlan və qız sözləşib bir dağın müəyyən yerində görüşməyi qərara alırlar.

Oğlan dağın bir tərəfindən, qız da dağın bir tərəfindən gəlir. Bu zaman araya duman, çən düşür. Oğlan qızı itirir. Leyli olan sevgilisini Məcnun kimi dəlicəsinə axtarır. Dağlara qəmli bir ün salır. Bu səsdən baş pərdədə həsrətlə, ayrılıqla bağlı qəmli "Baş sarıtel" havası yaranır.

Birdən-birə külək əsir, dumanı, çəni dağıdır, günlü yağış yağır. Qız qənşəridə görünür, yağışdan islanmış tellərini qız barmaqlarını daraq edib üzündən kənara çəkir. Elə bil bulud altından ay çıxır. Qız əlində bir dəstə nərgiz oğlana tərəf qaçır. Oğlan qəşş edir. – "Ay qız, a sarıtel, ay qız qadan alım, ay qız qadan alım" deyə-deyə qeyri-ixtiyari qızı bağrına basır. Bundan sonra orta pərdədə sevinclə dolu "Orta Sarıtel" havası yaranır.

Hər bir saz havasında müəyyən tarix qəmlə, sevinclə və qəhrəmanlıqla əlaqədar həyat macəraları yaşayır. Məsələn: sazdakı "Divani" saz havaları Çaldıran müharibəsi ilə əlaqədar yaranmışdır. Bu müharibədə Səfəvilər məğlub olduğu üçün onların sənətkarları saz-larında "Baş pərdə" də qəmli hava yaratmışlar. "Baş divani" havası həmin günlərdə yaran-mışdır. Həmin saz havasının ikinci adı "Şərxətai" (yəqin ki "Şah Xətai"), üçüncü adı "Məclis divanisi"dir. O dövrdə yaranan ikinci

saz havası qarşıdakına meydan oxuyan “Ayaq divanı” saz havasıdır. Onun ikinci adı “Osmanlı divanisi”, üçüncü adı isə “Meydan divanisi”dir. Görürsünüzmü, Çaldıran müharibəsini ruhuna uyğun olaraq Səfəvilər “Baş pərdə” yəni qəm pərdəsində pəsdən oxunan Şah Xətai havasını çalıb oxuyur. Osmanlılar isə ayaq, mübarizə pərdəsində meydan havaları, yəni meydan oxunan mahnılar çalıb oxuyurlar. O günlərdə qəmli “Baş divani” mübarizəni bildirən “Ayaq divani” havaları yaradılır və səsləndirilir. Lakin bunların arasında “Şah pərdə”də şadlıq əhval-ruhiyyəsi yaradan “Orta divani” yaradılmır. Çünki qalib gələn tərəflə məğlub olan tərəf bu müharibədən razı deyillər. Hər iki tərəfin sinəsində bu müharibə yara şırımı açmışdır. O vaxtdan Çaldıran müharibəsindən (1514) bu günə qədər hər iki tərəfdə peşmançılıq hissi öz yaşamını itirməmişdir. O vaxtdan bəri şadlıq bildirən “Orta divani” saz havasını yaratmağa belə təşəbbüs göstərən olmamışdır.

Hər səsdə, hər musiqi havasında bir sənətkarın, bir zamanın tarixi yaşayır. Bu abidələrin yaranmasında heca vəznli şeir, onu tənzimləyən saz, neçə-neçə sənətkarın nəfəsi rol oynamışdır.

Aşıq Şəmşirlə bizim aramızda saz havaları və aşıq ifaçılığı ilə muğamın əlaqəsi barədə həmişə söhbətimiz ardıcıl olaraq davam edirdi. Azərbaycan xalq musiqisi vahid bir qaynaq olub, iki əsas qola ayrılır: Saz havaları və muğamlar. Əgər birincilər sazla bağlıdırsa, ikincilər tarla bağlıdır. Öz növbəsində bunlar da daxili yarımadlara bölünür. Saz havaları mahnı və rəqsə, muğamlar isə rəng, təsnif və xalis muğamlara (vəznsiz musiqiyə) ayrılır. Deməli, bu saz havalarında muğam, muğamlarda saz havaları ünsürləri və hissləri axtarmaqda səhv etmirik.

Xalqımız arasında çox yayılmış iki məşhur muğamın, yəni "Segah" və "Şur"un saz havaları ilə əlaqəsi inkaredilməz faktdır. Uzun müddətlik müşahidələrimizə və mütəxəssislərlə əlaqəli tədqiqlərimizə əsasən deyə bilərik ki, Qərb zonasında "Segah"a, Şərq zonasında isə "Şur"a meyl daha güclüdür.

Muğamın və aşıq sənətinin beşiyi olan Azərbaycan dünya incəsənətinə böyük töhfələr vermişdir. Bu bir həqiqətdir ki, ozan-aşıq sənəti yurdumuzda çox əvvəl inkişaf tapmış, formalaşmış və böyük inkişaf yolu keçmişdir. Azərbaycan muğamı ümumilikdə şərq muğamından fərqli olaraq özünəməxsus ənənələrə,

yaradıcılıq yollarına söykənərək qəribə bir üsulla yaranmışdır. Xalqımız İslam dinini qəbul etdikdən sonra dini ayələrə və ayinlərə tapınmağa, icra etməyə məruz qalmışdır. Quranın 114 surəsi muğam avazı ilə oxunmuşdur. Nohələr, rozələr, yırlar, əzanlar muğam üstündə sədalanmışdır. Azərbaycan muğamı ona görə bənzərsizdir ki, o, bir tərəfdən dini musiqiyə əsaslandığı kimi, o biri tərəfdən aşıq musiqisinə, aşıq sənətinə söykənərək inkişaf etmişdir. Azərbaycan şeir mətnləri, onun bölgüləri, ahəng qanunu və digər özünəməxsus cəhətləri bu dilin rəngarəng çalarları Azərbaycan muğamına çox şeyi bəxş etmişdir. Muğam öz yolu ilə, aşıq sənəti öz yolu ilə inkişaf etdiyi bir halda, bəstəkarlarımız hər iki qaynaqdan, muğam və aşıq sənəti qaynaqlarından yaradıcı şəkildə faydalanaraq ölməz operalar, baletlər, simfoniyalar yaratmışlar. Böyük bəstəkarımız Üzeyir Hacıbəyov, dünyaşöhrətli müğənnimiz Bülbül, eləcə də böyük yaradıcılıq yolu keçmiş Qara Qarayev, Fikrət Əmirov və başqaları muğam və aşıq sənətinə dərindən bələd olmuşlar. Daha doğrusu, bu dünya şöhrətli sənətkarlarımız uşaqlıqdan muğam və aşıq sənəti mühitində yetişmişlər.

Elin adət və ənənələrini, toy mərasimlərini gözəl bildiyi üçün Aşıq Şəmşir bəzən sənətin bayağılaşdırıldığına irad tuturdu. O deyirdi ki, gəlin aparılarkən "Vağzalı" havası çalınırdı. Kimsə bu havanı ya vağzalda çalıb, ya da bilərəkdən, bilməyərəkdən onu "Vağzalı" adlandırıb. Tarixən bu havanın adı "Atlandırma" və "Gəlin apardı" havası adlanıb.

Aşıq Şəmşirin şair-aşıqlığı ilə yanaşı onun aşıq sənətkarlığı haqqında görüşlərini öyrənmək aşıq yaradıcılığının kökünü, şaxələrini, budaqlarını öyrənmək deməkdir. Axı, aşıq sənəti muğamdan da əvvəl yaranmış, milli kökümüzə bağlı, milli zəmində inkişaf etmiş bir yaradıcılıqdır. Bunları Aşıq Şəmşir kimi ustad görmüş, təhsil görmüş sənətkarlar öz ifalarında, repertuarlarında qoruyub saxlamış, bizim günlərə gətirib çıxarmışdır. Saz havalarından danışarkən Borçalıda saz havasına qayda, Göyçədə və Gəncəbasarda saz havası, Güney Azərbaycanda isə ahəng deyilir. XVIII əsrin sənət abidəsi olan "Şəhriyar" dastanında saz havasının adı qayda kimi qeyd olunur. Saz havalarının tərcümeyi-halını öyrənərkən ustad sənətkarların repertuarına bələd olmaqla yanaşı, yazılı məxəzlərə də baş vurmaq lazımdır.

Əgər o, Aşıq Şəmşir hər hansı məhəbbət dastanını söyləyirdisə əvvəl dastanın məzmunu ilə səsləşən üç ustadnamə deyirdi. Dastanın sonunda bir duvaqqapma-müxəmməs çalıb oxuyurdu.

Əgər qəhrəmanlıq dastanı danışırdısa əvvəl Nizaminin əsərlərinin əvvəlində verdiyi minacatla səsləşən Qurbanidən, Tufarqanlı Abbasdan, Xəstə Qasımdan və digər ustadlardan aşıq məsaili söyləyirdi və yaxud da bunun əvəzində bir vücudnaməni dilə gətirirdi. Vücudnamə əzəl-axırdır. Vücudnamədə qəhrəmanın bir yaşından yüz yaşına qədər keçirdiyi psixoloji halları, fiziki və əqli inkişafı, özündə əks etdirir. Burada az qala şeir bəndlərinin sayı yüzə çatır. Aşıqlar buna "Sicillımə"də deyirlər. Dastanın sonunda cahannamələr veri-lir. "Cahannamə"lərdə bu qəhrəman kimi neçə-neçə qəhrəmanın gəlib getdiyi adbaad sadalanır. Çox aşıq məsaili, "Vücudnamə"ni, "Cahannamə"ni və başqa şeir janrlarını bir-birindən fərqləndirməyi bacarmır. Lakin Aşıq Şəmşir bunları bir-birindən seçməyi və fərqləndirməyi öz ağlı ilə, fəhmi ilə bacarırdı. Əgər məclisdə "Əsli-Kərəm" kimi sonu faciə ilə bitən bir dastan danışırdısa onu məclisin əhval-ruhiyyəsinə uyğun bir şəkildə tamamlayırdı.

Dastandan doğan kədəri bir an içində müəyyən kəlamlarla dinləyicilərin üzərindən götürürdü. Aşıq Şəmşir sözün əsl mənasında xalqımızın xarakterini duyub dərk edən bir psixoloq idi. Aşıq Şəmşir yaradıcılığını, onun şəxsiyyətini, sənətdəki mövqeyini araşdırmaq üçün Aşıq Şəmşir irsinə müxtəlif mövqedən yanaşılmalıdır.

Ümumiyyətlə, Aşıq Şəmşirin dərya-dəniz qədər zəngin yaradıcılığını, ədəbi irsini, poetik və melodik sisteminin öyrənilib tam mənimsənilməsi üçün neçə-neçə namizədlik və doktorluq dissertasiyaları yazılmalıdır. Miskin Abdal səcərəsinin, o cümlədən Şəmşir yaradıcılığının öyrənilməsi, Azərbaycan aşıq yaradıcılığının 500 illik tarixini öyrənmək deməkdir.

Aşıq Şəmşir xoşbəxt sənətkardır. Ona görə ki, ömür boyu ağzından çıxan şeiri dərhal yayılmış, kütləviləşmiş və aşıqların repertuarında özünə yer almışdır. Şəmşir poeziyası həsas ürəklərə tez yol tapan, musiqiyə bağlı poeziyadır. Azərbaycanda elə bir aşıq tapmaq mümkün deyildir ki, onun repertuarında Aşıq Şəmşirin poeziyasından örnəklər olmamış olsun. Onun adı Güney və Quzey Azərbaycanda çox məşhurdur. Arazın o tayında və bu tayında elə bir toy məclisi olmaz ki, aşıqlar,

xanəndələr və müğənnilər orada Aşıq Şəmşirin Səməd Vurğunla deyişməsini, "Vədəsində" qoşmasını, "Niyə məndən gen gəzirsən", "Gül, ay qızım, mən qocaya bir də gül" mahnılarını oxumasınlar. Aşıq Şəmşirin poeziyası və musiqisi o taylı, bu taylı Azərbaycanda geniş yayılmışdır. Türk aşıqlarından Murad Çobanoğlu, Şərif Daşdıoba, Əmrah və Reyhani Aşıq Şəmşir şeirlərini Ərzurumda və Kars yörələrində qismən yaymışlar. Biz Aşıq Şəmşirin poetik aləminə səyahət adlı elmi monoqrafiyamızı əski ərəb əlifbası ilə Təbrizdə, türk ləhcəsi ilə Türkiyədə nəşr etdirəcəyik.

Aşıq Şəmşirin şeir, musiqi müsabiqələrini və festivallarını keçirərkən təkcə Güney və Quzey Azərbaycanın aşıqlarını deyil, Türkiyə, Qazaxıstan və Orta Asiya, Dağıstan aşıqlarını da dəvət etmək lazımdır. Əlbəttə, gənc aşıqları Aşıq Şəmşirin ədəbi və musiqi irsini türk xalqları arasında geniş yaymaq və kütləviləşdirmək lazımdır. Aşıq Şəmşir türk dünyasında ortaya çıxarılmalı, öyrənilməli, yayılmalı püxtə, yetgin və azman sənətkardır. Bu xalqımıza yalnız və yalnız şöhrət gətirər.



***Aşıq Şəmşir və Sədnik Paşa Pirsultanlı***

## *SONUÇ*

Sön söz xəyalıma bir nəticə kimi yox, böyük bədii əsərin epiloqu kimi gəldi. Xəyalımda göyün qübbəsi yarıldı, buludlar arasından günəşin qızılı saçaqları ətrafa yayıldı, sanki qızılı rəngdə parça topasının açılıb yerə tökülən parçanın bir ucu az qala yerə çatmışdı. Qabaqdan iki nurani kişi mənə tərəf gəlirdi. Bunları nişanələrindən tanıdım. – Siz başınızdakı cıq-qaya görə Şah İsmayıl Xətaisiniz, bu isə XVI əsrdəki məsləkdaşınız Miskin Abdaldır. İkisi də heyrət içində: - Siz bizi haradan tanıyırsınız?

- Mən Sizi o vaxtdan tanıyıram ki, Araz sahilini seyr edərkən qızıl dəstəkli qamçınız əlinizdən Araza düşdü. Siz kövrəldiniz, dediniz ki, bu mötəbər bir sənətkardan yadigardır. Miskin Abdal bildirdi ki, bizdən bir qədər aralı, Arazdakı Sandal ağacı Sizin qamçınızı tutub saxlayır. Atı qoşa sürdünüz, Miskin Abdal atdan düşmədi, əyilib Sandal ağacına dolanmış qızıl dəstəkli qamçını götürüb Sizə verdi. Siz Miskin Abdalın çox möcüzələrini görmüşdünüz. Lakin bu möcüzə Sizi bir-birinizə ömürlük bağladı. Çaldıran müharibəsinə bir getdiniz. Sizin tarixdə ən böyük xidmətiniz o oldu ki, XVI əsrdə yazılı poeziya ilə aşıq poeziyasını bir məcrada birləşdirdiniz. Sizin bu tarixi xidmətiniz yazılı və

şifahi poeziyada milli heca vəznli şeirin inkişafına rəvac verdi. O vaxtdan bəri yazılı poeziya ilə şifahi poeziya bir-birinə təsir edə-edə qol-budaq atır. Yeni-yeni şeir formalarının və şəkillərinin meydana çıxmasına, cilalanmasına, inkişafına təkan verir. Göyçədəki, Kəlbəcərdəki və Gədəbəydəki aşıq yaradıcılığının inkişaf dalğası Siz Miskin Abdalın adı ilə bağlıdır. XIX əsrdə Göyçənin Sarıyaqub kəndində Miskin Abdal məktəbinin açılması Göyçədə və Kəlbəcərdə savadlı, təhsil görmüş sənətkarlar yetişdirdi. Miskin Abdalın nəsil səcərəsinə daxil olan şair-aşıq Ağdabanlı Qurban bu məktəbin ilk məzunlarındandır.

1966-cı ildə Göyçənin Sarıyaqub kəndinə getdim. Axı, bu kənd də Miskin ocağının qoruyucuları mənim qohumlarımdır. Övladlarıma döşündən süd vermiş ana bu ocaqdandır. 1966-cı ildə ocağın mücövrü Əsmətel xanımın sandığından Şah İsmayıl Xətainin Miskin Abdala öz imzası və möhürü ilə təsdiq edilmiş şəhadətnaməni tapdım. Fotosürətini çıxartdım, bu barədə elm aləminə xəbər verdim. "Ağdabanlı Qurban və müasirləri" adlı dissertasiyama daxil edib, 1970-ci ildə namizədlik dissertasiyamı müdafiə etdim.

Ey böyük insanlar, məni bir məsələ də düşündürür, rahat buraxmır. Siz Xətai, bir çox

təxəllüslərlə şeir yazmısınız. Onlardan biri də Miskin Xətaidir. Bu təxəllüs bir məsələ ilə əlaqədar məni bərk düşündürmüş və axtarışlar aparmağa vadar etmişdir. Bəlkə sizin bir tərəfiniz Miskin nəslindəndir. Mən bunu ona əsasən deyirəm ki, Şirvanı pərən-pərən salan, Aran elatını və Gəncə əhalisinin bir qismini dağlara dırmaşdıran, evindən-eşiyindən ayrı salan, Miskin kəndlərinin bərqərar olduğunu və yaşam tərzini bərpa etdiyini görən Nadir şah demişdir: - Miskinlidir, məskunludur, pis günlüdür.

Xalq arasında Nadir şahın ünvanına söylənilən bu rəvayət mənim ehtimalımı həqiqətə yaxınlaşdırır ki, Nadir şah adi xalq kütləsinə belə qəzəbli ola bilməzdi. Görünür o miskinliləri Sizin soydan hesab etmişdir.

Üzü dağlara tərəf iki pirani və nurani insan gedirdi. Şah İsmayıl soruşdu: - Onlar kimdi?

- Biri Miskin Abdalın XX əsrdə yetişmiş varisi Aşıq Şəmşirdi, o biri isə Aşıq Şəmşirlə görüşmüş, deyişmiş, qabaq-qabağa söz demiş böyük şair və hökmdar Səməd Vurğundur. Biz Səməd Vurğunun şair olduğunu bilirdik, hökmdar olduğunu sizdən eşidirik. Bəli, Səməd Vurğun XX əsr Azərbaycan poeziyasının hökmdarıdır. XVI əsrdən XX əsrə qədər Miskin Abdalın nəsil səcərəsindən çox sayda böyük aşıq-şairlər yetişmişdir. Lakin bunların heç biri

Aşıq Şəmşir kimi sənətin fövqünə qalxa bilməmişdir. Aşıq Şəmşir Miskin Abdalın əsl varisidir. Aşıq Şəmşirin böyüklüyünə bax ki, Səməd Vurğun kimi nəhəng bir sənətkarla qabaq-qabağa söz demək qabiliyyətinə malik olmuşdur. XVI əsrdə Şah İsmayıl Xətai ilə Miskin Abdalın həyata keçirdikləri tarixi missiyanı, XX əsrdə Səməd Vurğun və Aşıq Şəmşir təkrar həyata keçirmişlər. İndi yazılı poeziyada və Aşıq poeziyasında Səməd Vurğun və Aşıq Şəmşir ənənəsi özünə köklü yer almışdır. Milli heca vəznli şeirimiz onların timsalında ən yüksək inkişaf mərhələsinə çatmışdır.

Səməd Vurğun və Aşıq Şəmşir üzü dağlara tərəf qoşa gedirdilər. Aşıq Şəmşir Dəli dağa çatıb dağa çevrildi. Səməd Vurğun ağ saçlı Qoşqara çatıb dağa çevrildi. Bir an sonra dağlar dağ görkəmi aldı. Səməd Vurğunun ruhu Qoşqarın zirvəsindəki buludda özünə yer aldı. Aşıq Şəmşirin də ruhu Dəlidağın zirvəsindəki buluda qalxdı. Onların ruhu buludların arasında gülümsəyərək bir-birinə baxırdı. Şah İsmayıl Xətainin və Miskin Abdalın nəzər-diqqətləri ağ buludlarda idi.

Duyğularım sinəmdə baş qaldırır, köksüm qalxıb-enir, zehnim-şüurum bir mətləb üzərində dövr edir. Deyirəm elə bir rəssam olaydı ki, bu mənzərənin canlı şəkildə öz fırçası ilə rəsmini

çəkəydi, elə bir heykəltəraş olaydı ki, qranit daşdan əbədiyaşar heykəllər yonaydı. Elə bir ssenari yazan, rejissor olaydı ki, mənim gördüyüm səhnəni filmə gətirəydi. Bax, onda sübut edərdik ki, Şah İsmayıl Xətainin və Miskin Abdalın qovuşduqları XVI əsrdə yazılı poeziya və aşıq poeziyası 500 illik bir dövrdə Aşıq Şəmşirin varisi olduğu Miskin Abdal poeziyasının XX əsrə qədərki dövrü gözönündə canlı səhnədə, filmdə obrazlı şəkildə türk dünyasına, hətta başqa xalqlara da əyani şəkildə göstəriləydi. O zaman Azərbaycan yazılı poeziyasının, aşıq poeziyasının nələrə qadir olduğunu əyani şəkildə nümayiş etdirilərdi. Bu adını çəkdiyimiz sənətkarlar sənətin böyüklüyünü öz dövrlərində görüb qiymətləndirmişlər. Miskin Abdal yazırdı:

*İqlimin şahıydı Həzrət Süleyman,*
*Ədalətə pənah idi Nuşrəvan.*
*Şıx oğlu İsmayıl - o cənnət məkan,*
*Düşməz ələ, o bir yadigardı getdi.*[1]

[1] Şeir 1968-ci ildə şair Cavad Bayram oğlu Hüseynovdan yazılmışdır.

Sözün qədir-qiymətini bilən söz sərrafı Səməd Vurğun deyirdi:

*Dünyada qalacaq yalnız yaradan.*

Aşıq Şəmşir də tarixdə təkrar olunmaz bir sənətkar olduğunu duyurdu və özü-özünü qiymətləndirirdi:

*Şəmşiri yaradan bir yol yaratdı,*
*Birdəmi təzədən yaradar indi.*

Sözünün və sazının səsi dirək-dirək göyə qalxan Şah İsmayıl Xətai aşıq-şairin qarşısında duran tarixi vəzifəni belə anladır.

*Bu gün ələ almaz oldum mən sazım,*
*Ərşə dirək-dirək çıxar avazım,*
*Dörd şey vardır bir qarındaşa lazım,*
*Bir elim, bir kəlam, bir nəfəs, bir söz.*[1]

Doğrudan da, Aşıq Şəmşir Miskin Abdalın varisi kimi saz-söz sənətini və onun sirlərini dərindən öyrənmişdir. XVI əsrdə Dirili Qurbani, Miskin Abdal Şah İsmayıl Xətainin şərəfinə qoşmalar yazıb, saz havaları bəstələyib, aşıq

[1] Şah İsmayıl Xətai. Əsərləri. II cilddə. Ikinci cild. Bakı 1976. səh 9

poeziyasını yeni şeirlərlə, musiqi bəstələriylə zənginləşdirdikləri kimi, XX əsrdə bu missiyanı Aşıq Şəmşir Miskin Abdalın varisi kimi öz üzərinə götürmüş, bir-birindən qiymətli saz havaları bəstələmişdir. XVI əsrdən başlayaraq Miskin Abdalın nəsil səcərəsi, aşıq poeziyasını və musiqisini XX əsrə qədər davam etdirmiş, XX əsrdə Aşıq Şəmşirin timsalında öz yüksək mərhələsinə çatmışdır. Bu nəsil səcərəsinin XVI əsrlə XX əsrə qədərki dövrü araşdırmaqla yazılı poeziya ilə aşıq poeziyası arasındakı əlaqəni, aşıq yaradıcılığının ümumi inkişaf xəttini tam araşdırıb ortaya qoymaq olar. Bu dövrdə yaranan aşıq poeziyası böyük bir xəzinədir. Şah İsmayıl və Miskin Abdal yazılı poeziya ilə aşıq poeziyasını bir-birinə qovuşduraraq onların sintezini yaratdılar. Bu sintez nəticəsində yazılı və şifahi poeziyada şeirin neçə-neçə növü və şəkli boy verdi, tağ atdı, şaxələndi. Aşıq Şəmşirin ulu babası Miskin Abdalla başlayan ədəbi irsin topladığı söz xəzinəsini araşdırdıqda oradan saysız-hesabsız söz inciləri, musiqi bəstələri tapıb üzə çıxarmaq və xalqın ixtiyarına vermək, mənəvi dünyasını zənginləşdirmək olar. Biz bu elmi monoqrafiyanı "Aşıq Şəmşirin poetik aləminə səyahət" adlandırmışıq. Yəqin ki, aşıq musiqisinin tədqiqatçıları ikinci monoqrafiyanı yazarkən onu "Aşıq Şəmşirin

melodik aləminə səyahət" adlandıracaqlar. Aşıq Şəmşirin poetik aləmi qədər də zəngin melodik aləmi vardır. Deməli, Aşıq Şəmşir aşıq yaradıcılığını təkcə poetik cəhətdən deyil, melodik cəhətdən də inkişaf etdirmişdir. Aşıq Şəmşir aşıq poeziyasına və musiqisinə bağlı qoşa qanadlı sənətkardır.

## *TARİXİ NAXIŞLAR:*

## *GÖZƏL XATİRƏLƏR VƏ YADİGAR SÖZLƏR*

# *QURBAN-ŞƏMŞİR OCAĞI VƏ SƏDNİK PAŞA*

Sədnik müəllimin Dədə Şəmşir haqqında yazılarını oxudum, xoşum gəldi: Bəzi xırda mülahizələrimi, elə əsəri oxuya-oxuya, qeyd etdim! Tənqidçi deyiləm, nə də yerli-yersiz danışıb adamların zəhləsini tökən səslə, özünü gözə soxmaq üçün nəyisə uyduracaq səs çıxarmaqla xoşum yoxdur!

Amma Sədnik haqqında bir qədər danışmağı qərara aldım. Sədnikin yazılarında özünün yada saldığı olaylardan çox kiçiklərini yada salmaq istərdim.

1961-ci ilin xoş günlərindən birində Kəlbəcərdən öz kəndimizə gəlirdim. Rayon mərkəzindən bizim kəndə 40 km məsafə vardır. Bu yolun 33 km-ni maşınla, 7 km-ni isə – ayaqla piyada getməli idim. Kəndin

yolu şosse yolunun kənarında yerləşən Çərəkdar kəndindən keçirdi və həmin kənddə xalamgil yaşayırdı ki, biz o kənddən keçərkən çox vaxt Züleyxa xalanın halını soruşmaq üçün, onların yolun kənarında olan evlərinə dönər, bir növ borcumuzu yerinə yetirərdik. Bu dəfə də belə oldu və mən Züleyxa xalamla görüşəndə qızlardan biri dedi ki, dayı oğlu, səndən bir on-on beş dəqiqə qabaq iki nəfər Şəmşir dayını soruşub sizin kəndə getdilər!

Mən tez Çərəkdar kəndinin üstü ilə bizim kəndə gedən dik yolu əlimə alıb tərpəndim. Aşırım adlı yerə çatanda, qalın meşədən keçən aşırım yolunun yanında iki nəfərin oturuşub dincəldiklərini gördüm. Salamdan sonra tanış olduq. Biri ucaboylu, ikincisi isə xırda boylu yup-yumru, qara saçları, kəsmə burnu, cəlbedici görkəmi, şirin və rəvan danışığı olan bir oğlan idi. O birisi oğlan dinənə qədər, həmin bu şirindil oğlan kimdir, nəçidir, Ağdaban kəndinə nə üçün pay-piyada gedir, onu bu kəndə çəkib gətirən məqsəd nədən ibarətdir-döşədi!

Biz əvvəl tanış olduq. Hiss edirdim ki, bu təsadüfi görüş Sədnik müəllimi hədsiz dərəcədə məmnun etmişdir! Dədənin yanına

gəldik və sonrakı əhvalatları çözələmək fikrində də deyiləm. Yəni Sədnik Paşayevlə tanışlıq-dostluq belə başladı. Şükürlər olsun ki, bu dostluq-tanışlıq zamanın sınaqlarından cəsarətlə keçib bu gün də davam edir!

Uşaq vaxtı quzuya gedərdik və ərini müharibədə itirmiş Mədinə nənə də bizimlə bərabər quzularını otarmağa gedər, bizə ağ-birçək kimi rəhbərlik edərdi. O zaman kibrit tapılmırdı və biz meşədə soyuqlu günlərdə ocaq qalamaq üçün ağac qovundan və çax-maq daşından istifadə edərdik. Mədinə nənə özü kamil çaxmaq vuran idi. O, kiçik bir qovu çaxmaqla yandırıb, ətrafına quru xəzəl, çör-çöp yığıb təpə kimi düzəldər və bizə toxun-mamağı əmr edərdi. Biz dəcəllik edib: «Ay Mədinə nənə, o çör-çöpü bizə yığdırırsan ki, ocaq olacaq?» – deyəndə, nənə; «Ay uşaqlar, siz darıxmayın, görün o çör-çöpdən nə ocaq olacaq.» Bir xeyli keçmiş tüstü çıxar və qəflətən ocaq elə alovlanardı ki, biz heyrət çəkərdik. Bax Sədnik də ocağı belə zəhmətlə qaladı və bu gündə, ocağın hərarəti çox adamların əllərini isidir. Sədnik müəllimin işləri ilə əlaqədar bir gün söhbət olanda dədəm dedi ki, ay bala, bu oğlanın

xırda boylu olmasına baxmayın, o əvəzsiz zəhmət adamıdır və o çox şeylərə nail olacaqdır!

Yeri gəlmişkən yadımda olmuş və artıq tarixə çevrilmiş bir əhvalat da düşür:

– Çin kommunistlərinin rəhbəri Mao hansısa bir istirahət yerində istirahət edirmiş, xarici ölkələrdən onun qonaqları gəlir və qonaqlar görür ki, bap-balaca, çevik bir oğlan od kimi Maonun bütün tapşırıqlarını yerinə yetirir, qulluq göstərir, hər şeyə müdaxilə edir. Qonaqlardan biri soruşur ki, yoldaş Mao, axı bu balacaboy oğlan kimdir belə , elə bil bu matorla işləyir. Maotsze dun cavab verir ki, onun boyunun belə xırda olmasına baxmayın, onun sinəsində elə ürək çırpınır ki, əlinə fürsət düşsə bütün Çini ovcunda saxlayacaq.

Doğurdan da belə oldu. Çin dövlətinin böhranlı günlərində həmin balacaboy Den Sio-pin hakimiyyətə gəldi. Çin dövlətini dünyanın aparıcı dövlətləri sırasına gətirdi!

Bəli, belədir! Sədnik də öz balaca boyu ilə dönməz iradəsi-dözümü ilə Azərbaycan folkloru üçün böyük zəhmət çəkdi. Bir çox hallarda üstünü toz-torpaq basmış xəzinənin xeyli hissəsinin cilalanıb, parıldamasını

təmin etdi və hazırda da yorulub-usanmadan bu işi davam etdirməkdə fədakarlıq göstərir!

Məni qınamayın desəm ki alim, filoloq, elmlər doktoru tanıyıram divani ilə müxəmməsi biri-birindən seçə bilmir.

Sədnik dərin yuxuda olsa, onun yanında oxunan şerin növünü əzbər deyər. Təki sən ondan sorğu elə. O, əfsanəni həqiqətə, həqiqəti əfsanəyə çevirməyi bacarır.

Mən onu hey vurnuxan, axtaran, bir yerdə qərar tutmayacaq bal arısı kimi, çiçəkdən-çiçəyə, güldən-gülə qonan görmüşəm.

Qurban babanın bir naqis-nadanın qanmazlığı və qorxaqlığı ucundan torpağa basdırılaraq əfriyib getmiş əl yazmalarından qalan iki ümumi dəftəri dədəynən birgə vərəqləyən Sədnik, tərpədəndə qopub yerə düşən parçaları tez, ehmalca əlinə götürər və dədəyə – «Şəmşir əmi, görün bu hansı vərəqdən qopdu düşdü» deyə yazıların bərpasına canfəşanlıq etdiyi, bu gün də gözlərimin qabağındadır. Buna bənzər çalışqanlıqlar, Sədnik vərəqləri qaydaya salar, dədə isə oxuyar, Sədnikə diqtə edərdi.

Yaradıcı adam nə qədər istedadlı olsa da, heç bir əsər zəhmətsiz, əziyyətsiz yarana bilməz. Yaradıcı adamlar oturmağı və əziy-

yətə dözməyi bacarmalıdır. Dözüm də bir vergidir! Onu da Allah verir! Dözməyi bacarmaq üçün iradə lazımdır. Bu iradə Sədnik lələmdə boldur.

Sədnikin o xüsusiyyəti mənə çox xoş gəlir ki, ona nadanlar tərəfindən edilən hücumlara da, çox dözüm və təmkinlə cavab verib, necə deyərlər, «it hürər, karvan keçər» atalar kəlamını həmişə yaddaşında saxlayıb.

Səmimiyyətlə deyirəm. Sədnikin dözümü və iradəsi məni heyrətləndirir. Yuxarıda qeyd etdiyim kimi, mən bu hər çiçəkdən bir nektar yığıb gözəl təam yaradan bal arısına müvəffəqiyyət və yeni-yeni yaradıcılıq zirvələri fəth edərək, hələ çoxlarının deyə bilmədiyi sözlərlə folklorumuzun yenilməz bayrağını həmişə yüksəklərdə saxlamağı arzu edirəm.

*QƏMBƏR ŞƏMŞİROĞLU,*
***Göygöl rayonu, Aşıqlı kəndi.***

## *ŞAİR-PUBLİSİSTİN SƏMİMİ ÜRƏK SÖZLƏRİ*

Böyük alim kimi özünü çoxdan təsdiq etmiş Sədnik Paşa Pirsultanlının xüsusi təqdimata ehtiyacı yoxdur. Ədəbiyyatın, xüsusilə şifahi xalq ədəbiyyatının vurğunları bu böyük alimi yaxşı tanıyırlar. 50 ildən artıqdır ki, ədəbiyyatımızın zənginliyini təqdim etməkdə, araşdırılmasına ehtiyac olan məqamların aydınlaşdırılmasında, söz sənəti və saz ustaları, azman sənətkarlar – Dədə aşıqlar haqqında istər dövrü mətbuatda, istərsə də dolğun monoqrafiyalar yazmaqda zəkasının qüdrətini, sözünün kəsərini göstərməkdə elm nəhəngləri ilə bir sırada duran Sədnik müəllim "Aşıq Şəmşirin poetik aləminə səyahət" əsəri ilə aşıq sənətinə vurğunluğunu bir daha qabarıq şəkildə gös-tərmişdir.

Sədnik müəllim təkcə nəzəriyyəçi yox, həm də yaradıcı, ədəbiyyata ədəbiyyat gətirən ədəbiyyatçıdır. Respublikamızın elə bir bölgəsi, elə bir kəndi ola bilməz ki, bu ədəbiyyat və elm cəfakeşinin ayağı dəyməmiş ola. Böyük şövq və məftunluqla topladığı folklor incilərini eyni məmnunluqla xalqa təqdim etdikcə, öz vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirdiyinə görə həm Sədnik müəllim, həm də onu sevənlər

böyük qürur hissi keçirirlər.

İndiyə qədər çox böyük zəhmətlə xalq yaddaşından toplanan ədəbiyyat nümunələri hesabına bu böyük elm və sənət fədaisi şifahi xalq ədəbiyyatı xəzinəmizi daha da zənginləşdirmiş, qiymətli sənət incilərinin it-batına, gücü çatdığı qədər, imkan verməmişdir. Xalq arasında baməzəliyi, hazırcavablığı ilə tanınan insanların geniş oxucu kütləsi tərəfindən tanınması, onların söz boxçalarının cəmiyyət qarşısında açılması və hamının bəhrələnməsi istiqamətində professor Sədnik Paşa Pirsultanlı misilsiz xidmətlər göstərmişdir.

Mübahisəsiz qeyd etmək lazımdır ki, sinəsi sazlı, dodağı sözlü, ürəyi közlü elə bir aşıq-şair ola bilməz ki, hörmətli professor Sədnik müəllim onunla üz-üzə oturub, sazdan-sözdən söhbət açmamış olsun.

Əziz oxucular!

Bu gün sizlərə təqdim olunan "Aşıq Şəmşirin poetik aləminə səyahət" kitabında XX əsr Azərbaycan aşıq poeziyasının azmanlarından olan Aşıq Şəmşirin nəsil səcərəsi, Miskin Abdaldan üzü bəri hiss və duyğularını poetik dildə ifadə edən Aşıq Şəmşir ocağının hər bir nüməyəndəsi haqda müfəssəl məlumat verilmişdir. Burada Aşıq Şəmşir oxuculara bir neçə aspektdən təqdim olunur, sözün müsbət mənasında, həmkarlarından fərqli ampulada

özünü göstərir. Sözün müqəddəsliyini qiymətləndirib, ona ehtiyatla yanaşmaqda, həssaslıq və qayğıkeşlikdə, sözünün bütövlüyündə və sədaqətdə, öz qiymətini bilib başqasını qiymətləndirməkdə Aşıq Şəmşir meyarı idealdır.

"Aşıq Şəmşirin poetik aləminə səyahət" əsəri dörd bölümdən ibarətdir.

1. Şəmşir və dağlar
2. Aşıq Şəmşirlə Xalq şairi S.Vurğunun görüşü
3. Aşıq Şəmşirin sələfləri və xələfləri
4. Aşıq Şəmşirin poetik aləminə səyahət

Bu bölümlər hörmətli professor Sədnik Paşa Pirsultanlının qələmindən o qədər kamil çıxmışdır ki, oxucu özünü bölümlərdəki hadisələrin iştirakçıları sırasında görür.

"Aşıq Şəmşir və dağlar " bölümündə müəllif təkcə Aşıq Şəmşirin dağlara həsr etdiyi şeirlərdən söhbət açmır. Saz-söz qoşalaşandan "qüdrətdən səngərli, qalalı" dağların vəsf edildiyini, klassik aşıqlarımızın sevimli mövzusu olduğunu, dağların insanları hər cür nemət, təmiz hava və su ilə təmin etdiyini, onlara ata-ana qayğısı göstərdiklərindən aşıqlar da "atamdı-anamdı dağlar" deməsindən geniş söhbət açır. Murovun, Kəpəzin, Qoşqarın... hərəsini nurani-pirani bir el ağsaqqalına, əyilməz xalq qəhrəmanına bənzədir. Sədnik müəllim dağların fauna

və florasından elə məftunluqla söhbət açır ki, nərgizin, bənövşənin rayihəsini duyur, əliklərin, maralların, cüyürlərin mələşmələrini eşidirsən.

Bu da təsadüfi deyil. Əvvəla müəllifin doğulub boya-başa çatdığı coğrafi məkan öz füsunkarlığı ilə ona zəngin duyum vermişdir. İkinci tərəfdən də Aşıq Şəmşir kimi kamil bir söz ustasının on illərlə dinşəyində durub, sənətini tədqiq edən alim məhz bu cür əsər yazar.

İndi dillər əzbəri olan görüş – Aşıq Şəmşirlə Səməd Vurğunun görüşü təkcə təqdim olunmayıb. Sədnik müəllim bu görüşün hansı ehtiyacdan doğduğunu da izah edib. Bununla da həm böyük şairin, həm də böyük aşığın sadəliyi, sənətə və sənətkara vurğunluğu qarşısında oxucunun ehtiramla baş əyməsinə nail olmuşdur. Həm aşığa, həm də şairə olan xalq sevgisini, el məhəbbətini Sədnik müəllim ürəyinin hərarətinə bələyib oxucusuna təqdim edir.

Aşıq Şəmşir müqəddəs bir sənət ocağının layiqli davamçısı kimi bu sənətin özündən əvvəlki daşıyıcılarını ehtiramla yad edir, onlardan öyrənir, onların sənət estafetini ləyaqətlə davam etdirməyi özünə borc bilir. Dirili Qurbani, Miskin Abdal, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Valeh, Aşıq Alı, Aşıq Ələsgər kimi böyük sənətkarların əmanəti olan saz-söz sənətinin daha da qüdrətlənməsi naminə əlindən

gələni əsirgəmir.

Onunla eyni dövrdə yaşamış sənətkarlara Aşıq Şəmşirin müsbət təsiri əsərin müvafiq bölümündə özünü aydın göstərir. Təkcə Kəlbəcər şairləri deyil, Azərbaycanın ən müxtəlif bölgələrindəki saz tutub, söz qoşanlarla yaradıcılıq əlaqələri yaratmış, Sarı Aşıq hikməti, Qaracaoğlan qüdrəti, Xəstə Qasım xislətinin daha da inkişafı üçün çox böyük işlər görmüşdür.

Aşıq Şəmşir özündən əvvəlki nəslə necə qiymət verirsə, özündən sonrakı nəslə də eyni qayğı ilə yanaşır, bu nəslin kamilləşməsi yolunda heç nəyini əsirgəmir.

Sevindirici haldır ki, kökü Miskin Abdal, gövdəsi Ağdabanlı Qurban, budağı aşıq Şəmşir olan nəhəng sənət ağacında gözəl görünüşü, bihuşedici rayihəsi və misilsiz dadı olan meyvələr yetişir, sayı artıb-çoxalır.

Əsərin IV bölümü bütövlükdə Aşıq Şəmşirin poeziyasına, bu poetik aləmə səyahətə həsr olunmuşdur. Burada sənətkarın obrazlı ifadələrindən, bədii təsvir və ifadə vasitələrindən, orijinal deyim tərzindən, xalq deyimləri və atalar sözlərinin poeziyada istifadə üsullarından, haqqa bağlılıqdan, mənəvi saflıqdan, bütövlükdən geniş söhbət açılır.

Elə bunun nəticəsidir ki, Aşıq Şəmşirin həm sağlığında, həm də ölümündən sonra ona yüz-

lərlə şeir ithaf olunmuş, haqqında rəvayətlər yaranmışdır.

Özüm şahidi olduğum bir hadisəni sizlərə təqdim edirəm.

Bakıda A.M.Şərifzadə adına "Aktyorlar evi"ndə Aşıq Şəmşirin 80 illik yubileyi keçirilirdi. Xoşbəxtəm ki, həmin təntənəli mərasimdə mən də iştirak edirdim. Bu böyük aşığı, adını eşitdiyim böyük elm və sənət adamlarını gördüm, gözəl ifalar və nitqlər eşitdim.

Məclisin ən maraqlı məqamlarında salonda əyləşmiş tamaşaçılardan biri uca səslə dedi:

– Aşıq, zəhmət olmasın, bir o papağını başından götür.

Aşıq Şəmşir ehtiramla ayağa durub papağını götürdü. Bir anlıq məclisə sükut çökdü. Hamı heyrətindən donub qalmışdı. 80 yaşlı kişinin gicgahlarının tükü ağarsa da, başında bir dənə ağ tük yox idi.

Salonda yenə həmin səs eşidildi:

– Aşıq, saçların niyə ağarmayıb?

Aşıq Şəmşir fikirləşmədən dedi:

– Papağım həmişə başımda olduğundan, saçlarım pis üzləri görməmiş, onun üçün. Salonu gurultulu bir alqış bürüdü. O gurultulu və sürəkli alqış səsləri hələ də qulaqlarımdadır.

Sədnik müəllim yazılı və şifahi ədəbiyyatların qovuşmasında Miskin Abdal və Şah

İsmayıl Xətai (XVI əsr) və Aşıq Şəmşirlə Səməd Vurğun cütlüyünü təsadüfi vermir. Ədəbiyyatlar qovuşanda daha möhtəşəm olur. Sədnik Paşa Məmməd Arazın Kəlbəcərə gəlişini qələmə almaqla, bunu bir daha təsdiqlədi.

Sədnik müəllimin tədqiqatları davam edir. Heç şübhə etmirik ki, bu böyük alim özünün yeni-yeni tədqiqat əsərləri, folklor toplamaları, bədii nümunələri və təqdimatları ilə hamımızı sevindirəcəkdir.

***Əbülfət İslam,***
***Şair, Azərbaycan Yazıçılar Birliyinin üzvü***

## *AŞIQ ŞƏMŞİR PƏRƏSTİŞKARLARININ ARZUSU*

Nurəddin Hüseynovun Aşıq Şəmşirin, Bəhmən Vətənoğlunun və Zəlimxan Yaqubun pərəstişkarı olduğunu çoxdan bilirdim. O, tez-tez mənə müraciət edib bu üç sənətkardan yazılar yazmağımı xahiş edir və hər bir yazını özünün baş redaktoru olduğu “İnsan və zaman” qəzetinin səhifələrində çap etdirirdi. Özü də tez-tez zəng edib deyirdi. – Siz bilirsiniz ki, bu şairləri xalq çox sevir. Sizin yazılarınızı qiymətləndirirlər. Mənə razılıq məktubları yazırlar.

Nəhayət mənə bildirdi ki, Aşıq Şəmşir pərəstişkarları Aşıq Şəmşir haqqında sanballı bir əsər gözləyirlər. Elə bir əsər ki, Aşıq Şəmşirdən bəhs etməklə yanaşı, Bəhmən Vətənoğlunun, Zəlimxan Yaqubun və digər xələflərinin, yəni ardıcıllarının əlaqəsi burada duyulsun. Mən bildirdim ki, Aşıq Şəmşirin əzəl sələflərindən, sonra müasirlərindən və xələflərindən söz açmaq olar.

Böyük alman yazıçısı Gete yazırdı ki, “Faust” əsərini altmış il beynimdə legendar pələng kimi (əfsanəvi pələng kimi) əmizdirdim. Bundan sonra əsəri yazıya aldım. Mən də Aşıq Şəmşiri 1961-ci ildən bəri, yəni 50 ilə yaxın

zaman içərisində xəyalımda, ürəyimdə və beynimdə yaşatdım.

Nurəddin Çeşməlinin Şəmşir haqqında əsər yazmaq arzusunu eşitdikdə varlığımda intibah oyandı. İllər kino lenti kimi gözümün önündən keçdi. Bir sal qayanın arxasında bir bulaq qalıb, qaynayıb coşursa, təlatümə gəlirsə elə bil qayanı parçalayıb üzə çıxacaqdır. Şəmşir haqqında kitab yazmaq arzuları mənim ürəyimdən oldu. Şəmşir bulağı da beləcə üzə çıxdı, çəmənliklərdən, çiçəkliklərdən keçib təşnə ürəklərə sərinlik gətirdi. Ürəyimi riqqətə gətirdi, qələmimə yeni qüvvət gəldi. Bu yerdə yadıma düşdü ki, Azərbaycan aşıq poeiyazında üç böyük sənətkara tarix boyu şeirlər ithaf olunmuşdur. Onun birincisi Dədə Kərəmdir. Fikrimizi əyanilәşdirmək üçün şair Bəhmən Vətənoğlunun Kərəm haqqında yazdığı şeirdən iki bəndini nümunə gətirmək kifayətdir.

*Sənin ahın da xoş, amanın da xoş,*
*Dağla sinəmizi, dağla, "Kərəmi".*
*Ziyadxan oğlunun nakam eşqinə,*
*Yaman ağlayırsan, ağla "Kərəmi",*
*Dağla sinəmizi, dağla, "Kərəmi".*

*Canandan ayrılıb, can Əsli getdi,*
*Köçdü Qaraməlik, Xan Əsli getdi,*

*Yan, ay yazıq Kərəm, yan Əsli getdi.*
*Bağla yaramızı, bağla, "Kərəmi",*
*Dağla sinəmizi, dağla, "Kərəmi".*

İkinci çoxlu şeir ithaf olunan Yəhya bəy Dilqəmdir. Təbriz aşığı Rəhim Nəzəri öz qoşmasında deyir:

*Bir ahəngdi Yəhya bəydən yadigar,*
*Dərdin-qəmin qardaşıdı "Dilqəmi".*
*Saf sevgidən, məhəbbətdən söz açar,*
*Deməк olmaz, göz yaşıdı "Dilqəmi".*

Üçüncü haqqında daha çox yazılan, şeirlər ithaf olunan Aşıq Şəmşirdir. Yazılan şeirlər içərisindən bircəsini nümunə versək bütün şeirlərin mənzərəsi görünər. Aşıq Şəmşirin ölümü münasibətilə şair Bəhmən Vətənoğlunun dilə gətirdiyi sözlər Aşıq Şəmşirlə bərabər dağları, gülləri, bülbülləri göz önünə gətirir. Bəhmənin sinəsindən bu sözlər qopur.

*Uçdu əlimizdən getdi quş kimi,*
*Kəpəzin, Murovun bülbülü Şəmşir.*
*Dünən deyib-gülən pirani qoca,*
*Bugünsə torpağın bir gülü Şəmşir.*

*Büründü çiçəyə, büründü gülə,*
*Belə ölüm görməmişdim mən hələ,*

*Təkcə bizi ağlatmadı,  ay lələ,*
*Ağlatdı Murovu, Məndili Şəmşir.*

Aşıq Şəmşirin pərəstişkarı istedadlı şair Məmməd Aslan Aşıq Şəmşirin ölümünə yazdığı şeirlə qəlbimizi göyüm-göyüm göynədir. Həmin gün göz yaşından leysan yarandığını dilə gətirir. Onun şeiri varlığımıza hakim kəsilir. Həmin qoşmadan iki bəndini nümunə veririk:

*Bu qədər göz yaşı, bu qədər leysan,*
*Çeşmələr duruymuş, ay Dədə Şəmşir.*
*Yerdənmi, göydənmi  yağdı bu insan,*
*İsrafil suruymuş,  ay Dədə Şəmşir.*

*Allahın özü də  gəlsəydi yasa,*
*Çətin Güllü nənə səbrini  basa,*
*İnsanlar bu qədər yaş axıdıbsa,*
*Dənizlər quruymuş,  ay Dədə Şəmşir.*


Şəkildə S.P.Pirsultanlı, qaqauz şairi Koroğlu və şair Məmməd Aslan

Mən yuxarıda qeyd etdim ki, Aşıq Şəmşirin pərəstişkarlarıyla Nurəddin Hüseynovu müqayisə etmək çətindir. O, ürək sözünü belə ifadə edir: "Mənim mənsub olduğum Tovuz bölgəsini folklorşünaslar aşıq sənətinin beşiyi, paytaxtı hesab edirlər. Mənim doğulub boya-başa çatdığım Çeşməli kəndi XIX əsrdə Güvəndikli Əhməd kimi tarixdə məşhur olan bir şair-aşıq yetişdirmişdir. Onun "Güvəndikli Əhməd və Yamən xanım" adlı dastanı vardır. O, Yəhya bəy Dilqəmin müasiri və ən yaxın dostu olmuşdur. Çeşməlinin Unnu Ağca və Dabravol Qasım kimi lətifə yaradıcıları vardır.

Eyni zamanda çox aşıqlar tarix boyu bu kəndə məclislərə, toylara gəlmiş və şənliklər keçirmişlər. Lakin etiraf etməliyəm ki, Aşıq Şəmşir kimi xalq arasında sözləri və şöhrəti belə geniş yayılan, ürəklərdə özünə yurd-yuva salan sənətkar görməmişəm. Aşıq Şəmşir mənə görə aşıq sənətinin tacıdır".

O, bildirdi ki, Aşıq Şəmşirin pərəstişkarları sənətkar haqqında əsəri tez görmək istəyirlər. Mən bildirdim ki, Şəmşirin pərəstişkarı yüz deyil, min deyil. Konkret olaraq bildir görüm Aşıq Şəmşirin hansı pərəstişkarlarıdır ki, onun əsərinin tez ərsəyə gəlməsini arzulayır.

O dedi:

- Nurəddin Hüseynov və Nizami Çıraqov.



***Nürəddin Hüseynov – Çeşməli***

Ya Allah, ya Məhəmməd, Ya Əli - deyib işə başladım. Hər kəsin sevəcəyi “Aşıq Şəmşirin poetik aləminə səyahət” əsərini tamamladım Sentyabrın 4-də nöqtə qoydum. Əsərin hamının xoşuna gələcəyinə və könlünə güzgü tutacağına qabaqcadan əminəm.

***MÜƏLLİF***

# MÜNDƏRİCAT


***Sənətkar sözü – alim gözü***
***Aşıq Şəmşir və Sədnik Paşa Pirsultanlı ........*** **4**

***Giriş ..........................................................*** **29**

***I BÖLÜM***
***Aşıq Şəmşir və dağlar .....................................*** **47**

***II BÖLÜM***
***Aşıq Şəmşir və Səməd Vurğun .......................*** **89**

***III BÖLÜM***
***Aşıq Şəmşirin sələfləri və xələfləri ...............*** **137**

***IV BÖLÜM***
***Aşıq Şəmşirin poetik aləminə səyahət ..........*** **209**

***SONUÇ ...........................................................*** **268**

***TARİXİ NAXIŞLAR:*** **276**
***GÖZƏL XATİRƏLƏR VƏ YADİGAR SÖZLƏR***
***Qurban-Şəmşir ocağı və Sədnik Paşa ...........***

***Şair-publisistin səmimi ürək sözləri .............*** **282**

***Aşıq Şəmşir pərəstişkarlarının arzusu ........*** **289**



Professor Sədnik Paşa Pirsultanlı 54 ildir ki, folklorumuzun toplanması, nəşri və tədqiqi ilə məşğuldur. Onun 52 kitabı və yüzlərlə elmi məqaləsi vardır. 1970-ci ildə "Ağdabanlı Qurban və müasirləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1990-cı ildə "Azərbaycan xalq əfsanələri və onun tədqiqi problemləri" mövzusunda doktorluq işi müdafiə edib, filologiya elmləri doktoru adını almışdır.

40 ildir ki, Gəncə Dövlət Universitetinin müəllim-professorudur. Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvüdür. Gəncliyində "Yeni Daşkəsən", "Mübariz" və "Yenilik" qəzetlərinin redaktoru olmuşdur.

Respublikanın Əməkdar Mədəniyyət və Qabaqcıl Təhsil işçisi, eyni zamanda Əməkdar müəllimdir. 25 il Gəncəbasar Aşıqlar Birliyinin sədri vəzifəsində işləmişdir. Hazırda onun yazıları davamlı olaraq Amerika, Almaniya, Hollandiya, Qazaxıstan, Türkmənistan, Avstriya, İran və Türkiyədə elmi məcmuə, qəzet və jurnallarda nəşr olunur. Azərbaycan xalq əfsanələri və əsatirlərini küll halında ilk dəfə toplayıb nəşr etdirən eyni zamanda tədqiq edən alimdir. Türkiyədə çıxan "Dədə Qorqud" ensiklopediyasının hər iki cildində və Moskvanın nəşr etdiyi "Yejeqodnik"də (Velikaya Sovetskaya Ensiklopediya) təmsil olunan alimimizdir. 2005-ci ildə "Aztelefilm" yaradıcılıq birliyi dövlət sifarişi ilə haqqında "Pirsultanlı" adlı sənədli televiziya filmi çəkmişdir. Ankara və Bakıda keçirilən Uluslararası "İpək yolu xalq ədəbiyyatı", "Hacı Vəli Bektaşi" törənləri və "Ortaq türk keçmişindən, ortaq türk gələcəyinə" həsr olunmuş Folklor simpoziumlarının məruzəçisidir. ABŞ-ın Winsconsin Universitetində şəxsi adı ilə bağlı Türk xalqları folkloruna dair 3000 nüsxə kitabdan ibarət kitabxana təşkil olunmuşdur.

6 övladı, 12 nəvəsi var, 1 nəticəsi var.